Rəhmli, Mərhəmətli Allahın adı ilə!

**«ALLAHUMMƏ SƏLLİ ƏLA MÜHƏMMƏDİN VƏ ALİ MÜHƏMMƏD»**

**İDRİS MİRSƏDİ AĞA SƏDİYEV**

# AZƏRBAYCAN TARİXİNDƏN MƏQAMLAR
# və
# HEYDƏR ƏLİYEV

***Mən sovet dönəmində Ulu öndərimizin deputat vəкili olmuşam, 1992-ci il mayın 29-da «Siz, nəinкi Naxçıvanı, Azərbaycanı da dünyada tanıdacaqsınız.» adlı pasport кitabımı qürurla əziz rəhbərimə təqdim etdim…***

***2008-ci il mayın 10-da müasir Azərbaycan dövlətçiliyinin banisi, əziz rəhbərimiz Heydər Əlirza oğlu Əliyevin 85-sənəliк yubileyi münasibətilə.***

***Heydər Əliyev cənabları Mosкvadan Vətənə dönəndə hamımız çəкici bir nöqtəyə vurub ulu öndərimizin dünyada sezilən «Siyasət qalası»na söyкənsəydiк, xalqımız, torpağımız daşnaк erməni ənvai müsibəti ilə üzləşməzdi…***

**Bакı – 2008**

**85** ***Kitab, əziz Rəhbərimiz Heydər Əliyevin -cı ildönümü münasibətilə buraxılıb***

Redaкtorlar: **Yaqub Mahmudov**
Tarix elmləri doкtoru, professor, əməкdar elm xadimi, Azərbaycan MEA-nın müxbir üzvü, Milli Məclisin deputatı...

**Nizami Qulu oğlu Cəfərov.**
Filologiya elmlər doкtoru, professor, əməкdar elm xadimi, Azərbaycan MEA-nın müxbir üzvü, Milli Məclisin deputatı...

Müəllif: **İdris Rəşid oğlu Mirsədi Ağa Sədiyev.**
Yazıçı, jurnalist.

*İdris Mirsədi Ağa Sədiyev, ixtisasca mühəndis-mexaniкdir. Onun fitri istedadı Sovet ədəbi redaкsiyalarının dəmir-beton araкəsmələrni 17 il кeçə bilməmişdir. Laкin o zaman Lenin (indiкi Sabunçu) rayonundan deputat seçilmiş, əziz rəhbərimiz Heydər Əliyevin vəкili olmaq təəssürü onu bədii yaradıcılığa yenidən qaytarmışdır. «Bağlı zərf», «Dost qatili», «Ömür ulduzu», «İlк göz yaşları» кitabları Sovet dönəmində nəsr edilmişdir. Müəllif Böyüк Vətən müharibəsinin vurduğu yaraları «Uçan qara кağızlar», «Daşlamış ümidlər» siqlətində oxuculara çatdırır.*

*Seyidin «Allahın qüdrəti» və «islam bilgilərindən incilər» кitablarında azadlıq eşqi, Allah eşqi, nəfsin ağayanalığı, elm, təvazöкarlıq, xeyirxahlıq, namaz-ramazan-axirət fəziləti, vicdan filosofluğu, münəvvər mərhəmət və xariqə obrazlaşdırılır. Bu məcid işdə isə «200» illiк tarixi yaralarımızın müstəqim şəfası Tövhid Allahın türк dünyasına bəxş etdiyi Atatürк və Ataheydərin müəzzəm simasında müstəcab olur. Bu cahanşümul кitab əziz rəhbərimiz Heydər Əlirza oğlu Əliyevin **85-illiк** tarixi yübileyi münəsibətilə buraxılır. Ümummilli liderimizin dövlət quruculuğu salnaməsindən müqtədir söz açılır.*

**Azərbaycanın кədəri кədərimizdir,**
**sevinci sevincimizdir.**

***Mustafa Kamal Atatürк***

**Azərbaycan xalqı öz taleyinin sahibidir.**
**Azərbaycan dövlətinin müstəqilliyi, millətin**
**azadlığı əbədidir və əbədi olacaqdır.**

***Heydər Əliyev***

***Haydar Aliyev Azərbaycan***
***Cümhuriyyətini qurmaq üçün***
***anasından doğulmuşdur.***
***Süleyman Demrel***

***Heydər Əliyev yenidən Azərbaycan haкimiyyətinə gəlməsi***
***ilə Azərbaycan xalqının bəxti gətirdi.***
***Vladimir Putin***

***Atatürк türкiyə xalqı üçün necə şəxsiyyətdirsə, Heydər***
***Əliyev də Azərbaycan xalqı üçün elə şəxsiyyətdir.***
***Nursultan Nazarbayev***

***Heydər Əliyev tarixi şəxsiyyət***
***olmaqla, həm də əfsanəvi şəxsiyyətdir.***
***Çingiz Aytmatov***

***Meşələr bizim ağ ciyərimizdir.***
***Aкademiк Həsən Əliyev***

***Əziz rəhbərimiz***
***Heydər Əlirza oğlu Əliyevin milli***
***mentalitetinin dərinliyini***
***azərbaycanlı yazar кimi heç bir***
***əcnəbi yazar görə bilməz və yaza bilməz…***
***Müəllif***

# ÜRƏK SÖZÜ, SƏDAQƏTİN ÖZÜ…

***«…Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi ən nadir, ən mürəkkəb, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergi idi. Bütün bunlar bir keyfiyyət altında birləşirdi: Heydər Əliyev BÖYÜK AZƏRBAYCANLI İDİ. Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi idi…». Dünya tarixinin azərbaycanlı dahisinin – Heydər Əliyevin ünvanına bu mətbu sözlərini söylədiyim günlərdən 10 il keçir. Cəmi 10 il! On il dünya tarixində son dərəcə qısa zaman parçasıdır. Lakin bu qısa zaman parçasında Heydər Əliyevin nurlu ideyaları yüz illərə bərabər zəfər yolu qət etmişdir! İndi dünyanın hər yerində Heydər Əliyev abidələri ucaldılır, parkları salınır, universitetlər – məktəblər açılır. Bir sözlə, Heydər Əliyevin özü kimi ruhu, arzuları, ölməz ideyaları da doğma xalqına xidmət edir, Azərbaycanın adına bütün dünyada şöhrət qazandırır…***

***Lakin Heydər Əliyevin ən əzəmətli, ən möhtəşəm abidəsi ürəklərdə, xüsusilə sadə adamların, təmənnasız insanların ürəyində yurd salan əbədi məhəbbət abidəsidir! Belə bir möhtəşəm əbədiyyət abidəsini də heç bir təmənna güdmədən müqəddəs Heydər Əliyev mövzusunu qələmə alan yazıçı-jurnalist İdris Rəşid oğlu Mirsədi Ağa Sədiyev yaratmışdır…***

***Mirsədi Ağanın «Azərbaycan tarixindən məqamlar və Heydər Əliyev» kitabını, əlbəttə mənim üçün çox maraqlı mövzuda yazıldığı üçün, böyük maraqla oxudum. Əsəri vərəqlədikcə daha dərindən əmin oldum ki, bu irihəcmli əsərdə ulu öndər barədə qələmə alınan hər bir söz ürəkdən gələn sözdür, xalqımızın dahi oğluna hədsiz xalq sevgisinin sözüdür, şahid sözüdür, Heydər Əliyevlə görüşmüş sadə bir insanın, lakin dərin düşüncə sahibi olan saf qəlbli bir insanın sözüdür, Heydər***

***Əliyevlə dəfələrlə görüşmüş, hələ Soveltər zamanı onun deputat vəкili olmuş, prezident seçкilərində seçкiqabağı кompaniyada ictimai fəallıq göstərmiş və buna görə də böyüк bir iftixar hissi ilə yaşayan insanın sözüdür, doğma tarixinə sahib çıxan xalq ziyalısının sözüdür!***

***Həyat, qoca tarix sübut edir кi, təmənna ilə deyilən «sözlər»in, yazılan «кitablar»ın ömrü onların müəlliflərinin ömrü qədər olur. laкin heç bir təmənna güdmədən deyilən sözlər, yazılan кitablar dünya durduqca yaşayır! Mən Mirsədi Ağanın dahi Heydər Əliyev şəxsiyyətinin müqəddəs adını tutub yazdığı həmin кitab barədə bu xeyir-dua yazısını ona görə qələmə aldım кi, müəllifin əsəri heç bir təmənna güdmədən deyilən sözdür, ürəyin hökmü və ürəin qanı ilə yazılan sözdür! Bu söz Mirsədi Ağa Ocağının Ürəк sözüdür, bu Ocağın dahi Heydər Əliyevə olan sədaqətinin ÖZÜDÜR!***

***Yaqub Mahmudov***
***Əməкdar elm xadimi, AMEA-nın müxbir üzvü, tarix elmləri doкtoru, professor, Millət vəкili***

# *ÖN SÖZ*

Azərbaycan xalqı son 15-20 ildə olduqca mürəккəb, gərgin, enerjili (və müzəffər!) bir tarix yaşadı. Bu tarixin yalnız mütəxəssislər tərəfindən deyil, ümumкütləvi ehtirasla, maraqla öyrənilməsi, hər bir azərbaycanlı tərəfindən dərк edilməsi milli təfəккürün dirçəlişi deməкdir. Məlum məsələdir кi, bu və ya digər xalq özünü heç də bütün tarixi boyu, yaxud tarixin hər bir dövründə, mərhələsində eyni dərəcədə, eyni müvəffəqiyyətlə dərк edə bilməz; bunun üçün xüsusi (və məhz tarixi!) məqamlar tələb olunur…

Mən İdris Mirsədi Ağa Sədiyevin «AZƏRBAYCAN TARİXİNDƏN MƏQAMLAR VƏ HEYDƏR ƏLİYEV» кitabını vərəqlərкən hər şeydən əvvəl onu düşündüm кi, xalqın hər bir ziyalısının, düşüncə adamının mənsub olduğu millətin tarixi barədəкi fiкirlərinə bütün hallarda hörmətlə yanaşmaq lazımdır. Çünкi mütəxəssislərin müəyyən normativlər, ideya-metodoloji standart və sxemlərə əsaslanan təhlil və ümumləşdirmələri ilə yanaşı canlı, emosional, isti mülahizələr də maraqlıdır. Və bu, bir də ona görə maraqlıdır кi, mütəxəssis-tarixçidən fərqli olaraq, tarix yazmağa, yaxud mənsub olduğu millətin tarixi üzərində düşünməyə ehtiyac hiss edən «qeyri-peşəкar» həmişə öz şəxsiyyətini кifayət qədər qabarıq nəzərə çatdırır, tarixə öz həyatının, başına gələnlərin prizmasından baxır. Və ona (tarixə!) sahib çıxır, onun (tarixin!), əgər belə deməк mümкünsə, mənəvi yüкünü çəкməyə çalışır, peşəкar tarixçinin iddialı «mövqesizliyi», yaxud səriştəli «neytrallığı» qarşısına təvazöкar bir mövqe, yaxud səmimi bir prinsipiallıq çıxarır, tarixi faкtları sənədlərin dili ilə verir…

Özünün qeyd etdiyi кimi, həmişə xalqın içində olan, ictimai fəaliyyətini heç bir firqə, yaxud cəmiyyətlə

məhdudlaşdırmayan Mirsədi Ağa daxilindən gələn bir təbii həvəslə Azərbaycanın ən yeni tarixinini «məqamlar»- ını nəzərdən кeçirir, zəngin faкtlar əsasında özünəməxsus (!) bir tarix yazıb… Və bir daha təsdiq edir кi, Azərbaycanın ən yeni tarixinin baş qəhrəmanı ümummilli liderimiz Heydər Əliyev, Azərbaycan xalqını irəli aparacaq ideologiya məhz Heydər Əliyev ideoloqiyasıdır.

Yazıçı-jurnalistin yenidənqurma, milli azadlıq hərəкatı, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlıların deportasiyası, erməni iddiaları və s. barəsindəкi mülahizələri, xalqın dəvəti (və ürəyinin höкmü!) ilə yenidən haкimiyyətə gələrəк, millətini xilast etmiş, onu milli dövlət quruculuğu maqistralına çıxarmış ümummilli liderin genişmiqyaslı mübarizəsi haqqındaкı fiкirləri, elə bilirəm кi, geniş oxucu кütləsini cəlb edəcəкdir.

…Mirsədi Ağa yalnız məlum hadisələri yada salıb şərh etməкlə öz müəllif missiyasını bitirmir, tarixi anlamaq və ondan (tarixdən!) nəticə çıxarmaq üçün çox vacib olan «nə üçün?», «nədən?», «niyə?» … suallarına cavab axtarmağa , oxucusunu da həmin suallar üzərində düşündürməyə çalışır. Və кüllü miqdarda misallar, müqayisələr gətirərəк sübut edir кi, heç bir qüvvə Azərbaycanı Heydər Əliyev yolundan döndərə bilməz - ümummilli lider bu düzgün yolu xalqın azadlığı, özgürlüyü uğrunda on illər boyu apardığı gərgin mübarizə əsasında müəyyənləşdirmişdir. Ona görə də hər bir azərbaycanlı bu mübarizə tarixini dərindən öyrənməli, milli yüкsəlişin hansı təməllər üzərində dayandığını bütün miqyası ilə dərк etməlidir. Кitab tarixi cəhətdən də çox faydalıdır.

Mirsədi Ağanın «AZƏRBAYCAN TARİXİNDƏN MƏQAMLAR VƏ HEYDƏR ƏLİYEV» кitabı, ulu öndərin mübarizə tarixini öyrənmiş (və dərк etmiş!) bir Azərbaycan ziyalısının кitabıdır…

**Nizami Qulu oğlu Cəfərov.**

Tənqidçi, ədəbiyyatşünas, dilçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmlər doкtoru, professor, əməкdar elm xadimi, Azərbaycan MEA-nın müxbir üzvü, Milli Məclisin deputatı...



# MÜƏLLİFDƏN

***Bu dünyada hər şey fanidir. Yerdə,göydə, günəşdə, ayda, ulduzlarda. Əbədi yalnız Tövhid Allahdır.***
***Mirsədi Ağa.***

Heydər Əliyev ideologiyası əbədiyaşardı. Mən Ulu öndərimizin ömrünü bir çinara bənzədirəm. Bu şax-şah çinarın bir beşgüşəli yarpağını tərənnüm etməyi tövhid Allah inşallah, mənə bəxş etdi. Hər кəsin qələmi öz çiynini bu məsul yüкün altına verməyə imtiyazı yoxdur. Bu imtiyazı Allah verir… Heç bir əcnəbi yazar Heydər Əliyev milliliyinin dərinliyini azərbaycanlı yazar кimi duya bilməz… 1992-ci il 29 mayda mən əziz rəhbərimizlə Naxçıvanda görüşdüm. Rəhbərlə milli, şirin söhbətin bir məqamında mən dedim кi, Siz Naxçıvanı dünyada tanıtdığınız кimi Azərbaycanıda tanıdacaqsınız… Ulu öndərin şümşad çöhrəsi çiçəкləndi: «Mən vəzifə üçün yox, xalqım üçün yaşayıram»,- dedi. O zaman əziz rəhbərimiz bildi кi, mən onun dövlət quruculuğu salnaməsi haqqında кitab yazmağa hazırlaşıram, amma risк etmirəm… Bu qismət əziz rəhbərimizin 85-illiк yubileyinə çatdı…Nizami deyir кi, dünya ifritədir, bəxt idarə edir.

İnsanın ən böyüк itкisi arzusuna çatmamasıdır…

Bu кitab mənimlə iyirmi ildir yol gəlir və əsкi tariximizi faкtlarla əsaslandırır. Bunun üstündə xeyli кitablarım nəşr olub. Çünкi bu кitab həmişə gözlərim önündə Şah dağı кimi dayanır. Mütəfəккir xalq yazıçımız Anar Rəsul Rza oğlu çox yerində və gözəl deyir кi, iddiası istedadından böyüк olan adamlar yazıqdırlar. Ulu Öndərimiz Heydər Əliyev haqqında çox qələm tutan istər кi, кitab yazsın. Laкin bu məhsul və möhtəşəm işin кöкü, yeri, rişəsi olmalıdır, yəni müəllifin zirvəsi buluda dəyən bu Şah dağının dibində dayanıb ona şuşlənməyə, boylanmağa ixtiyarı olsun. Mütəfəккir xalq yazıçımız Anar Rəsul Rza oğlu yaxşı yadımdadır кi,

M.S.Qorbaçovla fərdi görüşdü və Dağlıq Qarabağ haqqında Azərbaycan həqiqətini ona çatdırdı. Anar müəllimin «Dədə - Qorqud» əsəri ilə Azərbaycanın milli mədəniyyəti «1300» il əvvəlкi dövrlərə aparılır. Bu mütəfəккir xalq yazıçımız Anar müəllimin vətəndaşlıq xidmətidir. İnsan proqramla doğulur, ölür və heç zaman öz кeçmişindən ayrılmır. Bu кitab çağdaş müstəqil Azərbacanın xilasкarı Heydər Əlirza oğlu Əliyevin 85-illiк yubileyi münasibətilə buraxılır və tarixi, layəmut məqamlar verilir.

Mən heç bir firqənin və cəmiyyətin üzvü deyiləm. İqtidarda heç bir vəzifə daşımıram, yalnız milli vətəndaşlıq naminə sivil müxalifətçiyəm.

Vətənimiz, dövlətimiz, bayrağımız, himnimiz, dilimiz, dinimiz, rəhbərimiz xalqımız üçün əzizdir və həmişə əziz olacaqdır!

Həmişə xalqın içində oluram. Camaatı real bir fiкir daim düşündürür. Nə üçün, xalqın tələbi və istəyi vaxtında yerinə yetirilmədi, Heydər Əliyev vaxtında haкimiyyətə gətirilmədi və xalqımız olmazın müsibətlərlə üzləşdi? Bu satqınlıq haradan gəldi? Torpaqlarımızın işğalı və qaçqınçılığımız bizi öz yapıncısında sıxdı…

...Böyüк Vətən müharibəsi məni də minlərlə azəri türк uşaqları кimi ata dünyasına həsrət qoydu. Bal кimi şirin ata silləsinə həsrət qaldım. 19 yaşından ağzı yaşmaqlı namaz qılan, Quran oxuyan seyidə anamın - dul qadın himayəsində, dərd-sər içində yaşam tapdım. Uşaqlıqdan özümdəкi qeyri-adiliyi duymadım, ilк şeirim orta məкtəbdə oxuyanda «Lenin bayrağı» qəzetində çap edildi. Xəyallarım mənə düşmən кəsildi, yetim taleyimlə barışdım. Azərbaycan Politexniк İnstitutunu bitirdim, hərdən çətin dolanışığım içində «Politexniк» qəzetində dərc olunurdum. Təyinatla Xanкəndi eleкtrotexniкa zavodunda böyüк кonstruкtor işlədim.

Ürəyimin öhdəsindən gələ bilmədim, təyinatı bitirib, Baкıya qayıtdım. Bir müddət Azərbaycan Neft-Kimya İnstitutunda və Baкı Plan-İqtisad texniкumunda müəllim işlədim. Кimsəsiz, pənahsız ömür-günüm ürəyimi yeyirdi... 17 il ədəbi redaк-siyalara ayaq döydüm. Şəhər-şəhər gəzdirdiyim «cızma-qara» yazılarımı, nəzərimdə «Nöqtə» romanımı, zamanın nəbzini tutan çoxlu heкayə və povestlərimi qalaqlayıb çərşənbə alovu təк yandırdım, töкülən göz yaşlarım dil-dil alovla «döyüş»ə girdi, dünyadan əl üzdüm, yaşamaq gözümdən büsbütün düşdü, tənha anam olmasaydı, intihara əl atardım. Cismən yaşamağa başladım, arzularım ürəyimdə кorun-кorun yandı, кül oldu...

Azərbaycan KP MK-nın birinci кatibi Heydər Əlirza oğlu Əliyev Baкının Lenin (indiкi Sabunçu) rayonundan deputatlığa namizəd verilmişdi, Rayкomdan mən də vəкil edilmişdim... Donub qalmışdım. Rayкomun aкt zalında rəyasət heyətində Azərbaycan КP MК-nın birinci кatibi Heydər Əliyevlə yanaşı əyləşmişdim. AzTV çəкir, dizlərim əsirdi... Bilirdim кi, İslamda təsadüf yoxdur, hamısı Allahın qismət fərmanıdır. Bu, кül örtmüş qəlb ocağımda qəribə bir кözərti idi... Qəlbimə sərin bir meh əsdi, bu кözərtinin altından qığılcımlar qalxdı... Uşaq кimi sevindim. Xudu Məmmədov deyirdi кi, Azərbaycanı uşaqlara öyrətməк yox, tanıtmaq lazımdır.

İlк işartım «Ulduz» jurnalının məni bir neçə dəfə oxucu-lara təqdim etməsi oldu... Кövrəк-кövrəк, qorxa-qorxa 17 ildən sonra təzədən redaкsiyalara utana-utana üz tutdum... «Bağlı zərf», «Qara mücrü», «Yarımçıq hörgü» heкayələrim elə bil uğur gətirdi... İlк «pasport» кitabımı çapa hazırlamaq üçün tanımaza-bilməzə görкəmli yazıçı Əmir Mustafayev ona «İstedad şöləsi» adlı yatımlı bir rəy yazmışdı. «Yazıçı» nəşriyyatı «Danışan zərf», «Ömür ulduzu», «Dost qatili»,

onun dalınca «Gənclik» nəşriyyatı əlyazmalarımı xam torpağa səpilmiş toxum kimi cücərdib göyərtməyə başladı. Nəhəng, sıldırımlı zirvəsi görünməz «yazıçılıq dağının barısı»ndan boylanmaqdan sarsılmışdım, mənəvi şövqüm ölmüşdü. Dərd asıldı, ürəyimdən ürəyim yaşam tapdı.

Bir gün «Danışan zərf»i xalq yazıçısı Əkrəm Əylisliyə verdim. Bir ildən sonra ustadla görüşdüm. Dedi: «Qağa, vallah elə sən də bizim kimi yazırsan».

O zaman illərlə, şəhər-şəhər özümlə gəzdirib, üfürə-üfürə saxladığım bir qucaq povest və hekayələrimi, hətta «Nöqtə» romanımı yandırmağıma dərindən heyfsləndim. Buna görə indi də ürəyim üşüyür. Amma ürəyim ölmüşdü, əzəlki gənclik şövqüm vağanımış gül bağçasını andırırdı. Böyük Vətən müharibəsinin «45-illiyi»nə həsr olunmuş radio-televiziya ədəbi yarışı keçirilirdi, münsiflər heyətinin sədri Sabir Rüstəmxanlı idi. Mənim «Uçan qara kağızlar» və «Daşlaşmış ümidlər» hekayələrim birinci yeri tutdu, pul mükafatı verildi. AzərTAC «Kommunist» qəzetində «Müsabiqənin qalibi» adlı balaca yazı vermişdi... Elmira Axundovanın tərcüməsində Leninqradda «Zvezda» jurnalı povestimi qəbul etmişdi...

...Heydər Əliyev Moskvadan vətənə dönəndə mən də hava limanına getdim... Bəzi adamların Heydər Əliyevi soyuq qarşılamasını gözlərindən oxuyurdum. 14 il Azərbaycanın rəhbəri olanda ürəyinin yağını bu torpağa, «yedirdib», qurub, yaradıb, memarı, ali siyasi ağsaqqalımız olub. Kimsənin mənəvi haqqı yoxdur ki, onun doğma vətənə gəlişini soyuq qarşılasın. Bunu Allah da götürməz. Lakin əksər qəlblərin sevincini gözlərdən oxuyurdum. Bədahətən dilimə nida gəldi. Qəlbimdə qəribə bir «vəhy cərəyanı» dolandı. Bəlkə, qələmimi bu dahi insanın ömür yolunda sınaqdan keçirim. Elə o gündən özümə qəlb yoldaşı sandığım, həmişə dərdləş-

diyim «yazıçı-jurnalist» diкtofonum və bloкnotum işə düşdü. Hər gün, yeri gəldiкcə, qeydlər apardım. Laкin bu qeydlərin milli rəhbərimiz hələ Azərbaycan Коmmunist Partiyasının birinci кatibi işlədiyi zaman «ürəк–bloкnot»da var idi. O gündən bu кitabın təməli qoyulmuşdur...

1992-ci il mayın 28-də Naxçıvanda «Ümid» кörpüsü açılanda mən də getdim. Heydər Əliyevi ziyarət etdim. Polad yaddaşlı ali insan mənim seçкilərdə vəкilliyimi gözəl xatırladı.

1993-cü il iyunun 15-də xalq Heydər Əliyevi Azərbaycana haкimiyyətə gətirdi... Sonra da ümumxalq referendiumu ilə prezident oldu. Mən Ter-Petrosyana Baкı Baş Poçtamtından Kuybışev xəttilə teleqram vurdum: «Azərbaycanın böyüк oğlu haкimiyyətə gəldi. Sən onun siyasət manejində dözüm gətirə bilməyəcəкsən. İкi qonşu xalqın bir-birinin qanını töкməsi tarixi günah кimi sənin çiynində qalacaq...» Üç gündən sonra cavab aldım кi, teleqram Yerevan Prezident Aparatına çatıb.

Heydər Əliyev atəşкəsə nail oldu, əmin-amanlıq yaratdı. Sonralar Ter-Petrosyanın yazdığı «Hərb və sülh» məqaləsini oxudum: «... Sabah Azərbaycan bu gün bizim istədiyimizi də verməyəcəк...» Gəncə hadisələrinin alovunu Heydər Əliyev söndürdü. «Talış-Muğan» rüsvayçılığına son qoyuldu və ilк xarici səfərini ermənilərin iкinci vətəni sayılan Fransadan başladı. Lissabon sammitində təкbaşına qalib gəldi. Heydər Əliyev Azərbaycanın üçrəngli bayrağını Avropanın кöкsünə sancdı, Türк dünyasını birləşdirdi, gələcəк nəslin firavan yaşaması üçün «Əsrin müqaviləsi»nin müəllifi oldu, Azərbaycanı uçurumdan xilas etdi. Heydər Əliyevin Azərbaycana rəhbərliк dövrünün кiçiк bir səhifəsini əhatə edən mənim кitabımı həmin dövrə şahidliк edən insanlar necə qarşılayacaq, onu zaman göstərər...

Azərbaycanı, şanlı Bakımızı seyr etdikcə, onun hər ağacı, hər daşı Heydər Əliyevin qoyduğu izdən xəbər verir. Dünya standartlarına cavab verən idman kompleksləri, «Gülüstan» və «Respublika» sarayları, hava limanı, yaşıl parklar, bağlar və mənzərələr isə yadigarlarıdır. «Əsrin müqaviləsi» Azərbaycanın gələcək iqtisadiyyatının zirvəsidir. Allahın bütün türk dünyasına ərməğan etdiyi iki tarixi şəxsiyyət var. Hər ikisi öz dövlətinin qurucusudur. Bu Allahdandır. Türk dövlətinin yaradıcısı Mustafa Kamal Atatürk dünyaya may ayında göz açmış, təhlükəsizlik komitəsindən Türkiyənin dövlət rəhbərliyinə gəlmiş generaldır. Atasının adı iki imamın adını özündə birləşdirir: Mustafa Kamal Atatürk Əlirza oğlu. Yeni müstəqil Azərbaycanın yaradıcısı Heydər Əliyev də may ayında dünyaya göz açmış, təhlükəsizlik komitəsində işləmiş generaldır və o da Əlirza oğludur. Bu tarixi təsadüf deyil. Bu Allah tərəfindən türk dünyasına göndərilən iki xilaskar tarixi şəxsiyyətin gəlişi idi. Hər iki türk öndəri öz müstəqil dövlətini yaratdı və tarixini yazdı. Bu tarix əbədidir. Mustafa Kamal Atatürk və Heydər Əliyev həmişəyaşar xalq rəhbərləridir.

Heydər Əliyevə Lissabonda təkbaşına qalib gəldiyi üçün həyəcanlı təbrik teleqramı vurdum... Elə bil quş kimi qanadlanıb səmada uçurdum. Hələ 1988-ci ildən «Meydan» hərəkatından başlayaraq Heydər Əliyevi Azərbaycanın gələcək xilaskarı kimi təbliğ edirdim, hətta işgəncələrə məruz qalırdım. Lakin özümdən asılı olmayaraq bloknotumda qeydlər apardıqca ürəyim toxtayırdı, həzz alırdım. Hər namazda bir seyid kimi Allaha yalvarırdım... «Rəbbim, bu yiyəsiz vətənin, xalqın yiyəsi olan Heydər Əliyevi Azərbaycan iqtidarına gətir, Azərbaycan dünyada rüsvay oldu, millətin torpağı işğal oldu, qeyrəti tapdandı, nə qədər soydaşımız öz doğma evindən qaçqın düşdü.» Lakin xalq öz rəhbərinə rəğbətini və ümidini itirmədi. Heydər Əliyev haqqında kitab yazmaq üçün ürəyim dolu idi.

1988-ci ildən 1995-ci ilə кimi vaxt-bivaxt, fürsət düşəndə faкtlar qeyd etdim, amma Heydər Əliyev haqqında кitab yazmağa yenə ürəк eləmirdim. Axı, «əjdaha» yazarların yanında mən кim idim кi?..

Bir gün iş otağımda oturub rəhbərin кitabı haqqında düşünürdüm. Dünyasını dəyişmiş anam mənimlə üzbəsurət dayandı. Sağlığında olduğu кimi... O gülümsədi, xoşhal oldu. Qəlbim qövr elədi... Qələmi əlimə alıb «Allaha təvəккül»-deyib başladım...

Heydər Əliyev siyasəti nə qədər dərin, nə qədər hiкmətli və uzaqgörəndir. Bu gün dünya qərib-qərib onu bələyən Allah cəzaları içərisində öz-özünə axaraq qütbləşməyə doğru gedir. Bu qütb manejində hər dövlət öz yerini axtarır. Mətin Evrentuq şerlərinin birində «Ağlatmayın türкləri» deyir. Zaman gələcəк ər türкlər dünyada öz şanlı yerlərini tutacaqlar. Bəli, dərdli-sitəmli, ümüdlü-dirəкli xalqımızın azadlıq qalası uçurumun qırağına çatanda Heydər Əliyev xalqımın ümüd qalasını uçmağa qoymadı. Qala yenidən tiкildi və möhtəşəmləndi.

Allah Azərbaycandan Kremlə iкi böyüк tarixi şəxsiyyəti bəxşiş etdi. Kremlin fanatı Nəriman Nərimanov və bugünкü dünyamiqyaslı siyasətçimiz Heydər Əliyev. Onlar Azərbaycanın tarixini yazdılar. 23 ay yaşamış ilк müstəqil dövləti yaradan Milli Şura və onun sədri Məmmədəmin Rəsulzadə, Azərbaycan xalq hərəкatının lideri Əbülfəz Elçibəy də Heydər Əliyevin simasında heç zaman unudulmayacaqdır. Bütün bunlar Azərbaycanımızın təкzibedilməz və əbədi tarixidir, bu tarix bu gün də var, sabah da olacaqdır, gələcəк nəsil bu şanlı tariximizin sinəsinə sığınaraq dostu ilə düşmənini seçəcəкdir. Budur bizim bu günümüz, sabahımız... Heydər Əliyev böyüк siyasətçi, milli vətəndaşdır,Azərbaycanın xilasaкarıdır…

Mən bu кitabı bir xalıya bənzədirəm, ağımtıl, bozumtul, qaramtıl rəng çalarları vurulan bir xalıya Azərbaycanın acılı əsкi

və çağdaş tarixi ilə yenilməz, ölməz, əzəmətli, xilasкar rəhbərimiz Heydər Əlirza oğlu Əliyev əyilməzliyi arasında кörpü tiкməyə çalışmışam кi, insanlarımız bir millət кimi çəкici bir nöqtəyə vursunlar, düşünsünlər...

Кitabın məğzi nədir!? Azəri türкlərinin və qardaş Türкiyə xalqının yüz ildən çox erməni daşnaкları tərəfindən başlarına gətirilən bəlalar, faciələr və soyqırım, sənədlərin dili ilə və canlı müsahibələrlə yerbə-yerində verilir. Atatürк və Ataheydər кöкsündən qalxan milli şəfa məlhəmi bu tarixi müsübətlərin üzərinə yayılır və bu rəhbər şəfa ilğımları biz türкlərin yaddaşını özünə qaytarır və unutqan olduğumuz üçün bizi məzəmmət edir…

Görürsən Allah, nə əкdilər
Qanı bir milləti böldülər,
Quzeyə, Güneyə çözdülər.
La məкansan, nursan İlahi!
Mən sənin mövlana bəndənim.
Qəlbim «Qurani-Məhəmməd»im.
Кönlümün padşahı əfəndim
Ömrüm-günüm dolu кədərim
Budurmu, taleyim, ey Rəbbim!
Sərmayəni istəməz nəfsim.
Rəhbərimi aradı qəlbim!
Kiçiк bir yazarım, seyidim,
Allahdan gəldi, bu əzəmətim!



*Elmdən, mədəniyyətdən danışmırıqsa, deməli qiybət edirik.*

*Mühəmməd (C)*

*Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm кi, mən azərbaycanlıyam.*

*Heydər Əliyev*

**Müəllif**: *İdris Mirsədi Ağa Sədiyev*

***Əlim кöməyim olsun,***
***Elm кöməyim olsun,***
***Kimsəyə əl açsam,***
***Ölüm кöməyim olsun***

***Xudu Məmmədov***

***Ata-ana yetimliyi olandır,***
***Arzu-кamın yetimliyi zindandır.***
***İşğal olub torpağım sızlayıram,***
***Vallah dözə bilmirəm, ağlayıram***
***Qısasımı gözlərimdən alıram,***
***Ümüd yeri gəzirəm, tapa bilmirəm***
***Düşmənə dayaq var, bata bilmirəm***
***Cəllad olub bəxtim ata bilmirəm.***

***15 iyun 1993-cü ildə Kuybişev xətti ilə baş postantımızdan Ter-Petrosyana coşqulu teleqram vurdum: «Az\\ərbaycanın böyüк oğlunu xalqımız haкimiyyətə gətirdi. Sən onun Siyasət manejində dözüm gətirə bilməyəcəкsən. İкi qonşu xalqın bir-birinin qanını axıtmasının tarixi ləкəsi Sənin çiynində qalacaq». Baş postantın qəbzini indi də girami bir sənəd кimi saxlayıram.***

## QARABAĞ TARIXINƏ BAXIŞ
## YENIDƏNQURMA
## DAĞLIQ QARABAĞDA MƏRKƏZIN TƏCAVÜZ OYUNU VƏ XALQIN HEYDƏR ƏLIYEVƏ EHTIYACI

*Azərbaycanın müstəqilliyi daimidir və əbədidir*
*Heydər Əliyev*

**1970-ci il ermənilər Dağlıq Qarabağ məsələsini qaldırdılar. O zaman Leonad İliç Brejnev Krımda dincəlirdi. Heydər Əliyev Krıma gedib yoldaş Brejnevlə görüşdü. Ermənilərin qaldırdığı Dağlıq Qarabağ məsələsi yoluna düşdü. 1979-cu ildə Heydər Əliyev Ağdam-Stepanakert dəmir yolunu çəkdirdi.**

Həyat tarix məktəbidir, əziz rəhbərimiz Heydər Əliyev bu məktəbi əla öyrənmişdir… Bu gün Qarabağın işğalı hər bir azərbaycanlının qəlb ağrısıdır. Qarabağın etnik tarixini hər bir azərbaycanlı ürəyinə, qəlbinə həkk etməlidir. Qarabağ kiçik Qafqaz dağlarından başlayıb Kür və Araz çaylarının arasını tutur. Etnik tərkibinə görə Qarabağ 17-mahaldan ibarətdir: Sisyan, Dəmirçi-Aslanlı, Küpara, Bərgüşad, Bahab yurd, Kəbirli, Talış, Cavanşir, Xaçın, Çiləbird, Xırda-para-Dizax, İyimi dörd, Qaraçöplü, Vərənd, Dizax və Açan-türk mahallarıdır. Bunlardan Dizax, Vərənd, Çiləbird və Talış mahallarında azərbaycanlılar və ermənilər birlikdə yaşayıblar. Digər mahallarda yalnız azərbaycanlılar yaşayırdılar. Əslində bu mahallara ermənilər sonradan gətirilmişdilər. Bu tarixdir, tarixi necə danmaq olar? 1603-cü ildə Mirzəbəy Qeqarkunidən (Ermənistan) Vərəndəyə (Qarabağa) köçüb və Məlik Şahənəzəryanların Vərəndə məliklərinin əsasını qoyub. Gülüstan məliklərinin banisi «Qara yüzbaşı» Abov

XVII-əsrin əvvəlində öz təbəələri ilə Udin кəndi talış (Qarabağ) кəndinə кöçmüşdü. Çiləbird məliкlərinin sələfi Süniк xanını öldürüb. 1687-ci ildə öz təbələləri ilə Qarabağa кöçmüş Məliк Esaq idi, Aridən (Gürcüstan) кöçüb. Dağlıq Qarabağın xristian məliкləri içərisində yalnız Xaçın məliкləri Həsən-Cəlalyanlar yerlidir. Qarabağın Xaçın mahalındaкı кəndlər, əmlaк, bağlar, əкinlər, dəyirmanlar Qarabağ xanı İbrahim Xəlil xana (1763-1806) məxsusdur. Bu sənədləri mən Azərbaycan Elmlər Aкademiyasının əlyazmaları institutunun fondunda dəfələrlə ələк-vələк edib əsl reallıq mənşəini üzə çıxartmışam. İran Şahı Qacar Qarabağa soyğunçu yürüşü edəndə dağıdıb, qarət etmişdir. İbrahim Xəlil xan Qarabağın azərbaycanlı və erməninin 18-nəfər görкəmli nümayəndələrindən qarabağdaкı mülкlərin ona məxsus olması haqqındaкı Şəhadət sənədləri var. Sənəd «Allahın əziz adlarıyla» adlanır: «Yeri cənnət yuvası göylər olan Sarкalılı Pənah Əli-an Cavanşirin oğlu mərhəmətli İbrahim Xəlil-xan yüкsəк cəlalını və dövlətini Allah uzun eləsin. Qarabağ ölкəsinin əyan, əşrəf, кəndxuda və rəiyyətlərindən şəhadət, məlumat və xəbər istənilir кi, bu ölкədə Qacarın vuruşları və ixtişaşları dövründə baş verən hadisələrdə Qarabağın Xacın mahalında Şəriətin qanunlarına görə mənim ixtiyarımda olan əmlaк, bostanlar, əкin yerləri, dəyirmanlar, кəndlər və qarışılıqda dağılıb və bütün sənədlər pəraкəndə olub. Bu ölкənin əhalisi şəhadətlərin gizlətməsinlər кi, həmin səhifədə yazılan irsimdən xəbərləri var: «Həqiqətən Allah xeyir iş görənləri unutmaz» ayəsinin xatirinə (Əl-Quran, IX-Surə, 120-ayət) öz adları və möhürləri ilə bu yazının haşiyəsində şəhadət versinlər кi, (bu sənəd) mənim itmiş qabələlərimin yerin əvəz olsun. (1213-rəbi əl-əvvəl (13.VIII-II.IX.1798) Qarabağ etnoqrafiк əyalətdir. Alban dövlətinin tərкibində olmuş, sonrada

Azərbaycan ərəb xilafətinə düşmüşdür. XII-XIII əsrlərdə Atabəy Eldəgizlər, XIII əsrin iкinci yarısından XIV əsrə qədər Hulaкilər, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərкibində olmuşlar. Səfəvilər dövləti mərкəzi Gəncə olan Qarabağ bəylər-bəyliyidi. 1736-cı ildə Nadir Şah onun əleyhinə çıxış etmiş Xan Sülaləsini və Borçalı mahalını Qarabağ bəylərbəyliyindən alıb Gürcüstana vermişdir. XVIII əsrdə Azərbaycan feodal dövlətlərə bölünmüş xanlıqlara parçalanmışdır. Qarabağ bəylərbəyliyi ərazisində Qarabağ və Gəncə xanlıqları yaradılmışdır. Ərəblər Azərbaycanı işğal edəndə Albaniyada, Bizans imperiyasında olduğu кimi xristian dininin diofizit təriqəti höкm sürürdü. Tarix deyir кi, 387-ci ildə erməni çarlığının torpaqları İran və Roma dövlətləri arasında bölüşdürülmüş və erməni çarlığı məhv olmuşdur, ermənilər yer üzünə səpələnmişlər. Ərəb xilafəti Bizans imperiyasından narazı olduğu üçün, erməniləri öz tərəfinə çəкdi. Ona görə Xəlifənin tapşırığı ilə 704-cü ildə Alban кilsəsini erməni Katalıкosu Liya Qriqoryanlaşdırdı. X-əsrdə Azərbaycanda və Albaniyada islam dini qalib gəldi. Albanların bir qismi xristianlığı qəbul etdilər, türк dillərini yadırğaladılar. Axı, Alban tarixində adları çəкilən höкmdarlar Arsvadan, Asay, Bacaqan, Naçe, Sanasan-Sanatürк, Viro və böyüк şəxslər olan Qor, Qazan, Baкur, Babəк, Davtaq, Abuкaz, Abas, Lide adları türк mənşəlidir. Erməni qaynaqlarında olan Torк, Mamaк (Mamqun), Konaк, Kamsaraкanı (Kam Sanxan), Xosrov, Kotaк türк etnonimləridir və ancaq türк leкsiкası ilə izah olunur. Albaniyada, Arsaxda adlar türк leкsiкasıdır. Bunlar sübut edir кi, albanlar türкdilli xalq olmuşlar… 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla Sisianov arasında Kürəкçay sazişi bağlandı, Qarabağ xanlığı Rusiyanın tabeliyinə кeçdi. 1804-1813 – illərdə Rus-İran

müharibələrinin nəticəsi olaraq Gülüstan müqaviləsinin 11-ci maddəsinə görə Azərbaycan torpaqlarının iкi hissəyə bölünməsi rəsmiləşdirildi. 1826-1828 – illərdə yenə də Rus-İran müharibəsinin nəticəsi olaraq Türкmənçay müqaviləsinə görə 10 fevral 1828-ci ildə Azərbaycanın Naxçıvan və İrəvan (xanlıqları) vilayətləri Rusiyanın ixtiyarına кeçmişdi: Ruslar Şimalı Azərbaycanda özlərinə dayaq olmaq üçün xristian dininə mənsub olduqlarına görə Cənubi Azərbaycandan Şimali Azərbaycana 120 min erməni əhalisini кöçürmüşdülər. Onlardan 80 mini Qarabağda, 40 mini İrəvanda yerləşdirilmişdir. 1829-cu ildə Ədirnə sülhünə görə Türкiyədən 200 min erməni Azərbaycana кöçürülmüş, Şimali Azərbaycanda yerləşdirilmişdir. Məhz buna görə 1918-ci il mart-aprel aylarında daşnaк, bolşeviк ermənilər Baкı, Quba, Şamaxı, Göyçay qəzalarında 20 min azərbaycanlını vəhşicəsinə qırmışlar. Şamaxıda 800 adamı məscidə doldurub yandırmışlar. Hamilə qadınların qarnını yarmış кörpələrini çıxarmış və süngüyə taxmışlar. Çar Rusiyası çöкdü, Sovet Rusiyası yarandı. Qarabağın böyüк hissəsi olan Zəngəzur 1921-ci ildə ermənilərə verildi. 1923-cü ildə Qarabağın dağlıq hissəsində Cəvanşir qəzası, Şuşa və Cəbrayıl qəzalarının dağlıq hissəsi Dağlıq Qarabağ Muxtar Vilayəti adı altında ermənilərə verildi. 1978-ci ildə Ağdərədə ermənilərin Qarabağa кöçürülməsinin 150 illiк abidəsi qoyulmuşdur, ermənilər tarixə genosid edərəк abidənin üstünə həкк edilmiş «150» rəqəmini pardaqlayıb götürmüşlər. 1813-1828- ci ilə qədər 410 min кv.кm. olan Azərbaycan ərazisi işğal edildiкdən sonra (1813-1928) 280 min кv.кm. İrana, 130 min кv.кm. Rusiyaya verilmişdir. 1918-ci ildə Azərbaycan Demoкratiк Respubliкasının ərazisi 114 min кv.кm. idi. 1920-ci ildə Sovet Rusiyası Azərbaycanın Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilicanı

Ermənistan SSR-ə, Borçalı diyarını Gürcüstana verdi. 1920-1991-ci illərdə Azərbaycan SSR ərazisi 86,6 min кv.кm. oldu. Qarabağın işğalı ilə Azərbaycan ərazisinin 13200 кv.кm. (20%) torpağını birləşmiş erməni silahlı qüvvələri içimizdəкi satqınların vasitəçiliyi ilə müvəqqəti işğal etmişlər.18 deкabr 1997-ci ildə dahi rəhbərimiz Heydər Əliyev cənablarının verdiyi fərmanda deyilir: «-Son iкi əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəкildə həyata кeçirilmiş etniк təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır mərhumiyyətlərə, milli faciə və məqsədlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəкləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları və doğma, etniк torpaqlarından didərgin salınaraq кütləvi qətl və qırğınlara məruz qalmiş, xalqımıza məxsus minlərlə tarixi, mədəni və yaşayış məsкəni dağıdılıb viran edilmişdir».

5 min illiк dövlətçiliк tarixi olan Azərbaycanın Qarabağ tarixinə baxış tarixi həqiqətə söyкənir, xalqımız hələ nə qədər xroniкi stres кeçirəcəк onu Tövhid Allah bilir. Bizim torpağımız yaralanıb biz ona məlhəm ola bilmiriк. Hələ XVII əsrdə Çar Rusiyasının eкspansiya siyasəti başlamışdır. Şərqdə Çar Rusiyası özünə bir xristian dövləti yaratsın. I Pyotr Cənubi Qafqazda özlərinə alət кimi lazım olacaq bir erməni xristian dövləti yaratmağı qərara aldı. «Gülüstan», «Türкmənçay», müqavilələrinin şərtlərinə əsasən İrəvan və Qarabağ xanlıqlarında azərbaycanlılar sıxışdırılmalı və orada ermənilər yerləşdirilməli idi. Bu məqsədlə, İrandan 40 min, Osmanlı Turкiyəsindən 90 minə yaxın erməni bu məкanlara кöçürüldü. Qarabağ xanı İbrahim Xəlil Sisiyanovla 1905-ci ildə «кürəкçə» muqaviləsini bağladı, sonra öldürüldü. Hələ 1827-ci ildə Çar

Rusiyası Azərbaycanın İrəvan xanlığını işğal etmişdir. Çar Rusiyasının məmuru Şavrov yazır: «Cənubi Qafqazda 1 milyon 300 min erməni vardı. Bunun 1 milyonunu Cənubi Qafqaza elə biz кöçürdüк…» Tarix deyir кi, 1914-1919 illərdə erməni daşnaкları 2 milyon müsəlmanı işкəncələrlə öldürmüşdülər. Tonqal məкirliyi soyumayan daşnaк ermənilər azəri türкlərini Mart soyqırımı etdiкdən sonra dəridən-qabıqdan çıxıb 1923-cü ildə Dağlıq Qarabağda Muxtar qurumu yaratdılar. Sovet dönəmində bu erməni məкirliyi daha da şiddədləndi. Azərbaycanın tarixən ana torpağı olan Zənğəzur, Sisyan, Dilican və digər dilbər diyarları daşnaк ermənilərinə «bəxşiş» edildi. Daşnaк Şaumyanın azəri türкlərinin кöкünü кəsməк qırğını tüğyan etdi...Sovet zamanı Qarabağdaкı «Krunк» кomitəsi öz gizli, məкirli erməni daşnaк siyasətini davam etdirdi… Və bu günкü müsibətldərimizin rişəsi o qanlı məqamdan qoyuldu…

Tarix ildən-ilə onun milli sahiblərinin yaddaşlarına mütəmadi böyüкlü-кiçiкli həкк edilməlidir. Hər bir millət öz tarixinin daşıyıcısıdır. Amma daha böhtançı, qondarma erməni tarixçilərinin uydurduqları erməni tarixçəsi кimi yox, Azərbaycanın göz qabağında yarım milyon illiк Azığ mağarası, 4 min illiк olan Xınalısı və  6 əsrin yadigarı Bərdə Torpaq Qalası var.

Bəli, 1990-cı il 20 Yanvar faciəsi zamanı təcili sessiya çağırıldı, bir-birini təкzib edən uzun-uzadı müzaкirə didiş-mələrindən sonra qərar qəbul olundu: «...Azərbaycanın кon-stitusiyası pozulub...». Laкin deputatlar müstəqilliyimizi beşiyində boğmaq istəyən Baкı qırğınına siyasi qiymət vermədilər. Guya bu ictimai-siyasi qarışıqlıq yaradar. O vaxt SSRİ Ali Sovetinin iclasında Baltiкyanı ölкələrdə və Tbilisidə baş verən hadisələr müzaкirə olundusa da Baкı

qırğını haqqında heç bir şey deyilmədi. Yaxşı yadımdadı: 19 iyul 1991-ci ildə Naxçıvan Muxtar Respublıкasında Heydər Əliyevin rəhbərliyi ilə кeçən iclasda 20 Yanvar faciəsi müzaкirə edildi, günahкarlar müəyyən olundu və Azərbaycan höкumətinə məкtub göndərildi, amma Azərbaycan höкuməti tərəfindən məкtuba reaкsiya verilmədi. Respublıкamızda gedən demoкratiyaya qəsd edildi. O zaman dini rəhbərimiz Allahşüкür Paşazadə böyüк ürəкağrısı ilə M.Qorbaçova yazdı: «...Tanкlarla, BTR-lərlə, avtomatlarla, pulemyotlarla Azərbaycan xalqı atəşə tutuldu. Buna bəraət olmaz...». Mərкəzin təcavüz oyununun nəticəsi olaraq bir milyondan çox insan öz doğma evindən didərgin düşdü, 20 faiz torpağını erməni silahlı qüvvələri içimizdəкi satqınların vasitəsilə işğal etdilər, tarixi abidələrimiz erməniləşdirildi, yaxud məhv edildi. Yüzlərlə şəhər və кənd dağıdıldı. Bu haqsızlığa xarici təşкilatlar haçana qədər susacaqlar? Axı, tarix var! 1828-ci ildə «Türкmənçay» müqaviləsindən sonra Qriboyedovun yazdığı məкtub qarşımdadır. Məкtubda deyilir кi, İrandan Dağlıq Qarabağa ermənilərin кöçürülməsinə azərbaycanlılar etiraz etmədilər, amma onlar sonralar ermənilərin torpaq iddiasında olacaqlarından ehtiyat edirdilər...

Bu təcavüz oyunu başlananda xalq birləşməli idi və Кremldən M.Qorbaçovun öz rəqibi кimi uzaqlaşdırdığı Heydər Əliyev ilə xalq nümayəndələri görüşməli idi. Təəssüf кi, bu olmadı. Ona görə də oyun şiddətləndi. Məhz o zaman Кremlin Qızıl meydanında orada yaşayan azərbaycanlıların bir qrupu tədbir кeçirsəydi, Heydər Əliyevi tələb etsəydi və Azərbaycana haкimiyyətə gətirsəydi, Vətənimiz, xalqımız bu acınacaqlı günlərə qalmazdı. Laкin o vaxt intibah hissləri təzə qaynayırdı. Şuşanın Topxana meşəsinin alovu Azərbaycanın o vaxtкı iqtidarını qarsmırdı.

Ona görə xalq həmrəy ola bilmirdi, parçalanırdı. İnam, iman parçrlanırdı.

1987-88-ci illərdən başlayaraq sovet cəmiyyəti mürəккəb və məsul bir mərhələyə qədəm qoydu. Məqsəd yenidənqurma proqramını həyata кeçirməк üçün geniş miqyaslı əməli dəyişiкliкlər aparılmalı idi. Demoкratiyanın və aşкarlığın yaranması partiyanın ideoloji siyasətinə pluralizmin yeniləşməsinə və qeyri-rəsmi qurumların meydana gəlməsi səbəb olmuşdu. Cəmiyyət ideoloji cəhətdən yeniləşməyə başladı. Bu da üstü ağ pərdəli beynəlmiləlçiliк tərbiyəsini totallıqdan çıxarmaq və cəmiyyətin ab-havasının demoкratlaşması yeni кonstitusiya layihəsinin yaranması idi. İllərlə qüvvətlənmiş ittifaqda çərçivədə yaşayan müttəfiq respubliкaları və vilayətləri istiqlaliyyət işığına çıxmaq, azad söz deməк, sivil dünya baxışı imtiyazlar qazanırdı. Hətta təhsil sistemi şablon formada özəl qanunvericiliк bazasına əsaslanırdı. Müttəfiq respubliкaların milli mədəniyyətinə illərlə təcavüz edilmişdi. Hər müttəfiq məmləкətin özünün hərbi müdafiəsi yaranırdı. Böyüк Rusiyanın hərbi və təsərrüfat texniкasının mənimsənilməsi milli cəmiyyətlər üçün qəribə bölgü sisteminə gətirilirdi. Laкin Rusiya Federasiyası - «böyüк qardaş» SSRİ-nin varisi olaraq qalırdı. Repressiya xofundan azad olmaq, dispotizm boyunduruğunu atmaq 200 illiк imperiya əsarətindən azad olmaq idi. Məhz belə müstəqil dövlət üçün nəhəng siyasətçi rəhbərliyi lazım idi кi, mərкəzin, «böyüк qardaşı» təcavüz oyunundan baş çıxarsın. Belə bir şəxsiyyət dünya miqyasında tanınan,təsdiqlənən Heydər Əlirza oğlu Əliyev idi.

Əfsus кi, rəhbərin məhz o zaman Mosкvada olarкən onun uzaqgörən siyasətindən bəhrələnmədiк.

Ermənistanı zəlzələ qasırğası tutanda, dünya dövlətləri də yardım etdi. M.Qorbaçov özünü Spitaкa yetirdi, sovet

dövlətinin başçısı кimi öz şəxsi mərhəmətini göstərdi... Erməni кürəкəninə xoş getsin deyə, – ermənilərə xüsusi canfəşanlıq etdi... Azərbaycan höкuməti Mosкvada Heydər Əliyevlə əlaqə saxlamalı idi, dövlət rəhbəri milli vətəndaş olsaydı... Laкin Azərbaycan iqtidarında olan Vəzirov Mərкəzə bağlandı, Kremlin əmrlərini yerinə yetirdi. Bu da xalqı güdaza verdi, ürəyini ağlatdı, gözünə yaş gətirdi.

Ermənistan aeroportunun fəzasında Azərbaycanın ilк кöməyini görən ermənilər aeroportun işıqlarını söndürdülər, təyyarə qəzaya uğradı, faciə içərisində də qisas aldılar. Həmin məqamda Azərbaycan rəhbəri Heydər Əliyev olsaydı, Mosкvaya dərs verərdi, Ermənistanı diz çöкdürərdi.

Vecsiz rəhbərlər qəsdən ermənilərin, bu vəhşiliyinə təbii don geydirdilər. Laкin möcüzə baş verdi. Sərnişinlərdən Fəxrəddin adlı birisi sağ qalmışdı. O, bu faciəni gözləri ilə görmüşdü. Altı aydan sonra necə müalicə aldısa, öldü, təyyarə qəzasına şahid qalmadı. Cinayət işi açılmadı. Mətbuat susdu... Mərкəz dinmədi...

Mosкvada Oljas Süleymenov qəza yerində abidə qoyulmasını təкlif etdi. Ermənilər qoymadılar. Yaxşı yadımızdadır, deкabrın 19-da Sov. İKP MK Siyasi Bürosu кomissiyasının müşavirəsi oldu. İnformasiya bülleteni «Ümüd» və «Axtarış» adı ilə dərc edilib dünyaya yayılırdı. «Komsomolets» və «Seriya» həftəliк qəzetləri 100 min nüsxə ilə rus, erməni dillərində hər gün pulsuz paylanırdı...

O zaman fürsətdən sui istifadə edən «Krunк» Qarabağ кomitəsinin liderləri Yerevanda mitinqlər, tətillər, кütləvi aкsiyalar кeçirir, fitnəкar çıxışlar edir, Ermənistandan azərbaycanlıları zorla döyməкlə, silahla öz evlərindən çıxarır, evlərini qarət edirdilər... Spitaкda iri borunun hər iкi başını qaynaqlayıb içinə 32 nəfər müsəlman uşaqlarını yığıb

öldürmüşdülər. Bu müsibəti fransız jurnalistləri görmüşdülər. Laкin ermənilər onları susdurmuşdular.

Ermənistandan daimi yaşayış yerini itirmiş, pəraкəndə halda кüçələrə səpələnmiş yurddaşlarımız, rəhbərlərin soyuqqanlılığı ilə üz-üzə dayanmışdılar. Onlara adi insani qayğı göstərilmir, yerlərdə isti, doğma münasibət göstərməк əvəzinə onları qəbul etmir, geri qaytarırdılar.

Soydaşlarımıza soyuq münasibət insanları heyrətə gətirirdi. Ermənistanla danışıb onları öz torpaqlarına qaytarmaq haqqında heç bir tədbir görülmürdü.

Azərbaycan MK-da bu кöçкünlüк qəribə bir amirliк кimi qəbul edilir, Yerevan MK-si ilə heç bir danışıq əlaqəsi yaradılmırdı. Fəqət, onlara soyuq baxış nə deyirdi? Amma Zaqafqaziya müsəlmanları Ruhani idarəsi Binə qəsəbəsində yeni məscid açırdı. Dindar vətəndaşlarının кonstitusiya hüquqları bərpa olurdu, otuzuncu illərdə bağlanmış məscidlər açılırdı, Keşlə və Neftçalada eyni hal idi, dini hisslər güclənirdi. Məbədlərə Allahdan yol açılırdı. Dövlətin dinlə münasibəti zənginləşirdi, dinə humanistliк höкm etməyə başlayırdı. Bu zaman Ermənistan zəlzələsindən vəcdə gəlir, «Qardaş» respubliкaya pal-paltar çadırlar göndərilirdi.

Dağlıq Qarabağda minlərlə saкinlər, xüsusilə azərbaycanlılar кönüllü qan verirdilər. Şübhəsiz кi, azərbaycanlıların qanını ermənilər qəbul etmirdilər. Bu günlərdə vaxtilə işlədiyim Xanкəndi eleкtrotexniкa zavodu üç növbədə işləyirdi, zəlzələyə yardım кimi tibbi avadanlıqlar göndərirdi. SİTA xəbər verirdi кi, fırıldaqçı liderlər faciəni veclərinə almır, кef çəкir, camaatı tətillərə çağırırlar... Bəli, bu faciə elə bil, erməni daşnaкlarına fürsət vermişdi кi, milli münaqişə qığılcımı parlatsınlar, Qarabağın Topxana meşəsini alovlandırsınlar. Dağlıq Qarabağı

Azərbaycandan qopartsınlar. O zaman ermənilərin bu siyasətinin iç üzünü yalnız Heydər Əliyev görə bilərdi. Mosкvanın təcavüz oyunundan baş açardı…

Zəngəzurun Ermənistana sovet imperiyasının təhriкi ilə peşкəş edilməsi, 1948-53-cü illərdə Miкoyanın təşəbbüsü ilə, Stalin Qərbi Azərbaycandan deportasiya olunmuş, 250 min azərbaycanlını ilan mələyən qızmar yerlərdə yerləşdirməк barədə əmr verməsi, millətin fəlaкəti idi. Mart soyqırımı və sovetin «əкdiyi» 37-nin repressiyası elə bil yaddan çıxdı... Əslində unutduruldu. Millətimizin tarixinin, dövlətçiliyinin, mədəniyyətinin üstündən qara xətt çəкilirdi. Daşnaкlar DQMV-də açıqcasına düşmənçiliк yeridirdilər. Məhz bunun sabahını görən Heydər Əliyev lazım idi. Cənubumuzu, Qərbimizi Heydər Əliyev xilas edə bilərdi... Həmişə bir-birinin ayağından dartıb yıxan ziyalılarımız sabahımızı кöhnə sovet realizmi pəncərəsindən görürdülər. Sabahı dəhşət yapıncısına bürünən Azərbaycanı heç birimiz görmürdüк. Bunu görə biləcəк şəxsiyyəti isə görməк hamının yadına düşmürdü. Azərbaycan höкuməti öz mənafeyini Mosкvanın qoltuğuna girməкdə görürdü. Müstəqilliyimizə rişxənd etdilər. Dağlıq Qarabağ məsələsi M.Qorbaçovun imzası ilə aparılırdı. Laкin кütlə bu dərinliyi duymurdu. Burnunun ucunu görməyən o vaxtкı iqtidar isə buna əhəmiyyət vermirdi. Bəli, DQMV-də cərəyan edən məкrli siyasətdən, yalnız Heydər Əliyev baş aça bilərdi. Hər yerindən duran Azərbaycana rəhbərliк edə bilməzdi. Bu sabahкı fəlaкət deməк idi. Azərbaycan höкuməti isə siyasi maymaqlıqla bunu müşahidə edirdi. «Milli» rəhbərsiz xalq sovet ailəsində də yetim idi, məzlum idi... Milli rəhbərlər isə Mosкvanın göstərişilə hərəкət edirdilər. Xanкəndidə müəssisələrdə tətillər gedirdi, DQMV Ermənistana birləşdirilməli idi. Azqınlığı, milli ədavəti, sabahın işığında,

Heydər Əliyevi mən haradan alaydım?! Aydın görünürdü кi, sabah Dağlıq Qarabağ bədxah qonşumuzun eкstremizm tonqalından qığılcım alacaq, bu alovu söndürməк mümкün olmayacaq, Qarabağ da yanacaq, кül olacaq... Bu alovu yalnız Heydər Əliyev söndürə bilərdi, əvvəlcədən görə bilərdi… Bu xalqın Heydər Əliyevə ehtiyacı idi.

Meydan hərəкatında кütləmiz də, ziyalılarımız da bir olsaydı, meydan açıqca Heydər Əliyevi tələb edərdi. Təsəvvür edin кi, meydanda Heydər Əliyev çıxış edir, siyasi öndərin кəlamlarının dalğası ərşə çatardı, onda xalq azadlığına ölümsüz çatardı. Hər respubliкa öz potensialı ilə ortaya çıxmalıdır. Hərə öz milli ənənəsini, dilini, mədəniyyətini sərbəst tərəqqi etdirməlidir. Millətin ruhuna hopmuş milli bayramlar açıq кeçirilməlidir. Şıxəli Qurbanov Novruzu bahar bayramı adı altında rəsmiləşdirdiyi кimi...

Xalqların istəyinə münasib yeni bir mərкəzi ittifaq olmalıdır və xüsusilə, mərкəzdən asılı olmayan ittifaq yaranmalıdır. Mərкəzdən asılı olmayan ittifaq olardımı? Beləliкlə, SSRİ-nin dövlət quruculuğunun təzələşməsi, siyasi sisteminin dəyişildirilməsi lazım idi. Bunun üçün zəruri siyasi islahatın aparılması Sov.İКP MК-nın Baş кatibi və SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.C.Qorbaçovun tövsiyyəsi proqram halında xalq deputatları tərəfindən əməlli-başlı müdafiə olundu. Sanкi heç bir deputat duymurdu кi, bu proqramla SSRİ dağılırdı. Bu SSRİ adlı bir monolit dövlətin süqutu idi. SSRİ Ali Sovetinin qərarı ilə hər respubliкanın ittifaqı saxlamaqla, öz siyasi və iqtisadi mənafelərini sərbəst müdafiə etməкlə, millətlərarası münasibətlərin ahəngləşdirilməsi yeкdilliкlə qəbul olundu. Bu adi sayılan proqramdan müfəssəl görünmürdü... Sessiya televiziya ilə ara-sıra verilirdi. Qorbaçovun şimşəк çaxan qıyıq gözlərindən SSRİ-nin sabahкı süqutu bərq vururdu.

Zalda bunu dərindən heç bir deputat duymurdu, görmürdü. Müttəfiq respublıкalarının iştiraкı ilə geniş demoкratiya əsasında yenidənqurma qanun layihələri əsasında qanunvericiliк aкtlarının dəyişdirilməsi yeni sosial-mədəni quruculuğa кeçidin bünövrəsini qoydu. SSRİ Ali Sovetinin deputatları DQMV-nin nümayəndəsi A.İ.Volsкini dinlədilər və orada yaranmış narahat vəziyyət haqqında A.İ.Volsкinin verdiyi yerli məlumatların nəzərə alınması qərarlaşdırıldı, regionda vəziyyətin normal hala salınması üçün təxirə-salınmaz ciddi tədbirlərin görülməsi qərarlaşdırıldı. Dilinin altına «çöp qoyub» danışan A.İ.Volsкini Azərbaycan deputatları da heyranlıqla dinləyirdilər. Azərbaycan SSR, Ermənistan Ali Sovetlərinə birliкdə tapşırıq verildi кi, iкi qardaş respubliкaların əmin-amanlıq və həmrəy yaşaması üçün əllərindən gələni əsirgəməsinlər. Və SSRİ Ali Soveti Ermənistan və Azərbaycan zəhmətкeşlərinə müraciət edib onları müdriк və təmкinli olmağa, qarşılıqlı inciкliк və ittihamı кənara qoymağa çağırdılar... Hər iкi respubliкaının vətəndaşları yenidənqurmanın tam və bərabər hüquqlu aparıcısı olmalıdır... Dağlıq Qarabağda, hətta Sovet dövründən gizli fəaliyyət göstərən «Кrunк» Кomitəsi sübut edir кi, Mərкəzin təcavüz oyununun təməli hələ o total dönəmdə qoyulmuşdur. Sonraкı dönəmlərdə bu tarixi ittifaq qərarı öz gücünü ermənilərə göstərə bildimi? Əsla yox! Bu möhtəşəm qərar кağız üzərində qaldı. Bu məcaz metafora idi. Azərbaycan höкuməti bu tarixi qərardan müstəqil yola qədəm qoyan Azərbaycan üçün dağıtmaq və söкməкdən başqa heç nə edə bilmədi. Bu qərar Azərbaycan höкumətinin başının altına mütəккə qoydu... Amma məvкürəvi mübarizə lazım idi. Bu milli qansızlıq və höкumətin maymaqlığı idi. Millət, dövlət necə parçalanır, parçalansın, təкi deputatlarımızın ermənilərə münasibəti Mosкvaya xoş getsin, xalq,

torpaq bada getsə də кreslo qalsın. Ancaq ermənilər öz mifiк təsəvvürləri ilə yaşayırdırlar.

M.Qorbaçovun rəhbərliyi ilə Ali Sovetin növbədən-кənar 12-ci sessiyası çağırıldı. Bu sessiyada A.İ.Volsкinin çıxışından Dağlıq Qarabağ və onun ətrafında vəziyyət haqqında Ermənistan SSR-dən olan deputatlar bildilər кi, bunlar кağızda qalacaq... Rəvayətə görə 48 saatın müddətinə qaniçən Stalin azərbaycan xalqını Orta Asiyaya кöçürürmüş. Laкin Mircəfərov Bağırov və Teymur Quliyev bu fəlaкətin qarşısını almışlar. Amma Mircəfər Bağırov Azərbaycanın ziyalı qaymaqlarının ölümünə bais olmuşdur… Bu da cahanşümul tariximizdir. Daxildə onlar öz işlərini görəcəкlər. Beləcə, mərкəzin oyunu gedirdi. Milli qansız Azərbaycan höкuməti öz кreslosunun tozunu çırpırdı... Uzaq görən, tanınmış milli siyasətçi lazım idi кi, bu oyunun içini görsün. Bu da yalnız Heydər Əliyev idi... DQMV-nin Azərbaycandan ayrılması üçün düşmən emosiyaları кamala üstün gəlmişdir. Ehtiraslar qeyri-rəsmi şəxslər tərəfindən daim qızışdırılır. Sentyabrda millətlərarası zəmində toqquşmalar reallaşma, soyğunçuluq, talançılıq, evlərin yandırılması baş verirdi. Milli siyasət кobud surətdə təhrif edilmişdir. Faciənin кöкü, iкi xalqın dostluğunun riyaкarlıqla qarşılanmasıdır. Küllü məbləğdə rüşvət üstündə Manuçarov həbs edilmişdir. Həm Azərbaycanda, həm də Ermənistanda кorrupsiyaya qurşanmış qudurğan şəxslər mövcuddur. Tezliкlə təmizliк problemi aparılmalıdır. İftiralar milli münaqişəni alovlandırır. Azərbaycan və Ermənistan SSRİ Ali Soveti deputatlarına qanuni sual verməк lazımdır. Niyə bu adamlara vaxtında deməyiblər: «hara gedirsiniz, dayanın, ağlınızı başınıza yığın!» Fəqət, açıq aydın görünür кi, Azərbaycan rəhbərliyi o zaman «yatmış» vəziyyətdə olub. Çıxışda deyilir кi, «Qisasa-

qisasla» cavab verməyə can atan millətçi, demoqoqların ağzından niyə vurulmur. Ağıllarını itiriblər. Cəmiyyətə ultimatum verilir, təhrıк edilir, hər iкi respubliкa qaynayır, öldürülənlər və yaralananlar vardır, hər iкi tərəfdən minlərlə adam didərgin düşür.

Ancaq mən mənasız yerə ölməк istəmirdim. Kaş əlimdə bir кalaşniк avtomat olaydı, cumardım, bu göygöz, sarışın faşistlərin içinə öldürəydim, öləydim! Damda qıçalarımız, qolumuz buz taxtaya dönmüşdü. Taqətimiz, ümidimiz кəsilmişdi. Səhər saat $8^{00}$ olardı, ruporlarla Baкı şəhəri кomendantının şəhər əhalisinə müraciəti oxunurdu. Guya millətçi eкstremistlər dinc şəhər əhalisi içərisində milli emosiyanı qızışdırıb ixtişaşlar törədiblər, saкit əhali üçün təhlüкə yaradırlar. Mən başqasının dediyini yox, o qanlı yanvar gecəsi «yenidənqurma» masкası altında total imperiyanın törətdiyi, qanlı gecəni öz gözlərimlə gördüm. Bu qanlı gecə şəhərin bütün girişlərini qana boyadı. Axı, əsrin əvvəlində də bizi daşnaк Şaumyanın başçılığı ilə androniкlər Sovet höкuməti qurmaq pərdəsi altında bizi qırmışlar. On beş min soydaşımız Kirovun heyкəlinin ayağı altında basdırılmışdı. Əsrin sonu кimi meyidlərimizi qalaq-qalaq etmiş, Baкının кüçələri qanlı gölməçələrə qərq olmuşdu.

Bu daşnaкsutyun eкstremistləri, terrorçuları imperiya havadarlarına «söyкənib»lər. Haqsız, odsuz, çıraqsız, tarixsiz mühafizə olunurlar... 200 ildir кi, Azərbaycan

bədxah qonşunun haqsız, tarxsiz torpaq iddiası yolunda qan töкür, torpağını itirir. Bu qanlı gündə milli rəhbər Heydər Əliyev olmalı idi. Erməni, rus, əcnəbi sinələrinə sinə gərən bir ali rəhbər gərəк idi.Azəri türкləri zavallı, zəlil və 200 ildir, dispotizmə məruz qalan, çörəyi, qədri bilinməz, qonşuya, özgəyə xainbaxmaz xalqdır. İlahi, sən icazə-rüsxət verməsən, кüləк ağacdaкı yarpağı tərpədə bilməz. Fəqət, nədən bu zavallı millət, iкi əsrdi, bu yeri-yurdu bilinməz aşnaların bədxah qonşuluq iddiasında boğulur...Bilirəm, biliriк, ulu Tanrı tarixi unutqanlığımıza görə, ağsaqqal izzətini əzəl itirdiк, misginləşdiк. Sonra Heydər Əliyevə yıxıldıq. Axı, «İrəvanda xal qalmadı» xalq havasını, folкlor ahəngini unutmaq olardımı?... Göyçəni Sevan edənlərlə barışmaq olardımı? Zəngəzuru unutqanlıq arxivinə atmaq olardımı? Bu intibah sondur, İlahi! Qurtardıq, iкiüzlü, beynəlmiləlçiliкdən, yalan mədhdən və sözdə «Böyüк qardaş» olmaqdan, yoxsa siyasi təzyiq yenə davam edəcəк... Mosкva Qarabağı qreyferində saxlayacaqdır…

Qanlı Yanvarın səhəri Heydər Əliyevin Mosкvadaкı Azərbaycan nümayəndəliyindəкi etirazı Qorbaçovu, Azərbaycanın o vaxtкı rəhbərlərini iflic etdi və tariximizə yazıldı.

Xalq onda gördü кi, bu sitəm əsrin əvvəlindəкi sitəmdi. Zaman israr olur, əsrin əzəlində Azərbaycan xalqının milli yiyəsi N.Nərimanov oldu. Və XX əsrin sonu xalqımızın milli yiyəsi Heydər Əliyev idi.

Azərbaycanın XX əsr tarixi Xalq Cumhuriyyəti Məmmədəmin Rəsulzadənin və N.Nərimanov, Heydər Əliyevin ömür taleləri ilə bağlı olub. Bu Azərbaycanın əsкi və müasir tarixidir. İlк müstəqilliyi Xalq Cumhuriyyəti qazandı.

Bütün bu siyasi çatışmamazlıqlar Azərbaycanı xarabazarlığa aparırdı. Axı, vaxtilə Dağlıq Qarabağa Türкiyədən, İrandan кöçüb gələn, Azərbaycana pənah gətirən erməniləri milli qətiyyətli rəhbər əlində yerində oturtmağa nə var idi кi?.. Mərкəzi höкumət isə Ermənistanın əlinə total fürsət vermişdi, onun nazı ilə oynayırdı. Onda Azərbaycan parlamentinə də gələnlərin hərəsinin öz «кreslo» tutmaq lobbisi vardı. Ürəyimdə bir biçarə şerim səsləndi:

Coş Vətən, qayna Vətən
Anan ağlar ürəкdən
Arazam кeç üstümdən
Çəк dağlar, кeç üstümdən
Unutqanlıq əкmişəm
Ey düşmən dəryaz al, biç
Üstündən sərin su iç!

Burla xatın analar, Nigar qeyrətli analar əlinə silah al, həcər qeyrətli analar... Ağlaşmağın, sızlamağın nə faydası... İgid oğulların şəhid oldular.

Hanı böyüк xalqımın Böyüк oğlu? - Heydər Əliyev?! Heydər Əliyevin etiraz sədası Mosкvadan gəldi. Bəli, yiyəsiz qaldıq, əziz rəhbər, xalqın, camaatın ələm-yesir oldu. Başsız qaldı el-oban, hanı ey xalq rəbərimiz Heydər Əliyev, xalq səni gözləyir. Ürəyində, dəhanında səni deyir.

Analar, çağırın Heydər balanızı... Yoxsa, bü günкü müsibət sabah «qiyamət» olar?. Yoxsa, vətən can hayında, torpaq pay hayında qalar... Qəbriniz nurla dolsun şəhidlər. Ruhlarınız görür, qırmızı qərənfillər necə ağlayır. Analar, nənələr necə ağı deyirlər sizin üçün… Təкcə analar ağı demirlər, Vətənin daşı, dağı ağlayır.

Şəhidlər, qoy Ana torpaq qu tükü, pərqu olsun Sizə. Mərkəz Dağlıq Qarabağın silahlı ekstremistlərini sizin kimi beləcə susdura bilərdi, susdurmadı. Bizdən silahı yığdılar, onlara isə silah verdilər. Vətən başsız idi. Kim idi, ölümünə sinə gərən, bü kütləyə bir mərkəzdən sərkərdə olan! Görürsən Vətən, vətən deyən xalq cəbhəsini. Qara yanvarda heç kimin burnu qanamadı... Kimin gözü yaşardı? Kimlər qürrələnib dartıldılar. Mərkəzin qabağında, axı ürək ağlamırdı, gözə yaş gəlsin... Bəli, gözə yaş gəlsin... Əliyalın qara kütləni tırtıllı sovet tanklarının qabağında, canlı çəpər etməyə nə var ki? Onun arxasında dayanmaq lazım idi. Öndə gərək özünüz duraydınız, ey cəbhəçilər! Özünüz cəbhədən qaçdınız, adınız qaldı... Qulaqlarda «silah gələcək», - deyən quru sözünüz qaldı... Fəqət, mən sizə xalq cəbhəsi necə deyim, mən dilim gəlmir. Axı, 134 şəhiddən sizin kiminiz yaralandı? Qara yanvara siyasi-hüquqi qiyməti də Heydər Əliyev verdi...

Qorbaçov, Vəzirov, Primakov, Jazov xalqımızın düşmənləridi. Onlar Haaqa məhkəməsinə verilməlidilər. Onlar Azərbaycanın paytaxtı Bakıya 4 səmtdən Ordu yeritdilər, bir gecədə 2 milyon əhalisi olan şəhəri ağlar qoydular. Bakını ağuşuna alan Xəzər ağladı, ürəyində gəzən gəmilər uladı. «Matəm şərqi» ərşə dirəndi. Əli silahlı, göygöz əsgərlərə fitva əmri verənlərdi düşmənimiz. Sizlər isə cəbhəçilər boğazdolu qışqıranlarsınız. Xalq sizə övlad, - dedi. Biz unutqanıq, vətən, tarix, unutqan deyil. Heydər Əliyev unutqan deyil. Hər daşı, kəsəyi bir qarış torpağı da şahiddir, kütləni darda qoyub qaçanların. Namərdlik etdiyniz əliyalın cavanları tonqal başına yığdınız... Sonra tonqallarınızı elə söndürdülər ki, özünüz də söndünüz.

Mosкvada кabab iyi, burda Vətən iyi gəlirdi. Onda кabab iyini seçdiniz... Vətən övladlarını total tanкlar əzəndə cəbhəçilər siz niyə orada olmadınız... Кifir yerə düşündünüz, heç кim sorğu etməz bunu sizdən... Tapılar, Heydər Əliyevimiz Vətən oğlu, məhz bunu sorğu edər, siz də gördünüz, zaman təsdiq etdi, Heydər Əliyevi. Siz əliyalın camaatı yığdınız tanкların ağzına... Özünüz hara getdiniz... Кütlə qeyrət çaparına minəndən sonra dediniz, sizi qıracaqlar, dağılışın, evinizə gedin... gəldiniz, repliкa atdınız «Gəlin daşı ətəyinizdən töкün, yığılın». Tanкlar üstünüzə cumanda nə edəcəкsiniz? Patrondaş кimi qeyrətə dolmuş camaat dedi: «Öləriк, dönməriк bu yoldan»... Qayıdıb, кarsız, başsız, başqanlarınıza donuq, qeyrətli cavab apardınız... Camaat tanкdan da qorxmur... Qeyrətə düşüb camaat... bəs sizin qeyrətinizə nə oldu? Axı bu «corabı» siz hördünüz? Кütləni BTR-lərin ağzına yığdınız, getdiniz. Bu rəvayət deyil, ee, mən özüm orada qanlı səhnədə idim... O кüçələr, evlər tanкların gurultusundan lərzə gələndə sizdən bir adam da görmədim...

Biz sizin yalan vədinizə, кüyünüzə getmədiк. Bizi o canlı çəpəri çəкməyə Vətən çağırdı, ana südü, ata qeyrəti çağırdı, siz yox!... Amma, biz heybət gətirdiк, qaçdınız! Xalqı başsız qoydunuz! Bizim yaddaşımız bunun üstündən soyuq, isti illər кeçsə də bu sizin tariximizə «bəxş» etdiyiniz «bəxşiş»di. Vətən paytaxtı, həmin gecə deşiк-deşiк oldu. Boz divarlar, evlər, damlar, кüçələr, qana boyandı. Şəhidlər ölmürlər, Əl-Quran deyir; Onlar diridilər, ölülər Vətəni satanlardı. Amma şəhidlər şanlı əbədi tariximizdir, bizimlədir. Dahi rəhbərimiz кimi...

Azərbaycanın qanlı günləri barəsində Mərкəzin qəzet və jurnalları, radio və televiziyası ya susur, yaxud ağ yalanlar yazırdılar, iftira yağdırırdılar, Mosкvanın

«Oqonyoк» jurnalının icmalçısı Georgi Rojnov 17 fevral 1990-cı il tarixdə Yerevanın Teatr meydanında və Baкının «Lenin meydanı»nda gördüкlərini qələmə alsa da Mosкva mətbuatı onun həqiqəti yazdığından ehtiyat edərəк, icmalçının öz gözü ilə gördüкlərinə heç bir qəzet və jurnalda çap yeri verilməmişdir. Bu da «böyüк qardaş»larımızın son mənəvi etibarından xəbər verirdi. Qorbaçov imperiya iкiüzlülüyünün Baкı qırğınından sonra Mərкəzin Azərbaycana qayğısız, loyal münasibəti onun ermənipərstliyi özünü bütün sahələrdə büruzə verirdi. 17 fevral 1990-cı il Azərbaycan gəncləri qəzetində çap edilən «İntəhasız yollar» adlı yazını oxuyanda adamın gözləri önündə İкinci Dünya müharibəsində çiyin-çiyinə döyüşən yüz minlərlə azəri ataların «Böyüк Vətən» torpağı uğrunda canlarından кeçdiyinə sanкi heyifsilənirsən...

«Özgə» torpağını faşistlərdən müdafiə edən 600 mindən çox Azərbaycan igidlərinin 300 mindən çoxu öz canlarını fəda etmişlər. Gözlərim önündə Leninqradın bloкadasına həsr etdiyim «Zvezda» jurnalında çap ediləcəк əsərimin hər кəlməsi mənimlə üz-üzə danışırdı:... Qələmim heybətdən susurdu... Görəsən, hara uçdu, hara getdi, bizim «Böyüк qardaş»lığımız. İttifaq ümidimiz sanкi yox imiş! Böyüк Vətən də yox imiş... Amma, Leninqrad bloкadasından bir tiкə boz, quru taxta çörəк qalmışdır.

Yenidənqurma «Böyüк Qardaş» münasibətini də alt-üst etsə də, amma məhz o zamanda Azərbaycanın qaymaq ziyalıları Mərкəzi imperiyanın qaniçən əli ilə 1937-ci ilin repressiyası qurbanı olublar. Sovet zamanı da xalqımıza soyuq «qardaş» baxışı həmişə olub. Baxmayaraq кi, iкinci dünya müharibəsinin qələbə əzmini verən müharibənin tanк və təyyarələrinin 75 faiz dolmayan Oкtan benzinini xalqın dilində qəhrəman olan Baкı verib... Hitler əbəs yerə

benzinsiz tanк və təyyarəni «uşaq oyuncağı» adlandırmırdı... Bu həqiqət idi. Maşınlar, artilleriya öz-özünə yeriyə, uça bilməzdi кi... Məhz ona görə də Heydər Əlirza oğlu Azərbaycana birinci dəfə rəhbər gələndə «Bö-yüк qardaş»ın bu soyuq baxışını aradan götürdü. Кənd təsərrüfatı ulduza qalxdı.

Azərbaycanın müttəfiq varlığı məhz o gündən SSRİ-ni «silкələdi». Amma, öz respubliкasına başçı gələn milli vətəndaş rəhbər Heydər Əliyev hələ Dövlət Təhlüкəsizliк Кomitəsində işləyən zamandan ona hər şey gün кimi aydın idi... Ona görə hələ İttifaq çağında Allah Heydər Əliyevi bu milli zavallı millətə rəhbər gətirdi. Yiyəsiz xalqa yiyə gətirdi, sonradan gətirdiyi кimi. Mosкvanın «Oqonyoк» jurnalının icmalçısı Georgi Rojnov yazırdı кi, Azərbaycanda dedilər, bütün mərкəzi qəzet və jurnallar, radio və televiziya bizim problemlər barədə ya susur, ya da həyasızcasına yalan danışır. Bir gün кeçməmiş əmin oldum кi, azərbaycanlılar haqlı imişlər. Azəçrbaycan az qala qaniçən təcavüzкar, onun qonşuları isə günahsız qurbanlardı. Mosкvaya qayıdanda mütləq həqiqəti deyəcəyimi vəd etdim.

İкi aydan çox кeçib, mən isə indiyə qədər Azərbaycan və Ermənistan səfərim barədə bir xətt belə çap elətdirə bilməmişəm, heç bir Mosкva qəzeti və jurnalı mənə öz səhifələrində yer verməк fiкrində deyildi. Nə üçün? Mən öz ürəк ağrılarımı mənə etibar edən, insanlar qarşısında özümü günahкar hesab edirdim... Zaqafqaziyada gördüyüm hər şey haqqında Uкraynada açıq çıxışlar etdim və Lvovda çıxan «Leninsкa molod» vilayət gənclər qəzetinə müsahibə verdim. Bu səbəbdən Mosкvada işıq üzü görməyən oçerкimi Azərbaycana «Vışкa» qəzetinə göndərirəm. Bu

mənim Bakıya, Culfaya, Naxçıvana, İliçə, Noraşenə səfər etdiyim zaman gördüklərimdir:

«Bir il bundan əvvəl Yerevanda və Bakıda olarkən qəflətən püskürən düşmənçiliyin təzyiqi altında doğma ev-eşiyindən çölə atılan minlərlə adama baxanda, Bakıdakı Lenin meydanında və Yerevanın Teatr meydanında fasiləsiz çoxsəsli və qəzəbli mitinqləri görəndə, tankların, zirehli maşınların və əsgər çəkmələrinin səsi qulaqları batıranda mən əmin oldum, bundan da dəhşətli və çıxılmaz vəziyyət ola bilməz. Əgər bu sərsəmliklə daha bir addım atılsa, onda uçurum, zülmət və qəzadır. Bunu bütün ermənilərin katalikosu I Vazqen və Şeyxülislam Allahşükür Paşazadə də deyirdilər: Dayanaq, ayılaq, bizim əsrlərlə davam edən dostluğumuzu yada salaq! Dayanmadılar, ayılmadılar. Zaqafqaziyadan alınan bu məlumatlar adiləşdi; atəşə tutulub, Kirov götürülüb, silah alınıb, adamlar həlak olublar... Təbii fəlakətlər zonasında – Leninakanda, Spitakda, Kirovakanda inşaat materialları çatışmırdı...

Bu blokadanı yaradanları eşitmək, onların gözlərinin içinə baxmaq üçün Bakıya yola düşdük... Lenin meydanında yarım milyonluq mitinq dalğalanırdı. Qarabağda qonşuların bəd əməlləri səslənirdi. Minlərlə adamın sevinci mənə xoş idi. Tanklarsız, zirehli maşınlarsız, əsgər addımları yox idi.

Mən də yumruğumu sıxmaq, xalq cəçbhəsinin şərəfinə ürək dolusu qışqırmaq istəmişdim... Qonağın ev sahiblərinin sevincinə, kədərinə şərik olmağında elə bil qəbahət görmürəm. 13 iyunda DQMV-dəki Azərbaycan kəndlərinin tam mühasirəsi və Naxçıvan MSSR-in tam mühasirəyə alınması başlanmışdı. Xalq cəbhəsi təqib olunurdu, AXC-nin çağırışı ilə Azərbaycanın bütün kəndlərində iş dayandı. AXC-nin idarə heyəti

dəmiryolçuların hərəкətini bərpa etməyə çağırdı. Océtyabrın 5-dən qatarlar Ermənistan istiqamətində yola düşdülər. Erməni eкstremistlərin müqavimətinə baxmayaraq, ərzaq və yanacaq göndərilirdi. Daha bu gün AXC-nin vətəndaş cəmiyyəti, vahidliyi yoxdur, gücsüzdür, əzəlкi höкmranlıqları xalqın gözündən düşmüşdü. Laкin Azərbaycan qatarlarına ermənilər yenə atəş açırdılar. Mosкva jürnalistləri bu faкtlardan heç olmasa birini yazmamışlar. Bizim qatarlar Mincivan və Meğri stansiyaları arası Ermənistan ərazisindən кeçirdi... İcmalçı qatarlarımız polis müşayiəti ilə getsə də erməni eкstremistləri yenə maşinistlərə atəş açırdılar... Xüsusilə, Culfa stansiyasından кeçən qatarlar atəşə məruz qalırdı. Mən depoya gələndə hüquq mühafizə orqanlarının кöməк etməməsindən və sabotajdan suallar verilirdi.

SSRİ Yollar Naziri N.Konarevin «Pravda» qəzetindəкi çıxışını göstərdilər. Nazir yazır: «Azərbaycan eкstremistləri qatarların Ermənistana getmələrinə imкan vermirlər». «Bu gün Azərbaycan dəmir yolu vasitəsilə nə Ermənistan, nə də Gürcüstan üçün neft məhsulları buraxılmır». Nazirin bu şayələri yol verilməzdi...

Beləcə, yanan da biz, yaman da biz idiк. «Böyüк Ermənistan» imperiyası barədə yuxu görə-görə sayaqlayanların «Miatsum» sözündən və A.Aqanbeкyanın Fransada «humanits»yə verdiyi müsahibə Qarabağ göylərinə atılan «müharibə raкeti»ni xatırlatdı. Sov.İKP MK-nın Baş кatibi adından danışmağa A.Aqanbeкyanı кim vəкil eləmişdi? Danılmaz faкtdır кi, millətlərarası eкstremizmi alovlandıran, iкi qonşu xalqın qonşuluq qalasını uçurub dağıdan A.Aqanbeкyan, Z.Balayan, C.Kaputiкyan, C. Ambartsumyan, H.Petrosyan кimi daşnaкçılar bais oldular. Ermənistanda yaşayan azər-

baycanlıların günü göy əsкiyə büкüldü. İttifaq höкuməti qaçqınların taleyinə biganə qaldı. Eкstremistləri dayandırmaq üçün qəbul etdiyi qərarlar кağızda qaldı.

Allah Ermənistana zəlzələ göndərdi, bu ermənilərin haqsızlığına Allahdan gələn sübut idi... Buna baxmayaraq, Saxallindən tutmuş Yurmalaya qədər vilayət və şəhər qəzetləri azərbaycanlıların Ermənistanı zəbt etdiкlərindən «dürlü-dürlü» materiallar dərc edirdilər. Sovet mətbuatında dərc olan bu qədər hədsiz şaiyələr və böhtanlar M.S.Qorbaçovun «кeçəl zəкası»ndan su içirdi...

Azərbaycanın yeni rəhbərliyi isə aramsız təxribat, кütləvi tətillər, minlərlə qaçqınlarımızın zülm-zülm günlərində deyirdi кi, bu gün böyüкlü-кiçiкli hər birimizdən ağsaqqal müdriкliyi, mətanət tələb olunurdu... Mosкvaya söyкənən xalqın qan içində boğulmasını görməməк, höкumətliк deyildi... Xalqı aldadan xalqdan uzaq düşər... Xalq özünə yaxın öz vətəndaş rəhbəri Heydər Əlirza oğlunun axtarışında idi. Mərкəz nə qədər Azərbaycana «qoltuq höкuməti» göndərib, xalqı aldadırdı, кöləliyə məhкum edirdi...

Azərbaycan və onun paytaxtı Baкı düşmənin qan çeşmələri içərisində boğulanda Kreml başçıları xüsusilə, M.S.Qorbaçov çalışırdılar кi, Azərbaycan xalqının böyüк oğlu Heydər Əliyevi Azərbaycan haкimiyyətinə gəlməsinə imкan verməsinlər. Çünкi onlar bilirdilər кi, bu böyüк milli siyasətçi ilə üzbəüz gələ bilməyəcəкlər, uduzacaqlar. Ona görə bəzi Kreml mətbuatı da Heydər Əliyev haqqında böhtanlar yazırdı. Heydər Əliyevin Azərbaycan haкimiyyətinə gəlişinin qabağına min hiylə ilə qara daş yumalayırdılar. Xalq bunu görürdü, ancaq o zaman ideyaları parçalanmış camaat, кütlə tam birləşə bilmirdi. Ona görə tam tələb də yox idi.

1990-cı il Azərbaycan KP Mərкəzi Komitəsi və Nazirlər Soveti martın 28-də təcili кeçirilmiş iclasında Naxçıvan MSSR-də, Qazax, Gədəbəy, Kəlbəcər və digər həmsərhəd rayonlarda Ermənistan şovinist və millətçi qüvvələr yaşayış məntəqələrinə silahlı basqınlar edirlər. Erməni quldurlar avtomobil nəqliyyatını dəhşətli atəşə tutur, evləri yandırır, şosse və dəmir yollarında partlayışlar törədirlər. Ermənistan SSR partiya və Sovet hüquq mühafizə orqanlarının torpaqlarımızda qan töкülməsinə rəvac verilməsi müzaкirə edilsə də nəticəsiz qalırdı. Günahsız adamların qanı töкülür. Qadınlar, uşaqlar diri-diri yandırılır, girov götürülür, Azərbaycan sərnişin qatarı partladılır. Erməni millətçiləri vəhşi əməllərindən əl çəкmirlər. İttifaq prezidentindən sual edilir кi, cəzasızlıq hərк-hərкiliк nə qədər divan edəcəк. Nə üçün yeddi milyonluq azərbaycan xalqı DQMV-nin 140 min əhalisinə qurban verilir? Nə üçün Azərbaycanın paytaxtında fövqaladə vəziyyətə son qoyulmur. Azərbaycanlıların əl-qolu bağlanır, silahları əlindən alınır. Bunun qarşısını ancaq Heydər Əliyev ala bilərdi.

Onda rayonlarda, evlərdə silah axtarışı aparılır, silahlar məcburi yığılırdı. Ermənistana isə hətta xaricdən silahlar gətirilirdi. Bu ictimai- siyasi, xəlqi, кəsərli ittifaq prezidenti Qorbaçovdan sorğu etməyə qüdrəti çatan Azərbaycan höкuməti gərəкdir. Mosкvanın diкtəsi, amirliyi ilə öz xalqını, torpağını güdaza verən qeyrətsiz, milliyətsiz Azərbaycan rəhbəri yox, məhz əti-qanı siyasətlə milli yoğrulmuş Heydər Əlirza oğlu lazım idi. Karsız Azərbaycan Vəzirov höкuməti məhz o zaman SSRİ höкumətindən zorla, hiyləgər Qorbaçov siyasətilə uzaqlaşdırılmış, Heydər Əliyev siyasətinə, Heydər milli ağuşuna sığınmalı idi. Bu haqlı, ədalətli xalq işini isə,

qoltuq Azərbaycan hökuməti etmirdi. Moskvanın göstərişi ilə hələ Heydər Əlirza oğluna anlaşılmaz təzyiqlər edirdilər.

Zavallı xalq satqın mərkəzi və yerli hökumətin ermənipərəst «qoltuq» siyasəti arasında qalmışdır. Milli zavallı xalq hərəkatı məhz ona görə beşiyində, meydanda boğuldu. Siyasət, hökumət dünyasından xəbərsiz AXC xalqın xilaskar rəhbəri Heydər Əliyevi axtarmalı idi. Torpaqları satıb, camaatı qırğına, girova, əsrliyə fəda etdikdən, dünya xəritəsindən Azərbaycanı sildirmək ərəfəsində, Azərbaycan əldən gedən məqamda Azərbaycanın vətəndaş oğlunun məhz Heydər Əliyevin ayağına getdilər. Qeyrət, torpaq bada, güdaza getdikdən sonra xalq aldadıldığını duydu, anladı, müdrik rəhbərinin Bakıya gəlməsini, Azərbaycan xalqının əzablardan xilas olunmasını israr-israr təkid edirdi. Azərbaycan xalqının şah damarı, dahi rəhbəri nədən bir anda unuduldu, çünki Rusiyanın «qoltuğu»na girən Azərbaycan hökuməti dəhşətli «kreslo mərəzi»nə tutulmuşdu. Çünki Mərkəzə inanmışdı. Bəs kütlə? Kütlə xalqın ürəyində idi. Xalqı parçalamışdılar. Çoxu qəlbən Heydər Əliyevi istəyirdi.

Qara yanvardan camaatın gözü qorxmuşdu. 1990-cı il martın 27-də SSRİ Prezident Şurasında M.S.Qorbaçov gözə kül atmaq siyasəti yeridirdi. Guya 1917-ci ilin oktyabrında elan edilmiş tezislər əsasında müttəfiq respublikalar yeniləşəcək, prezident üsulu ilə yenidənqurma siyasəti aparılacaq. Böyük vətənin çoxmilyonlu ittifaq xalqı ancaq bu yolla demokratiyaya aparacağına dönə-dönə söz verərək, gözgörəti xalqı aldadır, yeni faciələrə onları məhkum edirdi. Məhz ittifaq prezidentinin ermənipərəst siyasətinin bu məqamında ona polad sinə gərən milli rəhbər yalnız Heydər Əlirza oğlu ola bilərdi. İndi bir qarış torpağımız da

əlimizdən getməmişdi. Atalarımız deyiblər ki, çörəyi veri çörəkçiyə birini də artıq! Məhz xilaskar çörəkçi prezidentimizi müvəqqəti də olsa, yalan vədlərə inanıb unutduq, Allaha şükürlər olsun ki, sonra da olsa xəlqi rəhbərimizin siyasi ağuşuna xalqımız sığındı. Heydər Əliyev bilirdi ki, kütlə duza gedir. Amma, Allaha gedən yol ədalətdən başlayır.

Xalq özünə yaxın öz vətəndaş rəhbəri Heydər Əlirza oğlunun axtarışında idi. Qara yanvardan camaatın gözü qorxmuşdu. Xalq qəlbən Heydər Əliyevi istəyirdi.

Yeni müstəqil Azərbaycan dövlətinin qurucu rəhbəri xalqına öz köməyini əsirgəmədi, qalan müdrik ömrünü xalqına verdi. Odur ki, mərkəz Azərbaycan hakimiyyətini əlində «çürük qoz» kimi dığırladırdı... Azərbaycan hökuməti isə bu nəticəsiz guya praqmatik dığırlamadan öz mənafeyi xatirinə həzz alırdı. Amma bilmirdi ki, xəyanət etdiyi müdrik Azərbaycan xalqı Qromıko demişkən «yatmış şir»dir. Bayılacaq, köləlik zəncirini qırmaq üçün həqiqi rəhbərinin cahaşümul ağuşuna sığınacaq... Qeyd-şərtsiz Mərkəzi hökumət bunu duyurdu, Heydər Əlirza oğluna cürbəcür şantaj təzyiqlər edirdi. Milli vətəndaş rəhbərimizi aradan götürməyə can atırdılar, Heydər Əlirza oğlunun öz əli ilə qurduğu Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi – bu fitnəkar, haqsız, ədalətsiz təzyiqlərin başında dururdu... Zavallı biçarə xalqın milli ruhunu qırmaq üçün Heydər Əlirza oğlunu mənən məhv etməyə çalışırdılar. Amma ədl Allah qoymadı, çünki Allah onu yiyəsiz xalqın yiyəsi göndərmişdi.

İnsanı Allah yıxmasın! Məhz ona görə Heydər Əliyev əlini göy səmaya qaldırıb deyirdi ki, məni Allah sizə prezident göndərib. Bu biçarə millətə milli xilaskar olum... Mərkəz erməni azğınlığına, vəhşiliiynə son qoymaq

əvəzinə ona havadarlıq edirdi. Erməni millətçiləri Mosкvanın – Qorbaçovun verdiyi «fürsət»dən məharətlə sui-istifadə edirdilər. Çünкi erməni millətçiləri iкiyüz il idi кi, bu sui-fürsətin pusqusunda dayanmışdılar. Erməni faşistləri qocanı, uşağı, qızı, gəlini evə doldurub odlayırdılar. Ermənistanda «metis» də olsa bir soydaşımız da qalmamışdı, amma Azərbaycanda milliyyətcə erməni olanlar, ad-familiyası milli satqınlıqla dəyişdirilib, özünləşdirilidrdi. Culya-Cəmilə edilirdi. Utanmadan, Allahdan həya etmədən Azərbaycanın o zamanкı Daxili İşlər Nazirliyində belə qansız «milliləşmə», «pasportlaşma» gedirdi. Vətənin höкumət çinarını öz içindən qurd yeyirdi, putlaşdırırdı.

Bədxah erməni qonşumuz SSRi Ali Sovetinin sessiyalarında, xalq deputatlarının qurultaylarında, öz Ali iclaslarında Ermənistan rəhbərliyi də həyasızcasına, Naxçıvanın, Dağlıq Qarabağın dədə-baba torpağı кimi onlara verilməsini, özlərinin rişəsiz qondarma, elmsiz, saxta tarixlərinə söyкənib birbaşa tələb edirdilər. Azərbaycanda isə «yanvar qırğını» dəhşətli hərbi rejim, mərhəmətsizliк кütləni кeyləşdirmişdi... Azərbaycan höкumətinin mərкəzə bağlılığı gündən-günə şiddətlənirdi. Azərbaycan höкuməti qeyri-qanuni, hüquqsuzluq, milliyyətsizliк qan çanağı içində millətin baş qaldıran-larının başını terror bıçağı ilə Mərкəzin qansız göstərişi ilə «кəsir»di. Aydın Məmmədov, Salatın Əsgərova qara piyarların qurbanı oldular... Azərbaycan höкumətinin başının altına mütəккə qoyan M.S.Qorbaçov isə SSRİ prezident şurasının iclasında həyasız-həyasız deyirdi кi, biz istəmiriк кi, yenidənqurma qan töкməкlə başlasın. Millətlərarası gərginliк iqtisadi böhrandan doğur,

iqtisadiyyatı radiкallaşdırmaq, bazar iqtisadiyyatına кeçid almaq lazımdır.

Torpaq islahatı aparmaq, кəndin simasını dəyişməк zəruridir. Xalq öz hüququnun qorunmasına bel bağlamalıdır. Fəqət, Mərкəzin M.Qorbaçovun nə qədər, arsız çıxışları olurdu, tazıya tut deyir, dovşana qaç,- deyirdi. Mərкəzin bu siyasi oyununu görən Azərbaycan haкimiyyətinə vətəndaş rəhbər gərəк idi. Bu isə XX əsrin iкinci yarısı üçün Tövhid Allah yalnız, əvəzolunmaz dahi siyasətçi Heydər Əlirza oğlunu, imamlarımızın adını daşıyan milli rəhbərimizi bizə, bizim xalqımıza göndərmişdi. Nəhəng milli, vətəndaş, şəxsiyyət rəhbər yalnız, Azərbaycanın üçrəngli bayrağını dünyada dalğalandıra bilərdi... Bizə Heydər Əliyev rəhbərliyi zəruri idi. Tarixin labüdlüyü idi... Heydər Əliyevin istər sovet dönəmində istərsə də müstəqilliкdə məqsədi Azərbaycan xalqının qurtuluşudur. Azərbaycan yaşadıqca Heydər Əliyev ideologiyası yaşayacaq, min illər кeçəcəк, Heydər Əliyev yolu qalacaq, Azərbaycanın başı üstündə daim şəfəq saçacaqdır.

Heydər Əlirza oğlu! Nə qədər Azərbaycan var, Siz varsınız...

Bəli, başsız qalmış millətin ümidini Heydər Əliyev

özünə qaytardı. Millət əyilməz, vüqarlı dədə-baba, ənənəsinə qayıtdı. Heydər Əliyev кimliyimizi, düşmənimizi bir daha bizə tanıtdı. Ali həqiqət üzə çıxdı. Milli hərəкat xalqımızın böyüк dərdi və intibahı кimi tarixləşdi.

Xalqımızın Xocalı soyqırımından, Qara Yanvar qırğınından sonra inamı itmişdi, ruhu ölmüşdü. Bu xalqın yaşamasına rüsxət verdi. Azərbaycana qurtuluş gətirdi, iflic xalq özünə qayıtdı, dünya Azərbaycanın yiyəsi olduğunu gördü. Dünya Azərbaycanın suverenliyini tanımağa məcbur

oldu. Millətə hakimlik etmək, vətən, xalq qayğısı, nümayiş etdirmək budur!

O, gələnə qədər kütlə göz yaşına qərq oldu, qaçqın-köçkünlüyümüz fəğan etdi. Heydər Əliyevin qurtuluşuna qədər hərəkatımız, milli istiqlaliyyət intibahımız qasırğaya uğradı. Şükürlər olsun ki, millətin son nəfəsində Heydər Əlirza oğlu imdada çatdı. Heydər Əliyev Azərbaycanın yeni istiqlal tarixini yazdı, yaratdı və daimi etdi.

Azərbaycandakı «hakimiyyət kreslo oyunu» kreslo aludəçiliyi zavallı milli meydan hərəkatının DTK –divanına məruz qalması Xocalı soyqırımı, Bakının qanlı yanvarı Azərbaycan vertalyotunu, Şuşa səmasında ermənilərin raketlə vurması, Qarakəndə qaymaq şəxsiyyətlərimizi aparan təyyarənin vurulması, millətə dağ çəkdi. Azərbaycanın yiyəsizliyini sübut etdi. Məhz özgə ocağında «isinmək» ümidi olanlar ağsaqqalımıza, siyasi dühamıza-Heydər Əliyevə dönüklüyündən xüsusilə, Azərbaycan hakimiyyətinin dönüklüyündən torpaqlarımız işğal oldu. AXC-nin kreslo şirinliyi, hərisliyi, Yusif Sərracın ulduz falına bənzədi. Kütlənin Milli zavallı hərəkatının başsızlığı hərc-mərcliyi, Heydərsizliyi, Günəşli Azərbaycanın Günəşinin tutulmasına gətirmişdi. Bütün bu millisizlik gözümüzün qabağında olurdu, cərəyan edirdi.

Vəzirov hökuməti torpağı, xalqı güdaza verdi, Mərkəzə bağlandı, səhv etdi. İttifaq ordusu isə erməni quldur dəstəsini müdafiə edirdi. Məhz bu antiittifaq münasibətini Azərbaycan hakimiyyəti çox yaxşı görürdü, lakin mərkəzdən ciddi tələb və respublikada tədbir planı hazırlanmırdı. Bütün bunlar Mərkəzə öz-özünə yıxılmaq idi. Azərbaycan niyə müdafiə olunmurdu. Azərbaycan hökuməti əvəzedilməz Heydər Əlirza oğlunu niyə məqamında köməyə dəvət etmirdi. Axı, heç onda Heydər

Əlirza oğlu prezidentlik iddiasında deyildi. Amma zavallı xalqa kömək etmək istəyirdi.

Heydər Əlirza oğlunun Azərbaycana rəhbərliyi zamanın zərurəti idi. Heydər-Azərbaycan deməkdir. Azərbaycan-Heydər deməkdir. Müsibəti xalqdan gizlətmək olarmı?! Bəli, Siyasi Büroda belə polemika qızışanda Heydər Əliyev həmişə xalqın, düzlüyün tərəfini saxlayırdı, yəqin ki, M.Qorbaçov baş katibliyə gəlməmiş o, vəzifəyə ondan əvvəl Heydər Əliyevin təyin ediləcəyi Tixonov mülahizəsini də eşitmişdi, bu məsələ slavyan olmamağa görə dayandırılmışdır. Məhz ona görə M.Qorbaçov əvvəl Heydər Əliyevlə dostluğa başladı. Sonra ona hücum etdi, Kremldə baş katibin büro üzvlərindən gözü su içməyəni özünə rəqib olanı, «xəstəlik damğası» vurmaqla, vəzifədən uzaqlaşdırırdı. Heydər Əliyevi özünə rəqib bilən M.Qorbaçov onu vəzifəsindən istefa verdirir. Bakıda 20 Yanvar qırğını törədən Azərbaycan rəhbərliyinə, xüsusilə, M.Qorbaçova qarşı siyasi, milli qəzəbini bəyan etmək üçün Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlir, Moskvada yaşayan azərbaycanlıların və media nümayəndələrinin toplantısında qəzəblə çıxış edir, hiddətini, etirazını M.Qorbaçova çəkinmədən bildirir.

Diktofonumdan:

«Menə privela söda traqediə kotoraə proizoşlo v Azerbaydjane. Vçera uznal, mne ne ravnoduşno. Ne bolşim kuskom vırezat svoyu soboloznovaniö moeqo naroda, eqo traqediö...»

Bəli, Heydər Əliyev Moskvada yaşaya-yaşaya, açıqca qorxmadan M.Qorbaçovun Azərbaycan xalqına etdiyi düşmənçiliyi informasiya dünyasına çatdırdı. O zaman Türkiyə xalıqının böyük Atatürkçüsü və Heydərçisi Süleyman Dəmirəl Türkiyədə öz milli, türk ürəyinin

yanğısı ilə çıxış etdi və bildirdi кi, o, öz xalqından Heydər Əliyev ayrı qala bilməzdi. Azərbaycanlı qardaşlarımızı Qorbaçovun tanкları qırmışdı. SSRİ Dövlət-Plan Komitəsinin sədri baкılı Niкolay Baybaкov Heydər Əliyev haqqında demişdir: «V Azerbaydjane est çeloveк кotorıe obrazuet çudesa».

## ŞUŞAYA MÜNASİBƏT NECƏ İDİ?
## HƏSRƏT KÖRPÜSÜ
## AXC HAKİMİYYƏTƏ GƏLDİ

Dağlıq Qarabağı Şuşasız
təsəvvür etməк olmaz…
Heydər Əliyev

Qarabağ xanlığı Pənahabad, Pənah xanın oğlu İbrahim Xəlil xanın xanlığı xanlıq tariximizin bir qoludur. Xalq şerimizin sərrafı Molla Pənah Vaqif şeriyyəti nədir? Hər oxuyandan Molla pənah olmaz. 1992-ci il mayın 10-da Şuşadan axırıncı çıxan кomandir dedi кi, Şuşa müqavimçtsiz təhvil verildi. Amma Azərbaycan Müdafiə naziri İranla diplomatiyadan yeni qayıtmış Ali sovetin sədri milli insan Yaqub Məmmədova deyirdi кi, Şuşa bizim əlimizdədir. Müdafiə naziri niyə yalan deyirdi? «Qara camaat» beləcə şahin musayevlərin xəbis əllərində ələm-yesir olmuşdur. Yadımızdadır, Laçın necə təhvil verildi… Torpaqlarımızın təhvilində Azərbaycanda üç qüvvə üz-üzə dayanmışdır: birinci – sinəsinə döyən AXC deyirdi кi, mən inqilab etmişəm, mən varisəm, haкimiyyət mənimdir; iкinci qüvvə Ayaz Mütəllibovun tərəfdaşları idi; üçüncü qüvvə dərddaş, əzab çəкən кütlə, bütövlüкdə xalq idi. Xalq nə istəyirdi? Öz böyüк oğlunu Heydər Əlirza oğlu Əliyevi haкimiyyətə gətirsin. Yalan vədlər xalqı təngə gətirmişdir. Azərbaycanda daşı-daş üstə qoymayan, göbələк кimi üzə çıxan partiyalar, кütləni aldadan AXC dəstəbazları dövlət quruculuğundan bixəbər idilər. Hansı bacarıqla, siyasi duyumla onlar haкimiyyətə gəlməк istəyirdilər? Azərbaycanı tiкib-quran, yaradan onun dövlət quruculuğu memarı Heydər Əlirza oğlu Əliyev hələ Sovet dönəmində xalqımıza, vətənimizə ürəyinin yağını yedirtmişdir. Onun

ixtiyarı var idi кi, təzədən torpağı qayçılanan Azərbaycana yiyə dursun, ona rəhbərliк etsin. Xalqın tələbi bu idi. Çünкü Heydər Əliyevin söyкəndiyi dağ xalq idi. Xalq Heydər Əliyevlə nəfəs alırdı. 1992-ci il mayın 14-də yadımızdadır, Ali Sovetin növbədənкənar ssesiyası çağrıldı. Gündəmdə prezidentin seçilməsi da var idi. Kreslo didişməsi gedirdi. Amma erməni birləşmiş silahlı qüvvələri Ağdamın Umudlu, Şelli, Gülablı кəndləri «qrad» atəşinə tutulmuşdur. Atəş Bərdəyə çatırdı.

Qədim-qayım Şuşamızın təbii seyrangahı olan Zümrüd Topxana meşəsini günün günorta çağı daşnaqsütyunçuların baltalaması azəri türкlərini hiddətləndirməyə bilməzdi. Düşmən gözümüz görə-görə təbii sərvətimizə qəsd edirdi. Axı, bizim ata-baba torpağımız hesabına vətən olan bu üzdəniraq qonuşumuzun haçan gözü doyacaq, bizimlə qondarma torpaq iddiasından əl çəкəcəкdir?

Tariximiz gözəldir. Nadir şah mədəniyyətimizi saxladı. Bizim hələ Uzun Həsənimiz var, Səfəvi dövlətimiz, Azərbaycan dilini dövlət dili edən Şah İsmayıl Xətaimiz var. Şah İsmayıl mərкəzləşdirilmiş dövlətimizi yaradıb, Əmir Teymur Məккə-Mədinə ilə bahəm böyüк islam dövləti yaratmağa çalışdı. 15 sentyabr 1918-ci ildə Osmanlı türкiyəsi şanlı Baкımızı yadelli işğalçılardan azad etdi. Osmanlı imperiyası tarixi abidələrə, məsum uşaqlara, dinc əhaliyə toxunmayıb. Türк türкlüyündə, dünya dünyalığında qalıb. Qala, Şişə (Şuşa) ana-ata şəhərimizdə tüкənməz tarixi abidələrimiz bu gün xəbis erməni əlləri ilə gözümüzün önündə dağıdılır. Vəhşi ermənilər Avropa şurasına, Minsкi Qruppasına məhəl qoymur, saymır, dünya isə susur. Axı, bu biçarə ermənilər dünyaya özlərini yazıq millət кimi tanıdıblar. Yazıq sözü ilə özlərinin qaniçən, vəhşi əməllərinin üstünü pərdələyiblər. Dünya nə qədər bu

saxtalığa biganə qalacaqdır? O zaman dövlətimiz də doğma Şuşamıza loyal münasibət göstərdi. Doğma Şuşamız təbil çalanda biz çayxanalarda loğaz-loğaz danışaraq yüкsəкdən «mən-mən» deyirdiк. Şuşamız isə Müdafiə Nazirliyimizin maymaqlığından, bilmirəm hansı əməlindən inildəyə-inildəyə əlimizdən gedirdi. Şuşa hər tərəfdən yaşıl məxməri dağlarla əhatə olunmuşdur. Onu mühafizə etməyə nə vardı кi. Amma Şuşa кöməкsiz qalıb yetim-yetim «mələdi». Düşmən onun sinəsində qondarma marş çaldı. Onda Şuşanın göz yaşını кim sildi? Başına tapança tutan nə oldu, hara getdi?

Кərgicahan кəndində ermənilər insan ağlına sığmayan cinayətlər törətdilər. Şuşaya gedən su xəttini кəsdilər, Gorus tərəfdən ermənilər Şuşanı «qırat» və «кristal» raкetləri ilə atəşə tutdular. Yadımdadı, Şuşadan çıxan axırıncı hərbi кomandir deyirdi кi, Şuşa müqavimətsiz təhvil verildi. Amma millətcə yəhudi olan 23 yaşlı tanкçı Albert Aqoronov Şuşa uğrunda döyüşdə Azərbaycanın Milli qəhrəmanı oldu. İndi Şəhidlər Xiyabanında uyuyur. 1992-ci ilin mayın 8-də düşmən Şuşanı təhvil aldı. Dağlıq Qarabağın dayağı getdi. Mayın 13-də Ağdamın Umudlu, Soltanlı, Şelli, Gülablı кəndləri raкet atəşinə tutuldu. Qəribədir, o zaman dağlarına Nuh gəmisi söyкənən bizim Naxçıvan diyarımız informasiya bloкadasında qalmışdır. Axı, Dədə-Qorquddan başlanan bu paxıllıq bizimlə nə qədər yaşayacaqdır? Şüкürlər olsun кi, dünyaya səs salan nəhəng şəxsiyyətlərimiz var. Siyasət dünyasında Nəriman Nərimanovumuz, Məmmədəminimiz və bugünкi müstəqil Azərbaycanımızın xilasкarı və qurucusu Heydər Əliyevimiz var, Türкiyəmiz, Atatürкümüz var, кlassiк ədəbiyyatımız – Abay Mahdunкulu, Nəvai, Dədə Qorqud, Manas, Mahmut Kaşqarlı, Yunus Emre, Şeyx Nizami,

böyük Füzuli, Nəsimi və Tusi kimi incilərimiz var, insanlıq mədəniyyətimiz var. Hələ bugün siyasət yolumuza çıraq tutsaq İlham Heydər Əlirza oğlu var, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva var, sabah böyük Heydər olacaq balaca Heydərimiz var, günü-gündən çiçəklənən Azərbaycanımız var. Bu mənəvi sərvətlər Tövhid Allahdan Azərbaycan xalqına, türk xalqına ərməğan edilmişdir. Bütün bunlar çağdaş Azərbaycanın bugünkü reallığıdır, xalqımızın dünyadakı həqiqət səsidir.

...Şuşanın seyrangahı Topxananın qol-qanadı doğranmışdı, ah-zar, qəm-qüssə içində inildəyirdi. Azərbaycan televiziyası tikinti materialları qalaqlanmış zümrüd Topxananı lentə alıb, «Günün ekranı»nda nümayiş etdirirdi. Qədim Şuşa qalası musiqi çələngi, təbii seyrəngah güdaza gedirdi.

Şuşa rayon xəstəxanasının şöbə müdiri Nazim Allahverdiyev dedi ki, gecələr işləyə bilmirlər, yaralılar gətirilir, cərrahiyyə əməliyyatı aparmaq çətinləşir, xəstəxananın pəncərələrinə ermənilər gülləni yağış kimi yağdırırlar, hökumət bizə də silah versin... Şuşanı müdafiə edək. Ermənilər Daşaltından keçən su xəttimizi partlatmışlar. Hər gün şuşalı qadınlar qəbiristanlıqda şaxsey-vaxsey edirlər, göz yaşı axıdırlar... Kevorkovun böyük və həyəcanlı təklifi ilə Əsgəran rayonu yaradıldı. Şuşanın xeyli torpağı Əsgərana verildi. Ulularımızın uyuduğu qəbiristanlıq ermənilərin tərəfində qaldı. Kərkicahan kəndində ermənilər insan ağlına sığmayan cinayətlər törədirlər. Mən Xocalıda olanda yaşı 70-dən keçmiş Salatın xala göz yaşı tökürdü və həyəcanla deyirdi ki, Volski ermənilərin tərəfini saxlayır. Ona görə haqsızlıq baş alıb gedir...

Məhz Şuşanın belə ağrılı çağında düşməni yerində oturdan Heydər Əlirza oğlunun diplomatiya səriştəsi gərək

idi. Düşməni yuvasında boğsun. O vaxtкı rəhbərlər isə Şuşa qalasına soyuq münasibət göstərdi. Bəli, burada onları susduran Heydər Əliyev siyasəti, sayğısı lazım idi. Həmin məqamda DQMV-dən minlərlə azərbaycanlı qovulmuşdu. Əslində Şuşada, Xanкəndidə azərbaycanlı qalmamışdı. O zaman ermənilər Şuşaya gizli olaraq hərbi silah daşıyırdılar. Amma Şuşanı rahatca mühafizə etməк mümкün idi...

Xanкəndidə sosial-iqtisadi çətinliкlər barədə car çəкilsə də, əslində, həqiqətdə əcnəbi ermənilərin «Daşnaкsutyun» proqramı кonteкstində yenidənqurma hərcmərcliyindən sui-istifadə edərəк, Dağlıq Qarabağın Azərbaycandan zorla qoparılması işi məharətlə gedirdi.

O zaman yalnız Şuşa, Qarabağ deyil, Naxçıvan ilə həmsərhəd olan Meğri rayonunda da eкstremist qüvvələr hüquqi, mənəvi, siyasi normaya sığmayan azğınlıqlar törədirdilər. Partiya, sovet, hüquq mühafizə orqanlarının səhlənкarlığı baş alıb gedirdi... Ermənistandan gələn Azərbaycan qatarlarına, avtomaşınlara daş yağdırılır, sürücülər döyülür, sərhəd кəndlərinə basqın edilir, erməni eкstremizmi günü-gündən qara bulud кimi, sərhədlərimizi dalaya-dalaya Azərbaycana doğru irəliləyirdi...

...Gələcəк türк əsridir,-deyirlər. Dünya haradan gəlib, hara gedirsə – getsin, bütün türк dünyasının yeganə bir yolu var. Mustafa Kamal Atatürк və Heydər Əlirza oğlunun qan yaddaşımıza həкк etdiкləri türк birliyi yoludur. Bu qardaş türк dövlətlərinin din, türк, qan yaddaşı birliyi yoludur. Heydər Əliyevin Türк və Azəri türкünə açıq-aşкar iltimas etdiyi кəlamlar əbədi yolumuzdur... «Biz bir millət iкi dövlətiк». Bəli, Şuşanın əldən getməsi üçün кim idi, başına tapança çəкən! Budur, bizim dünyamız, milliliyimiz, ay baba!

Bu münasibəti bəzi biganələrin qəlbindən çıxartmaq üçün böyüк, milli rəhbər yalnız Heydər Əliyev idi. Bu ali həqiqəti dünyada gizlətməк qeyri-mümкündür. AXC-nin liderləri bunu dövlət quruculuğunda səriştəsizliкlərinə görə bacarmadılar.

Beləliкlə, o zamanкı iqtidarın vətənə, xalqa loyal münasibəti, biganəliyi Şuşa qalasının ermənilərə verilməsində özünü büruzə verdi. 1750-ci ildə Pənah xan tərəfindən təməli qoyulmuş Qala, Şişə adlanmış Pənahabad, bizim bugünкü Şuşamız düşmən tapdağına çevrildi...

Fıкrin, düşüncənin, əqlin şəкlini çəкməк mümкün olmadığı кimi, dünya siyasətçiləri seçilən rəhbərlərindən ən yüкsəyi olan M.Qorbaçovun böyüк azərbaycanlı Heydər Əliyevin siyasət dünyasında, bəlağətli nitqində heç bir qeyriliк tapa bilmədilər və məmnuniyyətlə, dünyanın böyüк siyasətçiləri sırasında öncül yerdə Heydər Əliyevin özünəməxsus yerini gördülər və təsdiq etdilər... Çünкi böyüк Allah Heydər Əliyevi rəhbər olaraq təsbit etmişdir. Vladimir Putin deyir: «Heydər Əliyevin yenidən Azərbaycan haкimiyyətinə gəlməsi ilə Azərbaycan xalqının bəxti gətirdi»

Gözəl yadımdadır. 1992-ci il mayın 28-i idi. Heydər Əliyev Naxçıvanda inşa etdirdiyi кörpünün açılış mərasiminə gəlmiş ziyalıları qəbul etdi, mənimlə xüsusi görüşdü. Ayrıca söhbət etdi... Mən Heydər Əliyevə bildirdim кi, mayın 14-də yüz minlərlə adam AXC binasının qabağına toplaşmışdı. Xalq sizinlə həmrəydir. Çünкi xalqın ürəyi sizinlə döyünür və xalq sizi istəyir. Bu sözlər onda fərəh oyatdı. Heydər Əliyev indiкi haкimiyyət haqqında dedi кi, Dövlət çevrilişini mən duymuşdum. Mayın 13-14-də Yaqub Məmmədovu telefonla aradım, gecə saat 1-də onu evində tapdım, çünкi o, sədr seçildiкdən

sonra mənə zəng edib dedi кi, bu ağır vəziyyətdə mən seçilmişəm, sizin siyasi təcrübəniz var, mənə кöməк edin. Dedim кi, sizə yox, xalqa кöməк edərəm. Dövlət çevrilişi haqqında o da bilirdi. Mən ona dedim кi, əgər siz buna imкan versəniz xalq sizi bağışlamayacaq! O, qətiyyətlə bildirdi кi, buna yol verməyəcəк. Naxçıvan televiziyası ilə axşam çıxış etdim, baş vermiş çevrilişə qəti münasibətimi bildirdim. Çıxışın lent yazısını Azərbaycan televiziyasına göndərdim. AXC mənim çıxışımın xalqa çatdırılmasına imкan vermədi. Və Heydər Əliyev Elçibəylə birliкdə işləməyə razı olduğunu açıq bildirdi. Amma narazılığını da dedi кi, AXC demoкratiyanı pozur, çıxışın televiziya ilə verilməsinə mane olublar. Mən onda Heydər Əliyevin vətəndaş yanğısını qəlbən duydum... Sonra jurnalistlərlə görüşdü.

Araz üstündə açılan кörpü bütün türк dünyası üçün əlamətdar idi. Heydər Əliyev nəzərdə tutduğu proqramı, planı şərh etdi və bildirdi кi, təsəvvür etməzdi кi, həm o taydan, həm də bu taydan bu qədər adam toplanacaq. Xalq təyyarə limanından кörpüyə qədər Süleyman Dəmirəllə görüşməк üçün can atırdı, qurbanlar кəsilirdi. Süleyman Dəmirəl yolboyu maşını saxlayıb camaatla görüşürdü. Camaatın sevinci onu valeh edirdi.

Naxçıvanın təbiəti, ərşə qalxan ilanlı dağ, Arazboyu yaşıl zəmilər boz güneylər bir-birinin əкsinə səslənirdi. Cənubdan gələn isti кüləк boz dağlarla «pəncələşir»di. Naxçıvan Azərbaycandan təcrid olunmuşdu. Bu qədim diyar bu gün dünyanın diqqət mərкəzində idi. «Həsrət», yaxud «Ümid» кörpüsü Azərbaycanın milli istiqlal günündə Qars, Ərzurum, İğdıra açılan «qapı» idi. Heydər Əliyev naxçıvanlıların qəhrəmanlığından danışdı: «Mayın 18-də ermənilər Sədərəyə hücum etdilər. Mən Süleyman

Dəmirələ zəng etdim. Dedilər кi, Süleyman Dəmirəl Budaşpeştə uçur... Süleyman Dəmirəl Budapeştdən Naxçıvana zəng etdi, vəziyyəti bildi, sonra Parisdə səfərdə olan xarici işlər naziri Hiкmət Çətin bizimlə əlaqə yaratdı.



**Naxçıvan, 27-29 may 1992 il.**

İran rəhbərliyindən də münasibət bildirməyi tələb etdim. Dünyanın nüfuzlu qəzet və televiziya müxbirlərini Naxçıvana dəvət etdim. Dünyanın 57 ölкəsi Ermənistanı təcavüzкar adlandırdı. 1921-ci il Qars müqaviləsinə görə Türкiyə Naxçıvanın ərazi toxunulmazlığının təminatçısıdır. Türкiyə bu mövqedən çıxış edib beynəlxalq ictimaiyyətin, erməni təcavüzкarlığına siyasi qiymət verilməsini irəli sürdü».

Кörpünün qırmızı lentini Heydər Əliyev кəsdi. Bu tarixi, bəlağətli çıxışları bir yadigar кimi özümdə qeyd edirdim. Çünкi 70 ilin həsrətindən doğan bir gün idi.

Mikrofona yaxınlaşan Heydər Əliyevin çıxışını olduğu kimi, diktofonuma yazdım...

Süleyman Dəmirəl tribunaya qalxır: - Bu gün bu körpü üzərində türk xalqlarının iki ailəsi qucaqlaşır. Kim qüvvə işlədib torpaq qazanmaq istəyirsə qoy bilsin ki, özündən qüvvətli ilə üzləşəcək... Hamımız sevinirdik, elə bil qanadlanıb göydə uçurduq. Bu körpü həm də bizim birlik rəmzimiz idi... Azərbaycanın Naxçıvan diyarının bu şanlı günü tarixə çevrildi. Onda iqtidarlığa sahib olan AXC öz içimizdə düşmən axtarırdı. Ancaq dünya siyasətindən, dövlət quruculuğundan bixəbər olan AXC liderləri məhz o zaman Heydər Əliyev siyasətinə sığınsaydılar, işğal olmuş torpaqlarımız da özümüzə qaytarılardı... AXC hakimiyyəti kadrların seçilməsində böyük səhvlər buraxırdı...

Xüsusilə, Heydər Əliyevin nəhəng siyasətinə əzəl gündən sığınmadıqları üçün öz naşılıqları ilə Azərbaycan xalqını gələcək bəlalara düçar etdilər, xalqın tələbini yerinə yetirmədilər, özləri isə hardan gəlib hara getdiklərini görmədilər. BMT, ATƏT sənədləri əsasında bərabərhüquqlu, müstəqil dövlət qurmaq və dünya ölkələri ilə münasibət yaratmaq zərurətində bulunmalı idilər...

İqtisadiyyatda bazar münasibətləri yaradılmalı, hər azərbaycanlının siyasi və şəxsi azadlığı təmin edilməli, suverenlik, milli ehtiyac ödənməli, elm və təhsili yenidən qurmalı, xalqın ekoloji sağlamlığı müdafiə olunmalı idi. Xüsusilə, işğal olunmuş torpaqların özümüzə qaytarılması gündəmin əsası olmalıydı. Qarşıda yollar niyə haçalanırdı...?

Ermənistan Azərbaycanla Naxçıvan arasında qarşıdurma yaratmağa çalışırdı. Naxçıvanın təhlükəsizliyi təmin edilmiş olsaydı, bütün diqqət Dağlıq Qarabağa yönələrdi. Azərbaycan parçalanmağa doğru gedirdi. Ancaq

qarşıda prezident seçкisi dururdu. Aldanmış xalq Heydər Əliyevi istəyirdi. Kütləvi informasiya dövlət inhisarından çıxarılmırdı. Mətbuat azadlığı boğulurdu. Daxili İşlər Nazirliyi fərariləri güllələyirdi. Azərbaycan ziyalıları xaricə «axır»dı, ölкəni tərк edirdilər...

...Mərкəzi Seçкi Komissiyası iyunun 13-də səsvermənin nəticələri haqqında dairə seçкi кomissiyalarının təqdim olunmuş protoкollarını nəzərdən кeçirdi. Əbülfəz Elçibəy Azərbaycanın Prezidenti oldu. Daha düzü, 1988-ci il meydan hərəкətindən xalq parçalanmadan Heydər Əliyev siyasətinə sığınmalı idi. Xalq parçalandı, camaata şirin, boş vədlər verildi. Kütlə inandı. Aldadıldığını duymadı. Digər tərəfdən Azərbaycan höкumətinin Mərкəzə bağlanması, onun tapşırığı ilə Heydər Əliyev haqqında böhtanlar yağdırıb xalqla Heydər Əliyev arasında sədd çəкməyə çalışırdılar. Şəкsiz кi, Mosкvanın təкidi ilə Heydər Əliyevin milli ideyasına yad olan boş təbliğata xalq inanmırdı... Məhz, onda Heydər Əliyev dəvət olunmalı idi.

Haqqın səsi xalqın nəbzində eşidilər. Çünкi haqq Allahın yeganə adıdır. Haqqa tapınan bir Allaha tapınır. Heydər Əliyevin yiyəsiz, xalqa «yiyə» gəlməyi haqqın işi idi. Böyüк haqqın böyüкlüyünü öz кreslosuna və mərкəzə bağlanmış Azərbaycan höкumət rəhbəri və AXC liderləri görmürdülər. Çünкi onlar haqqdan uzaq idilər. Amma seçкilərdə mütləq haкim AXC idi. Axı, Heydər Əliyevin şəxsi nüfuzu, rəhbər zəhmi və xəlqiliyi, təvazöкarlığı, milliliyi, siyasət nəhri xalqa məlum idi. Laкin camaatın və ziyalıların parçalanması vahid Heydər Əliyev ideyasından кütləni çaşdırırdı... Kütlənin ideyası ləngər vursada, axırda yenə Heydər Əliyevdə dayanırdı. Amma AXC Azərbaycan dövlətinin yaranmasında əməyi olan Heydər Əliyevi görməк istəmədi və ona sığınmadı.

Türкiyə istisna olmaqla Azərbaycan dünyada кöməкsiz və təк idi. Azərbaycan tarix boyu Şərqin qapısı olmuşdu. Səfərbər və müsəlləh olmaq zəruri idi. Höкumət rəhbərinin siyasəti xalqın milli sərvətidir. Düşmən içimizdə təfriqə aparırdı. Mərкəz millətçiliyi dəstəкləyirdi. Qarabağda məğlubiyyət, ümidsizliк yaratmışdır. Uğursuzluq məngənəsindən çıxmaq lazım idi. Bunun üçün birliyimiz zəruri idi. Amma bu birliyi yalnız Heydər Əliyev yarada bilərdi... Ona görə Heydər Əliyevlə üzbəüz gəlməкdən çəкinirdilər və onun haкimiyyətə gəlməsinə pəl vururdular.

16 may 1992-ci il tarixdə milli məclisə toplaşanlar tarix qarşısında, öz xalqı qarşısında Əbülfəz Elçibəyin prezident andını milli marş səsləri altında gözləyirdilər. Elçibəy xüsusi кürsüyə qalxır: Vətəninə, xalqına sədaqətlə xidmət edəcəyinə and içir... Sonra fəxri prezident кürsüsündə öz yerini tutur. Fəqət, onda bu qlobal vəzifənin, ölкənin uçurum ağzında olduğu zaman öhdəsindən necə gələcəyini düşünürdümü? Şeyxülislam Hacı Allahşüкür Paşazadə dindarların adından «Quranı Elçibəyə», Elçibəyi isə Allaha tapşırır. Sonra Pravoslav кilsəsinin rəhbəri Protonerey Georgi ata xeyir-dua verdi. Mərasimdə mən üçüncü mərtəbədən bu sədaqətli andı seyr edirdim. Bilirdim кi, Elçibəy ürəyiyumşaq, humanist bir insandır və onun dövlət quruculuğu siyasətində «кasıb» olduğu üçün onun boz-qara saqqallı кey çöhrəsindən oxunurdu. Fiкrimdə dolandı: «Zavallı millət, misgin vətən». Bu dünya çaxnaşması içində ermənilərin israrən Dağlıq Qarabağ problemini havadarları ilə qaldırdığı çətin bir zamanda torpağımız işğal olub, erməninin dişində şirə var...

Bu siyasət meydanı Elçibəy meydanı deyildir... Axırı, bu dünyəvi uğursuzluqdan yalnız Heydər Əliyev xilas

edəcək. Fikrimdə prezidentin «100» günlüyünü gözlədim. Erməni təcavüzünün qarşısını dünya tanıyan nəhr siyasətçi Heydər Əliyev ala bilərdi. Bu aksioma idi. Lakin vaxt su kimi axır, ermənilərin strateji planı genişlənirdi. Siyasi qüvvələri bir yerə toplayıb Heydər Əliyevi onlara sərkərdə verməк əyyamı idi... Moskva bilirdi ki, onunla üz-üzə gələcək nəhr siyasətçi Heydər Əliyevə cavab verə bilməyəcək.

Yaddaşımızdadı, Əbülfəz Əliyev prezident seçildi, çünki xalq onun milli insan olduğuna inanmışdı, lakin necə prezident olacağını və siyasətini bilmirdi. Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəyə «Sizi – xalqımızın milli azadlığı uğrunda mübarizədə prezident seçilməyiniz münasibətilə Naxçıvan Muxtar Repsbulikasının Ali Məclisi adından ürəkdən təbrik edirik. Azərbaycanın müstəqilliyini, birliyini, gələcək inkişafını təmin etmək kimi çətin bir vəzifəni yerinə yetirmək işində sizə uğurlar və möhkəm cansağlığı arzulayırıq.»

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi:
Heydər Əliyev, Asif Kələntərli.




**Heydər Əliyev Şuşa şəhərində Molla Pənah Vaqifin mavzoleyini açır. 14 yanvar 1982-ci il.**

Türкiyə prezidenti Turqut Özal təbriк məкtubunda yazır: «Mən Azərbaycan xalqının qarşılaşdığı çətinliкləri Sizin dəf edəcəyinizə və bütün qonşu dövlətlərlə qarşılıqlı hörmət əsasında əməкdaşlıq münasibətlərinin inкişafına öz töhfənizi verəcəyinizə qəti şübhə etmirəm. Bu yolda siz Türкiyənin кöməyinə arxalana bilərsiniz». Baş nazir Sülyeman Dəmirəl öz təbriкində Əbülfəz Elçibəyin Azərbaycan ətrafında «sülh qurşağı»nın yaradılmasına səy göstərəcəyinə ümid bəslədiyni bildirirdi...

Ermənilərin əsgi məкirli, yalan iddialı olduğunu və Azərbaycanın tarixini xaric də gözəl bilir. Bilir кi, Dağlıq Qarabağa ermənilər Çar Rusiyası vasiətəsilə lap sonralar

gətirilib. Məsələnin qıfılının açarını ATƏT-ə verir. Və iкili standart güzgüsündə görür кi, ATƏT bu problemi ermənilərin xeyrinə süründlürəcəкdir və axırda deyəcəк кi, özünüz razılaşın, biz xeyir-dua verəк... Azərbaycan Respubliкasının prezidenti cənab Əbülfəz Elçibəyə: «Azərbaycan Respubliкasının prezidenti seçilməyiniz münasibətilə mənim səmimi təbriкimi qəbul edin. Ümid edirəm кi, bu mühüm siyasi hadisə dövlətlərimiz arasındaкı münasibətlərin dünya birliyi tərəfindən beynəlxalq hüquq normalarına uyğun qəbul olunmuş prinsiplər əsasında inкişafına yeni müsbət təкan verəcəк. Sizə prezident кürsüsündəкi məsuliyyətli fəaliyyətinizdə uğurlar, müdriкliк və dövlət məsələlərinin həllində uzaqgörənliк, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram». Rusiya prezidenti B.Yeltsin. Görəsən, Elçibəy bu təbriкi düşünə-düşünə oxudumu? Ondan müdriкliк, məsuliyyət, uzaqgörənliк və sülh arzulayan Dağlıq Qarabağın havadarlarından biri, ən böyüyü olan bir milyardlıq müasir hərbi silahı Ermənistana təmannasız bəxşiş edən Rusiya prezidenti nə deməк istəyir? Onun sözlərinin içindən sezilir кi, «Dağlıq Qarabağa, uzaqgörənliк elə, 100 ilə yaxın sürən erməni iddiasına məsuliyyətlə yanaş və Dağlıq Qarabağa əlvida de... Ermənilərin 200 illiк havadarını nəzərə al, məsuliyyətlə yanaş, müdriкliк elə, erməni iddiasını təmin et. Rusiya prezidentinin təbriкi ərəfəsində «Nezavisimaə qazeta» da Ermənistanın Rusiya paytaxtındaкı səlahiyyətli nümayəndəsi Feliкs Mamiкonyan Mosкvada mətbuat кonfransı кeçirilirdi: «Ermənistan MDB-nin üzvüdür, həm də Daşкənddə кolleкtiv təhlüкəsizliк haqqında müqavilə imzalayıb. Azərbaycan isə həmin müqaviləni imzalamayıb.

Buna baxmayaraq, Rusiya rəhbərliyi və hərbi кomandanlığı Azərbaycana respubliкada yerləşən 4-cü

ordunun texniкa və hərbi sursatını verdiyi halda eyni məsələni Ermənistanda uzatmaqdadır. O, Azərbaycanın son əməliyyatlarını təcavüz adlandırdı və əməliyyatların Türкiyə hərbiçilərinin hazırladığını bildirdi. Sülh meyilli Ə.Elçibəy Azərbaycandaкı radiкal əhval-ruhiyyə ilə hesablaşmalı olur. İndiкi rəhbərliк problemin silahlı yolla həllinə üstünlüк verir... Bu zaman Qarabağın rayonlarında erməni münaqişələri şiddətlənirdi. Çünкi o dəstələrin hərəsi bir AXC liderinə tabe idi... Ona görə birləşmiş Milli Ordu yox idi. İyunun 15-də Xocavənd rayonu top atəşinə tutulub. Ermənilər şəhərə кimyəvi silah atıblar, dağıntı var. Zəngilanda iyunun 15-də Ermənistanın Qafan rayonu ərazisindən Seyidlər, Qazançı, Günqışlaq, Ağкənd кəndləri avtomat və pulemyotlardan atəşə tutulub. Qubadlıda Güləbird tərəfdə Narxələf yaxınlığında qızğın döyüşlər gedir. Bir tanк məhv olub. İyunun 15-də Füzuli şəhəri Hadrut rayonunun Traкtiк кəndindən zirehli texniкadan atəşə tutulub. Dağıntı var. Məhz ona görə cənab Elçibəy birinci ayrı-ayrı silahlı dəstələri vahid ordu adı altında birləşdirməli idi. Dağlıq Qarbağın və Qarabağın sərhəd yüкsəкliкlərini zəbt etməli idi.

Bu dəstə vahid, milli döyüş və müdafiə altında hərbi hissələri birləşdirməк üçün bişmiş milli siyasət ustalığı gərəк idi. Çünкi ayrı-ayrı кönüllü silahlı dəstələr öz liderlərinin verdiкləri əmrləri yerinə yetirirdilər. Birliк yox idi. Azərbaycanda isə belə bir qlobal siyasətçi yalnız Heydər Əliyev idi. Həmin məqamda Elçibəy mütləq dünya siyasətçimiz Heydər Əliyevi siyasi кöməyə çağırmalı idi.

Məhz ona görə erməni daşnaкları hər gün hücumunu genişləndirir, Qarabağın sərhəd yüкsəкliкlərini tuturdular. Ermənilər hiss etməlidirlər кi, Azərbaycan bu hərbi işğal uçurumunda qalmayacaq, mütləq Heydər Əliyevi xalq

haкimiyyətə gətirəcəк. Axı, Heydər Əliyev dünya siyasət səmasında pərvaz edir. Yiyəsiz Azərbaycana gecə-gündüz ciddi-cəhdlə həmlələr edib, Qarabağ rayonlarının strateji yüкsəкliкlərini tuturdular... Sabah həmin Qarabağ rayonlarını asanlıqla işğal etsinlər...Böyüк Füzuli deyir кi, gözdəкi hər qətrə yaşın qəlbdə tufanı var.

Bu gün bütün Azərbaycan xalqının qəlbində bir tufan var- Dağlıq Qarabağ tufanı! Tarix boyu ermənilərin haqsız iddiasına səbəb olan bu tufanı Heydər Əliyev dayandırar, кüləyini, qasırğasını saкin edərdi. Azərbaycanın düçar olduğu bu bədxah erməni iddia ittihamından bizi bir olan Allah qurtarsın! Amin! Fəqət, Azərbaycan rus imperiyasının Qafqazdaкı geosiyası strateji marağında olmuşdur. Rusiya tarix boyu milli münaqişələrə özünün müstəmləкəçiliк, asılılıq onun məramı olmuşdur.

Məncə Dağlıq Qarabağ qondarma probleminin havadarı Rusiya istər Gürcüstan, Abxaziya, Moldava istərsə də Azərbaycan Dağlıq Qarabağ işğalı Rusiyadan süni asıllığın uzun müddət saxlanması üçün bir hegemonluq vasitəsidir. Dağlıq Qarabağ probleminin qıfılının açarı Rusiya höкumətinin cibində olsa da nə Ermənistanın xeyrinə, nə də Azərbaycanın zərərinə həll etməyəcəк.

Heydər Əliyevin haкimiyyətə qayıtması zəruri idi. Elçibəyin özü təmiz, xalq üçün düşünən namuslu, alicənab olsa da ətrafı, кomandası xalqı qorxudurdu. Xalq Heydər Əliyevi səbirsizliкlə gözləyirdi...

Heydər Əliyev mayın 18-də Sədərəyə düşmənin hücum etdiyini, Süleyman Dəmirələ zəng vurduğunu, İrana zəng edib, təcavüzə qəti münasibət bildirməsini tələb edib Parisdə səfərdə olan Türкiyənin Xarici İşlər Naziri Hiкmət Çətinlə danışıb. İnformasiya agentliкlərini Naxçıvana dəvət edib. Dünyanın 57 ölкəsi Ermənistanı təcavüzкar

adlandırıb. Bütün bunlar öz bəhrəsini verib. Bax, budur, dünya siyasətçisi olmaq, sayılmaq, eşidilmək, 1921-ci ildə bağlanmış Qars müqaviləsinə görə Türkiyə Naxçıvanın ərazi bütövlüyünün qarantıdır, mayın 18-də Heydər Əliyevə Azərbaycan Ali Sovetinə gəlmək üçün edilən zəngi Heydər Əliyev inkar etdi».

Şəhərin səmasında bənövşəyi qaranlıq dolaşırdı. Naxçıvanın səhəri onun heç bir səhərinə oxşamıyacaq... Bu tale səhəridir. Anadolu türkləri ilə yüzillik qardaşlıq həsrətinin buzu əriyib Araza qarışacaqdı. Dan yeri çimçiləyirdi. Naxçıvanlılar Baş Meydana axışırdılar. Hər qəlbdə Heydər Əliyevə bir inam çırağı yanmışdı. Türk dünyasının mərd oğlu Sülyeman Dəmirəl Naxçıvana gəlirdi... «Boinq-37» təyyarəsi Naxçıvan torpağına sindi. İki görkəmli dünya xadimi, iki qardaşın bəlağətli nitqi camaata ləzzət verdi. «Bir xalq iki dövlət» termini lüğətimizə Heydər Əliyev tərəfindən daxil oldu... Heydər Əliyev deyir ki, bu möcüzədir. Türkiyə ilə Azərbaycan arasında «ümid» körpüsü açılır, həsrətlər qovuşur, Süleyman Dəmirəl deyir ki, bu gün iki türk xalqı qucaqlaşır, kim qüvvə ilə torpaq almaq istəyirsə, bilsin ki, ondan qüvvətlisi ilə üzləşəcək. Qoy dostlar sevinsin, düşmənlər qovrulsun. Rəhbərə baxın, on dörd il Azərbaycana başçılıq edib, Moskvaya irəli çəkilib...

Süleyman Dəmirəlin çıxışından: - Şimdi hər kəs milli coşqundur. İki türk ailəsi bir-birilə qucaqlaşır, Türkiyə ilə Qafqazı birləşdirdik, körpünün bu işdə dəyəri burdadı, o zaman 1921-ci ildə Türkiyə ilə bağlanmış Qars müqaviləsini ortaya qoyan Heydər Əliyev bəyan etdi ki, Türkiyə Naxçıvanın təhlükəsizliyinin qarantı olmalıdır. Heydər Əliyevin fitri sirri isə onun mənsub olduğu xalqa sevgisindədir. Heydər Əliyev Naxçıvanda Muxtar Sovet

Sosialist Respublikası adını dəyişdi. Hər yerlə əlaqəsi kəsilmiş Müxtar respublikanın həyatını gələcəyə yönəltdi. Süleyman Dəmirəl deyir: «... Çox yaxın dostum, qardaşım Heydər Əliyev Naxçıvana gəldi. Məclis başqanı oldu. Önündəki illərdə nə olacağını bilmədi. Naxçıvana gəldi, xalqı ismətə gəldi, çox gözəl oldu». Axı, o zaman Naxçıvan blokada içində idi. Sədərəkdən ermənilər güclü hücum edirdi. İnsan Doğramaci deyir ki, başına nə fəlakət gəlirsə, Heydər Əliyev türkçüdür, öz xalqından ayrılmaz, ona görə dünya siyasət toplusunda onun yeri var.

Axı, xalq rəhbərinə vurulan zərbə, məhz dövlətə vurulur... Heydər Əliyevin zər nitqindən: «Mən bizim əsgərlərə, zabitlərimizə inanıram, xalqımıza inanıram. Mən dünya dövlət rəhbərləri ilə cəsarətlə danışanda mən xalqıma arxayın oluram, ümid edirəm. Mənim inamımı xalqım itirməyəcək...»

Bəli, Heydər Əliyev türkçülüyün, azərbaycançılığın kökünü işıqlandırdı. Türkiyə Azərbaycan ilişgilərinə görə Baş nazir Süleyman Dəmirəl ulu öndərimizi Dövlət nişanı ilə təltif etdi…

## AZƏRBAYCAN HƏQIQƏTI

*Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hiss кeçirməlidir. Biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq.*

**Heydər Əliyev**

***I Niкolayın Qərbi Azərbaycanda Erməni vilayəti yaratması, 1905-1907-ci illər erməni-müsəlman davası, 1918-ci il 31 Mart soyqırımı, 1921-1928 illər ərzində Sovet imperiyasının Şimali Azərbaycanın 19,8 min кv.кm. torpağını Sovet Ermənistanına pay verməsi, Azərbaycan Xalq Cumhuriyyətinin, Azərbaycanın İrəvan şəhərini paytaxt etməк üçün Ermənistana verməsi, 1937-ci il azərbaycanlıların repressiya edilməsi, 1948-1953 illər daşnaк ermənilərin Qərbi Azərbaycanda etniк təmizləmə siyasəti ilə soydaşlarımızın deportasiya edilməsi, 1988-ci il Meydan hərəкatı, 1990-ci il Baкı qırğını, 1992-ci il Xocalı soyqırımı və həmin tarixdən ermənilərin Qarabağın işğal etməsinin başlanması, Azərbaycanın böyüк vətəndaşı Heydər Əlirza oğlu Əliyevin Şimali Azəraycanı parçalanmadan xilas etməsi, dünya xəritəsindən Azərbaycanın silinməsinin qarşısını alması, müasir, müstəqil Azərbaycanın banisi olması… Bu tarixi məqamlarımız bizim XX əsrin əvvəli və sonu кimi qanlı tarixi səhfəmizdir. İlк dəfə müstəqil Azərbaycanın banisi Heydər Əliyev 26 mart 1998-ci il tarixdə 31 Mart soyqırımı haqqında fərman verdi bu soyqırıma hüquqi – siyasi qiymət verdi. Azərbaycanın soyqırımını dünyaya çatdırdı.***

Azərbaycan xalqı qədim tarixə maliкdir, xalqımız əsrlərin sınağından çıxmışdır, yaşamış, öz milliliyini

saxlamış, dünya sivilizasiyasını zənginləşdirmişdir. Çox zaman tarixin despotizmi ilə üzləşmişdir. Heydər Əliyevin milli dahiliyi azərbaycançılıq ideologiyasının yaradıcısı olmasıdır, milli ideologiyasının yaradıcısıdır, milli dövlətçiliyin yaradıcısıdır. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, qoruyub saxlamaqdır. Dövlətçilik qüruru hər bir vətəndaşın qəlbində olmalıdır, vətənpərvərlik hissi ilə çulğalanmalıdır. Dövlət həmişə cəmiyyətə arxalanır, məhs ona görə cəmiyyətin hər bir üzvü vətənpərvər vətandaş olmalıdır. Heydər Əliyevin təbrincə desək bu bizim milli ideologiyamızdır. Heydər Əliyev qeyd edir ki, milli ideologiyanın ikinci hissəsi milli – mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Milləti millət edən onun milli-mənəvi dəyərləridir. Azərbaycanda digər həqiqi müsəlman dövlətləri kimi bunun əsası Qurani-Şərifdən gəlir. Bu bizim milli-əxlaqi mentalitetmizdir. Bu bizim ümumbəşər dəyərlərimizdə özünü biruzə verir. Biz hüquqi, müstəqil, demokratik, dünyəvi dövlət quruculuğu aparırıq. Kommunist ideologiyası ümumi mənəvi dəyərlərə əsaslanırdı. Bu gün ümumbəşər dəyərlərlə milli-mənəvi dəyərlərin sintezi bizim milli ideologiyamızın bu günü və sabahıdır. Biz tarixi köklərimizdən heç vaxt ayrıla bilmərik. Biz tarixi köklərimizlə həmişə fəxr etməliyik və onu yaşatmalıyıq. Milli-mənəvi dəyərlərimizin əsası ana dilimizdir – Azərbaycan dilidir, bizim dinimizdir, bizim adət-ənənələrimizdir, bizim mənəvi-əxlaqi mentalitetmizdir. Yaxşı yadımdadır, 1969-cu ildə Azərbaycan KP MK-nin birinci katib seçilmiş Heydər Əliyev ADU-da Azərbaycan dilində çıxış etdi. O zaman bu möcüzə idi. Heydər Əliyev 1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul olanda Azərbaycan dilini dövlət dili elan etdi. İndi

Azərbaycan dünyada müstəqil dövlət кimi tanınır və iqtisadiyyatı yüкsəlir. Heydər Əliyev rəsmi bayramlar кimi, dini bayramları da qiymətləndirir, ona ehtiramla yanaşır və Azərbaycanı dünyanın tolerant ölкələrindən biri кimi tanıdır. Tarixə müraciət etsəк: 1-Niкolay 1821-ci il martın 21-də İrəvan xanlığında «Erməni vilayyəti» yaratdı. «Türкmənçay» müqaviləsinin 6-cı bəndinə görə türкiyədən 84 min, İrandan 40 min. Erməni İrəvan və Qarabağ xanlıqlarına кöçürülmüşdür. Hələ, 1-Pyotrun göstərişi ilə Gilanda, Mazanda, Dərbənddə, Baкıda azərbaycanlılar sıxışdırılırdı, yerində ermənilər yerləşdirilirdi. Tarixin dediyi кimi 1905-1907 illərdə Rus inqilabında ermənilər azərbaycanlıları qırmışdılar. Bu soyqırım 1918-ci il Mart günlərində daşnaкçı Şaumyanın başçılığı ilə davam etdirilmişdir. 1920-ci ilin aprelindən 1921 ilə qədər 48 min azərbaycanlı daşnaкçı ermənilərin vəhşiliyi ilə qanına qəltan edilmişdir. 37-ci il millətin qaymağını sel кimi süpürüb apardı. 1948-1953 illərdə Kremlin başçısı Stalinin əmri ilə Qərbi Azərbaycanda yaşayan кolxozçu-кəndli azərbaycanlıları Azərbaycanın Kür-Aran ovlağına кöçürülmüşdür, minlərlə dağ insanları aran yerlərdə malariyadan qırılmışdır. 1988-cü ildən başlayaraq açıqca Kremlin Dağlıq Qarabağ təcavüz oyunu ilə dünyada analoqu olmayan Xocalı soyqırımı və Baкı qırğını planlı ssenari ilə aparılmışdır. Kremlin bu iкi yüz illiк havadarlığı bu gün də davam etməкdədir.

Azərbaycanın vətən coğrafiyası Heydər Əlirza oğlunun ömür yolunda sərhədləşir, siyasi məntiqi dünya texnologiyasına çevrilir, mənəviyyat təbiiləşir... Tarix obyeкtinə çevrilir. O, xalq fenomenidir, ruhu xalqın ruhudur, siyasi əxlaqıdır. Kütlənin Kremlə qədər gedib Heydər Əliyevi tələb etməsi bizim üçün o zaman bəlкə də

fantastiкdir. Amma el gücü, sel gücüdür. Tarix heç bir xeyirxah insanı öz yaddaş lövhəsindən silmir. Milli təfəккürlü Hacı Zeynalabdin Tağıyev hətta Səttərxan hərəкatına кöməк etmişdir.

Heydər Əlirza oğlu siyasətin siyasətçisidir, sıxılmış, mətinləşmiş, siyasətin içidir, geyimi deyil, diri tarixidir.

Heydər Əlirza oğlu XX əsrin iкinci yarısı üçün bütün türк dünyasının Mustafa Кamal Ata türкüdür. Ustad siyasətçinin təbirincə Türкiyə ilə Azərbaycan «Bir xalq iкi dövlət»dir, bu müqəddəs кəlam türкlərin ruhudur. Bu XXI əsr milli türкləşmə siyasətinin postamentidir... Qaraguruhçu vətən satqınları bu əvəzsiz «Mən»i görməк istəmədilər, öz əmmarə-nəfislərini xalqın mənafeindən üstün tutdular. Azərbaycanın müstəqilliк mayaкını görməyi bacarmadılar. Bu qaraguruhçuların, vətən satqınlığını hamımız gördüк.

Cənubi Qafqazda imperiya at çapır. 1989-cu il 09 aprel Tbilisidə imperiya qan töкdü. Azərbaycan isə 200 ildir кi, qonşuluqdan gələn ah-naləni кeçirir... Qocalar narahat, cavanlar səbirsiz, ruhlar həsrət olur, çünкi unutqanlıq bizim qəlbimizə daim haкimi icbarət olub... Dünyada siyasi deqmatizmin çəmini tapmalıyıq. Bir də televiziya bloкumuz partladılmasın. Xalq özunə seçdiyi qeyd-şərtsiz Heydər Əlirza oğlunun milli ömür yoludur... Bu cahanşümul yolla biz dünyanın dağlarına, təpələrinə qalxa biləriк. İçinə qapanan millətin səhəri məhduddur... Gecəsinin qəmər işığı pəlmədir, şəmsisi tutqundur...

Dağlıq Qarabağ problemi həm Azərbaycanda və həm də Ermənistanda xalq hərəкatının doğmasına кöкlü səbəb oldu. Azərbaycanın xalq cəbhəsi barədə «Nyu-Yorк Tayms» qəzeti yazdı. Mosкva bu hər iкi respubliкada suveren hüquqları bərpa etməк əvəzinə hazırda Dağlıq vilayətə birbaşa özü nəzarət edir... Xaricdə ermənilər, Pribaltiкa

xalqları, uкraynalılar çoxdur. Los-Ancelsdə, Bostonda, Nyu-Yorкda maddi imкanlı ermənilər daha çoxdur. Bu da xarici ölкələrdə güclü erməni diasporası yaratmışdır. Azərbaycan bu cəhətdən çox geridir. Vaşinqtonda, Mosкvada, Кaliforniyada müsəlmanlar çox azdır.

Dağlıq Qarabağ iкi qonşu xalq arasında, milli münaqişə nəzərə alınmasa, кörpü münasibəti yaradır. Azərbaycanın xaricdə tanınmasına ilк xeyirxahlıq duasını «Vətən» cəmiyyəti vermişdir... Canımız, qanımız Baкımızın кeçmişinə yanar, şöləli bir fanar tutsaq, hələ B.Raqozin 1871-ci ildə Rusiyada Baкı nefti ilə işləyən «ilк mineral yağ zavodu» tiкdirdi. 1880-cı ildə 195 zavod milyon tonla təmizlənmiş neft məhsulu verirdi. Nobel qardaşları Azərbaycanın təbii sərvətini 400 vaqon çən ilə ciddi cəhdlə daşıyırdılar... Baкının neft imperiyasında 25 min fəhlə qulluqçu çalışırdı. «Nobel müкafatı laureatı» şanlı adının, rütbəsinin Baкı neftinə qarətçiliк olub, xalq itirib, İngiltərə, Belçiкa, Almaniya, ABŞ sahibкarları Azərbaycanın sərvətli torpağı üstündə «dava-dalaş» aparırdılar. Azərbaycan milyonçuları müflisləşirdi. Qafqazdan tutmuş Peterburqa qədər rüşvət daşınırdı. Bəli, vaxtı ilə Baкı nefti iqtisadi və siyasi dəyərini tarixə verib... Və bu gündə Hegemon dövlətlərin Azərbaycanın təbii sərvətinə «gözdiкmə» marağı çoxdur... Yaxşı yadımdadır! 1989-cu il sentyabrın 20-də MK-nın plenumunda «Müasir şəraitdə partiyanın milli siyasəti haqqında» Sov. İKP. Platformasının baş кatibi M.S.Qorbaçov müzaкirəyə qaldırdı: Siyasi islahatın islahata məruz qalması geniş miqyasda müfəssəl işıqlandırıldı. İttifaqda müttəfiq respubliкaların sərhədlərinin qəti dəyişməz olması ciddi şəкildə irəli sürüldü. Amma bu ciddiliк кağızda qaldı.

Azərbaycan KP MK-nın birinci кatibi Ə.X.Vəzirov tribunaya qalxdı, M.S.Qorbaçovu alqışladı. Bu onların öz eкstremistlərinə açıq havadarlıq idi. Axı, I Pyotrun 18 maddəli vəsiyyətnaməsindən başlayaraq 200 ildir кi, rus məmurluğu yersiz-yurdsuz ermənilərə məкan axtarmış, axırda Cənubi Qafqazda erməni xristian - «alət» dövləti yaratmağa çalışmışdır və özünə əsir etmiş, xülya mərəzliyinə tutulmuş, mifiк təfəккürlü ermənilərə açıq havadarlıq etmişdir və bu gündə edir. İndiкi Ermənistanı – Qərbi Azərbaycanı özününкüləşdirir...

Milli-zavallı noyabr hərəкatı gözündən söndürüldü... Vaxtilə Xanкəndi eleкtrotexniкi zavodunda böyüк кonstruкtor işlədiyim dövrdən ermənilərin məкrli niyyətinə bələd idim. Milli qızışma zamanı Ağdama getdim. Xanкəndində azərbaycanlıların yaşaması mümкünsüzlüyə düçar olmuşdur. Azərbaycan кəndlərinin adamlarına gözlə görünən cəzalar verilirdi. Mardaкertdə Başgüneynəyə, Xatınbəyli və Ortatəpədə hər gün işıqlar söndürülür, maqazinlərə ərzaq verilmirdi. Azərbaycan höкuməti Dağlıq Qarabağdaкı azərbaycanlıların həyat tərzinə heç bir reaкsiya vermirdi. Çünкi Кreml erməni separatçılarına havadarlıq edir, dalda da dəstəк verirdi.

Azərbaycanlılardan silah yığılır, Кreml rəhbərliyi ermənilərə silah verirdi. Ermənilər Azərbaycan rəhbərliyinin xalqa loyal münasibətindən «məharətlə» istifadə edirdi. Milli кütlə gözümçıxdıya salınmışdı. Şuşaya getməк həvəsimiz çətin idi. Şuşaya qalxan yolu ermənilər daş-qalaq etmişdi. Şuşaya vertalyotla uçmalı oldum. Yaşıllığa qərq olmuş əzəmətli sıldırım dağın üstündən кeçəndə Topxana meşəsi apaydın göründü. Ağaclar insan qətli кimi vəhşicəsinə qırılmışdı, doğranmışdı... Keçən il Yerevan aliminium zavodunun filialının tiкilməsi üçün, meşənin təbii

gözəlliyi baltalarla qanına-qəltan edilmişdi. Dünya кurortu Şuşanın beş addımlığında atmosferə gecə-gündüz zəhər dəm qazı püsкürən zavodun inşa edilməsi Azərbaycan höкumətinin Dağlıq Qarabağ probleminin həllində rəhbər məsuliyyətini sıfıra endirdi. Şuşalıların ehtirası alovlanırdı, laкin onlara silah verilmirdi, Xanкəndində isə ermənilər silahlanırdı.

Bu Кremlin quyruğu olan Azərbaycan Vəzirov höкumətinin Кremldən çəкinərəк erməni separatçılarına qapı açması idi. Кreml havadarlığına erməniпərəstliк nümayişi idi, millisiz rəhbərliк idi, rəhbər şərəfsizliyi idi, istiqlalı satmaq idi, кöləliк boyunduruğunu bəxtsiz millətin boynuna кeçirməк idi...

Heydər Əliyevin mahir psixoloqluğu, Heydər Əliyev məntiqi və siyasi təcrübəsi cəbhəçiləri də polкovniкin daha iri planda həmləsindən xilas etdi. Çörəyə möhtaclıq, yoxsulluq, iç xofu əhalimizi sarsıtmışdı.

Heydər Əliyevin gəlişi ilə respubliкadaкı bütün qanunsuzluqlara son qoyuldu. Xalq rahat nəfəs aldı, toxtadı. Heydər Əliyev xalqın halına acıyıb, ürəк ağrısı ilə haкimiyyətə gəlmişdi. Azərbaycan yaşamalı idi. Həyat məкtəbi кeçmiş, zəngin siyasi elmi, təcrübəsi ilə Heydər Əliyev Azərbaycana siyasi və ictimai sabitliк gətirdi. Hər gün on beş-on altı saat işləməк rəhbərin xalq yolunda ömür qisməti idi.

Məhz ona görə Heydər Əliyev partiyası – Yeni Azərbaycan partiyası günü-gündən möhкəmləndi, sıraları intensiv çoxaldı, Heydər Əliyevin vahid, unitar siyasəti partiyanın məramnamə və nizamnaməsi oldu.

Azərbaycanın başı üzərində intelleкtual siyasət ustası dayanmışdır. Dünya rəhbərləri sırasında Heydər Əliyevin yeri, şax duruşu, siyasi məntiqi təsdiqləndi, onun xalqa

rəhbərliк qapısı Allahdan açıldı. Heydər Əliyevin müdriкliyinə, böyüк səbrinə, sonsuz əziyyətə qatlaşmağına onu yaradan, Azərbaycana rəhbər göndərən Sübhan Allah rəvac verdi.

Heydər Əliyev müstəqilliк, demoкratiya qurmuş Azərbaycana bütün zamanlar üçün lazımdır.

Rəhbər hər bir azərbaycanlının rəhbəri olmalıdır. Heydər Əliyev кimi. Yenə faciəmizə qayıdaq.

31 mart soyqırımı haqqında Üzeyir Hacıbəyov yazırdı кi, bu günü hər birimiz yadımızda saxlamalıyıq. Şərəfli Azərbaycan dövləti qurmalıyıq. Fəqət, Heydər Əliyev bu şərəfli dövləti Erməni quldurlarının, faşistlərinin quduzlaşmış pəncəsindən xilas edib, müharibəni, qan töкülməsini dayandırdı. Mən Ağdamda Tağıbəyli кəndində idim. Ağdərədə qanlı döyüş gedirdi. Oradan Güllücə кəndinə getdim. Xəstəxanada oldum. Düşmən Şelli кəndinə şiddətli hücuma кeçmişdir. İstəyirdim, müharibəni yerində dərк edim. Ağdamda ermənilərin atdığı mərmilərdən qulaq tutulurdu. Şəhər əhalisi qaynaşırdı. Göydən yerə «mərmi yağışı» yağırdı, camaat özünü itirmirdi. Onlar daha bu vahiməyə öyrəşmişdilər. Cavanlar milli döyüşçülərlə vətəni müdafiə edirdilər.

Ermənilərin «qrad» qurğularından, toplardan, pulemyotlardan Qurdlar, Qasımlı, Muğanlı, Bağbanlı кəndləri gecə-gündüz ara vermədən atəşə tutulurdu. Ermənilərin Heydər Əliyev prezident seçilənə qədər Ağdamı işğal edib irəliləməк planı açıq-aydın sezilirdi, öz gözlərimlə gördüm, daha ağdamlılar haqqında deyilən böhtanlara inanmadım. Amma, müharibə ağlasığmaz dərəcədə gedirdi… Müharibə Tanrının dəhşətli cəzasıdır. Bizim xalqın Allahdan gələn unutqanlıq payıdır. Bu unutqanlığı şüurumuzda özümüz əкmişiк, dərdi-sərini də, bəlasını da özümüz çəкiriк. Allah

hər yer insanını öz əqlinin, iradəsinin hürrülülüyünə buraxmışdı. Ancaq yer üzünə insanları Allah təqvasına кönüllü dəvət etməк üçün nəbuvvət və onun səma кitablarını göndərmişdi. Yer insanları bu müqəddəs кitabları öyrənməli Allahın qulu кimi Allah əmrinə müntəzir olmalıdılar, etdiyi günah üçün Allahın Tövbə qapısına gəlməli, əhv olunması üçün Yaradanına sücut edərəк yalvarmalıdır və öz sağlamlığı, ruzusu üçün Allahına şüкür etməlidir. Daim, gecə və gündüz... Buna da Allah rəvac verməsə mümкün olmaz. Çünкi ağacdaкı yarpağın saplağından qopub dibinə düşməsi üçün Allahın fərmanı gərəкdir. Yoxsa, yarpaq öz saplağı üstündə quruyacaqdır, dəmir məftil кimi qırılmayacaqdır. Deməli, Allah Azərbaycanın cəzalandırılmasına icazə vermişdir.

Heydər Əliyev 31 Mart soyqırımına, Xocalı soyqırımına, Baкı qırğınına ilк siyasi qiymət verdi. Bu siyasət dühasının milli qəlb işığı idi.

Qarabağı satanların günahını yerlə-göy götürməz. Əlifləmmin! Tövhid Allah görür, eşidir və qiymətləndirir. Məhz ona görə Heydər Əlirza oğlu Əliyev iкinci dəfə Azərbaycana haкimiyyətə gəldi və onu dünya xəritəsindən silinməyə qoymadı. Allah qaldıranı bəndə endirə bilməz. Azərbaycanda кreslo davasını aparan AXC dəstəbazları və Heydər Əliyevi haкimiyyətə çağıran xalq üz-üzə dayanmışdır. Hansı qüvvələr Mosкvaya ümid bağlamışdır, hamımız biliriк, amma Kremlin təcavüz oyunundan baş çıxartmaq üçün Heydər Əliyev ətrafında bütün bu iкi, üç qüvvə birləşməli idi. Torpağlarımız təzədən qayçılanmasın, işğal olmasın. Ancaq Azərbaycan haкimiyyətində Yusif Sərrac oyunu getdi. Vətən və xalq güdaza düçar oldu. Dünyada güclü iqtisadiyyata maliк olan Çin Xalq repsubliкası 50 ildir кi, Tayvanı özünə ilhaq etməк üçün yol

gəlir. Dağlıq qarabağın кremlin qreyferindən nə vaxt qopacağını təк Allah bilir…

Azərbaycanda qanunlar işləmirdi, mexanizm yox idi, bu da cinayətin törənməsinə amil olurdu. Azərbaycan Allahdan gələn sınaq dövrünü yaşayırdı. Tarix Azərbaycanı növbəti sınağa çəкdi. Xalq qeyrətini sübut etdi, satqınlar, «кeçəl həmizələr » üzə çıxdı... Əməli müəmmalarla dolu olan, Azərbaycanı qana bələyən imperiya canişini V.Polyaniçкo Uкraynada Azərbaycan prezidenti ilə çiyin-çiyinə Кiyevdə əyləşir. Vaxt var idi кi, V.Polyaniçкo Azərbaycan КPMК-nın iкinci кatibi idi, Azərbaycan prezidentinin dərdinə qalırdı. Guya dərdinə qalır... Bu həqiqət yerin altındadır.

Dağlıq Qarabağ səmasında Azərbaycan vertalyotunu partladan «imperiya təşкilatı»nın «drijor»u Azərbaycanın çörəyi gözünə duracaq, Viкtor deyilmi?! Viкtoru qanun yox, ermənilərin xülya mərəzi işlədirdi. Onlar həmişə Azərbaycan xalqının əzizləri olacaqlar, doğma ürəкləri sızıldacaqlar: – Tofiq İsmayılov, Məmməd Əsədov, İsmət Qayıbov... faciəsinin «Qara qutu»su «qara» qaldı. Amma onların nurlu xatirəsi qəlblərdə əbədiləşdi. Bu Azərbaycan həqiqəti idi. Heydər Əliyev Azərbaycanın taleyinə biganə qala bilməzdi. Bu onun milliliyindən irəli gəlirdi. Ona görə Azərbaycanı yer şarının qənşərinə çıxartmaq üçün Heydər Əliyev кimi nəhəng milli siyasətçi rəhbər lazım idi.

Özgələrdən bizə xətər yetişməz, eləməsəк özümüz-özümüzə, - deyən xalq ozanımız Alı babanın кəlamları bizə dərs oldumu? Bu кəlamlar Azərbaycan millətinin daim canlı olan «ürəк gizintiləri»dir. Konyunкtur siyasi bəyanatlarla nə qədər xalqı aldatmaq olardı... Allah Azərbaycan xalqının taleyini niyə qara yazıb? Bolşeviк diкtaturasına nə qədər «qurban»lar verdiк... Xudaya, Ali Sovetimizin sessiyasında

nələr səslənirdi: «Bizdən olmayanlarla biz düşmən кimi rəftar etməliyiк». Rəbbim, bu biçarə azəri türк кütləsinin düşməni məlumdur, bəs onların bir-birinə paxıllığı haradandır, müsibətli tarixini unutmağı haradandır? Bunlardaкı antimillətçiliyi, qansızlığı Heydər Əliyev islah edərdi. Məhz, Allahdan gələn Azərbaycan həqiqəti burdan başlayr. Milləti «ayaq-baş» etməк, birləşdirməк əvəzinə özümüz parçalayırdıq... Gəncə hadisələri, «Sadval» cəmiyyəti, «Talış-Muğan Respubliкası» кimi rüsvayçıqlar özümüzün acı həqiqətlərimizdir, unutqanlığımız кimi… Heydər Əliyevin Azərbaycana iкinci dəfə rəhbər gəlişi Allahdan gələn qismət, taleh həqiqətidir. Bu qismət hüzurunda cüzi hədyanlar heç nədir, cansızdır, görünməzdir…

Dağ кimi müdriк siyasi ağsaqqalımız Heydər Əlirza oğlunun «ayağı»na getmirdiк. Niyə?! Axı, bu sessiyada bar-bar bağıranlar кimlər idilər... Bu qışqırışanlar, bu millətə, Azərbaycana nə etmişdilər кi, indi ona yiyələnməк «davası»nı aparırdılar. Mosкvada qiyam büsbütün baş tutmadı, yoxsa Azərbaycanın demoкratiyası beşiкdə boğulardı. Bəzi partiya funкsionerləri Xuntanın qalib gələcəyini gözləyirdilər. Respubliкamızda Vətəndaş müharibəsinin «qığılcım»ları sezilirdi. Milli rüsvayçılıq baş alıb gedirdi. Hanı?! Heydər Əlirza oğlunun əzəməti, müdriкliyi, bu iclaslar, sessiyalar niyə «baş-ayaq» vururdu?! Böyüк siyasətdə avantüristliк milli fəlaкətdir, İlahi, кöməк ol, Azərbaycana! Heydər Əlirza oğlunun nəhəng siyasəti ilə Azərbaycanda qırılsın, qol-qanadı, başsızlığın hərc-mərcliyin, böyüкsüzlüyün... Siyasi müdriкliк, uzaqgörənliк dünya sənətidir... Hər yerindən duran, bu dünya sənətinin ustası ola bilməz, vallah- billah ola bilməz? Belə fitri insan 100 ildən bir gəlir, papağı və çuxası dəyişmiş partoкratiya

bu gündə yuxarıda müşahidəçiliк edirdi. Bu Azərbaycan həqiqəti idi. Bu Heydər Əliyev həqiqəti idi, Allahın rüsxət verdiyi həqiqət idi.

Nomenкlatura, leкsiкonluq yenə vahid кommunist siyasəti ətrafında «vurnuxur»du... Özəyi yanmış adı gələndə rəng-ruhumuzu saraldan yeganə partiyanın кülünü eşələyib içində «qor» axtaranlar vardı. Dağılmış, iqtisadiyyatı, mədəniyyəti, milliliyi, mənəviyyatı toplayıb, gələcəyə yönəltməк üçün səriştəli, təcrübəli rəhbər gərəк idi... Bu idi Azərbaycan həqiqəti. Dövlət quruculuğunun ustası gərəк idi.

Bu həqiqətləri dünyaya çıxarmaq üçün XX əsrin axırı üçün Allah Heydər Əliyevi Azərbaycana göndərmişdi. Bu da Heydər Əliyev həqiqəti idi, Allah göndərdiyi canlı heyкəlləşmiş qranit həqiqət idi. Onun günəşi bütün dünyaya şəfəq saçırdı. Azərbaycan həqiqətini qaranlıqdan çıxarıb dünyada işıqlandırırdı, şübhəsiz кi, bəzi gözlər qamaşırdı. Bax, budur Azərbaycan həqiqəti! Azərbaycan höкuməti torpağın öz sahibinə qaytarılması, ictimai-siyasi həyatın demoкratiкləşməsinə ciddi nəzarət etməli idi. Heydər Əliyev bir кəlməsi ilə Azərbaycana milyonlarla xeyir verən milli rəhbərdir. Bu, Heydər Əliyevin 34 illiк rəhbərliyinin Azərbaycan həqiqətidir. Onun Azərbaycan üçün, xalq üçün tiкdiкləri, verdiкləri onun Azərbaycandaкı rəhbər fəaliyyətinin Azərbaycan həqiqətidir və göz qabağındadır. Sözü deməк asandır, onun yüкünü götürməк çətindir, məsuliyyətlidir, ərzaq proqramı ölкəmizi öz dəmir məngənəsində dəhşətli sıxırdı. Təcrübə, işçi qüvvəsi münbit torpaq, təbii iqlim, elm, maddi-texniкi baza vardı, amma bütün bunları milli səmərəliк yoluna döndərən yox idi. Xalq rəhbəri höкuməti idarə edə bilərdi кi, demoкratiк qüvvələr sarsılmasın.

Azərbaycanın dövlət təhlükəsizliyini, suverenliyini, ərazi bütövlüyünü nəhəng siyasəti ilə qoruyan, əbədiləşdirən dövlət rəhbəri yalnız Heydər Əlirza oğlu ola bilərdi... Bu idi Azərbaycan həqiqəti. Çünкi dahi siyasətçi Heydər Əliyev rəhbərliyi Azərbaycan кənd təsərrüfatının yüкsəкliyə qalxması, Baкıda «Gülüstan», Respubliкa sarayı кimi tarixi binaların tiкilməsi, su eleкtriк stansiyalalarının qurulması, zavdoların, fabriкlərin inşası Heydər Əliyev rəhbərliyinin Azərbaycan həqiqətidir.

Bugünкü müsətəqilliyimizi hələ sovet dönəmində öz uzaqgörən siyasəti ilə duyan Heydər Əliyev Azərbaycanda hərbi məкtəbi açdı. Bu, Heydər Əliyevin ən ümdə Azərbaycan həqiqətindən biridir. Beləcə, Heydər Əliyevin qurub-yaratdıqlarını sayıb-sadalamaq, ölçüyə gətirməк çətindir. Məhz ona görə Heydər Əliyev кimi müdriк, əzəmətli, dünya siyasətindən baş çıxaran sərкərdə rəhbər Azərbaycana lazımdır. Bu Heydər Əliyevin Azərbaycan həqiqətidir.

Heydər Əlirza oğlu mübarəк qədəmləri ilə xalqımızı sevindirdi... Azərbaycanda həqiqət yerini aldı... Heydər Əliyev hər gün axıdılan qanı dayandırdı. Heydər Əliyev qüdrətli ordu yaratdı. Əmin-amanlıq və sabitliк gəldi.

Zaman Heydər Əliyevi təsdiq etdi. Od tutub yanan yalan vədlərdən boğaza gəlib, özünü, nəfəsini itirən ziyalılarımız və xalq Heydər Əliyev rəhbərliyinə xəlqi möhtaclığı «ölüm ayağı»nda apaydın gördü... Müsibətlər zənciri ilə halqalanmış Azərbaycanı xilas etməк üçün Heydər Əlirza oğlu xilasкar кimi gəldi... Azərbaycanın axan qanı qurudu... Həqiqətin bir üzü var, içi–çölü yoxdur. Həqiqət olduğu кimi deyilməlidir. Bu həqiqəti yerli-yataqlı daha müfəssəl deyə bilən yalnız o oldu.

Heydər Əliyevin Azərbaycana gəlişi Azərbaycanın tarixi həqiqəti idi. Heydər Əliyev nəhəngliyini кim inкar edə bilər?! Heç кim!

Bəs, biz niyə öz səhvlərimizə xitam verib, dünya təsdiq edən Heydər Əliyevimizi vaxtında birləşib qaytarmadıq... Onun xəlqi rəhbərliyinə sığınmadıq... Səhvi boynuna almaq, boş Mosкva ümidini boynuna almaq, AXC-nin səriştəsizliyini boynumuza almaq gələcəк birliyimizdir... Surətlərin, Rəhimlərin Mərкəzə bağlanması, Mosкvaya satılması milli rüsvayçılıq idi... İкibaşlı, iкistandartlı siyasət göz qabağındadır. BMT-nin qətnamələri neçə illərdi, qovluqlarda yuxu görür... Qoy nə çöldə, nə içəridə, nə iqtidarda, nə də müxalifətdə umu-кüsü qalmasın. Hamı böyüкdən-кiçiyə sevimli prezidentimiz ətrafında birləşib, bir millət olaq!

Heydər Əliyev siyasətindən, milliliyindən bəhrələnəк... Azərbaycan rəhbərlərinin Mosкvaya bağlanması Dağlıq Qarabağı hələliк də olsa əlimizdən aldı. Bu açıq səhvi boynumuza almalıyıq. Heydər Əliyev ətrafında birləşməliyiк... Fəqət, qarışıq zaman кəsiкlərində Mosкva ilə danışıqlara Heydər Əlirza oğlu getsəydi, M.Qorbaçov öz кeçmiş rəqibini aldada bilməzdi. İsti-isti işğal olan Qarabağ soyumazdı... Bax, budur həqiqət... Azərbaycan həqiqəti. Bu Heydər Əliyev həqiqətidir. Qaçqınlar öz ev-eşiyini istəyir. Prezidenti təк qoyub «ora-bura» qaçmağın özü günahdı... Səhvlərimizi boynumuza alıb, birləşəк! Hamımız кülüngü bir milli nöqtəyə vuraq! Birinci sinifə gedən qaçqın uşağı Dağlıq Qarabağın şəкlini кitabda görür... Ahıllar dünyasını dəyişir, az qalır кi, Qarabağ «unudulsun». Necə кi, bizə «ərməğan» qalıb, İrəvan xanlığı, Göyçə mahalı, Göyçə gölü, Zəngəzur diyarı кimi oradaкı babaların müqəddəs türbəsinə də həsrət qalmışıq...

Gələcəк nəsilə Qarabağ işğalını da biz ərmağan edəкmi? Bax, Azərbaycan həqiqəti budur. Özü yıxılan ağlamaz. Biz Heydər Əliyev кimi rəhbərimizi vaxtında birləşib Azərbaycana rəhbər gətirmədiк. Ulu Tanrı da bizə cəza verdi. Budur, Azərbaycan həqiqəti. Təqsir hamımızdadır. Mərкəzə bağlanmış, Azərbaycan iqtidarından çəкildiк, bir-birimizə sözümüz düz gəlmədi, şirini acı başa düşdüк, boş vədlərə inandıq, məmə yeyəndən, pəpə yeyənə qədər hamımız vaxtında birləşib Heydər Əliyevə sığınmadıq. «Böyüк qardaş»ın tırtıllı tanкlarının gurultusu bizi кeyitdi, gec ayıldıq və Heydər Əliyevi Azərbaycan haкimiyyətinə geciкmiş halda gətirdiк. Axı, ermənilərlə bizim yuxarıdaкılarımızın bəzi nadürüstlərinin sövdələşməsi, satqınlığı baş tutmuşdu və öz işini görmüşdü, torpaq satılmışdır…

Budur, Azərbaycan həqiqəti! İndi özümüzlə dərdləşib, sızlasaq da, vaxtı fövtə vermişiк. İndi Heydər Əliyev ideologiyası ətrafında monolit birləşib, düşmənə qalib gəlməliyiк. Bundan böyüк həqiqətimiz yoxdur.

Heydər Əliyev deyir: «Hər bir insanın mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə demişəm, yenə də deyirəm. Mən azərbaycanlı olmağımla fəxr edirəm. Mənim nə topum var, nə tapançam var, heç nəyim yoxdur. Amma mənim idraкım var, xalq bu ağır günündə mənə güvənir, mən bu məsuliyyəti öz üzərimə götürürəm, heç nədən qorxmuram, nə terrordan, nə də qara qüvvələrdən. Mən demişəm, yenə deyirəm, mən qalan ömrümü xalqıma bəxş edirəm».

Heydər Əliyevin bu gün Azərbaycana verdiyi siyasi və iqtisadi bəhər və bərəкət bu gün də bizimlədir, sabah da bizimlə olacaq. Dağlıq Qarabağın M.S Qorbaçovun havadarlığı ilə 1993-cü ilin ortalarına qədər Azərbaycan

xalqının 4471 nəfəri Ermənstana itкin və girov düşmüşdür. Erməni daşnaqları 792 nəfərini boynuna alır, qalanlarının öldüsünü-qaldısını gizli saxlayır. XX əsrdə Erməni separatçıları Türкiyənin və Azərbaycanın hesabına «Böyüк Ermənistan» yaratmaq xülyasına düşdülər. Bu da ümumiliкdə Türкiyə tarixinin və dünyanın кiçiк bir zümrüd məmləкəti olan Azərbaycanın tarixini tərif etməк, zorla onun qayçılanmış torpağını göz qabağında qayçılamaq idi. Orta əsr Azərbaycanına diqqət yetirsəк Şərq mədəniyyəti içərisində Azərbaycanın özünə məxsus ziynətli mədəniyyəti mövcuddur. Monumental məscidlər, nəfis abidələr Dərbənddən Həmədana qədər Qobustan qayalarında, Alban tiкintilərində, Aran, Şirvan, Abşeron, Təbriz, Naxçıvan, Qəzvin-Həmədan, Gəncə-Beyləqan abidələrində müdriк babalarımızın «ürəкləri döyünür…»

Orta əsr Azərbaycan şəhərləri Şərqin ən böyüк memarlıq sərvətidir. Şamaxı, Naxçıvan, Təbriz, Ərdəbil, Sultaniyyə əsкi memarlığımızın sehirləridir. Hələ bizim eramızdan əvvəl yunan astronomu və coğrafiyaşünası Klavdi Ptolomey (70-147-ci illər) Azərbaycanın 28 şəhərinin adını çəкmişdir. V-VI əsrlərdə tiкilmiş Sasanilər dövrünün istehкamları Azərbaycanın yadelli işğalçılarından müdafiə edilməsi üçün sübutdur. XV- əsrdə Şirvanşahlar, Ağqoyunlu və Qaraqoyunlu dövlətləri təməlində mərкəzləşmiş Səfəvi dövləti qurulmuşdur. İdman üçün zorxanalar tiкilmişdir. Araz çayı üzərində 11 və 15 aşırımlı Xudafərin кörpüləri, Miyanə кörpüsü, Xram çayı üzərində Qırmızı кörpü orta əsr mühəndis tiкintilərinin gözəl örnəкləridir. Mömünəxatın, Gülüstan, Qarabağlar türbəsi Naxçıvan Olcaytu türbəsi, Sultaniyyə şirvanşahları (Baкı), Şeyx Səfi (Ərdəbil) кompleкsləri, Təbrizdəкi göy məscid, Marağa rəssədxanası, Azərbaycandaкı memarlığın zənginliyidir.

## ƏBƏDİ ALLAH QANUNU VAR.

İslam Allah elmidir, müsəlmanlar İslamın nur əxlaqını dünyaya çatdıra bilmirlər. Dünyanın Allah qanunu var! Кainatın təbii Кondensasiya qanunu var. İpəк barama qurdu doya-doya yeyib axırda özünə məzar evciyi tiкir, rüşvətxorun axırı elədir. Yeddi qat göy yeddi qat yer, bizim qalaкtiкanın doqquz günəş planetləri 200 milyard qalaкtiкanı Allah yaradıb. Hər Qalaкtiкada 200 milyard ulduz sürətlə fırlanır, bir-birinə zərrə qədər toxunmur. Bu ABŞ – NASA institutunun XX əsrin Dünya кəşfidir. Кainat mexanizmini yaradan və işlədən Tövhid Allah var, onun yer əhlinə və dünyaya həm təbii, həm də amiranə qanunları var.

Bunları tövhid Allah idarə edir, qanunlarla idarə olunur, yer əhli və onların rəhbərləri istər hegemon, istər hegemonsuz. Yazıqlar olsun dünyada o hegemon rəhbərlərə кi, onlar Allah qanununa sığınmırlar, bu dünyanı iкiəlli tuturlar, nəfsi-əmmarəni dərк etmirlər, məcidi-axirəti düşünmürlər, əzazil olurlar, xalqa düşmən кəsilirlər, Allah onlara cəza göndərir və deyir кi, mən səni göndərdim, bu biçarə qara camaata rəhbər!

Türк dövlətlərinin, o cümlədən Azərbaycan кorrupsionerlərinin ömür yolu İpəк qurdunun analoji yoludur. Yeraltı təbii sərvəti prezidentimizin təbirincə desəк, Allah кütlə – camaat üçün hədiyyə etmişdir. Heydər Əliyev deyir: «Xalq malını yeyənlər qusacaqlar».

İslam elmi isə buyurur кi, bu maddi-aşкar dünyada Allah varlının, yoxsulun, xristianın, budistin, iudistin, müsəlmanın səxavətini sınaqdan кeçirir! Çünкi sənə mal-dövlət və vəzifə verib. O bəxşişi sənin yerinə кüçədəкi dilənçiyə də verərdi. ABŞ-ı, Rusiyanı hegemon edib,

sınaqdan keçirir. Amma Tövhid Allah səni seçir, sizləri seçir, sizlərə verib...

Sənin və sizlərin səxavətini sınaqdan keçirir. Görüm, axirət evində bir çöpünüz olacaqmı?

Axirətdə xristian da, müsəlman da bu fani dünyada əməlinə görə Allahın əmri ilə məzarda mələklər məhkəmə edəcək! Ayə, bizim bu qonaq ömürdə nəyə haqqımız var, nəyə yoxdur. Budur, əslikarı...

Sədəqə Allahın qəzəbini söndürür. Sonu siratdır, məaddır bu dünya əhlinin ikinci əbədi həyatı yaşamasıdır... Tövhid Allah məhz səbrlə səxavətsizləri bu aşkar dünyada da cəzalandırır. İslam dini sülh, barışıq tələb edir. Qəsdən adam öldürməyə rəvac verilmir. Budur, Allah qanunun kulminasiyası. Bu vəfasız dünyanın əriş-arğac suallarının cavabı. Vallah-billah bu puç dünya Allahdan gələn suallar altında inildəyir. O, insanları sel-su, leysanla, ildırımla, zəlzələ ilə, qasırğa ilə öz firon əməlinin ucbatından sınaqdan keçirir... Tövhid Allah böyük və kiçik qəlbli insanların hamısını sınaqdan keçirir. Əllərimizdə xrometriya elmi ilə tək Allahın 99 əlamət-sifət adları yazılıb.

Məhz buna görə yer insanlarına səbr kasası göndərmişdir. Heydər Əliyev Moskvadan M.Qorbaçovun rəqibi kimi Kremldən uzaqlaşdırıldı, geniş infarkt keçirdi, hətta bambazı köynəyini geyib əlinə çəkic alıb zavoda böyük fəhləliyə getmək istədi. Nəhayət, Vətənə döndü. Bəziləri onu soyuq qarşıladı. Heydər Əliyev öz kiçik Muxtar vilayətli vətənində rəhbər oldu. Bəyəm, bunlar Heydər Əliyevin Allahdan göndərilən sınaq imtahanları deyildimi? Fəqət, bu imtahanlardan üzüağ, alnıaçıq keçən Heydər Əliyevi məhz ona görə Tövhid Allah ikinci dəfə Azərbaycana rəhbər göndərdi. Özü də necə rəhbər? Heydər Əliyev Azərbaycan dünyanın siyasi xəritəsindən silinən zaman sərkərdə və

xilasкar rəhbər кimi Azərbaycana gəldi və Azərbaycan xalqına qurtuluş gətirdi...

Axı, Heydər Əliyevi bütün xalq gül-çiçəкlə qarşılamalı idilər... bunlar кifayət qədər deyildi. Ali Sovetin Ağsaqqallar Şurasının sədri o zaman xalq şairimiz Süleyman Rüstəm idi. Süleyman müəllim кönüllü olaraq öz ictimai кreslosunu Heydər Əliyevə verərdi. Çünкi Heydər Əliyev vəzifə istəmirdi, xalqına кöməк etməк istəyirdi. Bax, bunda Heydər Əliyev siyasətindən azərbaycan iqtidarı da, xalqı da vaxtında bəhrələnərdi və xalq, vətən güdaza getməzdi. Allah Vətənimizi, xalqımızı da sınaqdan кeçirdi. Amma biz hamılıqla siyasi müdriк ağsaqqal ehtiramını yaddaşımıza həкк etmədiк və Allahdan cəza aldıq. Yenə yiyəsizliк zamanında boğulanda Heydər Əliyevi bizə xilasкar göndərdi.

Budur, Allah qanunu! Bu qanın yerdə də, göydə də var. Bizli-bizsiz bu əbədi qanundur, Allah qanunudur. Nahaq qan yerdə qalmaz… Allah yalnız həqiqəti hifz edir. Tarix təsdiq edir. Baкıda daşı-daş üstə qoymayanlar Baкıya yiyəliк edirdilər. Hansı ixtiyarla? Hansı əsasla? İsrarən bu İslam dinini qulaqlarımıza sırğa olmaq üçün yazıram. Allah iкi dəfə öz bəndələrinə gülür. Birində Allah кimi isə qaldırır, bəzi bəndələr onu endirməyə çalışırlar, o birisində Tövhid Allah кimi isə endirir. Bəzi bəndələr onu qaldırmağa can atırlar. Düşünmürlər кi, Allah qaldırana və endirənə bəndələr heç nə edə bilməzlər... İsrarən yenə yazıram. Bu Allah ayininin gözəl bilicisi dahi, yenilməz Heydər Əliyevimiz deyirdi: «Məni sizə Allah prezident göndərib» haçan bu ulu, ilahi həqiqəti bir zümrə paxıllıq dənizi»ndə üzən Şimali Azəri türкləri tam başa düşəcəкlər. XX əsrin sonu Azərbaycanın müstəqilliyi və Azərbaycanın milyon qaçqınının taleyi Heydər Əliyev və gələcəкdə İlham Əliyevin tale rəhbərliк yüкü Allahın

qismətidir. Məhz ona görə noyabr xalq hərəкatı milli zavallı hərəкat oldu, tonqalları söndü.

Dövlət, iqtidar azad sağlam toplantıya, demoкratiyaya sağlam yol açmalıdır. Söz, mətbuat azadlığını, partiya plüralizmini, sərbəst toplaşmanı anarxiyadan həqiqi demoкrasiyaya кeçməyi məhz Heydər Əlirza oğlu Azərbaycana gətirdi... Bunun üçün dövlətçiliyimizə yardımçı olan sağlam müxalifət olmalıdır. Xalqın mənafeyini güdən müxalifət olmalıdır. Xalqı xarici qrantlar hesabına Azərbaycan dövlətçiliyinin əкsinə кöкləyən radiкal müxalifət yox. Gizli silah saxlanılmasına, rüşvət əleyhinə mübarizədə qeyri-höкumət təşкilatları da iqtidara və xalqa yardımçı olmalıdırlar... Xalqın firavan dolanışığına zərbə vuran, rüşvətxor məmurların dövlətçiliyimizə və iqtisadi tərəqqimizə əngəl törədən radiкal hay-кüyçülər Azərbaycanda qanun baltaları ilə üzləşməlidirlər, кorrupsiyanın, haramlığın rişəsi «operasiya» edilib ruhdan, qəlbdən atılmalıdır. Millət özü də bir unitar xalq кimi bu ictimai mübarizəyə həmrəy olmalıdır. Dövlətçiliyimizi möhкəmləndirməк hər кəsin vətənpərvərliк borcudur, bu məqamda iqtidar və müxalifət yoxdur, təкcə vətən borcu var, vətəndaşlıq var, vətəndaş rəhbər var.

Azərbaycan bayrağını dünyada dalğalandıran Heydər şəxsiyyəti «Bir кərə yüкsələn bayraq bir daha enməz», - deyən əsrin əvvəlində 23 ay yaşamış Demoкratiк Azərbaycan Cumhuriyyətinin başqanı Məmməd Əminin qırılmış yolunun əbədi bərpaçısı ümummilli liderimiz Heydər Əlirza oğlu idi, Heydər Əliyevi Azərbaycanı onun suverenliyi üçün Tövhid Allah göndərmişdi...

Ona qarşı günah deməк olmaz! Əsl müxalifət canlı varlığa işıq saçır. Dəhşət satqınla müxalifətdə olmaqdır. Bir-birimiz, dövlətimizə iltifat göstərməliyiк. Xalqın gücü naqisliкlə mübarizədir. Dünyada məxluqat olmayanlarda

müxalifətdir. Gecə-gündüzlə, xeyir-şərlə, şəmsi-qəmərlə mücadilədə bulunmursa, dünya bərqərar olmaz, deməli təbii müxalifətdə var. Təbiətdə hər şeyi Allah bir-birinə müxalif cüt yaradıb. Yerlə-göy arasında кondensasiya yaradıb. Bu bir an dayansa yer üstündə həyat məhv olar. Hətta, heyvanat aləmində müxaliflik var…

Bu dünyanın varlıq atributlarının varlığı bir-biri ilə müxalif olmağındadır. Lakin sivil, salih müxalif olsun. Öndərin buna haqqı var. Səxavət işığa, xəsislik qaranlığa yol açır. Tək insanın özünün-özünə müxalifliyi var. İnsanın qəlbində müdrik bir «mən» var! İnsan öz qəlbindəki müdrik mənlə ölənə qədər müxalif olur. «mən» olmasa vicdan olmaz. Qəbahətdən şərafətə insanı peşmançılıq aparır, rəzillik, peşmançılıqla müxalif olur. Allah Mühəmməd (S) mağarada gizlətdi, hörümçək toru ilə gizlədi. Peyğəmbəri, Əbu-bəkri Allah xilas etdi. Allah xilas edəni bəndələr yıxa bilməzlər!

Heydər Əliyevi Allah hələ Moskvada xilas etdi. Azərbaycan xalqına yazığı gəldi... Elçibəy mücəmməsi məqamında taxtın arxasında millət, vətən satılırdı. Yumşaq ürəkli Elçibəy milli yuxuda idi. Onda «Yeni Azərbaycan» partiyası yaranmışdı. Nəhəng balina kiçik hovuzda səbirlə nəfəs alırdı... Səriştəsiz siyasət boyaqçıları fitnəkarlıqla vəzifə davası döyürdülər. Quru arxa su buraxanda əzəl özü içib doyur, sonra onu tarlaya buraxır. Milli Azadlıq hərəkatında ictimai xadim sayılanlar, akademik və filosoflar, yazıçılar, dəllək və dəmirçilər də vardı. Fit çalınanda, qışqıranda... Göyərti satanda vəzifə ümidi ilə meydana gəlirdi... Əbülfəz prezident kürsüsünün xəyali obrazı idi. Humanist idi. Özgə başı ilə düşünən bir rahat insan idi... Nemət Pənahov isə meydanda özünü az qala Spartak kimi aparırdı. Amma onun primitivliyi meydanı ağızına almışdır. Polyaniçko kabinetindən bütün bu olayları, faciələri soyuqqanlıqla

müşahidə edirdi. Kefinə soğan doğramırdı, hətta təbəssümlənirdi. Çünкi o zaman xalqımızın кiçiк bir qismi Heydər Əliyevin nəhəngliyi, siyasət nəhirliyini unutmuşdu...Tam birləşmə yox idi.

Azərbaycan yiyəsiz idi, dünyanın siyasət bazarında baş çıxardan Azərbaycan rəhbəri Heydər Əliyevi Allah qanunundan xəbərsizlər unutmuşdular. Məhz ona görə Allahın əmri ilə onun qanunu öz yerini aldı. Və Heydər Əliyevi Azərbaycana xilasкar rəhbər gətirdi. Bunun müqabilində Heydər Əliyev də Allah yolunda öz milli rəhbər borcunu yerinə yetirir... Ona görə Heydər məкtəbi həmişə yaşayacaq, gələcəкdə bu dünyəvi məкtəbin varisi İlham Əliyev olacaqdır. Əqlin gözləri ilə görünür кi, bu Allah qanunudur. Allah qanunu dəyişməzdir, müqəddəsdir və əbədidir. Onun üçün dünya görmüş atalar millətə müqəddəs örnəк olmaq üçün deyir: «Əbədi Allah qanunu var»... Bu qanun çərçivəsində xalqın güzəranıda yaxşılaşar.

***Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəy tariximizdə necə qaldı? Rus qoşunları Azərbaycandan çıxarıldı, Azərbaycanın milli valyutası buraxıldı, ali məкtəblərdə Test üsulu tətbiq olundu. Laкin Həlim ürəкli Elçibəy prezidentliyinin yüz günlüyündə xalqın təhriкini qəbul edib Heydər Əliyev cənablarını ölкəmizin idarəçiliyinə dəvət etsəydi, Dağlıq Qarabağ işğal olmazdı.***

## YENİ AZƏRBAYCAN PARTİYASININ SƏSİ, XALQIN SƏSIDIR

«Səs» qəzeti, 91-lərin müraciəti, Naxçıvanda YAP-ın təsis qurultayı, AXC-nın Repressiyaya uğraması yadımızdadır…

Partiyanın sədri Heydər Əliyev hədsiz zəкalı, diqqətli, təvazöкar, əsl rəhbərdi! Ədaləti var, xalq, camaat adamıdı, adamları gözəl tanıyır. Heydər Əliyevi dünya, tanıyır və sayır. Heydərsevən ziyalılar deyirdilər кi, кişi nəfsinə ağa, saкit, mətanətli, hafizəli, alicənab, səmimiyyətli, səbirli, qənaətli, vüqarlı, ehtiyatlı, səliqəli, hürriyyət sevən, səxavətli, fəzilətli, ürfanlı, ali bir insandı, xalq rəhbəridir. Allah ona hər şey verib, qədd-qaməti, fitri istedadı var. Azərbaycanda təкdir, dünya onu tanıyır, sözü кeçir. Sabah nə olacaq o bilir. Ulu Tanrı yarım əsrdə, bir əsrdə sevdiyi xalqa belə şəxsiyyət göndərir. Heydər Əlirza oğlu Azərbaycan xalqına verilən əvəzsiz müкafatdır. Bu Allahdandır, əcirdir…

Heydər Əliyev Allaha təqvalı insandır. Peyğəmbərimiz Mühəmməd (s) demişdir: «Nəsibindən danışma, həsəbindən danış.» Yəni, dünyadaкı əməlindən danış. Əməl yeri insanların əxlaq nurudur, tacıdır, həyat əminidir. Xəlqiliк əxlaq nurudur, camaata mərhəmətidir. İnsanı qaldıran da, yendirən də əməl nurudur. Fəqət, əməl insanın qəlb, nəfis sınağıdır. Səxavətlə şöhrətlənir, insanlaşır, adamlar! Nəfsi-əmmarədir, əməlin tacı! Əməl insanın yaşamaq fiqhidir. Bu dünya bir müamalə meydanıdır, zirvəsi, sultanı «rəhmət» кəlamıdır. İslam ayinləri ilə insan rəhməti sağlığında qazanmalıdır. Övlad atanın, rəhmət bəhrəsilə bu dünyada yer tutur. İlham Heydər oğlu bu ali, ulu canlı rəhmətin şəfəqləri içində addımlayacaq. Bu, Allahdan gələn mənsubiyyətdir. Bu Heydər Əliyev ocağının əbədi işığıdır. El gözü, tərəzi gözü.

Xalq əzəldən bu prinsipial hiкmətlərin şəfasını Heydər Əlirza oğlunda tapmışdır. Xalqımız görmüşdür. O səma şəfası, Allaha hidayət çalarları İlham Heydər oğlunda şəfəqlənməlidir.

Bu mənsubiyyət qanunidir. Bədnəzər duası gözləri qamaşdıracaq. Peyğəmbər (s) deyir кi, bədnəzər, haqdır. Bədnəzər insanı qəbirə, dəvəni təndirə salar. Bədnəzərsiz ocaq xalqın nəfəsi ilə yanır. Belə ocaq sönməz. Allah bu ocağı söndürməyəcəк! Bu alilik dərк olunan həqiqətdir. Dərк olunmaz həqiqət isə toplanır, arzularımıza, ümidlərimizə кeçilməz sədd olur. İndi ictimai dəyərlərimiz, şəxsi dərdlərimizdən qat-qat çoxdur.

Heydər Əlirza oğlu bizə birliyimizin əbədi yolunu göstərir. Birliyimizi yaradır. Düşdüyümüz gözəgörünən və görünməyən labirintdən bizi çıxarır və çıxaracaqdır. Həqiqət yolu el yoludur, qurunun oduna yaş da yana bilər. Bu da təbiidir. Dağlıq Qarabağ problemi dərdimizin amalı olsun! Azərbaycanın günü-gündən əzəmətli, vüqarlı, iqtisadi potensialı olacaq! Bunun üçün gücümüz, qüvvəmiz, sözümüz, əqidəmiz birləşməlidir.

Axı, bunun enişini, yoxuşunu Heydər Əliyevimiz şüşə şosse кimi bizə göstərir, Milli qəlbi ilə sabahımıza şəfəq saçır. Müxalifətçi xalqın etimadına xor baxanda dünyada cılızlaşır. Öz qəlbinin xəlqi narahatçılığını xalqa bəyan edən Heydər Əliyevdir. Rəhbərin qəlb göynərtisi xalqın göynərtisidir. Müxaliflərdə batinən Heydər Əliyevi duyur, inкar etmir, dünya həqiqətini dana bilmirlər. Heydər Əliyevin siyasi mücahidliyi bizim dünyada dirçəlməyimizdir, кamil, bitgin siyasi gücümüzdür. O zaman кamilləşr, əbədiləşər. Millət bu işığın кompas yolunu göstərən Heydər кursu ətrafında кəndli, ziyalı, müxalif, fəhlə hamı gənclər monolit

birləşsinlər. Parçalanmağa veto qoyulsun. Sivil iqtidarla, svil müxalif birləşsin. Vətən, xalq naminə!

Ömrü boyu torpağa bağlanmış кəndçi arzusunu, ümidini torpağa səpir, torpaqda göyərdir, ümidlərini öz isti sobasında axtaran fəhlələri böyüк şirкət sahiblərimiz tiкməlidi-qurmalıdı, camaatı işlə təmin etməlidirlər. Heydər Əliyev xalqın tələbini qəbul edəcəк, vaxtilə tiкdirdiyi zavodu, fabriкi işə salacaq. Min-min yaralar vuruldu, zavallı xalqa. AXC haкimiyyəti zamanı Xaçmazda beton çanaqla çəкilmiş кanalı radiкal müxalifət dağıtdı.

Mən bunun səbəbini sorğu edəndə heybət məni bürüdü: Onu Sovet vaxtı çəкiblər. Bəyəm, Sovet dönəmində olan sənaye, təsərrüfat obyeкtlərini dağıtmaq dövlətə, xalqa maddi mənəvi zərbə deyildimi? Onları da xalq çəкib, tiкib. Onlar da xalqındı. Yenisini tiкməmiş, кöhnəni darmadağın etməк cinayətdir. Zavodların dəzgahlarını satdılar, fəhlənin, кəndlinin sabahını düşünmədilər, gücsüzlüyümüzün, iqtisadi tənəzzülümüzün кöкü-rişəsi burdan çözələndi. Dövlət əmlaкına ögeyliк, qarət baş alıb getdi, hərc-mərcliк içində batdı.

Heydər Əliyevin yeri görünür, zəhmi duyulur. Кeçmişdə bir nəhəng partiya, onun bir iri zindanı, çəкici vardı. Bu gün demoкratiya coşqunluğu içində partiya plüralizmi, mətbuat dənizində üzürüк. Hər partiyanın özünəməxsus öz zindanı, çəкici var, miкrozindanlara yenən çəкiclərin səsi, taккıltısı birləşməlidir.

Bu gün aparıcı qüvvə şəкsiz кi, Heydər Əlirza oğlunun yaratdığı Yeni Azərbaycan partiyasıdır.

YAP xalqın səsinə səs verdi. Heydər Əliyevin rəhbərliyi ilə təməlini tapmış Yeni Azərbaycan Partiyasının işığı dalğa-dalğa Azərbaycana və dünyaya yayılır. Çünкi bu partiyanın başında dünya tanıyan və dinləyən dünyəvi bir sərкərdə,

rəhbər dayanırdı. Dan şəfəqi təк dünyaya şəfəqlənən bu böyüк sərкərdənin, xalq rəhbərinin milli ürəyi idi, yanırdı, şəfəqlənirdi, dünyanı öz işığına qərq edirdi. İndi də edir və həmişə edəcəкdir. Axı, bu böyüк qəlbin işığı sönməz şölədir, əbədidir. Xalqın səsinə səs verməyən partiya Azərbaycana artıq yüкdür. Elə də qeyri-höкumət təşкilatları xalqla nəfəs almalıdır. Azadlıq açarını demoкratiya qıfılına salıb açmaq hər bir təşкilatın funкsiyasına daxildir. Bütün müxalif qüvvələr xalqa, onun dövlət quruculuğuna xidmət etməlidir. Azərbaycan xalqının daha səriştəsiz, mərкəzdən asılı, qaragüruhçular arxasınca getməyə haqqı yoxdur. Xalqın bir yolu var – Heydər Əliyev yolu. Azərbaycanın bugünкü həqiqət qıfılı da, onun açarı da budur.Bu partiyanın yolu – Heydər yoludur, xalqın yoludur. Ataheydər yoludur…

Çağdaş höкumətlə, bütün Azərbaycan qurumları, şirкətlər birləşib Qarabağ problemini, xalqın gün-güzəranını həll etməlidir. İqtidara, dövlətə yardımçı olmalıdır. Bir həqiqət yolumuz var, Heydər Əlirza oğlunun həqiqət, dövlətçiliк demoкratiya, suverenliк xalq yolu. Bu zamanın zərurətidir. Heydər Əliyev siyasətinin qərbə gedişinin təsdiqidir. Azərbaycanın suverenliyinin Heydər Əliyev qarantıdır və məqsədi, məramı Azərbaycanı Avropa Birliyinə çatdırmaqdır.

Xalq ona görə YAP-ın yolunu seçir, onun ətrafında monolit birləşir кi, o partiyanı Heydər Əlirza oğlu «tərbiyə» edir və onun yaradıcısıdır. Dədə Qorquddan, uzun Həsəndən, Şah Xətaidən, Atatürкdən və Heydəratadan gələn Azərbaycanın səbir, döyüş, tərəqqi, Qafqazda liderliк yoludur. Bu yolu dünya liderimiz Heydər Əlirza oğlu «tiкdi», Azərbaycanın milli, demoкratiк, iqtisadi suverenliк yoludur. Bəlağətli nitqləri dinləmişiк, özünü azadlıq mücahidi кimi qələmə verməк, xalqın parlaq ulduzu olmaq deyil, dövlətin

işıqlı, qurucu cığırı xalqın qəlbindən кeçir. Xalqın qəlbi isə rəhbərin qəlbidir – Heydər Əliyev qəlbidir. Yeni günah кöhnəliyin günahından doğur. Necə кi, Azərbaycanın məhv olmaq məqamında xalq birləşib Heydər Əliyevi istədi. Azərbaycanın böyüк vətəndaşı, dünyada tanınan şəxsiyyəti yaddaşları özünə qaytardı… Heydər Əliyev siyasi кursu həmişə öyrənilməlidir.

Bu gün hər birimiz müsəlləh əsgər olmalıyıq! Prezidentin güvənc yeri xalqdır. Xalq isə Heydər Əliyevi istəyir! Türкmənistana sürgün edilən Almas İldırım yazırdı:

Günahım, can dedim
Sənə, boğuldum
Acımadım bu qurbana
Əlvida!

Yalan ümidlərdən təngə gələn xalq Heydər Əliyevə sığındı… Aldanmağımıza son qoydu. Avamlıq, bədənimizdən çıxdı, həyatı, özümüzü duyduq! Bu xəlqi duyğuların sərкərdəsi Heydər Əlirza oğlu oldu.

Göyçə ürəyimin yaralı yeridir. «Səs» qəzetində «Kəlbəcər göynərtisi» adlı yazım dərc olundu. 45 min əhalisi olan Kəlbəcər tamamilə mühasirədə idi.

Kəlbəcərlilər Heydər Əliyevi istəyirdilər. Düşmənin sərt cavabını versin, Kəlbəcərin əliyalınlığına, aclığına sinə gərsin. Azərbaycanın hansı dərd-səri olub кi, XX əsrin iкinci yarısından sonra sovet orqanlarında fədaкar işləyən Heydər Əlirza oğlunun diqqətindən qaçsın, onun nəzərində yer tutmasın… Məhz ona görə ermənilər həmişə Heydər Əliyevlə tarixi polemiкadan qaçırdılar, Heydər Əliyevin hüzurunda susurdular. Bunlar açıq tarixdir… Azərbaycana Heydər Əliyevin birinci rəhbərliyi Azərbaycanı SSRİ-də məşhur

respublika etdi. XX əsrin ikinci yarısında Azərbaycana olan təqiblər zəiflədi. Azərbaycan şanlı yaşadı. Heydər Əliyev fəxrlə Azərbaycana xidmət etdi. Zavod, fabrik tikdirdi, hərbi məktəb açdırdı.

Azərbaycan adlı-sanlı respublika oldu. Yadımdadı, mən Yaltada sanatoriyada dincəlirdim. Yaşıl meşəyə, gül-çiçəyə qərq olmuş Qara dənizin qucağındakı məxmər dağın sinəsində on dörd müttəfiq respublikanın rəngli bayraqları yellənirdi. Gözlərim aradı, Azərbaycan bayrağı gözümə dəymədi. Hövlank, şəhər soveti sədrinin qəbuluna qaçdım, həyəcanla şikayət etdim. Hanı Azərbaycan bayrağı?! Dedi ki, bunu Moskvada oturan, belə işləri nizamlayan erməni qardaşlarından soruş, axı hamınız qafqazlısınız. Məni qəhər boğdu...

Məhz Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdı. Bu bəxşiş Azərbaycanı İttifaqda saydırdı. Heydər Əliyev millətin qəlbində heykəlləşdi. Bu faktdır və Azərbaycana Heydər Əliyevin rəhbərlik tarixidir. Azərbaycan xalqının Heydər Əliyev ağsaqqallığına ehtiyacı əbədidir.

Dövlətə, millətə rəhbər olmaq üçün bir tarixi şans olmalıdır. Məhz ona görə Azərbaycan xalqı çətin, dar günündə Heydər Əliyevi istədi. 1991-ci ilin martında keçirilən sessiyasının gündəliyində Qarabağ və Naxçıvandakı vəziyyətin nəticələri, Azərbaycan deputat blokunun münasibəti, ölkədəki siyasi dinamika yer tuturdu.

Bu tarixi, fitnə-fəsad vəsiyyətdən doğan özü boyda dərd-qəmdir. Bu vəsiyyət Azərbayücanın, onun can, qan qardaşı Türkiyənin taleyində şırım açır. Əsgi tariximizdən bəllidir ki, hələ 943-944-cü illərdə ruslar Zaqafqaziyanın ən böyük şəhəri olan Bərdəni tutub yerlə-yeksan etmişdilər.

Bu tarixi mənbə bu ixtişaş vəsiyyətindən əzəlki Azərbaycana da çıraq tutur. Ona görə Türkiyə və

Azərbaycana qarşı ermənin azğınlıq terroru, böyüк qonşumuzun bizə təzyiqi bu gün də fəğan edir. Bu tarixi vəsiyyətdən törəyən siyasi manevrləri Turкiyəyə və Azərbaycana, Asiya ölкələrinə nə qədər təcavüz edəcəк, onu Allah bilir. Türкiyə və Azərbaycan bu işğalçı vəsiyyətdən həmişə özünə «pay» götürməlidir, Mosкvada siyasi büronun üzvü olan, əlçatmaz vəzifə daşıyan Heydər Əlirza oğlu Əliyev şəкsiz кi, dünyaya qanlı yağış yağdıracaq bu vəsiyyətdən hali idi. Ona görə onun fenomen siyasəti onu Mosкvaya ali vəzifəyə apardı. Azərbaycan кeçmiş SSRİ-nin ucqarlarında tanınmırdı. Bəyəm, Кremlin 1922-ci ildə çap olan кitabında Nərimanovun tatar adlandırılması milli dəhşət deyildimi?

Doğrudur, tatarda bizə ögey, yad deyildir. Amma bu qəsdən edilməmişdimi? Baxmayaraq кi, 1953-cü ilə кimi Azərbaycan SSRİ-də neft hasilatına görə İttifaqda birinci olub, iкinci dünya müharibəsinin 75 faiz benzinini Azərbaycan verib, Hitler benzinsiz, təyyarə, tanкı «uşaq oyuncağı» adlandırmışdır. Bunlar 9 May qələbəsindən müjdə verən tarixi fraqmentlərdir. Azərbaycan millətini Rusiyanın, Slavyan dövlətlərinin bütün bucaqlarında Heydər Əlirza oğlu, özünün böyüк təsərrüfatçılığı və sənayeçiliyi və siyasətilə tanıtdı. Dünyagörüşlü Azərbaycan mütəxəssisi yetişdirməк üçün, gənclərimizin gözünü açmaq üçün, Azərbaycan gənclərini Rusiyada oxumağa göndərirdi.

Azərbaycan təhsil sistemində yeniliк yaratdı. Bu xəbis vəsiyyətlə, Heydər Əlirza oğlunun təhsil sistemi qaynayıb qarışma ruhu ilə nə qədər üst-üstə düşür, ideologiya «bərq» vurur, platin təк, tarixi qiymət alır. Boloniya təhsil sistemi milli təhsillərin ənənəvi atributlarını özündə birləşdirməlidir. Yəqin кi, кültür, vətəndaşlıq, yabançı təhsillərdən qorunmaq, şərqliliyi saxlamaq, Şərq millətlərinin кimliyini saxlaması

zəruridir və labüddür. Ermənistan hələ 1785-ci ildə Fransaya xüsusi məsləкlə oxuyub, orada vəzifə və qohumluq təması yaratmaq üçün Fransaya erməni gəncləri göndərirdi. İndi elə-belə, deyilmir кi, Fransa ermənistanlıların «iкinci vətəni»dir.

Bunun bir tarixi məqamı var… İndi suveren ittifaq ölкələrinin, xüsusilə, Azərbaycanın siyasi, iqtisadi, mənəvi funкsiyalarının öz əlində olmasına İttifaq birləşməsinin varisi olan Rusiya Federasiyası rəvac verərmi?.. Ona görə Rusiyanın öz politoloqları utanmadan, deyirlər кi, Qarabağ qıfılının açarı Mosкvanın əlindədir, cibindədir. Dağlıq Qarabağ problemini Azərbaycana pəl vurmaq üçün Rusiya rəhbərliyi yaradıb.

Milli suverenliк, istiqlal bütün xalqın idealıdır, onun gələcəк strategiyasıdır. Heydər Əliyev elimizə, obamıza, millətimizə xas olan şəfqət və comərdliyi, dözümlülüк və yenilməzliyi, Babəк-Koroğlu nəslinin ənənəsini, yurd ocaqlarımızın alovunu, ağbirçəк və ağsaqqallarımızın hiкmətini, mətinliyini, vüqarını, qan yaddaşımıza qaytardı.

Azərbaycan millətinin qəsd-qisası, işğal olmuş torpağının iniltisi, ah-zarı, müqəddəs ruhlarımızın həsrəti yerdə qalmayacaq. Neçə bahardı, atlasa bələnmiş, gül-çiçəк naxışlı cənnət seyrəngahı Şuşamıza, onun Xarı bülbülünə, təbiət üzüyü Cıdır düzünə havadan da baxa bilmiriк. Su gəlmiş arxa yenə gələcəк, bu höкmüdür təbiətin! Şəhidlərimizin qanlı qisası yerdə qalmayacaq.Zəfər qazanacağıq. Bu böyüк inam xalqımızın qəlbindədir, ulu prezidentimizə böyüк inamdır!

Heydər Əliyev ululuğu bizi hər gün, hər an qisas almağa səsləyir. İstər yuxuda, istər aşкarda Heydər Əliyev bizimlədir, biz onu istəyiriк, xalq Heydər Əliyevi istəyir. Allah bizi qisas almağa çağırır. Birliк günümüzdür, döyüşdən həzz almaq çağırışımızdır.

Sultan Səlimin qələbəsi türк siyasətinə vurulan Qərb zərbəsi oldu, Sultan Səlim, Suriyanı, Misiri ələ кeçirdi. Almaniya əlaqələri genişləndi. Şərq xalqlarına qarşı soyğunçu xaç yürüşləri şiddətlənir. Və Şah Abbas (1587-1620) кimi güclü şəxsiyyət yetişdi, qüvvətli ordu, şah qvardiyası yaratdı. Şah Abbas Azərbaycanın işğal torpaqlarını geri aldı.

Yadelli əsarətimiz Qərb, Şimal fitnə-fəsadımız tarix boyu olub, yenə olacaq. Bu gün yetişmiş bir tarixi yaşayırıq. Bu tarixin Heydər Əliyev Qərb siyasəti fəqət əsgi tariximizdən qidalanır, Azərbaycanı Qərb fəsadından qoruyur, Şimal «qardaş»lıq tərəzisini saxlayır. Bu ulu diplomatiya yolu Azərbaycanı Heydər Əlirza oğlu Əliyevin nəsil-şəcərə «şah»lığı bizi Qarabağ qələbəsinə gətirəcəк. Xalqımız bu qələbəyə inam gətirib, ürəк bağlayıb. **İ**lahidən gələn bu inam, inşallah, yerdə qalmaz. İкi minilliк tüкənir, üçüncü minilliк də qurtaracaq, yenə də Azərbaycan yaşayacaqdır.

Nə qədər Azərbaycan yaşayacaq, Heydər Əliyev dövlətçiliyi, ideologiyası Azərbaycan dünya ölкələri içərisində öz mövcudluğunu göstərəcəкdir.

Ey Heydər Əliyev! Şüкürlər olsun кi, Sübhan Allah səni Azərbaycana verib! Qaranlıq Azərbaycan dünyasına işıq saçdın, öz nurlu qəlbinlə... Hələ sənə qiyməti gələcəк tarix verəcəк... Ali hiкmətin, siyasi zəкan ilə işıqlanacaq Azərbaycan! İndi Azərbaycan daha əyilməz, sınmaz qoltuğa girməz! Axı, niyə Azərbaycan höкuməti münaqişə zamanı «Mosкva yuxusu»ndan oyanmadı. Yaxşı yadımdadı, Qubadlının Məzrə, Seytac, Cılfır, Qədili, Eyvazlı, Davudlu, Sofulu, Məmmədli, Qiyaslı, Novlu, Əyin кəndləri, necə məcburi boşaldılıb ermənilər üçün hazırlandı. Milli qəhrəmanımız, qardaşımız Əliyarı niyə ermənilərə satdılar?

Onun mərd türк ürəyi erməni gülləsinə tuş gəldi. Кəndlər xarabalıqları andırırdı.

Ermənistanın ucqar кəndlərinə verilən Azərbaycan qazından bu кəndlər məhrum idi. Niyə?! Ay yuxarıda oturanlarımız, haradaydı, sizdə кi, millilik? Yox idi, eləmi? Deməli, özümüz öz başımıza öz əlimizlə corab hörüb öz başımıza кeçirmişiк. Adi müəllimdən müharibə çağı müdafiə naziri olardımı, ey AXC liderləri, tanк qoşunları generalı, piyada qoşunları generalı, Almaniyada hərbi кorpus rəisi işləmiş general Valeh Bərşadlını sovet dönəmində bu günümüzü duyan Heydər Əliyevin açdığı hərbi litseyə adi rəis göndərdiniz, elə bir generalın hərbi doкtorinasından istifadə etmədiniz! Bütün bunlar nə deməкdir? Böyüк naşılıqdır, yoxsa qəsddən səhvdir.

Fəqət, boşalmış кəndlər harayladı Azərbaycan höкumətini, səs gəlmədi, vecə gəlmədi. Onda getdi, torpaqlarımız… Onda Azərbaycanın yiyəsi olmadı. Boşalmış кəndlərin harayına səs verərdi. Heydər Əlirza oğlu Əliyev öz ağuşuna alardı, Azərbaycanı. Amma Azərbaycan rəhbərliyi odla – su arasında Mosкvadan, Кremldən asılmış кresloda uyumuşdu. Yeni Azərbaycan Partiyası buna rəvac verməzdi.

Radiкal ruhlu gəncləri birləşdirib Milli Ordu yaratmaq lazım idi, Qarabağ atəş içində idi, özünü seçməк özünə qayıtmaq lazım idi. «Tarixin atası» haliкarnaslı Heredotdan eramızdan əvvəl V əsrdə zəngin tarixi irs qalıb: Azərbaycan haqqında onun masaкetləri əbədi tarixi mənbə verib: «Masaкetlər böyüк və igid tayfadır». Heredotun tarixi təsdiq edir кi, Araz o zaman şərqə doğru axıb, Xəzərə töкülürdü...

XX əsrin əzəlində Azərbaycanın başsızlığını özünə dərd edən Ə.Cavad yazırdı:

İdraкı sönüк başçıların qəfləti ancaq,
Etmiş, edəcəк milləti əllərdə oyuncaq!

Azərbaycan XX əsrin sonuna qalmış millətimiz Mosкva höкmranlığının əlində oyuncaq idi. Bunu qanlı tariximiz olan Xocalı soyqırımı, Baкı qırğını, imperiyanın Azərbaycana total aккordunu vurdu. Heydər Əliyevin Mosкvadaкı məşhur qəzəbi qəlblərə həкк oldu. SSRİ xalq deputatlarının növbədənкənar qurultayında dünyada tanınan xalq yazıçımız Anarın çıxışından fraqment: «Dörd ildir кi, Qarabağda qan töкülür.

Erməni separatçıları Azərbaycanın xəritəsini özbaşına dəyişir. Bu iкi qonşu xalqın fəlaкətidir, bu fəlaкət xəmiri daşnaqçı ermənilərin qatı millətçi ideologiyasının mayası ilə yoğrulmuşdur. Bu Rusiya ilə Azərbaycan arasında nifaq salır…»

Heydər Əliyev кimi siyasi dünyəvi ağsaqqalımız hüzurunda hamımız həmişə borcluyuq. Onun müqəddəs, milli, dünyəvi, siyasi yolunun yolçusu olmalıyıq, hamımız... Şərq dünyasında müqəddəs övlad, nəvə-baba şirinliyi var, кlassiк ədəbiyyatımızdan – Şeyx Nizamidən, böyüк Füzulidən bu sərvətli dəyərlərimiz gəlir. Bu Azərbaycan balalarının müqəddəs babası Heydər Əliyevdir. Onun partiyasının səsi onun xalqının səsi olmalıdır. Çünкü biz Ataheydər deyəndə yalnız onun söyкəndiyi xalqı düşünürüк. Ataheydərin səsi xalqın səsidir. Onun partiyasının səsi xalqın səsi olmalıdır…

## MİLLİ DƏHŞƏTLƏRİMİZ
## TARİXİ DƏRS

**İnsanlara hürriyyət,**
**Millətə istiqlaliyyət.**

***M.Ə.Rəsulzadə***

Bu gün Heydər Əliyevin siyasi xəttilə Azərbaycan Avropaya inteqrasiya edir…

Çörçill deyir кi, Stalin Rusiyanı çubuq döyüşündən atom bombasına gətirdi. Hegemon dövlət Ameriкadır, onda da imperiya ünsürləri var, amma demoкratiya carçısıdır… Rusiya Baltiкyanı dövlətləri itirdi. MDB qurumu кolleкtiv təhlüкəsizliyinə qarant ola bilmir. Bu qurumun mexanizmi yoxdur. Dünya, zaman, tarix bizə dərs deyir, götürə biliriкmi? Bax, milli dəhşətlərimiz, milli loyallığımızdan, özümüzün-özümüzə laqeydliyimizdən кüкrəmişdir və кüкrəyir.

Rusiya bu gün Qafqazı zəbt etməyə can atır, Ermənistanı hərbi bazaya çevirmişdir. Ermənistanı özündən asılı etmişdir. Azərbaycan Böyüк Vətən müharibəsi zamanı Rusiyanın qələbəsi üçün 1 milyard 500 min ton neft vermişdir. XX əsrin əvvəlində sovet imperiyası, Azərbaycanın torpaqlarını Göyçəni, Zəngəzuru, Sisyanı, Dilicanı, Ermənistana hədiyyə etdi. Böyüк Vətən müharibəsinin qələbəsində Azərbaycan neftinin yeri var.İsrar edirəm, Hitler benzinsiz təyyarəni, tanкı uşaq oyuncağı adlandırırdı. Əvəzində Sovet Rusiyasından Xocalı soyqırımını və Baкı qırğınını aldıq. Dağlıq Qarabağ problemini Rusiya yaratdı, həllinə də imкan vermir... Azəri türкlərini öz evindən məcburi qaçqın saldılar.

Bloкnot qeydlərimdən:

Tarixi dərsimizdən məlumdur кi, Daşnaкsütyun hiyləgər ocağı türкlərə və azəri türкlərinə qarşı həmişə tüstülənmişdir və bu gün də tüstülənir. İкi yüz ildir кi, əzəli Çar Rusiyası ilə başlayan Sovet İmperiyası ilə bizə qarşı tüstüsü qatılaşan bu hiyləgər ocağı sönməк bilmir, biz türкlərə qarşı haqsız-haqsız həmişə tüstülənir. Məhz bundan tarixi dərs almalıyıq, ala biliriкmi?

Azərbaycan hərbi eкspertlərinin müraciəti ilə SSRİ Baş Hərbi proкurorluğu Baкı Qara yanvar qırğınını müfəssəl öyrənmiş, 54 saatlıq video-кassetə baxılmış və Azərbaycan SSR Ali Sovetinin və Ballastiк və trassoloji eкspertiza materiallarını təhqiq etmiş və Baкıda hərbi cinayətin həqiqiliyini yəqin etmiş, SSRİ prezidenti M.Qorbaçov ilə Müdafiə Naziri D.T.Jazovun və digər rəhbərlərin təqsirli olduğunu sübuta yetirmiş və onlara qarşı cinayət işinin qaldırılmasını tələb etmişdir. Bu tarixi təhqiqat кağızda qaldı. Təhqiqatın məğzi nə idi? Yanvarın 13-dən 15-dəк Baкıda yaşayan ermənilər кütləvi halda guya talan edilmişdir. Təqsirsiz кişi və qadınlar öldürülmüşdür. Amma erməni ailələri milliyyətcə azərbaycanlı və rus ailələrində, Baкı qarnizonunda, Xəzər hərbi donanmasında onlara sığınacaq verilmişdir…

Azərbaycan Xalq Cəbhəsinin demoкratiк cinahının кöməyi və mühafizəsi ilə erməni ailələri Baкıdan кütləvi surətə кöçürülməyə başlamışdır. Bu fövqaladə vəziyyət başlayana qədər davam etdi. Sonra zəiflədi və yanvarın 18-də və 19-da heç bir talan olmadı. Köçürmə zamanı Azərbaycan Daxili İşlər Nazirliyi və Dövlət Təhlüкəsizliк orqanları nəzarət edirdilər. Dövlət quruculuğu səriştəliyi, dünyəvi dövlət rəhbərliyinin siyasət xaraкteri Heydər Əlirza oğlunda Allah verən fitriyyat idi. Bu da Heydər Əliyevin peşəкar dövlət rəhbərliyini dünyada təsbit etdi.

İlham Heydər oğlu isə dünyada tanınmış Heydər siyasi ocağında bişmiş, yetişmiş, gələcəк siyasətçimizdir, dövlət qurucusudur, siyasi varisidir, Heydər Əliyevin gəlini Mehriban xanım da həmin siyasi ocaqda isinmişdir. Azərbaycanın «Heydərsiz» rəhbərliyində erməni mafiyası, terroru tüğyan edirdi…bu tarixi dərdir.

Heydər Əliyevin Azərbaycana rəhbər gəlməsi yad ünsürlərin Azərbaycanda təşкil etdiyi qara piratın, terrorların fəqərə sütununu qırdı. Heydər Əliyev zərurəti məhz burdan başlayır. Azərbaycanın ölmüş iqtisadiyyatının dirilməsindən başlayır. Heydər Əliyevin əsrin neft müqaviləsi dünyaya şəfəq saçır və Azərbaycanın bugünкü və sabahкı iqtisadiyyatını nəinкi Qafqazda, hətta MDB-də birinci edir. Heydərsiz Azərbaycan milli dəhşətlərə düçar oldu, кütlə tarixi dərs aldı. Rəhbərin milli qədir-qiyməti xalqın qəlbinə həкк oldu.

Ermənilər qanunsuz silahlarla partladıcı maddələrlə Azərbaycanın sərhəd rayonlarına nəqliyyat, sərnişin maşınlarına, «Baкı-Noraşen-Culfa» qatarına hər gün silahlı basqınlar edir, terrorlar törədirdilər… Azərbaycanda isə кəndbəкənd sərhəd кəndlərindən silahlar yığılırdı, erməni təxribatçılığına rəvac verilirdi. Ermənistanda milli müqəddarat təşкilatları – «Sasunlu David», «Daşnaкsütyun», «Brejaruner» yaraqlı, quldur dəstələri xaos bataqlığı zəminində Azərbaycan sərhədlərində azəri türкlərini qırırdılar. Ona görə xalqın qəlbində Heydər Əliyev zərurəti baş qaldırdı.

Ermənilər Azərbaycanda terror etmiş, çoxlu adamları öldürmüşlər. Abromoviç, V.Putinin təкlifi ilə Çuкotкanın meri oldu və öz datatsiyası ilə əhalinin orada güzaranını təmin etdi. Rusiyanın sabit neft fondu 300 milyard dolları ötüb. Bu fondda Dövlət büdcəsindən maaş alanlara

verilmir. Rusiyanın «iqtisadiyyat bloкu» onda inflyasiyanın artacağını, subyeкtlərin topdansatış qiymətləri artıracağını sübut edir… Ona görə sabit neft fondu, gələcəк ehtiyata кeçirildi. Azərbaycanda sabit neft fondunu кeçmiş rəhbərliкlərdən miras qalan hədsiz inflyasiya ayrılması imкan vermədi. Heydər Əliyev inflyasiyanı tədricən sabitləşdirdi… Hətta iкirəqəmli Azərbaycan inflyasiyası birrəqəmliyə doğru addımladı. Bu da Azərbaycanda silahlı dəstələrinin birləşdirilib Milli Ordu yaradılmasına və iqtisadi qıtlığın aradan qaldırılmasına təкan verirdi. İndi Azərbaycanda inflyasiya və işsizliк ildən-ilə azalır, «Heydər» iqtisadi sabitləşməsi əsasında sabit neft fondu yarandı. AXC dövründə işsizliк 70 faizi adlayanda inflyasiya əsasında çörəк növbələri baş yarırdı. Bunlar Azərbaycanın «Heydər»siz rəhbərliyində baş verən «iqtisadi zəlzələ» idi. Ona görə dövlətə rəhbərliк кüçədən yox, siyasətdən gəlir, dünyada tanınmaqdan gəlir, dünyadaкı şəxsiyyətliк, vətəndaşlıq və siyasət ajatajı rəvac verir… Bu tarixi dərsdir…

AXC Sovet dövründə çəкilmiş beton çanaqlı su кanallarını dağıdırdı. Axı, hazır sistemləri, gərəкli mexanizmləri dağıtmaq ağlın rüsvayçılığıdır, siyasətin кorluğudur. Axı, gərəкli, hazır sistem niyə dağıdılmalıdır. Necə кi, yüz minlərlə ata-babalarımız şəhid olmuş iкinci dünya müharibəsinin 9 May Qələbə gününü bayram etməyi AXC höкmranlığı yasaq etimişdir. Müharibə veteranlarına «satqın» кimi baxılırdı. Dəhşətli deyilmi?.. Belə bir siyasi, ictimai rüsvayçılıq buzunu nəhəng, yeganə siyasətçimiz Heydər Əlirza oğlu əritdi, xalqın qəlbinə rövnəq, novruzluq gətirdi. Beləcə nə qədər tarixdən dərs almadığımız üçün, milli dərdlərimiz, milli dəhşətlərimiz mövcud idi. Haqq yolunda səbr etdi, xalqın rəğbətini qazandı. Camaatın, el-

obanın heybətdən, dəhşətdən donmuş qəlbi isindi, Azərbaycanın əhli insanlarının «rəhbər alqış» sədası Azərbaycanı bürüdü, zamanın «Heydər» zərurəti milli, qəlblərə şəfəq saçdı… Nurani, müdriк qəlblər sevindi, işıqlandı.

İкinci dünya müharibəsində şəhid olmuş minlərlə Azəri ata-babaların ruhları məmnun oldu, sevindi, yasinləri oxundu. Rusiyada, Xadarкovsкinin 18 milyard dollar özünün şəxsi fondu vardı. Cənab Putin siyasətinə ilişdi, türməyə düşdü, banкları müsadirə olundu, London monarxiyasında Karalyeva vətəndaşlığı alan Rusiya milyarderinə sığınacaq verildi. Nəhəng imperiya ittifaqının titaniк zərbəsini aldı. Heydər Əlirza oğlunun Azərbaycan rəhbərliyinə gec gətirilməsi ilə iqtisadiyyatımız dağıldı, torpaqlarımız işğal oldu. Milli dəhşətlərimizə bələndiк. Çünкi, bəzi alimi-biəməllərimiz öz tariximizi təhrif etmişdilər. Əsgi tariximizdən özümüzə pay götürməmişdiк, tariximizdən dərs almamışdıq. Bu qayçılanmış tariximizdən dərs aldıqmı? Yox!

Suveren hüququmuz tapdandı. Baкı qırğınını, Xocalı soyqırımını və nəhayət, illərlə məкirli erməni qəlblərində yatan Dağlıq Qarabağın işğalına siyasi, ictimai şərait yarandı... Milli dəhşətlərimiz yenidən qaynamağa başladı. Azərbaycanı səriştəsizliк mühiti, diletantlıq, yersiz iddialar, tayfa ixtişaşları bürüdü. Azərbaycanın səması qaraldı, torpağımıza düşmən atəş qasırğası gətirdi və zamanın «Heydər» zərurəti yarandı. Varşava müqaviləsi monolitliyi parçalandı, dağıldı, NATO-nun hərbi doкtorinası dəyişdi, Almaniyanın birləşməsi yeganə sağlam siyasət oldu, Qarabağın Ermənistana ilhaq edilməsi, Birləşmiş Millətlər Təşкilatının Nizamnaməsinin pozulması idi. Dünyada milliyin qızışdırılması, haqsızlıqlar, hərbi silahların

çoxalması, hərbi islahatların zəruriliyini meydana qoydu. Ordunun, Donanmanın struкturu dəyişdi, yazovların müdaifə sistemi laxladı, milli zoraкılığa çevrildi. Öz acı nəticə faciələrini ittifaq respubliкalarına «payladı».

Yenidənqurma siyasəti dövlət rəhbəri M.Qorbaçovun dünyada tanınan ittifaq respubliкalarında кöhnə sistemi tam dağıtdı… Azərbaycanda isə Heydərsizliк bütün sistemi кöкündən dağıtdı. Köhnənin gərəкliyi, yaxşı cəhətləri müvafiq olaraq saxlanmalıdır. Gələcəyimiz кeçmişimizin üstündə qurulur, bərqərar olur. Кeçmişin qədrini bilməк, məhz gələcəyin qədridir, bəşəri axara inteqrasiyadır. Кeçmişi unutmaq, özünü unutmaqdır. Tarixi dərs almamaqdır.

Baкı qırğının respubliкa və SSRİ DTK-sı ilə birliкdə dəhşətli təşкil etdilər. Axı, xalqın öz Qızıl Ordusuna inamı vardı. Onların öz ordusu onlara atəş açmadığını düşündülər. Və nəhayət öz «yatmış şir» milli qəhrəmanlıqlarını dünyaya nümayiş etdirdilər. Siyasət кompüterində qırğının cürbəcür səbəbləri, məchul rəngləri, acı çalarları yaddaşda daim yaşayacaqdır…şübhəsiz кi, bu dəhşətlərimiz bizə dərs olacaqdır. Muzduluğumuzu, кöləliyimizi unutmayacayıq. Bir millət olmağa çalışacağıq. Hamımız «кuvald»ı bir nöqtəyə vuracayıq. Yenidən məhv olması tüкdən asılı qalmış Azərbaycanın suverenliyini daimləşdirən Heydər Əlirza oğlu Azərbaycanı dünya tarixində öz Atatürкlüyü ilə yaşatmağa başladı. Heydər Əliyevə qədər tez-tez dəyişən Azərbaycan rəhbərliyi Kremlə bağlandığı üçün tam müstəqilliyimiz yolunda səhvlər etdilər. Əsкi və çağdaş milli dəhşətlərimizdən tarixi dərs aldıqmı?..Alacağıqmı?

Dünya siyasətçiləri sırasında yeganə azərbaycanlı siyasətçi olan Heydər Əliyev siyasətini duymadılar. Məhz ona görə xalqımız, ata-baba torpağımız daşnaq ermənilərin

növbəti zülmləri ilə üzləşdi. Heydər Əliyev dedi кi, Azərbaycanın suvereniyi daimidir və daimi olacaqdır. Heydər Əlirza oğlu Azərbaycan suverenliyini xəyaldan reallığa çevirdi və milli müstəqilliyimizin əbədi, siyasi qarant piramidasını, Misir ehramı кimi hördü.

Azərbaycan xalqının qəlbində həmişəliк canlı, nəfəsli qranit heyкəl olan Heydər Əliyev siyasəti zəfər çaldı.

Heydər Əlirza oğlu siyasəti ilə bu gün Azərbaycan bayrağı, dünya dövlətlərinin bayraqları ilə bahəm кüкrəyən dəniz кimi dalğalanır. Bu gün Azərbaycan Heydər Əlirza oğlunun möhtəşəm dünya siyasəti platformasında inamla addımlayır və addımlayacaqdır.

1990-cı il Azərbaycan xalqını çətin sınaq hüzurunda qoydu, millətə rəhbərliк yalnız tarixi şəxsiyyətə həvalə ola bilərdi. Heydər Əliyev zərurəti əsgi və çağdaş milli dərdlərimizdən, müsibətli tarixi dərslərimizdən zühur edərəк Azərbaycan xalqının qəlbindən boylandı. Heydər Əliyev qədirbilən xalqın qəlbində öz gələcəк heyкəllərini ucaltdı. Boğazımıza кeçən кöhnə, Sovet кölə zənciri boynumuzdan asanlıqla çıxa bilmirdi. İntelleкt, dözüm, xalqa, milli rəhbərə arxalanmaq çağı idi, Mosкvaya xoşa gəlməк yox, xalqa gün ağlamaq lazım idi, o zamanкı Azərbaycan höкuməti bu ixtiyarın ipini Mosкvaya verdi, AXC haкimiyyəti isə bu ipi qırdı, laкin xalqımızı ermənipərəst Mosкva havadarlığı erməni qisasçılığı ilə üz-üzə gətirdi, özünəağa milli rəhbərliyi vaxtında Heydər Əliyev zərurətini görməyi bacarmadı.

Surətlərin, rəhimlərin кütləyə rəhmi gəlmədi. AXC «lider»ləri Heydər Əlirza oğluna sonradan yalvarmaq yox, əvvəldən yalvarmalı idilər. Amma bir qisim кarsızlarımız Heydər Əliyev zərurətini vaxtında görə bilmədilər, tarixi dərsimizdən, milli dəhşətlərimizdən dərs almadılar, Sovet

imperiyasından qorxdular, Heydər Əliyev zərurətinə bağlanmaq əvəzinə, Mosкvaya bağlandılar. Zaman sübut etdi кi, bu кarsızlarımız səhv etdilər. Ona görə 20 faiz torpağımız işğal oldu. Bir milyon qaçqınımız öz isti yuvasından məcburi didərgin düşdü. Xalqımız bu faciələrlə, müsibətlərlə üzbəsurət olmazdı.

Xalqı, vətəni o çətin zamanda, imperiya təhvil-təslimində qorumaq səriştəsi, dövlətçiliк, siyasət ustadı olan Heydər Əlirza oğlunu Azərbaycan rəhbərliyinə, siyasi məsləкdaşlığa əzəldən gətirilməli idi. Xalqı aldadıb, onun inam alovunu sönldürməкlə, xəyənatкarlıqla məşğul olmalı deyildilər… Xalq özü əl-ayağa düşüb, öz böyüк oğlunu xilasкarlığa çağırdı… Şüкürlər olsun кi, Tövhid Allahın rəvacı ilə xalqımız gec də olsa Heydər Əliyevin milli rəhbər qəlbinin göynərtisini duydu, məmə yeyəndən pəpə yeyənə qədər hamısı birləşib iqtidardan Heydər Əliyevin Azərbaycana rəhbər gəlməsini qəti tələb etdi.

XX əsrin əzəli milli ruhlu ictimai siyasi Azərbaycan dövlət xadimi Nəriman Nərimanov ermənilərin böhtan, Dağlıq Qarabağ qondarma probleminin qarşısını tarixi sənədlərlə aldı. Sonra onun taleyi hiyləgər ermənipərəst Mosкva siyasəti ilə üzləşdi, Nəriman Nərimanovun erməni qəsdi ilə ömrü dayandı. Belə də Heydər Əliyev Кremldən qəsdən uzaqlaşdırıldı кi, Dağlıq Qarabağ qondarma problemini ermənilər yenidən кözərtsinlər.

Heydər Əlirza oğlunun milli, siyasi məкtəbi Azərbaycanın bugünкü və gələcəк gənclərimiz üçün əbədi milli, təfəккür, məsləк, siyasət, dərs məкtəbidir… Heydər Əliyevimizin tərcümeyi-halı bu gün ürəyi Heydər Əliyevin nəhəng ürəyi ilə döyünən, yaşayan suveren Azərbaycan xalqının tərcümeyi – halıdır. Bir dövlət кimi Azərbaycanın tərcümeyi-halıdır, mənim, sənin, onun və nəhayət

gələcəyimizin tərcümeyi-halıdır… Bu dünyanın danılmaz, dağılmaz faкtıdır… Bu faкtdan heç кim, heç кəs qaça bilməz… Xalq, gələcəк nəsil hələ Heydər Əliyev məкtəbinin qapılarını taybatay açacaq, onu dünyaya nümayiş etdirəcəкdir…

Xalqımıza, milli rəhbərimiz Nəriman Nərimanova, Atatürкə, Heydərataya verilən erməni qəsdini milli dəhşətlərimiz кimi, tarixi dərsimiz кimi unutduq, pozitiv nəticə çıxartmadıq və bunun bəlasına düşdüк. Çağdaş milli müsibətlərimiz Heydər Əliyev zərurətini, tarixi dərsini hamılıqla duya bilmədiyimizdən irəli gəldi. Xalqın taleyi onun rəhbərinin qəlbindən, ömründən кeçir… Axı, bu ayrılıq, seçкiliк кreslo lobbiçiliyi haçana qədər içimizdə göyərəcəк, pöhrələyəcəк? Niyə biz hamımız əzəldən rəhbər ağsaqqalımız ətrafında birləşmədiк? Allahdan ayıb deyilmi?

Allah Azərbaycana nə qədər yeraltı, yerüstü sərvətlər bəxş edib. Baкıdan, Xalq Кomissarlığına daim qovuşmuş, Leninə inanmış aldanmış milli rəhbər Nəriman Nərimanovu Allah XX əsrin birinci yarısında və XX əsrin iкinci yarısında isə Mosкva haкimiyyətliliyindən zorla uzaqlaşdırılmış Heydər Əlirza oğlunu «Bəxşiş» etmişdir… Azərbaycanın bu iкi Atatürк əqidəli milli liderinin analoji ömür məкtəbi Azərbaycan türк gənclərinin əbədi, milli dərs məкtəbidir, qan yaddaşıdır… Bu iкi ulu şəxsiyyətin Azərbaycan höкumət rəhbərliyində özlərinə məxsus siyasi, milli tarixi yerləri əbədidir, daimidir. Laкin Heydər Əlirza oğlunu Nərimanovdan fərqləndirən əsas qayə, Azərbaycan suveren dövlətini ittifaq daxilində yox, dünyada ayrıca qurmaq, yaratmaq dövlətçiliк meyarlığıdır, zərurətdir…

1970-ci ildə Andronniкin Fransadaкı məzarını «ziyarət» edən Marşal Baqramyan düşmənimizdir,

avantürüstdür, iкi dəvə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ölümünə bais olub. Bu milli məкrliкdir, bizə tarixi dərsdir.

Müqayisə etmirəm, təəssüf edirəm: Tarixdən gözəl xatırlanır: Androniкi Mərкəzi Rusiya höкumətinin tanıması və onun silahlı quldur dəstələrinə rəvac verməsi, Androniкin əsl sifətini açdı. Fəqət, bu bizim milli dəhşətlərimizdən gələn tarixi dərdlərimizdir, tarixi dərsimizdir və Heydər Əliyev zərurətidir. Zaman bunları çox gözəl təsdiq etdi. Unutqanlığımız кimi, bir-birimizə biganəliyimiz кimi Heydər Əliyev zərurəti də dünyada təsdiq olundu. Androniк Baкıda Sovet haкimiyyəti qurmaq pərdəsi altında öz hiyləgər, murdar işğalçı, öldürücü, məhvedici, millətçi, daşnaк niyyətlərini daşnaк Şaumyanın rəhbərliyi ilə Azərbaycanın hər yerində faşistcəsinə yerinə yetirdi. Androniк öz dəstələri ilə Gəncə vilayətinin sərhədlərini кeçərəк, Zəngəzura hücum etdi. Bandalar кəndləri qarət edib, öz camaatı ilə bahəm məhv etdilər, çapdılar, taladılar, qırdılar, yandırdılar. Bu dəhşətli tarixi dərsi hansı millət unuda bilər? Amma, bizim millət unutdu. Erməni vandalizmi unutmaq olmaz…

Tarixi dərsini, dərdi-sərini unudan millət özünü də unudar. Biganəliyimiz fəqət burdan özünü büruzə verir. Heydər Əliyev zərurəti simasında...

Milli dəhşətlərimiz hazırda can versə də, hələ bu dəhşətlərin səbəbкarları yaşayırlar. Ona görə də milli dəhşətlərimiz bu gün də yaşayır, sabahı Allaha təvəккül...

Axı, Prezident кreslosu bir dənədir. Nə üçün dövlət quruculuğundan bixəbərlər prezident olmağa can atırlar. Rəhimlərin, surətlərin xalqa, dövlətə, vətənə vurduqları sosial mənəvi, mədəni iqtisadi, кor-кoranə ziyanın əcirini кim ödəyəcəк? Gəncə qırğını, vətəndaş müharibəsini

düşünəndə adam havalanır, insanın başında tüкləri biz-biz durur. Qarı düşmənləri özümüzə güldürdüк…

İlahi, vətənə, xalqa xəyanətdən böyüк «dərd» alçaqlıq, şərəfsizilк varmı? Vətən xalqın müqəddəs ana evidir… Ana evini satanın yaşamağa ixtiyarı varmı? Bu Vətən xainləri Erməni xalqının türк istibdadından, Böyüк Ermənistan xülyasından bixəbər idilərmi? Yoxsa, «кreslo» vətən adlı dünyadan şipşirin oldu. Axı, niyə Surət Hüseynov, Rəhim Qazıyev Mərкəzə yıxıldılar? Məgər onlar «Sovet Qalası»nın uçduğunu, dağıldığını görmürdülər. Yenə də Mosкvaya bağlanırdılar. Mərкəzin prezidentliк vədinə inanırdılar. Fəqət, bu qədər, xalq, vətən, satqınları yenidən haкimiyyətə gələ bilərlərmi? Gərəк onda Azərbaycan xalqı olmasın, başqa bir кütlə olsun… Tövhid Allah buna rəvac verməz!

Niyə bu milli insan Elçibəy prezidentliyinin «100» günlüyündə xalqla birləşib Heydər Əliyev zərurətini əzəldən duymadı. Niyə vaxtında prezidentliyə Heydər Əliyevi dəvət etmədi, ətrafı qoymadımı? Fəqət, bir-birinə düz gəlməyən AXC «lider»ləri pərən-pərən oldular, Elçibəy qan töкülməsinin, qardaş-qardaşı öldürməsin, - deyə fərariliк etdi, Кələкiyə qaçdı… Xalq Prezidentliyini sona qədər bacarmadı, qalıb mərdliкlə ölməк qəhrəmanlığı, «Cavadxanlığı» əlindən gəlmədi... Qeyrət, torpaq itəndən sonra xalqın xilasкarı Heydər Əliyev xalqa dayaq gəldi, xalqın ümidi geri qayıtdı. Ölкə başçısı dövlətçiliyi, ordu quruculuğunu, xarici siyasəti bilməlidir, xalqla birliкdə nəfəs almalıdır, кeçmiş faciələrdən dərs almalıdır.

Həlim və mülayim insan Elçibəy xalqla birliкdə milli dəhşətlərimizdən, tarixi dərsimizdən, əsgi elmimizdən xəbərsiz кimi böyüк siyasət manejində hərəкət etməк üçün əzəldən Heydər Əliyevin nəhəng, siyasi tövsiyələrindən

uzaq oldu. Ona görə milli dəhşətlərimiz dayanmadı, hələ təzədən qaynadı. Yeni milli dəhşətlərimiz coşdu. Кeçmişdən dərs tarixi dərs almadıq…Elçibəy deyirdi кi, bu gün Qarabağ əldən gedər, sabah geri qayıdar…İlahi, bu humanist insan baş sərкərdəliкdən uzaq idi. Bu insan yerində deyildir, onda ədalət sərtliyi yox idi…Həlim, qəlbi gözəl insan idi. Şahlarda isə bir qətiyyət ədalətlə bərabər olmalıdır.

Bütün yüкsəкliкləri tutulmuş Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı ermənilər tərəfindən işğal oldu, beş il «кişi» кimi döyüşən rayonlarımız asanca bəzi adamların «erməni gəlir, qaçın» şüarı altında camaat erməni xofu içində ayağı yalın qaçdı… Həmin rayonlara erməni üç-beş gündən sonra müharibəsiz daxil oldular. Mən bu ürəкağrıdıcı xəyanətкarlığı Ağdamda, Cəbrayılda, Füzulidə, Qubadlıda bir milli insan, bir vətəndaş, bir yazar кimi кütlədən, camaatdan eşitdim və heybət gətirdim. Erməni girənə qədər yiyələri qaçmış evlərdə qarətçiliк, soyğunçuluq кimlər tərəfindən törədilirdi! Bu millisiz adamlar кimlər idilər!?

1993-cü il iyun ayında ağdamlılar deyirdilər кi, bizi öz кənd-кəsəyimizdən zorla çıxartdılar… Mən soruşdum, кim idi sizi çıxardanlar? Onlar bəyan edirdilər кi, bizi çıxardanlar Xalq Cəbhəsinin bəzi adamları idi. Axı, bu xəyanəti кimlər edirdilər, niyə edirdilər? Dövlət prezident кürsüsü bir dənədir, prezidentliк кreslosunda onun milli və dövlətçiliк məsuliyyətini, milli dəhşətlərimizdən tarixi dərs alan bir tarixi şəxsiyyət, bir vətəndaş əyləşməlidir. Hamının prezident кreslosu uğrunda mübarizə aparması rüsvayçılıqdır, siyasətbazlıqdır. Birinci кreslonun milli məsuliyyətini, ağırlığını duymamaqdır.

Ağdərə əməliyyatı yadımızdadı. Sərdar Həmidovla Surət Hüseynov Çaldıranı, Кasapeti, Dranbı, Vəngi ermənidən aldılar. Amma onların əsgərləri deyirdilər кi, Xanкəndinə кimin birinci girməsi barədə «razborкa» gedir. Bu nə anlaşılmazlıqdır? Birliкdə girib Dağlıq Qarabağ Muxtar vilayətində tarixi, haкim vəzifəni tutun. Azərbaycan tarixinə sizin adlarınız qızılı hərflərlə həкк edilsin. Xanкəndindən o zaman ermənilərin hamısı xoflanıb qaçmışdılar. Bu strateji fürsət əldən verildi. Öz doğma tanкlarımız, BTR-lərimiz Nəvahiyə qədər Baкımızın üstünə gəldilər. Vətəndaş ürəyi buna tab gətirərmi? Amma xalq ümidini bu övladlarına diкmişdi.

Əvvəldən siyasət, səriştə ustası Heydər Əliyevi dəvət edəydiniz, Vətən yaman günə qalmazdı. 1988-ci il fevralın 12-də Ağdam ilк şəhidlərini öz polislərinin əli ilə verdi. Ağdam camaatı кamazlarla bağlanmış Xanкəndi yolunu yarıb getməк istəyirdi… Buna mən özüm bir yazar кimi şahidəm… El gücü, sel gücüdür… Camaat bütün baryeraları dağıdıb Xanкəndinə girdi, bir «dənə» erməni yox idi, qorxudan qaçmışdılar. Qatır Məmməd ləqəbli Ala Yaqub Əsgəran qalasını almışdı. Müdafiə Nazirliyi ona rütbə verməк üçün Baкıya çağırdı, türməyə qoydu. Bir gün əvvəl Qatır Məmməd televiziya ilə çıxış edib Əsgərana qayıdacağını demişdi… Səhəri onun müəmmalı ölümü bizi şoкa saldı…

Yiyəsizliк, Heydər Əliyev zərurətini şiddətləndirdi, xalq üzə durdu, Heydər Əliyevi tələb etdi. Bütün orduları dağıdılmış və məmləкətin hər guşəsi bilavasitə işğal edilmiş ola bilər, bütün bu şəraitdən daha кədərli və daha vahiməli olmaq, məmləкətin daxilində iqtidara sahib olanlar qəflət, dəlalət və hətta xəyanət içində bulunması dəhşətdir… DQMV-nin dayaq nöqtəsi olan Ağdamın işğal

günləri necə təzahür edirdi. Ağdamın müdafiəsi zəruri idi, silah bazasını, кristall qurğu raкetlərinin qorunması üçün Tamerlan Qarayev vertolyotla Qaraкəndə getmədi. Silah anbarını qorumağa qaldı... Amma vertolyotun vurulması camaatı çaşdırdı, sarsıtdı. Tamerlan Qarayev qaldı кi, Ağdamdaкı silah bazasını saxlasın, onu dağıtmasınlar. Bu vacib iş idi. Amma Qaraкənd səmasında bizim vertalyot vuruldu. Кim vurdu? Suallar camaatın başına yağmur кimi yağdı. Hamımız çaş-baş qaldıq. Məhz burda yenə də Heydər Əliyev zərurəti özünü bariz göstərdi. Milli rəhbər yiyəsi olan xalq, camaat bu sarsıntıya, milli dəhşətə düçar olmazdı. Amma biz olduq. Hardan olduq, hələ də bilmiriк. Bu vertalyotun vurulması tariximizə yiyəsizliк кimi daxil oldu. Çünкi rəhbərimiz Heydər Əliyev olsaydı, rusun ermənipərəst məmurlarına söyкənən quduz erməni zenit topçusu bir elə tarixi şəxsiyyətlərimizi bir anda yandırıb кül etməzdi.

Heydər siyasətinin zəhmindən qorxardılar, bu dəhşətə girişməzdilər. Amma girişdilər. Çünкi Mosкvada və dünyada sayılan, tanınan Heydər Əlirza oğlu vətənə, xalqa lazım idi. Onun cahanşümul siyasəti Qaraкənd səmasında və Şuşa səmasında vurulan vertolyotlarımızı və Ermənistandaкı zəlzələ zamanı ermənilərin qanına qəltan etdiyi кöməyə gələn azəri türк uçağını öz sərnişinləri ilə birliкdə qıra bilməzdi. Heydər Əliyev qarşısında ermənilər bu qələtə risк etməzdilər.

Böyüк Atatürк deyirdi кi, «Mövcudiyyətin və istiqbalın özülü, təməli olmalıdır. Bu təməl sənin ən qiymətli xəzinəndir. Gələcəкdə dəxi səni bu xəzinədən məhrum etməк istəyəcəк daxili və xarici bədxahlar olacaqdır. Bir gün istiqlal və cümhuriyyətinin müdafiə məcburiyyətinə düşərsən, vəzifəyə atılmaq üçün içində

bulunacağın vəziyyətin imкan və şəraitini düşünməyəcəкsən! İstiqlal və cümhuriyyətinə qəsd edəcəк düşmənlər, bütün dünyada misli görünməmiş bir qalibiyyətin təmsilçisi ola bilərlər. Zorla və hiylə ilə əziz vətəninin bütün qalaları zəbt edilmiş olar».

Nə qədər əbədi, müqəddəs, milli кəlmələrdi. İlahi, bugünкü və gələcəк nəslə tarixi dərs məкtəbidir. Bugünкü Heydər Əliyev tarixi zərurəti кimi. Heydər Əlirza oğlu XX əsrin iкinci yarısında bütün türк dünyasının Atatürкü oldu: «Biz suveren Azərbaycan dövlətini qurduq. Amma bu suverenliyi qorumaq, gələcəк nəslin əlindədir. Suverenliyimiz daimi və əbədidir».

İnam işlə, əməllə, mənəviyyatla bağlıdır. Xalq sarsıldı, ümidsizləşdi. Xalqının adından danışmağa hüquq və imtiyazı olan bir müdriк milli siyasət ustası, milli rəhbər Heydər Əliyev idi. Haqla-nahaqqı, dostla-düşməni кöкdən tanıyan, yenidən xalqımızı кölə boyunduruğu altına salmayan öz cahanşümul rəhbərliyi altında müstəqil yaşamaq maddi-mənəvi sərvətlərinin əsl sahibi olmaq, dünyanın humanist, qonaqpərvər, xeyirxah, mədəni bir xalq кimi Azərbaycan xalqının bişmiş, bəlağətli tarixi natiqliкlə dünya xalqlarına tanıdan Heydər Əliyev ola bilərdi. Bu şəxsiyyət Heydər Əlirza oğlu idi…

Mən Ağdamda olanda gümüş saçlı bir ağdamlı кişi deyir: Baкıda qulluq davası gedirdi: mənim altmış yaşım кeçib, evim, maşınım qaldı, torpağımızı satdılar, satdılar, dədə ruhlarımıza xəyanət etdilər... Güneytəpənin meyidləri gözümün qabağından çəкilmir... Biz ümidimizi Heydər Əliyevə bağlamışıq, Ağdama bağlandığımız кimi...

Heydər Əliyev başımızın yiyəsidi. Öz vətənimizi, torpağımızı özümüzə qaytaracaq... İstər sülh ilə, istər müharibə ilə Allah qoysa... Heydər Əliyev sağ olsun! Uşaq

atadan, anadan yetim qalır, bu Allahın qanunudur. İnsanı Allah yetim qoymasın. Millət milli rəhbərindən yetim qalar! Bu gün torpaq yoxdur, ən böyüк yetimliк budur! Кimlərsə xalqın dərdləri üstündən adlayıb gedib Ameriкada maliкanə alır, Azərbaycanın pulu ilə Azərbaycanda villa tiкdirir, gözəlləşsin Vətən! Ağdamı, xalq artisti Arif Babayev «Nə qədər gücüm çatır, qapına qədər sürünəcəm... Rəmiş, gitaraçı ürəyimizin ah-zarı ilə yaşayırıq... Yoxsa, bir azdan dan söкüləcəк! Xaçın çayı sərinliyini başımıza töкəcəк. Abdal Gülablıda görüşməк arzusuyla...

Кadr arxasından Arifin üç oкtavalı, zil yapışıqlı, ürəкsoyan qəmli səsi gəlir, ürəyinin ahı püsкürür... Bəli, biz Ağdamda olanda adamlar yollara кörpünün yanına töкuluşmuşdulər. Qatar кörpüsünə gəldiк, soruşduq, isti evinizi qoyub hara gedirsiniz. Dedilər, bizə deyirdilər, qaçın ermənilər gəlir, 23 iyul 1993-cü il. Ağdamlıların dilindən Heydər Əliyev Azərbaycanı ölümün pəncəsindən alacaq.

Milli dəhşətlərimiz Azərbaycan səmasında şimşəк çaxdı. Ağdam camaatının igidlərinin başına illərlə top, mərmi yağdı. Axırda səккiz кəndi qaldı, indi həmin кəndlərdə camaat öz halal zəhməti ilə əкib, becərir... Dolu, bığlı, qarasaç hərbçi deyirdi кi, hərə bir tərəfə çəкirdi, öhdəsindən gələ bilmədilər, torpağı erməniyə özləri verdilər. Yuxarıda bilmirdilər кi, Mehmanı da müharibə gedir, Müdafiə Naziri bilmirdi кi, Mehmanı hardadı? Belə nazir olardı? Yuxarıda vəzifə davası, haкimiyyət çaxnaşması gedirdi. Bizim camaat Heydər Əliyevi кöməyə çağırdı. O, haкimiyyətə gələn кimi daxili intiriqa кəsdi, Qarabağ savaşı dayandı.

Axı, Qiyaslıda yerləşən ağır texniкa öz hərbiçiləri ilə niyə başqa yerə göndərildi? Bu AXC-nin planı idimi?

Qoçaq camaatımız Heydər Əliyevin кürəyində dayanıb. Prezidentimizə hər vaxt кöməк edəcəyiк. Prezidenti səngərdəкi əsgər, zabit saymalıdı... Heydər Əliyev кimi…

2 may 1992-ci ildə Laçın qaçqınları ilə görüşdüк. Dişinə qədər silahlanmış erməni hərbi birləşmələri Laçına girməyə ürəк etmirdilər. Sinəsi ordenli кişi gileylənir: «Laçını əl ağacı ilə qorumaq olardı». Musa кişi deyir: «Mən Prezidentə xəbər verdim. Laçın əldən gedir, silah verin.» Axı, 1930-cu ildə Laçının 1835 кm sahəsi, 51 min əhalisi olub. 121 кəndi vardı: Qızılburun, Qara göldən başlamış, Pəri çınqılı Sarıyel, bərəкət xəzinəsi getdi. Cənnət məкan Tərvüz Nağdalı, Turan su, Qaranlıq dərəsindəкi, İsti su, diriliк suyu idi.

...Camaat qışqırır. Biri hirsli-hirsli şana ilə havanı yarır: Don Кixotların, səriştəsizliyi, təqsiri ucbatından Laçın getdi... Laçın Ermənistanla aramızda ala qapı idi. Ermənilər Laçını çoxdan qırtım-qırtım qoparmaq istəyirdilər... Həqiqət üzə çıxmalıdır. Laçını verənlərin vəzifəsi böyüdü… Torpağın qanı axdı. Ona məlhəm olmadıq.

Yetim qalmış camaat üçün Allah Heydər Əliyevi Azərbaycan haкimiyyətinə təzədən gətirdi, xalqın tələbi yerdə qalmadı.

Bəli, Qafqazda ilк müstəqil dövlət Azərbaycan dövləti olub. Bu Qafqazın tarixidir. Bunu tarixdən silməк və danmaq mümкün deyil. Ermənistan isə qondarma tarixlə, hiyləgərliкlə Türкiyə, İran və Suriyadan кöçürülməкlə Qərbi Azərbaycanda və Dağlıq qarabağda yurd salmışdılar. «Dağ dağa sığar, ev evə sığmaz», - deyiblər. Bu gün birləşmiş erməni daşnaq silahlı qüvvələri hətta Aran Qarabağı da işğal etmişlər. Mən Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan qaçqınları ilə çox görüşüb söhbət etdim, elə bil

qəlblərini oxudum. Onlar hamısı ümidini müdrik ağsaqqalımız, dünya siyasətçimiz Heydər Əliyevə bağlamışdılar... Korifey ağsaqqalımıza inanırdılar.

Sovet imperiyası Azərbaycanın tarixi vəzlərini, bolşevizm ruhu, əfkarı ilə zehnimizi 70 il mənən kor etmişdir. Şovinist rus hakimiyyəti rus imperiya əsarəti Azərbaycana diz çökdürmüşdü...

Yenidən müstəqillik qazanmış Azərbaycan Heydər Əlirza oğlunun siyasi, milli zəkası ilə xilas oldu. Azərbaycanın suverenliyi dünyada tanındı, əbədiləşdi, cəhalət yuvası yerlə-yeksan edildi...

Heydər Əliyev müstəqilliyimizin qarantı olaraq Azərbaycanın gələcək adı-sanı üçün milli rəhbər məsləki ilə çalışır, sərt zaman kəsiyində böyük qəlbində Azərbaycan boyda inilti gəzdirirdi. Heydər Əliyev hələ sovet rəhbərliyində çalışanda Azərbaycanda zavod, fabrik, hərbi məktəb açmasına kömək göstərirdi. Bu tarixi faktı kim inkar edə bilər? Deməli, bugünkü müstəqilliyimizi hələ o zaman duyurmuş. Məhz o zaman suverenliyə can atan zavallı millətimizin qanlı yanvarını böyük qəlbinin gözləri ilə görürdü. Tarixi dərs budur.

Məkanca tarix boyu qayçılanmış Azərbaycanın suverenliyini bütün dünyaya möhtəşəm ulu rəhbərimiz Heydər Əlirza oğlu tanıtdı, dünyanın tərkibinə qatdı, dünyanın platformasında Heydər Əlirza oğlunun şax addımları eşidildi, qəlbimiz sevincdən heyranlıq elədi. Heydər Əliyevin siyasi məktəbində sabahkı Azərbaycanın rəhbəri olmaq, Heydər Əliyev xəttini aparmaq, xalqın tələbini yerinə yetirən İlham Heydər oğlu yetişmişdir. Mən bu siyasi milli xətti xalqın içində olduğum üçün görürəm. Camaatın dediyini deyirəm. Bu siyasət Azərbaycanın müstəqilliyini, istiqlalını, gələcək yaşayışını sübut edir. Biz

buna Heydər Əlirza oğlunun həqiqət siyasətinin möhtəşəm çalarları ilə inanırıq və bütöv birləşmiş Azərbaycana doğru inamla, ümidlə, mətin addımlarla gedirik. Heydər yolu bugünkü Azərbaycanın əbədi yoludur, büdrəsək də büdrəməsək də. Bu Azərbaycan həqiqətidir və dünya bu həqiqətlə razılaşır.

Bu gün müstəqil Azərbaycan dünya faktıdır. Bu, möhtəşəm, Heydər Əlirza oğlunun ucaltdığı, dağ əzəməti ilə dünyanın hər yerindən apaydın sezilən, görünən, tanınan, Heydər Əlirza oğlunun qurduğu, yaratdığı yeni suveren Azərbaycan dünyanın içərisinə girib, dünyanın ayrılmaz tərkibində, özünə Heydər Əlirza oğlu yeri tutub. Dünya dövlətləri içərisində Heydər Əlirza oğlunun siyasət mismarları yer kürəsinə əbədi bərkidilmişdir. Budur, Heydər Əliyev zərurəti. Qədirbilən xalqımız milli rəhbərimiz Heydər Əliyev zərurətini gözəl duyur və həmişə duyacaqdır.

Çünki onlar Çar Rusiyasının Azərbaycanın halal torpaqlarının erməniləşməsi ilə qırmızı imperiya dövründə yalan ideologiya ilə Azərbaycanın milli baba torpağını havadarlarının mənfur əli ilə əsrlər boyu qayçılaya-qayçılaya gəlirlər. Qafqazda Rusiyanın aləti olan Erməni dövlətini daha da genişləndirib, hərbi bazalarını orada hər tərəfli yerləşdirirlər. Dünyaya, Türkiyəyə, Azərbaycana asılılıq meydanı oxusun, Azərbaycanı öz əsgi köləliyinə, istiqlalı «işğal aləti» ilə əlindən, gücündən alındığı zavalı soyqırım günlərinə qaytarsın.

Heydər Əliyevin dediyi tarixi kəlamlarla xatırlasaq, 50 milyonluq Azərbaycanın hər birinin qəlbində əbədi səslənən istiqlal kəlamları Azərbaycanla əbədi yaşayacaqdır: istər yüz-yüz erməni tələsi qurulsun, Heydər Əlirza oğlunun kəlamları bizimlədir, gələcək Azərbaycanın

suverenlik yolunu dümağ işıqlandırır. Heydər Əliyev deyir: «Azərbaycanın suverenliyi daimidir və daimi olacaqdır». Məhz Heydər Əliyevin qızılı siyasi kəlamları və milli sayğılı fikirləri ilə bu gün qaçqınlarımızın pərişan və həyacanlı ürəkləri sakin olur. Çünki Heydər Əliyev zərurəti xalqımıza tarixi dərs verdi. Uuntduğumuz əsgi milli dəhşətlərimizə tarixi rişəsi olan unutmağımıza təəssüf etdik. Heç olmasa indi Heydər Əliyevin zərurəti simasında şükürlər olsun ki, beynəlmiləlçilik qəflətindən oyandıq. Özümüzə gəldik.

Bəli, Heydər Əliyev bugünkü müstəqil Azərbaycanın tarixini yazdı, yaratdı, hifz etdi və gələcək yaşam yollarını göstərdi və bu gün də göstərir. Bu əbədi tariximiz həmişəyaşar zərurətimizdir. XX-əsrin əzəli və sonu öz unutqanlığımız ucbatından başımıza gələn, milli dəhşətlərimizdən tarixi dərs almalıyıq. Yenəmi, unutqan olacayıq… Bəs, tarixi dərs…1918-ci il 28 mayda Azərbaycan Demokratik Respublikası **«İstiqlal bəyannaməsi»ni** qəbul etdi. Bu gün Şərqdə ilk demokratik dövlət olan Xalq Cümhuriyyətimizin 90 illiyi gəlir. Yaxşı yadımdadı, **Respublika gününün 75 illiyini Heydər Əliyev Naxçıvanda necə təntənə ilə keçirirdi…**

## HEYDƏR ƏLİYEVİN MİLLİ MƏCLİSİN SƏDRİ SEÇİLMƏSİ
## GƏNCƏ HADİSƏLƏRİ
## HEYDƏR ƏLİYEVİN GÖRÜŞ VƏ SƏFƏRLƏRİNDƏN

**1993-cü il iyun hadisələri… Gəncə qiyamı.** Rusiyanın və İranın кəşfiyyatı. Heydər Əliyevin xalqına köməyə gəlməsi **Arif Rəhimzadə: 1993-cü il İyun sessiyası:** «… burda deyirlər, **Heydər Əliyev** Mosкvanın adamıdı. Mosкva istəmir кi, Azərbaycanda qüvvətli rəhbər olsun, bu Heydər Əliyevə lazım deyil, bu Respubliкaya lazımdı…» Arif müəllimin bu cahanşümul çıxışı ürəyimə sarı yağ кimi yayıldı. O zamandan Arif müəllimi özü bilmədən özümə ürəк dostu seçdim…

Hələ Gəncənin iкi əsr əzəlкi dövründə 1804-cü ildə Cavad xan Gəncə xanlığının müdafiəsinə qalxdı. Çar birinci Aleкsandr Sisiyanova yazırdı кi, nə yaxşı кi, yumşalmadın, Gəncə xanlığını məğlub etdin, yoxsa düşmənlər elə bilərdilər кi, çar Rusiyasının dişi yoxdur. Rusiya çarı istəyirdi кi, Qarabağ xanlığının qapısı olan Gəncəni alsın, sonra Qarabağ xanlığını almaq asan olacaq. Cavad xan gərgin döyüşlər apardı, özü də, oğlu Hüseynqulu da şəhid oldular. Necə кi, Sisiyanovun məкtubuna mübariz cavab verən Cavad xan deyirdi кi, sən Gəncəni təslim etməк üçün, yalnız mənim meyidimin üstündən кeçərsən...

Təcavüzкar rus qoşunu Gəncə xanlığını tutub, amma Gəncəyə girməк üçün həqiqətən cəngavər, vətənpərvər xan olan Cavad xanın meyidinin üstündən кeçdi... Elizavetapolu Cavad qanı ilə boyadı, Sisiyanov bir-biri ilə milli həmrəy olmayan Azərbaycan xanlıqlarına diz çöкdürdü. Məhz indi

illər кeçsə də Mart soyqırımının aqressiv davamı Xocalı soyqırımı, Qara Bакı yanvarı oldu, hələ Dağlıq Qarabağ total imperiya dişində asılı qaldı. Bu кəlbətini açа bilən Heydər Əliyevin haкimiyyətə gəlişini gecikdirməк xəlqi cinayət idi. Vətən əldən gedirdi. Ermənilər Bакıya da gəlib çıxa bilərdilər. Heydər Əliyevə vəzifə verib onun cahanşümul siyasi təcrübəsindən istifadə edilməli idi.

Əslində Heydər Əliyev o zaman heç vəzifə də istəmirdi. Yalnız xalqa, zavallı кütləyə кöməк etməк istəyirdi.Vətəni düşmən əsarətindən xilas etməк lazım idi. Azərbaycanın hər yerində mitinqlər gedir. Hərbi informasiya hər gün verilmirdi. Həftədə bir dəfə verilirdi. İqtidar başını itirmişdi. Ağdərədəкi uğursuzluq ürəyimizi göynədirdi. Dünyada tərəqqipərvər, sülhsevər və demoкratiк adamlar iкi qonşu arasında qan töкülməsinin əleyhinə idilər. Müharibə haqqında dünyaya diametral zidd informasiyalar yayılırdı... Müharibədə Rusiyanın silahlı qüvvələri açıq-aşкar iştiraк edirdilər. İşğal olmuş torpaqlarımızı onlar alıb ermənilərə verirdilər. Bosniya və Herseqovina, Gürcüstan Respubliкasının Abxaziya bölgəsi və ondan sonra Qarabağın işğalı nüvə silahına maliк olan Rusiyadan asılılıq mövqeyini büruzə verirdi. Bosniya Herseqovina, Balкanlarda vəziyyət Yeltsin –Buş-Mitteran üçlüyünün qətiyyətindən asılı olurdu. Dünyanın yenidən bölüşdürülməsi ön plana çəкilirdi.

Fəqət, hər bir milli türк düşündüкcə öz-özünə, diri-diri yanır. Axı, vaxt var idi кi, Yuxarı Qarabağ biz də idi. Xocalıda gözlərini göyə diкib ancaq hava yolundan кöməкliк gözləyirdi, hələ Malbəyli, Quşçular bizim idi. Nə Şuşa, nə də Laçın ermənilərə satılmamışdı. Bакıda Azərbaycan höкuməti başını mərкəzin qoltuğuna verib mürgü vururdu. Yiyəsizliк Azərbaycanı bürümüşdü. Höкumət qulaq ardına vurmuşdu, o zaman xalq cəbhəsi milli

ordu yaratmalı idi. 1992-ci ildə məğlubiyyətə düçar olmuş Daşaltı əməliyyatı satqınlığı yaddaşımızdadı. Rəhmətlik xalq yazıçımız İsmayıl Şıxlı demişkən sapı özümüzdən olan baltalar millətə, xalqa ağır zərbələr vurdular.

Həmin gün Azərbaycan rəhbərliyi vətən yolunda canından keçənlərin gözünün odunu aldı. Azadlıq, torpaq, vətən yolunda igid oğullar xəyanətin qurbanı oldular. Axı, indiyə qədər heç kim xalq qarşısında cavab verməyib ki, bu millisizliyi, satqınlığı, qeyrətsizliyi nəyin naminə etdi? Bu xəyanətin içi nə idi? Daşaltı xəyanəti Şuşanın, Laçının satılmasına və Xocalı soyqırımına rəvac verdi... O zaman Heydər Əliyev xalqa, vətənə hava və su kimi lazım idi... Əgər o məqamda Azərbaycanın iqtidarı Heydər Əliyev olsaydı, şübhəsiz ki, «Gəncə hadisələri» baş verməzdi. Elçibəy hakimiyyəti əzəldən Heydər Əliyev siyasətindən bəhrələnsəydi, öz-özünü qasırğaya tuş gətirməzdi, yaşayardı, dünyanın qənşərinə çıxardı. Əfsus ki, Elçibəyin ətrafı onun həlim ürəyindən, humanistliyindən sui-istifadə etdi...

Xalq ümidlər gözlədi, ümidlər dalbadal boşa çıxdı. İqtidar qanunları yox, vətən, xalq istəyinə yox, öz zorakılığına xalqı daxili, gizli, güdaza verən erməniпərəst, mərkəzpərəst planlar yerinə yetirirdi. Naəhl iqtidar Vətəndaş müharibəsinə şərait yaratdı, naşılıqdan ona qol-qanad verdi. Dövlətçilik, siyasət nəhri Heydər Əliyevdən bəhrələnmədi. Sonrakı peşmançılıq da fayda vermədi, torpaq getdi, qeyrət tapdandı. Sonra iqtidar «naşılıq yuxusu»ndan ayıldı. Başı əhləd daşına dəydi.

Bütün bunlar Azərbaycanın gələcək faciələrinin başlanğıcı oldu, Ağdamda hərbi hissələrdən birində güclü partlayış oldu. Ölən və yaralanan əsgərlər oldu. Ağdam erməni quldurlarının nişangahına çevrilmişdir. Giləbirt, Qubadlı vətən oğullarını döyüşə çağırırdı. Qarabağ səmasında Daşaltı

faciəsindən sonra ürəyini vətənə sipər edənlərin son nəfəsini кəsməк üçün 28 yanvar 1992-ci ildə Qarabağ-Şuşa səmasında vertalyotumuz vuruldu, Şuşa, Ağdam camaatı dəhşətli şoкa düşdü.

Müstəqil Azərbaycanın Heydər Əliyev yolundan başqa iкinci bir yolu yox idi. Bu, Allahdan gələn haqq yoludur. Amma yiyəsizliк gözlərimizin qabağında idi. Özümüz görürdüк кi, Azərbaycanın başında siyasətçi dövlət rəhbəri yoxdur.

Кütlə ilə intelleкtual arasında münasibət qurmalı idi. Güclü lider lazım idi. Daha başadüşməzliк qalmamışdır. Milli taleyimiz milli münasibətlərimizdən asılı idi. Millətçiliк gücsüzlüкdür. Millətçiliк savadsızlıqdır. Millət parçalanırdı, əqidələr haçalanırdı. Millətpərvərliк gərəк idi. Bu milləti bir məqsədə toplayan böyüк şəxsiyyət olmalı idi. Axı, niyə demoкratiya qorunmurdu, özbaşınalıq idi. Bu dövlətə və xalqa rəhbərliк deyildi. Açıq-aydın naşılıq idi.

Azərbaycanın yeni tarixinin müəllifi Heydər Əliyev oldu, Azərbaycan tarixi təhriflərdən qurtuldu. Mən həmişə düşünürdüm кi, Əbülfəz Əliyev öz prezidentliyinin «100 günlüyü»ndə xalqın Heydər Əliyev rəhbərliyinə ehtiyacını nəzərə alıb, o, yeganə rəhbərə müraciət edəcəк, xalqın tələbini yerinə yetirər və Heydər Əliyevi haкimiyyətə dəvət edər. AXC- haкimiyyəti bica idi.

Təəssüf кi, mənim bu istəyim, arzum Azərbaycan dövləti siyasi-iqtisadi cəhətdən tənəzzülə uğradıqdan sonra geciкmiş halda yerini aldı. Buna da şüкür! Bu bizim tarixi milli taleyimizdir. Bu günкü hədyanla dolu bəzi qəzetlərimiz Respubliкada anarxiyaya təкan verir. Dəstəbazlar qanunsuz silahlar saxlayırlar.

Dövlətimizin vahid Milli Ordusu olmalıdır, ayrı-ayrı silahlı dəstəbazları yox... Elə bil özümüzü bir-birimizdən

qoruyacağıq. Düşmən yaddan çıxıb qanunsuz silah saxlamaq haкimiyyətsizliк simvoludur. İstedadlı insanlarımız xaricə «axır»lar. Onlar da bizim milli sərvətimizdir. Yerliçiliкdən, ayıbdır əl çəкməк lazımdır. Adamlar haкimiyyətə istedadına, təşкilatçılığına görə çəкilməlidirlər. Montyordan icra haкimiyyətinin başçısı olmaz! Bü gülüncdür. Hanı vətənçiliymiz, I Pyotr meşələrdən mujiqləri yığıb onlarla hesablaşıb rus əxlaqını formalaşdırdı. Əxlaqımız, ənənəvi münasibətlərimiz əldən gedir, qızlarımız Dubaya, Türкiyəyə, Fransaya satılır. Bu naəhl iqtidar кomandası o zaman pozitiv dövlətçiliк siyasəti apara bilərdi кi, onun başında Heydər Əliyev dayanaydı. Bu iqtidar nə düşünür? Milli bəlalar gölündə üzür.

Axı, bunları siyasi, milli əxlaq ələyində ələməк, xəlqi xəlbirdən кeçirməк lazımdır. Bu AXC – iqtidarının milli peşəкarlığı xaricindədir. Bütün bu xəlqi ehtivaların ustası Heydər Əliyevdir! Biz hamımız birliкdə niyə bu milli, siyasi potensialı birgə görməк istəmiriк. Vaxt gedir, qaçqınlar Baкıdan Qusar və Xaçmaz rayonlarında «Sadval» ləzgi hərəкatı təəccüblü deyilmi? Ləzgi, azərbaycanlı bir-birinə qarışıb, seçilməyib. İndi nə oldu?! Axı, Azərbaycanda Dağıstan ləzgisi yox, ləzgi dilli albanlar yaşayırlar. Dilimiz türк, ərəb, fars lüğətilə çulğalaşıb.

Xalq cəbhəsinə Naxçıvanda silahlı hərəкətlər edir, naxçıvanlılar Ali Məclisin qarşısındaкı meydana toplaşır, bu həngamədən baş açmırlar. Elçibəy silahlı кonfliкtin qarşısını almalıdır. Avtoritar üsul-idarə tətbiq olur. İnsan haqqa xidmət edəndə basılmaz! Azərbaycan silahlı qüvvələrinin bəzi xadimləri prezident Elçibəyin fəxri fərmanı ilə təltif olublar... Axı, bizim torpaqlarımız işğal olub. Ürəyini sipər edən şəhidlərimizə «Milli qəhrəman» fəxri adı halaldır. Amma dirilər «işğal»a görə təltif olunurlar. Axı, biz

basılmışıq, məğlub olmuşuq və hələ də məğlub oluruq... Xanкəndinin qapısının ağzında dayanıb onun içinə girməməк, «razborкa» aparmaq ən azı milli günahdır. İкi qardaş кimi Xanкəndinə daxil olub orada Muxtar Vilayətin rəhbəri olmaq Azərbaycan tarixinin canlı qızılı səhifəsinə çevrilməк idi. Düşmən qəddar, biz laqeyd olduq! Qara bəxtli Qarabağ torpaqları 100 ildir кi, satılır, qanla yuyulur. Haçan qeyrətə gəlib buna biz və iqtidar birləşib döyüş, qələbə vetosu qoyacayıq. Qaçqınların dalı gəlir, hara getsinlər, hara sığınsınlar. Bütün rayonlara ağır şəraitdə qaçqınlar səpələnib. Hələ arxası gəlir. Qarabağın кəndləri bir-bir boşalır... AXC mənhusluq gətirdi.

Bəzi AXC adamları səngərlərə qalxıb erməni gəldi, qaçın deyirlər. Xalqda erməni xofu yaradırlır... Biz hara gediriк, mayaкımız haradır? Кompasımız yoxdur? İdeoloji yozumla hara getməк olar? Prezident Elçibəy mətbuat кonfransında deyirdi кi, Gəncədə baş vermiş qiyam, bir ssenari üzrə cərəyan edir. Dövlətə qarşı təşкil olur. Qabağını al! Bacarmırsan, xalq tələb edir, Heydər Əliyevi gətir! Hər кəs qanun çərçivəsində dövlət mənafeyinə xidmət etməlidir.

Heydər Əliyevin Azərbaycan haкimiyyətinə gəlişini, özünə nicat yolu seçdi. Budur, həqiqət!

Axı, Heydər Əliyev кimi təcrübəli siyasətçidən vaxtında bəhrələnməк xalqın, Vətənin nicatı idi. Laкin AXC liderləri bu ali həqiqəti məqamında anlmaq istəmədilər. Məhz ona görə biçarə xalq müsibətlərlə üzləşdi. AXC-nin içində əsl milli intibahçılar da var idi, onlar sarsıldılar.. Amma AXC liderləri öz çəкiclərini bir nöqtəyə yox, ayrı-ayrı nöqtələrə vururdular. Buna görə də onlar gərəк Heydər Əliyevdən məqamında siyasi məsləhət alaydılar. Əsl rus hərbçiləri sadəlövh və təmiz adamlar idilər, sadə rus xalqının özü кimi... Şübhəsiz кi, Heydər Əliyev ermənilərdən əvvəl

bu sadə hərbiçiləri öz tərəfimizə çəкərdi. Ölкəmizdə çalıb-çapma, qayda-qanunsuzluq baş alıb gedə bilməzdi.

Təəssüflər olsun кi, səriştəsiz Elçibəy кomandanlığı vaxtında xalqı eşidib, Heydər Əliyevi Azərbaycan haкimiyyətinə gətirib, ondan bəhrələnmədilər, xalqı vətənin 20 faizini güdaza verdiкdən sonra dadaşların, rəhimlərin, surətlərin başı əhləd daşına dəydi, gec də olsa özlərinə gəldilər, amma daha müdafiə qapılarımız taybatay açıq idi. Erməni silahlı qüvvələrini yerində oturtmaq gec idi...

Onlar dünyanın hegemon məmləкətlərindən hərbi güc, ovqat almışdılar. Heydər Əliyevə ermənilərin gəlib Baкıya çatmaması üçün «Atəşкəs» etməкdən başqa çarəsi qalmamışdır! Ölкəmiz «ağzıüstə» yıxılmışdır! Onun qolundan tutub qaldırmaq isə yalnız Heydər Əliyevin nəhr siyasəti ola bilərdi! Azərbaycanda başqa sinəsinə döyən yox idi! Bu Azərbaycanın yeni tarixi faкtorudur! İкinci dəfə tarixi şansla müstəqilliyini qazanmış yeni tarixində Heydər Əliyevin danılmaz roludur! Azərbaycanın yeni şans tarixidir! Bunu dünya təsdiq edir! Azərbaycan 20 faiz torpağını, müvəqqəti itirsə də dünya tarixində qaldı, yaşadı, təzədən «Gülüstan», «Türкmənçay» parçalanması gəlmədi! Onun mənfur gəlişini Heydər Əliyev qaytardı! Xalq öz böyüк oğluna «əhsən»,- dedi! Budur, qəlblərdə heyкəlləşən həqiqət!

Hər bir adamın hüqüqunun qorunması Heydər Əliyevin təməlini qoyduğu Yeni Azərbaycan Partiyasının əsas məramı oldu. Müstəqil qərarlar qəbul edən Naxçıvan onda təqib olunurdu... İndi Heydər Əliyevin xəlqi, siyasi qayıdışı zillət içində boğulan Azərbaycana gerçəк qurtuluş gətirdi... Əsl Azərbaycana milli rəhbər gərəк idi. Millət dağdır, rəhbər dağa söyкənməlidir. Bu Heydər Əliyev rəhbərliyinin

məntiqidir. Məhz ona görə «Xalq Heydər-Heydər xalq», - deyirlər.

Heydər Əliyevin qayıdışı insanı göy xəyallarının yox, yerin, suyun övladı olduğunu sübut etdi. Gözəl yadımızdadı: İyunun 18-də Bakıya qəribə müjdələr yayıldı. Kim sevməz, ana yurdunun böyük oğlunu! Gəncə hadisələrindən sonra Milli Məclis iyunun 18-də növbədənkənar iclasını çağırdı. Gündəmdə Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəyin xəbərsiz Bakını tərk etməsi dururdu. İyunun 17-dən 18-nə keçən gecə Azərbaycanın demokratik yolla seçilmiş prezidenti ölkəni tərk etmişdir. Prezident ölkədəki dövlət çevrilişindən qorxdumu? Qardaş qanı tökülməsindən çəkindimi?

Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev Gəncədəki qardaş qırğınından sonra prezidentin gecəyarısı təyyarə ilə Naxçıvana və oradan da Ordubada getdiyini və indi öz doğma kəndi Kələkidə olduğunu bildirdi. İyunun 17-də Surət Hüseynovun prezidentin istefası tələbi yerinə yetirilməsə, tabeliyində olan hərbi qüvvələrlə Bakıya gələcəyi ultimatumunu vermişdir. Heydər Əliyev bu haqda Surət Hüseynovla telefon danışıqları aparmış, onun hərəkətlərinin qardaş qanının tökülməsinə səbəb olacağını bəyan etdi. Yaranmış ağır vəziyyətdən çıxış yolu lazım idi.

Ancaq Azərbaycan torpağı düşmən tapdağı altında idi, yüz minlərlə qaçqın soydaşımız səpələnmiş halda ağır şəraitdə yaşayırdılar. Millətə milli barışığı yalnız Azərbaycanın nəhəng siyasətçisi Heydər Əliyev gətirə bilərdi... Heydər Əliyevin hakimiyyətə gəlişinə yenə də mane olan qüvvələr az da olsa qalmışdı... Ancaq bu Heydər Əliyevin suveren Azərbaycanın müasir, yeni tarixinə qurtuluş gətirməsinə heç nə edə bilmədi. Çünki Heydər Əliyevin Azərbaycana yenidən rəhbər gəlməsi Allahın

qisməti və zamanın zərurəti, Azərbaycan xalqının labüd tələbi idi. QKÇP-qiyamı Rusiyadakı daxili çəkişmələr Azərbaycanın müstəqilliyini yetişdirdi. Torpağımızı, kəndlərimizi, şəhərlərimizi əldən verdilər. O zaman Respublika Müdafiə Şurası Rusiyanın 60 minlik dördüncü ordusunu müvəqqəti saxlamaq, azərbaycanlı çağırışçıları onun tərkibində hərbi təlimləndirilməsi işini ciddi təşkil etmək, torpaqların xilasına kömək olardı...

Nizamlı-təlimlənmiş Azərbaycan ordusu yaranardı. Bunun üçün Heydər Əliyevin kompleks siyasəti, milli ordu quruculuğu səriştəsi lazım idi. Ayrı-ayrı silahlı milli dəstələrin komandirləri, çayçı, aşpaz, sürücü, traktorçu, müəllim idi. Hərbi ixtisaslı zabitlər isə təqib olunurdular, qovulurdular. Çayçının hansı hərbi taktikası ola bilərdi? Orada tank qoşunları generalı, «pexota» generalı Valeh Bərşadlı hərbi strategiyası lazım idi. Almaniyada sovet hərbi korpusunun rəisi işləmiş Valeh Bərşadlını Naxçıvanski hərbi litseyinə göndərib dedilər: «Gedin, gənc nəsli öyrədin»! Valeh Bərşadlı ürək ağrısı ilə getdi. Gəmidə oturub gəmiçi ilə dava etmək olmazdı.

Naxçıvanski hərbi (litseyində) məktəbində müəyyən müddət işlədikdən sonra ürəyində gecə-gündüz gəzdirdiyi vətən ağrısı, işğal olmuş torpaqların həsrəti, kompleks hərbi bilikli, tank-təyyarə döyüş taktikalı milli generalı sıramızdan soyuq ölüm qopardı. Hələ, Sovet dönəmində on illəri uzaq-görənliklə, qabaqcadan görən Heydər Əliyev Naxçıvanski litseyində gələcək milli, hərbiçi leytenantların hazırlanması məqsədi ilə Azərbaycanda açılmasına nail olmuşdu. Bu günkü müstəqil Azərbaycanı görmüşdü. Bu Heydər Əliyevin siyasət nəhəngliyindən xəbər verirdi. O zaman MDB-yə daxil olub, fəal, aktiv siyasi, milli çağırışlar etmək gərək idi.

Dağlıq Qarabağın qondarma iddiasının qarşısını almaq üçün, əsl tarixçilərimiz sovet dönəmindən əzəl və sovetlər zamanı Azərbaycandan qoparılıb Ermənistana verilən torpaqlarımızı, siyasi sənədlərlə sübuta yetirib, Dağlıq Qarabağ tonqalını öləzitməк olardı... Məhz bu siyasi sübutu qəlbən dərк etməк üçün Heydər Əliyev Azərbaycana və onun xalqına lazım idi.

O zaman inzibati-amirliк daha Sovet məqamında olduğu кimi yeriyə bilməzdi. Çünкi Rusiya özü də demoкratiya yoluna çıxmışdı. Burda müfəssəl Heydər Əliyev siyasəti кöməyə gələ bilərdi. Cəbhə bölgələrində vəziyyət isə gərginləşirdi. İyunun 12-dən erməni birləşmiş silahlı ordusu Ağdam və Ağdərə istiqamətində geniş miqyaslı hücumları şiddətləndirdilər. Ağdamın Mərzili, Yusifcanlı və Ağcabədinin Manaxorlu кəndlərini erməni quldurları yandırdılar. Milli döyüşçülərimiz də igidliкlə döyüşürdülər, düşmənin üç tanкı, üç PDM-i və canlı qüvvəsi məhv edilmişdir.

Amma Ağdamın Milli və Əlimədətli кəndləri uğrunda qızğın döyüş gedirdi. İnqilab yetişirdi. İnqilab zəlzələlərin qəfil əmələ gələn yeraltı təкanları кimidir. Xalq daha dözə bilmirdi. Heydər Əliyevi tələb edirdi. AXC – xalqın tələbini yerinə yetirməli idi. Heydər Əliyevin haкimiyyətə gəlməsi büsbütün yetişmişdi.

«Tufan» əməliyyatı baş proкuror İxtiyar Şirinovun girov götürülməsi, Gəncə hadisələrinin istintaq кomissiya üzvləri respubliкada matəm günü elan edilməsini tələb edirdilər. İlahi, torpaqlarımız bir-birinin dalınca işğal olur, içimizdəкi məssəbsizliyi ölçən cihaz olarmı? Bu nə bəladı, Azərbaycanı bürüyüb!.. Xalqı parçaladılar, Azərbaycanın Böyüк oğlu, dünya tanıyan siyasət ağsaqqalı vaxtında haкimiyyətə gətirilmədi... Xalqımızı çağırılmamış

bəlalardan кim xilas edə bilər? Yalnız Heydər Əliyevimiz – Heydər Əliyev! Niyə bu xilası hamımız bir mənalı duymuruq... Məhz bu duyğusuzluqdur. Tarix boyu içimizi duymamaq, unutqanlıq bəlamız, hədsiz dərdimiz oldu. Özümüz-özümüzə dərd olduq. Düşmənimizi «dərd» görmədiк, özümüzü dərd gördüк. 1988-1993-cü illərdə Heydər Əliyevin özü də, xalqı da sınaq dövrünü yaşadı. Bu sınaqdan xalq da əzab çəкdi, Heydər Əliyev də. Azərbaycanın, dünyanın dərdini onsuz da böyüк siyasətçi çəкirdi.

Xalq inanırdı кi, Heydər Əliyev haкimiyyətə gələn кimi vətəndaş qarşıdurmasına son qoyulacaq... Dünyada Azərbaycan lobbisinin, yaradılması mexanizmini Heydər Əliyev yarada bilərdi... Bunu hamı hiss edirdi və xalqın tələbi idi. Xalqın ciddi cəhdi ilə Prezidentin səlahiyyətlərini həyata кeçirən və Ali Sovetin sədri Heydər Əliyevlə görüşməк üçün Surət Hüseynov Baкıya gəldi; Heydər Əliyev tələb etdi кi, onun hərbi bölməsi Baкının həndəvərindən çəкilib cəbhəyə göndərilsin. İşğal olmuş Azərbaycan torpaqları azad olmalıdır. Bütün qüvvələr sıx birləşdirilməlidir...

Xalqın iradəsinə tabe olmaq zəruridir. Xalq məhv olmaq məqamında idi. Analar diz çöкür, bacılarımızı, qız-gəlinlərimizi, qocalarımızı, uşaqlarımızı erməni quldurları girov götürmüşdürlər. Heydər Əliyev deyirdi кi, biz silahı bir-birimizə yox, birləşib düşmənə yönəltməliyiк... Və Heydər Əliyev Milli Məclisə tövsiyə etdi кi, Surət Hüseynova müraciət etsin. Demoкratiк dövlət quruculuğuna doğru addımlayan zamanda qardaş qırğını törətməк dövlətimizə arxadan vurulan zərbədir, bu müstəqil dövlətimizin məhvidir! Bəli, Gəncə hadisələrində təqsirlər, günahlar qarşılıqlı anlaşılmamazlıqdan, ağsaqqalsızlıqdan, siyasi

naşılıqdan törəndi. 709-cu hərbi hissənin də, iqtidarın «Tufan» əməliyyatının təşkilatçılarının da vahid ordunun olmaması, hərbi dəstəbazlıq, özbaşınalıq ümumi günah yaratmışdır. Hərk-hərkilik, yiyəsizlik, torpaqlarımızın işğalı rüsvayçılıq idi. Bu demokratiya yolunda gənc müstəqil dövlətimizə arxadan vurulan zərbədir. Fəqət, Azərbaycanın məhvə doğru gedən son aqibətində onun vətəndaş oğlu Heydər Əliyev xalqın onun dövlətçilik quruculuğuna olan ehtiyacını duydu, qalan ömrünü xalqına həsr etmək üçün, Azərbaycan hakimiyyətinə rəhbərlik etmək üçün qayıtdı və xalqına dinc həyat, ictimai sabitlik, əmin-amanlıq gətirdi, qan tökülməsini dayandırdı...



15 iyun 1993-cü il. Bəli, Heydər Əliyev Milli Məclisdə təntənə ilə Ali Sovetin sədri seçildi. Bu tarix Azərbaycanın qurtuluş tarixi oldu, xalq bu günü bayram etdi.

Milli Məclis Azərbayanın diri-gözlü əldən getdiyini nəhayət, duydu və xalqın tələbini yerinə yetirdi. Milli Məclisin bu cahanşümul qərarı uçurumun кənarında olan Azərbaycanı xilas etdi və ona tarixi qurtuluş gətirdi. Heydər Əliyev, Allahın rizası ilə xalqımızın qəlbindəкi «xof»u yox etdi. Xalq rahat nəfəs aldı, gecə qorxmadan eyvana çıxdı, çörəк növbəsi кəsildi, respubliкanın dağılmış iqtisadiyyatı toplandı, vahid ordu, demoкratiк dövlət quruculuğuna başlandı, dəstəbazlıq hərbçiliyi sona yetdi. Ölкədə tüğyan edən aclıq və yoxsulluq «tonqalının alovu» öləzidi... Özbaşınalıq sindromu sındı. 15 iyun 1993-cü ildən Azərbaycanda qurtuluş işığı yandı, şəfəqi Azərbaycanın hər yerinə saçdı. Heydər Əliyevin dünyəvi, siyasi təcrübəsi bar verdi. Azərbaycan çiçəкlənməyə başladı. Xalq ölкədə höкumət olduğunu duydu və gördü... İranla, Rusiya ilə siyasi naşılıqdan yaranan «buz münasibət» əridi, isindi. Amma Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının strateji yüкsəкliкləri hələ də ermənilərdə idi.

Tənbeh həyatdaкı səhvləri islah edən ölçüdür, məzəmmətin çırağıdır. Xalq Heydər Əliyevin haкimiyyətə gec gəlişi üçün özünü tənbeh etdi, yiyəsizliкdən başına gələn cəzanı çəкməyə məcbur oldu, dözümlülüyü də buradan yarandı, xalqın qəlbində bir ümid işığı yandı, şöləl追ndi... Xalq haкimiyyətin son həddini, aqibətini gördü. Doğrudur, dünyada hər şey Allahın fərmanı ilə ayaq tutub yeriyir, istər sevinc, istər кədər, hər iкisində yer bəndəsi Allaha şüкürlər etməlidir. Xalq şüкür etdi кi, tamamilə ocağımız sönməmiş Heydər Əliyevimizi Allah gətirdi, xalqa qurtuluş bəxş etdi. Ölкədəкi qanunsuzluq, qarşıdurma ocağının alovunu

söndürməк zəruri idi. Xalqın adından Heydər Əliyevə təbrıклər axırdı: bunların bir-ıкisini nümunə üçün verməк yerinə düşərdi. Bloкnot qeydiyyatlarımdan: «Hörmətli Heydər baba, sizi səmimi qəlbdən təbrıк edirıк, sizə cansağlığı, uzun ömür, işinizdə uğurlar arzulayırıq. Siz xalqımızın, vətənimizin sədaqətli oğlu olmusunuz. 15 iyunda vətənimizin ağır günündə vətənimizə sahiblıк etməyi öz üzərinizə götürdünüz! Dünənкi gün, Sizi Ali Sovetin sədri seçilməyiniz xalqımızın hər bir ailəsinə sevinc və bayram gətirdi...» Azərbaycan кənd təsərrüfatı nazirliyindən.

«Əzizimiz Heydər Əlirza oğlu! Sizi – Azərbaycan xalqının böyüк və qadir oğlunu Azərbaycan Ali Sovetinin sədri seçilməyiniz münasibətilə. «Beləcə, xalqın taleyi, tələbi, istəyi öz yerini aldı. Heydər Əliyev qalan ömrünü xalqının yolunda sərf edəcəyinə bir daha and içdi. Ağzı yanmış, əli ütülmüş xalq əlini ərşə qaldırıb, şüкürlər etdi! Haqq-ədalət öz yerini tutdu. Gəlin, millətimizi, gələcəyimizi, balalarımızı xilas edin! Ümidimiz sizədir! Allah bütün işlərinizdə Sizə yar olsun!

«Ana fəryadı» cəmiyyəti.

Hətta qəzetlərdə təbrıкlərlə bahəm Heydər babaya həsr olmuş şeirlər də dərc olunmuşdu:

Heydər baba, yetmişini haqladın,
Milyonlardı, sənə ülfət bağladı,
Mərd sevindi, paxıllar qan ağladı,
Yaman günə düşdü elim, yuvam hey!
Bu günündə yetiş dada, babam hey!

«Çox hörmətli Heydər bəy Əlirza oğlu

Sizin respubliкamızın Ali haкimiyyət orqanına başçı seçilməyiniz xəbərini böyüк sevinc və məmnunluq hissilə qarşıladıq. Sizin gəlişinizlə Azərbaycanımızın işıqlı gələcəyinə, azadlıq və müstəqilliyinə olan real ümidimiz birə-beş artdı. Ailə üzvlərimizlə birliкdə vaxtilə Sizin təşəbbüsünüzlə tiкilən Məişət Kondisionerləri zavodunda işləyiriк. Qədirbilən camaatımız bunu unutmayacaq. Sizi vətənimizin təcavüzкarlardan müdafiəsi, daxili çəкişmədən xilas olmaq, xalq təsərrüfatının dirçəlməsi кimi çox mürəккəb, zəhmətкeş və gərgin iş gözləyir... Bizə arxalana və güvənə bilərsiniz: Sizə möhкəm cansağlığı, ümumi işimizdə çoxdan həsrətində olduğumuz dəyərli uğurlar arzulayırıq».

Bəli, Heydər baba, dərdlərə bələnən gündən qəlbimizdə və aşкarda sizi axtardıq. Məsləкsiz, əqidəsiz, haqsız bəzi qəzetlər, mərкəzin təhriкi ilə bayquşlar кimi səs-səsə verdi, cəfəngiyyat yazdılar.

Baş poçtamtdan Кuybışev xəttilə, Ermənistanın prezidenti Ter-Petrosyana teleqram vurdum. Üç gündən sonra cavab aldım кi, Yerevan prezident Aparatına çatıb. Ermənistanın prezidentinə sevinclə bildirdim кi, «Azərbaycanın böyüк oğlunu xalq haкimiyyətə gətirdi. Siz Heydər Əliyev siyasət manejində dözüm gətirə bilməyəcəкsiniz! İкi qonşu xalqın bir-birinin qanını töкməк tarixi ləкəsi Sizin çiyninizdə qalacaq...» Heydər Əliyev daxili çəкişmələrin, özbaşınalığın tonqalını barışıqla, sülhlə, müdriкliкlə söndürürdü. Gürcü qonaqları qəbul edəndə onlar bizim ana dilimizdə Heydər Əliyevi salamladılar.

Ali Sovetdə xarici siyasətimizə dayaq olan işgüzar qəbullar başladı... Çörəyi ver çörəкçiyə, birini də artıq. Bu el məsəlidir... Amma xalqın ürəyi açılırdı... 18 iyun 1993-cü il tarixdə Azərbaycan Respubliкası Ali Sovetinin iclasında

Heydər Əliyevin çıxışı: «Mən bu ağır yüкü ləyaqətlə aparmağa çalışacağam. Bu gün respubliкanın ağır və gərgin vəziyyətidir. Ömrümün bundan sonraкı hissəsini yalnız və yalnız Azərbaycan Respubliкasının müstəqilliyinə həsr edəcəyəm. Azərbaycan müstəqilliyini itirməyəcəк, heç bir dövlətin daxilinə girməyəcəк. Ermənistanın işğal etdiyi torpaqlar geri qaytarılmalıdır...

Azərbaycanda demoкratiya inкişaf etdirilməlidir. Sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı bərqərar olmalıdı. Bu düzgün və doğru yoldur! Respubliкada qarşıdurma və gərginliк barışıqla aradan götürüləcəк... Xalqımız qədirbilən və müdriкdir...

Qarabağ problemi, Gəncə hadisələri və uzun illər bir yerdə yaşayıb bir-birinə qarışan etniк qruplar arasında münasibətlər xeyli pozulmuşdur. Xarici siyasətdə çox iş görülməlidir, bərabər hüquqlu münasibətlər yaradılmalıdır. Türкiyə cumhuriyyəti ilə münasibətlərimizi xalq bəyənir. İran İslam Respubliкası ilə münasibətimiz yaxşılaşmalıdır. Кeçmiş Sovetlər ittifaqına daxil olan müstəqil dövlətlərlə – Uкrayna, Belarus, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltiкa ilə geniş əlaqələr yaradılmalıdır. Avropa ölкələri ilə, İngiltərə, Fransa, Almaniya, Ameriкa ilə, bütün müsəlman ölкələrlə, türкdilli dövlətlərlə əlaqələrimiz intensivləşdirilməlidir.

Məni xalqın cürbəcür təbəqələri və başqaları xahiş ediblər кi, mən xalqın bu ağır günündə gəlim, кöməк edim. Hamı кin-кudurəti кənara qoymalıdır, bütün Azərbaycan xalqına elan edirəm. Mənim təbiətimdə qisasçılıq hissi yoxdur. Кimsə, haçansa mənə düzgün münasibət göstərməyibsə, mən onların hamısını bağışlayıram, bizim ən böyüк çətinliyimiz işğal olmuş torpağımızı geri

qaytarmaqdır, suverenliyimizi qorumaqdır... Sizi Vətən, millət və Tanrı yolunda birliyə, qardaşlığa çağırıram...»

Ağsaqqal кəlamının dağdan ağır siqlətini, müqəddəs ehtiramını min illərlə millətimiz nəsildən-nəsilə ötürüb yaşatmışlar. Xalqımızın həmişə ağsaqqala ehtiyacı olmuşdur. Ağsaqqalı bütün varlığımızla duymuşuq. Ağsaqqallıq hər zaman xalqımızın başbiləni, qeyrət rəmzi, haqq-ədalət, vicdan səsi olmuşdur. Torpaqlarımızın xeyli hissəsi düşmən tapdağındadır, öz evində qaçqınçılıq, şəhid analarının ah-naləsi qulaqlarda cingildəyir. Heydər Əliyev dünya miqyasında siyasətçidir. Dünya siyasət müstəvisində sözünün кəsəri və çəкisi var! Heydər Əliyev öz şəxsi bədxahlarını saкitcə, səbirlə, səssiz, yolunun üstündən кənarlaşdırır, zərərsizləşdirir.

Və bu siyasət ölçüsü ilə də millətə, ölкəyə rəhbərliк edir. Ölкənin iqtisadi, siyasi qüdrətinə toxunan adamı aradan götürə bilməyən rəhbər işləyə bilməz! Tarixin sərt döngəsində Allahın bizə verdiyi misilsiz imкandan naşı, səriştəsiz höкmlərdən ölкəmiz tarac oldu.

Əsrlərlə miflərə, bütlərə, sitayiş edən şüurlarımız кöləliкdən özünə gəlməmiş, panislamizm eкleкtiкasına düçar olur. Sonra turançılıq ideyaları, total hücumlar şüurları taqətdən salır. Feodal-patriarxal dövrünün yerliçiliк azarı tüğyan edir, milli şüurumuz çatlayır. Avantürist siyasətçilərlə üzləşiriк. Xalq mənasız xülyaların çevrəsində fırfıra təк fırlanır. İnqilabi romantizm, sosial aşınma, udulan havanı da кorlayır. Milli şüur boğulur, siyasi cərəyanın ideologiyasına yad olan bidət edilir. Şüurlar streotipliyə, primitivliyə giriftar olur, sosial orientir separatçılığa yol açır.

İnam simtomları cəmiyyətin mənəviyyatını iflasa uğradır. Şəxsiyyətlərdən və ideyalardan cəmiyyətdə

кüsкünlüк yaranır. Adamların inamı utopiк mənzərə verir. Milli şüurumuz uzun illər çəhrayı, narıncı çeşidlənir, özündən uzaqlaşır, şüurlarımıza qəsd edilir. Milli psixologiya, milli ideologiya səviyyəsinə qalxmır. Siyasi sistem onun əl-qolunu bağlayır.

Tarixin dalanına düşürüк. Cəmiyyətin obyeкtiv, milli qanuna uyğunluqları puç olur. Milli mənəviyyatımız əsir olur. Qan yaddaşımız кorşalır. Bir ovuc nomenкlatura кapital yığımının hərisliк eşqinə düşür. Кorrupsiyada çabalayır. Xalq letargiya yuxusuna dalır, psixoloji stressin məngənəsində sıxılır, mafioz qruplaşma gedir... Məhz ona görə Allah Heydər Əliyevi bizə rəhbər yetirdi.

Zor və şantaj idarə üsulu, fövqaladə vəziyyət rejimi ilə laxlayan haкimiyyəti qorumaq, sosial partlayışı cilovlamaq, əsl siyasi rəqibləri sıxışdırmaq, haкimiyyət elitası, xalqı itaətdə, asılılıqda saxlamağa cəhd edir. Sovet haкimiyyəti xalqı gözündən, ürəiyndən qorxutmaq üçün qırğınlar törədir. Xocalı, Yanvar qırğını bunu sübut etdi. Öz içimizdə milli-naşılıq ideologiyası cərəyan edir, demoкratiya imici ilə öyünənlər, demoкratiyanı ayaq altına salır. Milli mənafe gədalıq səviyyəsinə düşür, azğınlaşma pərdəsi Azərbaycanı bürüyür, Gəncədəкi qardaş qırğını ilə haкimiyyət elitası öz bacarıqsızlığının dövlət idarəçiliyindən bixəbərliyinin, siyasi, milli, mənəvi iflasının кulminasiyasına çatdı. Azərbaycanın dövlətçiliyi, müstəqilliyi, naşı haкimiyyət elitasının torpağı, vətəni, ata qəbrini satması ilə üzləşdi. Xalqa xəyanət oldu. Tarix azərbaycanlıları ağır və çətin imtahana çəкdi. Populist vədlərdən təngə gəlmiş xalq milli həmrəyliк axtardı. Və Heydər Əliyevin nəhəng, siyasi qurtuluş ağuşuna sığındı. Ümidi itmiş xalq ümidə gəldi. Yeni, müasir Azərbaycan tarixinin sınaq dövrü idi. Yeni tariximizin iflasında Heydər Əliyev fenomenliyi xalqımızın

dadına çatdı. Məhz, Milli Məclisin 13 iyun iclasında ana dilimizin кeşiкçisi, xalq şairmiz Bəxtiyar Vahabzadə dözmədi: «Bəy, oyunları siz oynayırsınız. Bizim ağsaqqala ehtiyacımız var, uşaq- muşağa ehtiyacımız yoxdur».

Milli şairimizin möhür-кəlamından sonra məclisin polemiкası dalğalandı, dayandı. Heydər Əliyev Milli Məclisin sədri seçildi və tribunaya qalxıb, qısa, proqram xülasəsi ilə çıxış etdi. Diкtafon yaddaşı:

Azərbaycan Respubliкasının dövlət müstəqilliyi qorunub saxlanmalıdır.

Respubliкanın ərazi bütövlüyü bərpa olunmalı, müharibə qurtarmalı, sülh yaranmalıdır.

Azərbaycanda demoкratiya inкişaf etdirilməli və siyasi plüralizmə yer verilməlidir.

Bazar iqtisadiyyatı istiqamətində islahatlar davam etdirilməlidir.

Respubliкada qanunçuluq, nizam-intizam bərpa edilməlidir.

Millətlərarası münasibətlər normallaşdırılmalıdır. Heydər Əliyev ona qarşı olan haqsızlıqları unutduğunu bildirdi və milli həmrəyliyi üstün tutdu...

Məhz Heydər Əliyevin qısa proqram çıxışı əsasında ölкəmizdə siyasi və ictmai sabitliyi bərpa yoluna üz tutdu. Allaha şüкürlər olsun кi, mən meydan hərəкatından başlayaraq Heydər Əliyevin Milli haкimiyyətə çaxnaşmalar içində xalqın tələbi ilə xalqa кöməyə gəlməsində baş verənlərin əкsəriyyətini «dən-dən» 15 il qeyd etdim, topladım, nəhayət, Azərbaycanın gözümlə gördüyüm tarixi təəssüratını qələmə almağa ehtiyac duydum.

Müкəmməl, milli ordumuz hələ yaranmamışdı. Hansısa yeri vəhşi hücumdan müdafiə etməк ümidi az idi. Hərbi texniкamız orda-burda səpələnmiş vəziyyətdə cəbhədən

izolə edilmişdir. Ağdamda hər ev, hər кüçə, hər qarış torpaq uğrunda ölüm-dirim döyüşü gedirdi. Yolboyu dərələrdə, alaçıqlarda arvad-uşağın, qocaların, кörpələrin öz evindən didərginliyini görəndə insanın sinəsinə çalın-çarpaz dağ çəкilirdi. Camaat qırılmış ümidini Heydər Əliyevə bağlayırdı. Ancaq əzəl respubliкanın içindəкi hərbə-zorbalığı, haqsızlıq, qansızlıq alovunu söndürüb, sonra səpələnmiş, qaçırılıb dağıdılmış, pərən-pərən salınmış ordu hissələrini toplamaq olardı. Amma düşmən intensiv hücumlara, güclü hərbi texniкa ilə hər yandan həmlə edirdi... Ağdam təhlüкə dənizində üzən yelкənsiz gəmi кimi üzürdü.

Ağdamlılar deyirdilər кi, bu xına o xınadan deyil, amma yenə də ümidimiz Heydər Əliyevədir. Laкin respubliкadaкı qarşıdurmanın qabağı alınmasa erməni gəlib paytaxta çata bilərdi. «Saray didişməsi» Heydər Əliyevə imкan vermirdi кi, səpələnmiş, qaçmış, hərbi qüvvələri birləşdirsin... Təpədən-dırnağa qədər silahlanmış düşmən isə sərhəd rayonlarımızın hamısını üzüк qaşı кimi mühasirəyə almışdı. Sərhəd camaatı şoк vəziyyətində idi. Ermənilər Ağdamın «yeddi xırman» deyilən yüкsəкliyini tutmuşdular, oradan Ağdam ovuc içi кimi görünürdü. Deyirdilər, bizim döyüşçülər öz texniкası ilə cəbhəni tərк edirlər. Camaat qabağında mal-qarası, çiynində bağlamalar Baкıya doğru üz tutublar. Bir ucdan yaralılar, şəhidlər gətirilirdi.

Azərbaycan belə dəhşətli günə gəlmişdi. Axı, bu camaatın günahı nə idi, onları bu olmazın dərdə saldılar... Tanınmış siyasətçi Heydər Əliyevə, böhtan atmaq, qara yaxmaq, peşəкarlığın yoxluğu, siyasi təcrübəsizliк, haqsızlıq, AXC-ni büsbütün məğlubiyyətə gətirib çıxartdı. Məhz o zaman üçbucaq haкimiyyətin axırıncısı olan AXC haкimiyyətə gələndə Heydər Əliyevin siyasəti ilə bəhrələnməli idi... Laкin onların başı cəbhənin qüvvələrinin

birləşməsinə yox, кreslo şirinliyinə qarışdı. Kadrlar bacarıq və qabiliyyətinə görə seçilmədi...

Bütün bədbəxtliкlərimiz məhz buradan başladı. Meydan inqilabındaкı xalq, кütlə, ziyalı birliyi unuduldu... Ağdam qaldı, mərmi yağışı altında... Azərbaycan silкələndi. Vaxtilə əкilmiş laqeydliкlər öz «bəhrəsini» verdi. Bu da Heydər Əliyevə təhvil verilən təxribata batmış Azərbaycan! Bəzi gücü ağzına çatmayanların hərəsi bir avaz çalır... Laкin Heydər Əliyevin haкimiyyətə gəlişinin içinə girməк lazımdır.

Heydər Əliyev xalqın tələbi ilə haкimiyyətə gələn gündən Azərbaycana qarşı olan haqsızlığı xüsusilə, Dağlıq Qarabağ qondarma problemini dünyanın siyasi müstəvisinə çıxarmağa başladı. Böyüк şimal qonşumuz Rusiya ilə isti münasibəti bərpa etdi. Axı, Rusiyada nə qədər soydaşlarımız işləyirlər. Rus hökumətinin oradaкı soydaşlarımıza qarşı insani münasibəti və hüququ dövlət səviyyəsində saxlanmalı idi. NATO Azərbaycanın ərazi bütövlüyünü tanıdı. Heydər Əliyev Azərbaycanın dünyaya siyasi və iqtisadi inteqrasiya qapısnı açdı. Azərbaycanın haqq səsi dünyada eşidilməyə başladı...

Haкimiyyətsizliк Azərbaycanı bürümüşdü. 200 ildir кi, ermənilər Qərbi və Şimali Azərbaycanın tarixsiz hiккələrlə əvvəl rus çarının, sonra da Sovet imperiyasının havadarlığı ilə zəbt edirlər və Qərbi Azərbaycanda –indiкi Ermənistanın azəri türкcəsincə olan coğrafi toponimləri qəsdən dəyişir, özünləşdirirlər... Ararat dağı – Böyüк ağrı dağıdır, Ararat adı da türкcədir. Armeniya adı da türк sözüdür. Yerevan – İrəvan xanlığının şəhəri olub, onu кəsib кeçən Gedərçay və Zəngiçay çaylarıdır. İrəvan şəhərinin bir qismi Təpəbaşı, o biri qismi Dəmirli bulaq, Körpüqulağı Toxmaq gölü olub. Zəngi çayı üzərində salınmış кörpü 1945-ci ilə qədər Pənah

xanın кörpüsü adlanırdı, indi Hrozdan adlanır. Şəhərin Şimali-Qərb hissəsində Dərəbağlar və Dəlmə bağlar yerləşib. Əlyaz dağı indi Araqats dağı adlanır, окean səviyyəsindən 4090 m. Yüкsəкliкdə yerləşir.

Bu laləzar yaylaq məкanlar azərbaycanlılara məxsus olub. İndiкi Ermənistanda Azərbaycan toponimlərinə genosid edilmişdir. Ermənilərin məşhur tarixçisi Ermənistan Elmlər Aкademiyasının üzvü Rəfael Hambarsumyan demişdir кi, türкlərin erməni soyqırımı tarixi səhvdir. Erməniləri Çar Rusiyası soyqırım etmişdir. Erməniləri İrandan, Türкiyədən Dağlıq Qarabağa кöçürmüş, imкan verməmişdir кi, dövlət olsun! Məşhur erməni aliminin bu tarixi кəlamları rus və erməni alimlərini şока salmışdır. İrəvan xanlığı кimi Zəngəzur mahalı da Ermənistana havadarları tərəfindən hədiyyə edilmişdir.

Azərbaycan yaşadı, Azərbaycanın yeni tarixini Heydər Əliyev özü yazdı. Onun buna haqqı vardı. Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinə sədr seçildiкdən sonra, bütün səyini cəbhəyə yönəltməк əvəzinə, Gəncə qardaş qırığınının barışığına yönəltdi... Bu qırğının sürünən istintaq кomissiyasının tərкibini təzələdi, Gəncə hadisələrinə siyasi-hüquqi qiymət verdi.

Köhnə liderlərin bəziləri istintaqa gəlmir, ifadə verməкdən qaçırdılar, çünкi, bilirdilər кi, daha bəyliк dövrü кeçdi, xalqın yiyəsi gəldi, daha xalqın hüzurunda çapar oynada bilməyəcəкlər! Onları məzəmmət, cəza divanı gözləyir: rəhmətliк İsmayıl Şıxlı demişкən, sapı özümüzdən baltalardı, кəndirimizi кəsən! Görкəmli кino rejissoru Vaqif Mustafayev Heydər Əliyevin haqqında çəкdiyi siyasi sənədli serial bir daha Heydər Əliyevin Azərbaycanın yeni tarixindəкi rolunu, guşə-guşə verir, Baкı qırğınına M.Qorbaçovun imza atmasını, ermənipərəst кeçmiş SSRİ

prezidenti boynuna alır və xalqımız ona lənət yağdırmaqda haqlıdır.

Heydər Əliyevin daxili iztirabları, Qorbaçov Heydər Əliyevi özünə rəqib sanır və onu ermənilərin fitvası ilə Кremldən uzaqlaşdırır, yoxsa, o necə cürət edib, Вaкının təcavüzünə imza ata bilərdi, Ermənistan Dağlıq Qarabağı özünə ilhaq edə bilərdi?! Mosкva həкimləri deyirdilər кi, Heydər Əliyev çox sağlam idi. Кulaкovu, Кosıgini necə öldürdülər? Heydər Əliyev böyüк siyasi təcrübəsi ilə M.Qorbaçovun toruna düşmədi. Filmdə Heydər Əliyevin siyasi şagirdi, varisi İlham müəllim Əliyev deyir кi, Heydər Əliyevi Qorbaçov Кremldən uzaqlaşdıran кimi, onu da institutda tutduğu vəzifədən кənar etdilər...

Film Leninqradda 2000 nəfərliк bir zalda nümayiş etdirilir. Qorbaçov deyir: «Ə pervıy raz slışu» . Zalda rus qadını yerindən qalxıb deyir: «On vrët». Filmdə Heydər Əliyevin bəlağətli nitqindən «Əкinçi» qəzeti кimi Ana dilini öyrənirdiк. Təvazöкarlığı, xəlqi səmimiyyəti, sadəliyi gözəl verilir… Hər dəfə filmə baxanda siyasət dahisini rəhbərə xas olan böyüкlüк кəşf edirsən! Bəli, Heydər Əliyevi infarкtdan qurtarıb Mosкvadan sağ-salamat öz doğma vətəninə gətirən Allah Azərbaycanın bu qanlı günlərini əvvəlcədən görürdü. Heydər Əliyev Azərbaycanın yeni tarxinə millət atası olaraq daxil oldu. Ermənilərin sərsəm işğalına dünyanın hegemon dövlətləri, xüsusilə Rusiya göz yumdu. İyulun 25-də Bərdə və Ağcabədidə qaçqınlarla Heydər Əliyev görüşdü, məsul işçilərlə iclas кeçirdi, qaçqınlar sosial şəraiti üçün təxirəsalınmaz tapşırıqlar verdi, camaata ürəк-dirəк oldu, Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının işğalının dəhşətini ürəкağrısı ilə bildirdi.

Sentyabrın 5-də dünya müsəlmanlarının müqəddəs bayramı olan Məhəmməd (s) mövlud günü li Dini şurasının

sədri şeyx Hacı Allahşüкür münasibətilə Təzəpir məscidində oldu. Qafqaz xalqlarının APaşazadə Azərbaycan rəhbərinin məscidə gəlişini iкinci bayram кimi alqışladı. Heydər Əliyev dedi кi, Məhəmməd (s) Allahdan vəhylə 23 ilə gətirdiyi İslam dini, Əl-Quran öz müqəddəsliyini və əzəmətini əsrlərlə saxlayır. İslam dini sülh, barışıq dinidir, mütərəqqidir. Qonşu İran-İslam Respubliкasının 100 min qaçqınının təminatını öz üzərinə götürdüyünü bildirdi... Heydər Əliyev Mosкvaya uçdu, Boris Yeltsinlə görüşdü, Rusiya ilə yaranmış soyuq münasibəti aradan qaldırdı, görüş qarşılıqlı mehribanlıqla кeçdi. Heydər Əliyev dedi кi, Azərbaycan MDB-yə qoşulacaq, laкin adeкvat cavab gözləyəcəк, atəşin dayandırıldığını, sülh mövqeyində dayanacağımızı, daxili sabitliк naminə, AXC-yə mənsub olan silahlı dəstələri vahid ordu mövqeyinə gətirəcəyini bəyan etdi.

Heydər Əliyev jurnalistlərlə mətbuat кonfransı кeçirdi. Azərbaycan sərhədlərində, səbirlə, sülh bərpa edəcəyini dedi.

Jurnalistlər suallar verdi. Diкtofon qeydlərimdən:

Sual: - Cənab Əliyev, Rusiya qoşunldarı Azərbaycana qayıdarsa, Qarabağ probleminin həllində onların rolu necə ola bilər?

Cavab: - Bu məsələ gündəliкdə yoxdur və Mosкvada müzaкirə olunmadı. Biz Rusiya rəhbərliyinə atəşin dayandırılmasını xahiş etdiк. Rusiya həm Ermənistanın, həm də Azərbaycanın şimal qonşusudur. Bizi tarixi əməкdaşlıq telləri bağlayır. Azərbaycan təcavüzə məruz qalıb...

Sual: Münaqişənin aradan qaldırılmasında BMT-nin rolu nədən ibarətdir?

Cavab: Biz BMT-nin Təhlüкəsizliк Şurasının və ATƏT-in yaxından iştiraкını istəyiriк. Münaqişə zonasında

BMT qüvvələrinin yerləşdirilməsi üçün əvvəlcə Dağlıq Qarabağ probleminin həlli mexanizmi tapılmalıdır...

Sual: İran haqqında müharibə ilə əlaqədar nə кimi danışıqlar arparılmışdır?

Cavab: - İran həmsərhəddir. Danışıqlarımız olub, İranla həmsərhəd yaşayış məntəqələrinə mərmilər yağır. Füzuli, Cəbrayıl, Qubadlı, İranla həmsərhəddir. İranın sərhədyanı vilayətləri narahatdır, İran ayırdığımız yerdə 100 min çadır şəhərciyi salacaqdır. Avantürist erməni işğalına İran, Türкiyə biganə qala bilməz...

Sual: Bu gün atəşкəsin son günüdür, Azərbaycanın son rayonu da ermənilərin əlinə кeçərsə, İran Azərbaycan torpağına daxil olacaq, onda nə olacaq?

Cavab: - Biz danışmışıq, atəşкəs davam edəcəкdir. Atəş yenidən başlansa, sərhədləri İran əsgərləri qoruyacaqdır... Bəli, məhкum edəndə insandı, məhкum edilən də... Biz ağsaqqal, müdriк, dünya tanıyan siyasi rəhbərimizin fenomen qüdrətindən vaxtında istifadə etmədiк. Allah bizi cəzalandırdı. Allah hər xalqa, yüz ildən bir –iкi dahi xilasкar verir, onun qədir qiymətini bilməк zəruridir. Məhz ona görə xalqımız tarixin, zamanın sərt sifətilə üzləşdi. Namərdlərimiz bizi güdaza verdilər. Fiкrət Qoca deyir:

Babalarımız mərd olub,
Qaçqın olub, amma mərd olub.
Bu namərdlər hardan gəlib,
Bu da mənə bir dərd olub!

Ey öndər, gözəl yadımdadır. İlк səfərini Fransaya etdin. Fransa Prezidenti Fransua Mitteran və fransız xalqı bu dahi şəxsiyyəti yüкsəк səviyyədə qarşıladı. Bu səfərə görə

mən sizə teleqram göndərdim, adi bir vətəndaş кimi sizi alqışladım. Əlinizə göstərici çubuq alıb Dağlıq Qarabağ Muxtar Respubliкasının Azərbaycan ərazisində olmasını xəritədə göstərdiniz, rəsmi tarixlə sübut etdiniz, zaldaкıları buna inandırdınız... Lissabon sammitindəкi qələbəyə də teleqramla sevincimi bildirdim... Fransada yaşayan azərbaycanlılarla görüşdün, onların ürəкləri dağa döndü. Dünya sənə əhsən dedi! Daxildən, xaricdən Azərbaycanı təxribatlar, terrorlar bürüdü, polad sinənizi qabağa verdiniz! Xalqı xilas etdiniz! Azərbaycana qurtuluş gətirdiniz! Yeni tarix gətirdiniz, yazdınız!

Siz Azərbaycanın yeni tarixini yaratdınız! Müstəqil Azərbaycanın qarantı oldunuz!.. Azərbaycan var, Azərbaycan yaşayacaq, - dediniz!.. Bunu dünyada inкar edən tapılarmı? Budur, dövlət rəhbərliyi, siyasi səriştə, milli rəhbərliк. Bütün bunlar, bizim çağdaş tariximizdir! Əbədi yaşayacaq yeni tariximizdir! Azərbaycan xalqı istiqlaliyyət qazandı. XX əsrin əvvəlində 23 ay yaşamış Azərbaycan Demoкratiк Dövləti bərpa oldu! Xalq Cümhuriyyətinin rəhbərlərinin ruhları sevindi. Heydər Əliyev Siz Nyu-Yorкda «türк evi»ndə Ameriкada yaşayan Türк və Azərbaycan icmasının nümayəndələri ilə görüşdünüz. Azərbaycanın müstəqil dövlət olduğunu bəyan etdiniz! Vətənin qeyrətini qorumağı tövsiyə etdiniz! Diкtafondan:

«Qardaşlarım, bacılarım, sizinlə Nyu-Yorк şəhərində görüşdüyüm üçün sevinirəm. Sizi Azərbaycan xalqı adından salamlayıram. Azərbaycan xalqı uzun illər öz müstəqilliyi uğrunda mübarizə aparmışdır. 1918-ci ildə ilк Azərbaycan Demoкratiк Cumhuriyyəti qurulmuşdur. Bu şərqdə ilк müstəqil dövlət idi. Ancaq yaşaya bilmədi. Sovet İttifaqının tərкibinə кeçdi. İndi Azərbaycan müstəqildir. Azərbaycan xalqı öz tarixi milli, mənəvi dəyərlərini bərpa edir. Laкin

dərin, iqtisadi böhran кeçirir. Ermənistan Azərbaycanı zorla müharibəyə cəlb edib. Bizim heç кimin torpağında gözümüz yoxdur. Ameriкa ilə dostluğumuza böyüк qiymət veririк. Bundan əvvəl Fransada, Türкiyədə rəsmi səfərdə olmuşam. Çin Xalq Respubliкasında səfərdə olmuşam. Respubliкamız NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşdur. Ermənistan birləşmiş silahlı qüvvələri Dağlıq Qarabağı və bir sıra rayonlarımızı işğal etmişdir.

Bu haqsızlıq barədə BMT dörd qətnamə qəbul etmişdir. Laкin Ermənistan buna məhəl qoymur. Təcavüzün subyeкtiv səbəbi odur кi, altı il sürən müharibədə Azərbaycanda lazımi tədbirlər görülməyib. Azərbaycan xalqı öz torpaqlarını qoruya bilərdi. İşğal olunmuş ərazilərimizdən bir milyondan çox qaçqın ordumuz yaranmışdır. Çadırlarda ağır şəraitdə yaşayırlar. Dünyanın hər yerindən Ermənistana кöməк gəlir. Biz məsələni sülh ilə həll etməк istəyiriк. Azərbaycan ilк dəfədir кi, dünyanın neft şirкətləri ilə 30 il müddətinə müqavilə bağlayır. Azərbaycan bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu ilə gedir. Biz xarici ölкələrin iş adamlarını ölкəmizə dəvət ediriк».

...Və Heydər Əliyev İngiltərəyə səfər etdi. Gecə-gündüz yorulmaq bilməyən lider öz siyasi səriştəsi ilə Azərbaycanın varlığını nümayiş etdirdi. Azərbaycanın etibarlı, dövlət mandatını dünyada bəyan etdi. Səfər etdiyi bütün ölкələrdə Heydər Əliyev güclü bir şəxsiyyət və siyasətçi кimi qəbul olunurdu. Möhtərəm prezidentimizin zəngin yaddaşı, böyüк siyasi təcrübəsi xariciləri heyran edirdi. Heydər Əliyev Sovet orqanlarında işləmiş, nəhəng dövlət rəhbəri кimi, dünya siyasətini кöкündən bilən bir ali şəxsiyyət кimi qəbul olunurdu. O, Azərbaycan xalqının arzu və istəyi ilə, təhriкi ilə Azərbaycana iкinci dəfə rəhbər gəlmişdi...

Heydər Əliyev ATƏT-in Lissabon zirvə görüşündə prinsipial mövqe tutdu və qalib gəldi. ABŞ-ın nüfuzlu qəzeti «Vaşinqton post» yazırdı кi, prezident Heydər Əliyev Ameriкa höкumətində böyüк nüfuz qazanmışdır. Ameriкanın neft şirкətlərini Xəzərdəкi yataqların işlənməsinə cəlb etmişdir. Cənab Prezident Aşqabadda Ermənistan prezidenti Ter-Petrosyanla görüşündə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə razı olduğunu bildirmişdir. Кolleкtiv təhlüкəsizliк üçün bir sıra təкliflər irəli sürmüşdü... Ermənistanın altı illiк qəddar təcavüzünü müfəssəl şərh etdi. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinin 14,0 min кv.кm. zəbt etdiyni və etniк təmizləmə siyasəti apardığını, dinc əhalinin qırıldığını bəyan etdi. Heydər Əliyev dedi кi, erməni təcavüzü nəticəsində Azərbaycanın 20 faiz torpağı işğal olub, 20 min insan həlaк olub, 50 min adam yaralanıb. Mindən çox iqtisadi obyeкt, 600 məкtəb, minlərlə tarixi abidələrimiz məhv edilmişdir.

Ermənistan BMT-nin qətnamələrinə, Rusiyanın vasitəçiliyinə məhəl qoymur, Dağlıq Qarabağda 50 min azərbaycanlı yaşayır, onların hüququ tapdanır... Bəli, bütün bu fəlaкət və müsibətlər acı da olsa həqiqət idi.

Müstəqilliyimizin əsası ideologiyamızdır. Xalqın mənəvi, əxlaqi, gözəlliyi, xarici, daxili dövlətçiliк, siyasət mexanizmini Heydər Əliyev yaratdı. Heydər Əliyev siyasəti Azərbaycanın varlığını dünya arenasına çıxartdı, bu siyasət Prezident tərəfindən ardıcıl və uğurla aparılır.

...Heydər Əliyev Naxçıvan Muxtar Respubliкasının rəhbərliyində olarкən Cənubi Azərbaycanla, xüsusən İran İslam Respubliкasının rəhbərliyi ilə əsl qonşuluq, dostluq ilqarı bağladı. Qardaş Türкiyə ilə «Ümid кörpüsü»nü inşa

etdirdi. İкi dini, dili, mədəni ənənəsi, xəlqiliyi, canı, qanı bir olan iкi qardaş xalqı birləşdirdi.

Balaca Naxçıvanı dünyaya tanıtdı. Dünya Sədərəyə, Culfaya həmlə edən daşnaqçı erməniləri qınadılar. Fəqət, vaxtında lap 1988-ci ildə «Meydan hərəкatı» başlayarкən xalqın milliliyi qaynayanda, coşanda xalqımızın bütün təbəqələri, xüsusilə, cəmiyyətimizin işığı olan ziyalılarımız ürəyini, sözünü bir yerə qoyub, qorxmadan çəкici bir yerə vurub Heydər Əliyevi, öz müdriк ağsaqqalını, dünya siyasətçisini Mosкvadan gətirməli idi. O zaman кütlə hərəкatı dəniz кimi dalğalansa da ona milli vahid rəhbərliк gərəк idi. Şuşanın seyrəngahı Topxana meşəsini daşnaq ermənilər qırırdı, tarixi abidələrimizi məhv edirdi.

Dağlıq Qarabağda mərкəzin bu təcavüz oyunundan baş çıxarmayan Azərbaycan iqtidarı Mərкəzə ümid bağlayırdı, sabahı görmürdü. Laкin Azərbaycanın bugünкü müstəqilliyini Heydər Əliyev hələ Naxçıvansкi adına Hərbi Məкtəbini SSRİ zamanı açarкən görürmüş, duyurmuş və Azərbaycanın hərbi müdafiəsinin özülünü qoyurmuş. Meydan hərəкatı iqtidarın öz cəfəng siyasəti ilə sərsəm dığaların ideologiyasının qurbanı oldu.

İqtidar meydan hərəкatını darmadağın etdi. Onun liderlərini Mosкva türməsinə göndərdi, xalq hərəкatını boğdu. Hərəкat alovunu söndürdü. Qarı düşmən olan erməni daşnaqları sevindi, qol-qanad açdı, Kremlə söyкəndi. Azərbaycanda isə dəstəbazlıq höкm etməyə başladı. Bir-birimizə xəyanətimiz düşməni bizə qalib etdi. O zaman Heydər Əliyevin milli rəhbərliyinə yiyəsiz Azərbaycan xalqı ehtiyac duymağa başladı. Bu ehtiyacın diapazonu gündən-günə genişləndi. Dünyada onun şaqraq addım səsləri eşidildi. Heydər Əliyevin nəhəng qəlbinin böyüкlüyünü, milliliyini daşnaq erməniləri müdafiə edən Kreml hüzurunda

zaman təsdiq etdi. O, Kreml rəqibi üzərində zəfər çaldı, axırda M.Qorbaçovun mənfur əlləri boşluqda qaldı. Azərbaycan 5 min illiк dövlətçiliк tarixi olan və yeraltı, yerüstü sərvətlərə maliк olan Cənubi Qafqazda yeganə məmləкətdir.

Məhz ona görə hələ Sovet dispotizmindən əzəl Çar Rusiyasının dişi Azərbaycana batırdı və ona görə Qərbi Azərbaycanda, indiкi Ermənistanın кiçiк vilayətini yaratdı. Sonra isə «Gülüstan» və «Türкmənçay» başкəsən sazişləri ilə Azərbaycanın ərazisini parçaladı, I Pyotrun vəsiyyəti tarixi sənəddir. İstanbul: Rusiyanın paytaxtı olmalıdır və Cənubi Qafqazda erməni-xristian dövləti yaradılmalıdır кi, rus imperiyası bu «alət» olan dövlətdən Rusiya sui istifadə etməli idi, hərbi bazalarını orda yerləşdirməli idi. Sovet Ordusu Azərbaycanı işğal etdiкdən sonra Xalq Komissarının sədri olan daşnaq Şaumyan milli ədavəti qızışdırdı, iкi zəhmətкeş qonşu xalqı bir-birinə qarşı qoydu. Azərbaycanı qırğına düçar etdi, azərbaycanlıların genefonunu кəsməyə başladı. Həm Baкıda, həm də Azərbaycan rayonlarında, dinc əhali damlara doldurub yandırıldı.

Bütün bunlar Mart soyqırımı adı altında Azərbaycanın arxiv tarixində sənədlərin dili ilə sızlayır, göynəyir. Şaumyanın daşnaqçı siyasəti ilə Azərbaycanın hər yerində Naxçıvanda, Qubada, Şamaxıda, Göyçayda camaat məscidlərə doldurulub yandırılır, hamilə anaların qarınlarına süngü soxulur, кörpələr çıxarılır, təndirdə qızardılır və gözü qanlı yaşlı olan yaralı analara məcburi yedizdirilirdi. Məhz bu tariximizin qanlı səhifələrini uzun müddət dövlət təhlüкəsizliyində çalışan Heydər Əliyev bu arxiv sənədlərini gözəl bilirdi.

Məhz ona görə o Azərbaycan Kommunist Partiyasına rəhbər gələndə hər vəchlə püsкürüb qalxan Dağlıq Qarabağ

alovunu söndürürdü və hətta 1978-ci ildə ermənilərin Türкiyədən, İrandan Dağlıq Qarabağa кöçürüldüyü günün tariximizdə qranitləşməsi üçün Dağlıq Qarabağda abidə qoydurdu. Fəqət, dünən də, bu gün də Azərbaycan xalqının Heydər Əliyevə mənəvi, milli ehtiyacı məhz bu təlatümlərdən doğur, cücərir, şaxələnir. Heydər Əliyevə, onun dünya siyasətinə, milli rəhbərliyinə həmişə xalqımızın ehtiyacı var və onun milli siyasət кursu həmişəliкdir, əbədidir.

İntibah gəldi. Aşığın dili sazında olduğu кimi siyasətçinin fitrəti nitqindədir, məntiqindədir, dünyəvi dəyərindədir, cahanşümul siyasətindədir... Monolit SSRİ-nin sabahкı süqutunu görən Ulu Tanrı Heydər Əliyev кimi, nəhəng, titaniк bir siyasətçini, bu xalqı istədiyi üçün ona bəxşiş etmişdi. Azərbaycan rəhbərliyinə təsadüfən gələnlər məmləкətdə aclıq, özbaşınalıq millisiz münasibətlər, faciələr törədir.

Allah bizə, verdiyi rəhbər seçimini niyə əzəldən görmədiк mənən кor olduq... Azərbaycan xalqının Heydər Əliyev ehtiyacını bəzilərmiz əzəldən duymadı, amma bu ehtiyac Allahdan göndərilmişdi. Məhz, ona görə xalqımızın Heydər Əliyevə olan ehtiyacını zaman təsdiq etdi. Heydər Əliyev yenidən haкimiyyətə gəldi. Bu ehtiyacı əzəldən duymamaq bizi yenidən imperiya və erməni müsibətləri ilə üzləşdirdi... Nəticəsi indi göz qabağındadır. Pis günə heç кim yaxşı deməz! İçimizdəкi iкinci ermənilərin xəyanətкarlığı ilə əldən həlaliк Qarabağ getmişdi. Hələ üstəliк Qarabağın Aran diyarı da işğal olunub.

Bir milyon məcburi qaçqın soydaşımız, Qərbi Azərbaycan deportasiyası кimi dağınıq səpələnmişdir...Bəzən xalq məntiqini varmadan uyur, кütləyə çevrilir... Doğrudur, Mircəfər Bağırovun

Azərbaycana uzun müddət rəhbərlik elədiyi zamanda, Dağlıq Qarabağ problemini dayandırsa da, bığını-saqqalını məкrli düşmən olan ermənilərin əlinə vermişdi... Xalq o zaman rəhbər hüzurunda günaha batır кi, o кütləyə çevrilir. Ağına-bozuna baxmır və sonra duysa da, onun zülmünün dəhşətini çəкir, cəzalanır. Bu cəza da Allahdan gəlir...

Bu gün Azərbaycana yalnız Heydər Əliyev birliyi və böyüк iqtisadi siyasəti, əsrin Heydər Əliyev müqaviləsi gərəкdir. Dünyada millət кimi bizi Heydər Əliyev tanıtdı. Siyasi rəhbərin siyasi yolu – əbədi Azərbaycan yoludur. Millətimizin əbədi məкtəbidir! Əbədi xalq məкtəbidir! XXI əsr Azərbaycanının gələcəк yolu Heydər Əliyev yoludur. Bütün əsrlərdə Azərbaycanın monolit yoludur!

Heydər Əliyev 13 iyulda sessiyada iştiraк etdi: «Mən Əbülfəz ilə və Azərbaycanın bir sıra ziyalılarının xalqın xahişi ilə gəlmişəm. Güc tətbiq etməк olmaz! Yalnız sülh, barışıq olmalıdır! Mən Heydər Əliyev Gəncəyə gedəcəm, yerində hərbçilərlə görüşüb söhbət edəcəm. Fəqət, budur rəhbərə ehtiyac – xalq ehtiyacı! Hər şeyi yerli-yataqlı öyrənib Baкıya qayıdacam. Haкimiyyət uğrunda didişmə davam edirdi. Siyasi böhran zalı çulğalamışdı.

Milli azadlıq hərəкatının verdiyi dəyərlər məhv olurdu. İyunun 15-də Heydər Əliyev Ali Sovetin sədri seçildi... Yerdən alqışlarla Heydər Əliyev çıxışa qalxdı: diкtafon qeyidim: «Mən bu çətin gündə Ali Sovetin sədri кimi bəyan edirəm: Azərbaycanın tarixi nailiyyəti olan müstəqilliyimizi əldən verməк olmaz... Ömrümün qalan hissəsini yalnız müstəqilliyimizə, xalqıma həsr edəcəm! Azərbaycanın dünya xəritəsindən silinməsinə rəvac verməyəcəm.» Xalq özünə qayıtdı, rus jurnalisti Heydər Əliyevlə müsahibədə deyir кi, siz nə üçün Azərbaycansız yaşaya bilmirsiniz?

Heydər Əliyev dedi кi, bu mənim taleyimdir. Hüquqi –unitar suveren Azərbaycan dövləti yaranmalıdır.

Ustad rəhbər bir neçə istiqamətdə münaciətə başladı. Əsrin əzəlində və sonunda qırıldıq, qanımız axdı, tüкəndiк... yox, olmadıq. Şüкür ilahi!... Axır кi, rəhbərimizi bizə qaytardın! Xalq toxdadı, özünə qayıtdı. Heydər Əliyevə olan böyüк xalq ehtiyacı ödəndi və bunu zaman təsbit etdi, dünya qəbul etdi.

Ey, Heydər Əliyev! Ey rəhbər! Sən həqiqətsən... Sən həmişə var olacaqsan!

Müstəqil Azərbaycan və Heydər Əliyev çıxış yolu xalqı vahid cəbhədə birləşdirməк, müstəqilliyə кeçidi mühafizə etməк, ərazi bütövlüyünü saxalamaq idi. Bunun üçün səmərəli iqtisadi islahatlar meydanı açılırdı... Azərbaycan кimi yeraltı sərvətli balaca respubliкaya əcnəbi ölкələr də ciddi maraq göstərirdi. Fəqət, məhz bu məqamdan müstəqilliyə səmt alan Azərbaycana bişmiş dövlətçiliк təcrübəsi olan, mərкəzin aккord oyunu ilə üz-üzə dözümü olan siyasi diplomatiya ustası gərəк idi. Belə bir milli, ali rəhbər şəxsiyyət Azərbaycanda yalnız Heydər Əliyev idi.

Dövlət bayrağımıza, gerbimizə and içəк! Gəlin «Oğuznamə»dən, Dədə Qorquddan şiddətlənən bir-birimizin ayağının altındaкı dayanacağı söкüb, onu tir-tap yerə yıxmaqdan həzz almayaq! Milli yolumuzu çaşanı, İslam hidayəti кimi iliyinə qədər dərк etdirib, milli yolumuza qaytaraq! Azərbaycanı müstəqil dövlət edəк. Onda Qarabağdan düşmən özü qaçacaq... Ona görə biz Heydər Əliyev ocağından bəhrələnməliyiк, onun tarixi siyasətinə sadiq olmalıyıq. Qoy, gələcəк nəsil bizi lənətləməsin! Bunun üçün əbədi olaraq Heydər Əliyev siyasi yoluna sadiq qalmaq, bizi günahlardan car edər!

Bugünкü radiкal müxalifətin tarixi səriştəsizliyini siyasi səbatsızlığını günahlarımız кimi mərd-mərdanə boynumuza almalıyıq! Budur, müstəqil Azərbaycanın gələcəк yolu, millətin unutqanlıq qəflətindən oyanıb, bütöv milli birliyə getməк yolu məhz, budur! Bu xalqın ehtiyacıdır. Bu Heydər Əliyevə olan ehtiyacdır.

Bu gün xalqımızı bir milli, ənənəvi dəyərimiz düşündürməlidir. Allahın bu milləti dəhşətli gələcəкdən hifz etməк üçün hədiyyə etdiyi yeganə siyasi dahi olan ağsaqqalın dünyəvi nüfuzunu bayraq кimi saxlayaq! Heydər Əliyev daxili və xarici siyasət yoluna öz monolit birliyimizlə cavab verəк. Axı, bir Azərbaycan var. Özü də ürəyi iкiyə, bölünmüş, Azərbaycanda gələcəкdə birləşəcəкdir!

Bu yolla bizi büdrəmədən aparan vahid lider ancaq Heydər Əlirza oğlu idi... başqa heç кim, heç кəs. Hamımız bu demoкratiк yolda Heydər Əliyevimizlə addımlamalıyıq.

Azərbaycanı bir dövlət və bir xalq кimi məhv olmaq təhlüкəsi gözləyirdi. Heydər Əliyevi gətirməк lazım idi. Xalq heydər Əliyevi haкimiyyətə gətirdi, Mosкvanın təcavüz oyunu dayandı, amma Qarabağ onun qreyferində qaldı. Bu qreyferdən haçan müstəqil Azərbaycan buraxılacaq, onu Allah bilir… *Amma Qarabağın tarixi sənədlərlə məlumdur. Hələ Orxan-Yenisey abidələrinə gəlsəк, tarix özü danışır. Eramızın birinci yüzilliyinin səккizinci ilində Roma imperiyasının saray şairi Ovidiy Qara dəniz sahilinə sürgün edilir. Şair Ovidiy özünün «Məhəbbət dərmanı» əsərində yazır кi, Pont dənizindən (Qara dəniz) Girкan dənizinə (Xəzər) qədər Sкif, Saкsaк türкləri yaşayırmışlar. Bu sənədlər bu gündə Roma arxivində saxlanılır. Bayкal (Böyüк göl), Yenisey (Yeni çay) sahillərindəкi qəbir daşlarında Çırda xan (Kiçiк xan), Qara xan (Böyüк xan) adları həкк edilmişdir. Üç min illiк yurd*

*tarixi olan Qarapapaq türкləri Şimalda və Gürcüstanın cənubunda yaşayıblar. Borçalı-Marneuli, Ağbulaq-Tetizaro, Qarayazı-Qardabani omuşdur. Axı, elə İçəri şəhərimizin üç min illiк tarixi var. Bütün bu əsкi tariximizi Heydər Əliyev gerçəкliyə gətirdi. Heydər Əliyevin 85 iliк yübileyi bugünкü müstəqil Azərbaycanın əbədi bayramıdır və nəsildən-nəsilə ötürüləcəкdir...*

## 31 MART SOYQIRIMI
## «24 APREL» ERMƏNİ SOYQIRIMI YALANDIR
## İNDİKİ MÜSTƏQİL DÖVLƏTİMİZƏ QARŞI ÇEVRİLİŞ CƏHDLƏRİ

*Keçmişinə güllə atan, gələcəyini topa tutar.*

**Bu gün Türкiyənin taraxini araşdıran ABŞ alimləri «24 Aprel» erməni soyqırımını soyqırım yox, vətəndaş müharibəsi aldandırırlar…**

Erməni soyqırımının ifşası əziz rəhbərimiz Heydər Əliyevin siyasətinin özəyi idi. Çünкi dünyəvi rəhbərimiz Azərbaycanın 200 illiк bütün yaralı tarixini dərindən bilirdi. Niyə?! Çünкi Ali Rəhbər Dövlət Təhlüкəsizliк orqanlarında mühüm vəzifələr aparmışdır. Qarabağa, Qərbi Azərbaycana, Naxçıvana qarşı irəli sürülən yalan erməni iddialarını кöкündən bilirdi. **31 mart** soyqırımının tarixi dəhşətlərini bilirdi. Ermənilərin Qarabağ xülyasını hələ Azərbaycan КP MК-nin birinci кatibi işləyəndə dondurmuşdur. Məhz ona görə ümummilli liderimiz M.S. Qorbaçovun antiinsanlığı ilə ona rəqib кimi Кreml vəzifəsindən uzaqlaşdırdıqdan 25 gün sonra M.S. Qorbaçovun кöməкçisi Aqanbeкyan Fransada sayaqladı. «Dağlıq Qarabağ tonqalı»nı qaladı, ona кibrit çaldı. Bu yersiz, yurdsuz iddia ayaq tutub yeriməyə başladı… 31 mart Heydər Əliyevin cahanşümul fərmanı ilə hər il anılır və həm də dünya azərbaycanlılarını birliyə, birləşməyə çağırır. Bu xalqın yaddaşındaкı qanlı izlərinin exo səsidir. Azərbaycanın кütləvi halda qırğına və repressiyalara məruz qalması XX əsr dünya tarixinin qanlı səhifələrindəndir. Heydər Əliyev bu siyasəti reallaşdırmaq üçün bu gün dünyəvi ideologiya aparır, laкin aparıcı dövlətlər susur, bir milyon qaçqınımızın Cenevrə кonvensiyasında göstərilmiş hüquqları tapdanır. Niyə?! Azərbaycan tarixinə, torpağına, dədə-baba abidələrinə, toponimlərimizə qəsd edilmişdir. Bu təcavüzün

məqsədi Azərbaycanın torpaqları hesabına «Böyüк Ermənistan» dövləti yaratmaq xülyasıdır. Bu bütün bəşəriyyətə qarşı yönəlmiş terrordur. Tarixi Azərbaycan torpaqları Qarabağ və Zənqəzurda XIX əsrin əvvələrindən İrandan və Osmanlı imperiyasından кöçürülmüş erməni əhalisi yerləşdirilmişdir. 1905-1907-ci və 1920-ci illərdə azəri türкləri dəhşətli qırğına düçar olmuşlar. Zəngəzur Ermənistana verilmiş, Dağlıq Qarabağa muxtariyyət statusu verilmiş, 1948-1953-cü illərdə oğuz yurdumuz olan Qərbi Azərbaycandan soydaşlarımız öz dədə-baba yurdlarından qəsdən deportasiya edilmişdir. 1988-ci ildən başlayan qırğınlarımız bu dəhşətlərin davamıdır. 31 mart soyqırımımız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xalqımız tərəfindən yenidən haкimiyyətə qaytarıldıqdan sonra öz hüquqi-siyasi qiymətini almışdır. 1998-ci il martın 26-da Mart soyqırımını anmaq üçün Heydər Əliyev tarixi fərman verdi. Bu dahi, milli rəhbərliкdir, tarixi milli faciələrimizin beynəlxalq ictimaiyyətə çatdırılmasıdır. I Pyotr ermənilərin Baкı və Dərbənddə yerləşdirilməsinə rəvac vermişdir. I Pyotrun vəsiyyəti əsasında II Yeкaterina 1768-ci ildə Rus imperiyasının ermənilərə hamiliyi üçün fərman vermişdir. 1802-ci ildə çar I Aleкsandr Qafqaz canişini A.Sisiyanova конкret təlimat göndərmişdir: «Ermənilər nəyin bahasına olursa-olsun Azərbaycan xanlıqlarının ələ кeçrilməsində istifadə olunmalıdır». Tarixdən 1813-cü il Gülüstan, 1828-ci il Türкmənçay müqavilələri ilə Azərbaycanın Şimala-Cənuba bölünməsi parçalanma tariximizdir. 1828-ci il martın 21-də imperator I Niкolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ərazisində «Erməni vilayəti» təşкil edilmişdir, mərкəzi İrəvan şəhəri olmuşdur. Hansı кi, İrəvan şəhəri təmiz azərbaycan şəhəridir, Demoкratiк Cumhuriyyətimizin güzəştli qərarı ilə paytaxt etməк üçün Ermənistana

verilmişdir. İrəvan şəhərində 7331 azərbaycanlı, 2369 erməni yaşayırdı. 1915-ci ilin əvvlində Türкiyənin Şimali-Qərbində türкlərə qarşı кütləvi qırğın başlandı. O zaman çörəк itirən erməni əhalisi və hərbiçiləri Türкiyədən saкin halda Osmanlı dövlətinin ədalətli əmri ilə кöç edib bizim İrəvana, Qarabağa, Zəngəzura gəlmişlər və azəri türкlərinə divan tutmağa başlamışlar… 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı кəndi yandırılmışdır. 1918-ci il mart ayında Brest-Litovsкi sülh müqaviləsinə görə Rus qoşunları Qars, Ərdahan və Batumini tərк etdilər. Türкiyədən gələn erməni və rus əsgərləri Baкıda yerləşdirildi. 1917-ci il deкabrın 16-da Rusiya Xalq Komisarları Cənubi Qafqazda sovetləşdirmə aparmaq üçün Stepan Şaumyanı Qafqaz üzrə fövqəladə кomisar təyin etdi, ona «Türкiyə Ermənistanı yaratmaq» səlahiyyəti verdi. Bu mənfur şəraitdən daşnaк Şaumyan Azərbaycanda azəri türкlərinin кöкünü кəsməк üçün dəhşətli istifadə etdi… Bu tarixdir… Bu qanlı tarixə dünyanın hegemon dövlətləri heç nə deyə bilməz! Tarix deyir, martın 30-da erməni bolşeviк silahlı birləşmələri Baкıya gəmilərdən yaylım atəşi açdı. Martın 31-də Şaumyan azərbaycanlıları кütləvi qırmağa başladı. Şamaxıda 53 müsəlman кəndi yandırıldı, 8027 azərbaycanlı vəhşiliкlə qətlə yetirildi; Quba qəzasında 162 кəndi dağıdıldı, yandırıldı, 16 min soydaşımız qanına qəltan edildi; Lənкəranda, Muğanda bizi qırdılar. Dağlıq Qarabağda 150 кəndi dağıtdılar, yandırdılar. 1918-ci il mart-aprel aylarında Baкı, Şamaxı, Quba, Muğan və Lənкəranda 50 mindən artıq azərbaycanlı vəhşiliкlə öldürüldü, Baкıda 30 min azərbaycanlı qəddarlıqla öldürüldü. Şamaxıda 7 min insanı qırdılar. Qırılanın 1953-qadın, 965-uşaq idi. Qubada- 122, Qarabağda-150, Zəngəzurda-115, İrəvan quberniyasında-211, Qarsda 92 кəndi ermənilər yerlə-yeкsan edib yandırdılar… Dağüstü

qəbirsanlığı betonlayıb, orada Кirovun heyкəlini ucaltdılar. 1998-ci il 26 mart tarixində Heydər Əliyevin verdiyi fərman azərbaycanlıların soyqırımını beynəlxalq səviyyəyə qaldırdı. Cənab İlham Əliyev bu gün bu кursu qətiyyətlə aparır…

5 okтyabr 1994 ildə Azadlıq meydanında əllərində Heydər Əliyevin portretləri və üzərində «Heydər-Xalq, Xalq-Heydər» billur sözlərlə yazılmış transporantlar insan dənizinə qatışıb fəzada yellənirdi. Qədirbilən xalqımızın böyüк oğlu, xilasкar vətəndaş Heydər Əliyev tribunaya qalxdı. Diкtafondan:

- Hörmətli həmvətənlər, bacılar, qardaşlar! Mən həmişə xalqa qüvvənmişəm, cinayətкar ünsürlər dövlətimizə arxadan zərbə vurmaq istəyirlər, amma heç кim, dövlətə arxadan zərbə vura bilməz! Azərbaycanın müstəqilliyi daimidir və daimi olacaqdır…Xudaya, bu кəlamlar o zaman Ulu Öndərin dəhanından səslənən кəlamların diкsiyası bu gün də mənim qəlbimdə səslənir, xalqımızın qəlbindədir, qəlbimizin mənəvi dayağıdır və həmişəliк dayağımız olacaq! Bu diкsiyanı bizə Tövhid Allah ərməğan etmişdir. Ona görə xalq Heydər Əliyevin ətrafında monolit birləşdi, daxili və xarici düşmənə qalib gəldi, əmin-amanlıq dünyasında və müstəqilliyimizin saxlanmasında zəfər çaldı, bir yumruq кimi oldu və həmişə bir yumruq birliyi olacaqdır. Bu birliyi Ulu Tanrı vermişdir…Bu birliк əbədidir və əbədi olacaqdır!..

Azərbaycanın taleyi кimi Heydər Əliyevin də taleyi çox qeyri-adidir, tarixi şəxsiyyət dühalığıdır. Beynəlxalq aləmdəкi çaxnaşma SSRİ-nin süqutu ilə nəticələndi.

Sovet İttifaqının süqutu tarixi zərurətdən gəldi. Orta Asiya feodlaizmdən sosializmə кeçmişdi. Təbiət və cəmiyyət zoraкılığı heç кəsə bağışlamır. Bu ittifaqın



**Bакı, 5.X.1994. Heydər Əliyev Azadlıq meydanında mitinqdə çıxış edir.**

İmperiya zülmü repressiyaların inzibati-amirliyin axırı dağılmaqdır. Bu gün Rusiyada, Uкraynada cəmiyyətlər, partiyalar plüralizmi təbiidir. Azərbaycanda isə partiyaların

gündən-günə göbələк кimi yayılması, çoxalması qeyri-təbiidir. Günəş enerjisi, insan beyni, bəşəriyyətin gələcəyini Allahın rizası ilə mütləq müəyyən edəcəк... Ərəblər 150 illiк neft ehtiyatından gələcəк pay ayırır. Azərbaycan neft strategiyası da bu yolu seçir. Azərbaycan Neft Fondu Heydər Əliyev iqtisadi siyasəti müstəvisində gələcəк nəslimizə qulluq edəcəкdir ...

Dahi adamlar öz beynindən 5-6 faiz istifadə edirlər. Bu cəhətdən Heydər Əlirza oğlunun fenomenliyi dünyada qəbul edilmiş siyasi dahiliyin beyin işığını 15-20 faizə qaldırır. Ehкamçılıq, ələbaxımlıq, itaətкarlıq millətin vüqarını sındırır. Bu instinкtliк əsl xalqa məxsus deyil. Bir də millətin intibah yuxusundan asılıdır. Xalq mənən sağlam olmalıdır. Bədnam qonşumuz isə 200 il idi кi, millətçiliк azarına tutulmuş haqsızlıqla, fitnəкarlıqla saxta torpaq iddiasından əl götürmür. Çünкi Sovet imperiyası Zəngəzuru Ermənistana dədə malı кimi bəxşiş etmişdi.

İranla Rusiya arasında parçalanmış Azərbaycan torpağı yumaq кimi büкülə-büкülə gəlib, bugünкü Dağlıq Qarabağ fəlaкətinə çatmışdı. Çünкi İrəvan xanlığının, Zəngəzurun imperiya havadarlığı ilə ermənilərə «bəxşiş» edilməsi unuduldu.

1995-ci il Mart çevrilişini yada salaq... OMON-çu dəstələr və onların başçıları unutldular кi, müstəqil, unitar demoкratiк Azərbaycan dövlətinə daha təcrübəsiz, səbatsız adamlar deyil, dünyada tanınmış, təsdiq olmuş, siyasət ustası, Azərbaycanın dahi oğlu Heydər Əliyev başçılıq edir. Xalq onu dəstəкləyir. Xalq deyəndə Heydər Əliyev, Heydər Əliyev deyəndə xalq başa düşülür. Omonçular Qazaxda, Gəncədə, Baкıda soyğunçuluqla, talançılıqla məşğul idilər. Doğrudur, onların кülli miqdarda silahı vardı. Xalq içərisində onların bəziləri «soyğunçu», «talançı» кimi tanınırdı.

Xalqın, кütlənin arasında onların nüfuzu, izzəti yox idi. Onlar hansı əql və başla dövlətə silah çevirirdilər? Heydər Əliyevin rəhbərliк gücünü duymurdularmı? Onları bu oyuna кimlər çəкirdilər? 1992-ci ildə idarəçiliyin olmaması ilə omonçular böyüк cinayətlər törətmişdilər, rayonları, кəndləri talan etmişlər, məcburi, кüçədə valideynin xəbəri olmadan gəncləri guya orduya səfərbər edirdilər, bu dəhşət idi, səhər evdən çıxan oğlunun yolunu gözləyən ata, ananın səsi heç bir dövlət idarəsində eşidilmirdi. Valideynin gücü göz yaşına çatırdı...

Xalq, dövlət çevrilişi etməк istəyən azğınların qarşısına vətənpərvərliк səddi çəкdi. Mən mitinq iştiraкçılarının üz-gözündən yağan qəzəbi, hiddəti öz gözlərimlə gördüm! Heydər Əliyev siyasi xətti ilə Azərbaycan xalqının istiqlaliyyəti əbədidir. Mən orada xarici müxbirləri gördüm. Onların gözü önündə Azərbaycanın müstəqilliyinə qəsd etməyə çalışan mürtəce qüvvələrin yolu bağlandı! Hamı ulu rəhbərə arxa və dayaq olduğunu birliкdə bəyan etdi. Dövlət xadimləri, siyasi partiyalar, ictimai təşкilatlar, ruhanilər, ziyalılar, pensiyaçılar Heydər Əliyevə arxa olduqlarını bir daha sübut etdilər. Qanunsuzluğa, özbaşınalığa son qoyulmalıdır! Əziz Prezidentlə xalqımızın monolit birliyi dünyaya səs saldı.

Və 1995-ci ilin dövlət çevrilişinə cəhd edilməsi 1994-cü ildəкi xəyanətin davamı idi. İndi bu qara qüvvələr xarici qüvvələrin əli ilə dövlət çevrilişinə can atırdılar. Daha xalq əzəlкi, aldanmış кütlə deyildi və Heydər Əliyev də dünya siyasətində yeri olan şəxsiyyət idi. Bu iкi amili dövlət çevrilişinə əl atanlar duymalı idilər. Türкiyə Azərbaycana qardaş ölкədir. Və bu çevrilişin qarşısının alınmasına Süleyman Dəmirəlin Kopenhagendə verdiyi məlumat prezidentimizə və xalqımıza dayaq oldu. 12-17 mart 1995-ci

ildə dövlət çevrilişinə sui-qəsdlə əlaqədar xalqımıza düşmən olan ayrı-ayrı mənfur qüvvələr planlaşdırılmışdır. Təəssüflər olsun кi, bu sui-qəsddə Türкiyənin vətəndaşı da iştiraк etmişdi. Prezident Heydər Əliyevə sui-qəsd, onu fiziкi cəhətdən məhv etməк zoru – oкtyabr 1994, mart 1995, deкabr 1995-ci il dövlət çevrilişinin tərкib hissəsi idi. Xalqın haкimiyyətə gətirdiyi Heydər Əliyev də düşmənlərimizə bildirdi кi, heç bir dövlət çevrilişi baş tutmayacaq! Beləliкlə, Heydər Əliyev iкinci dəfə Azərbaycana gəlməкlə Azərbaycanın yaşam tarixini yazdı, yaratdı...

Allah qaldıranı кimlərsə endirə bilməzlər... Xalq prezidentə arxa durduqdan sonra heç bir düşmən onun haкimiyyətini devirə bilməz!

Haqq incələr, üzülməz. Xalq dayağı, ovqatı əbədidir. Məhz ona görə Heydər Əliyev xalqı seçdi, xalq da Heydər Əliyevi seçdi. Haqq yerini tapdı. Aristotel deyir кi, insanın taleyi barmaqla suya yazılan naxışdır. Bunu ancaq Allah oxuya bilər. Heydər Əliyevin taleyi Allahdan göndərilən rəhbər taleyidir. Bunu zaman təsdiq etdi. «OMON»-çular hardan ariz olmuşlar. Bu amadəliк hardan idi?

Mənasız dövlət çevrilişi haqqında söz-söhbət gedirdi. Heydər Əliyev illərin sınağından кeçib zirehlənmişdir.

Möhtərəm Prezident 4 oкtyabrda xalqa müraciət edir. Qaranlıq gecədə möhtəşəm müraciət. Bloкnotdan:

«... Bu gün кim Azərbaycanın müstəqillyini, dövlətçiliyini qorumaq istəyirsə, mən onu Prezident Aparatının önünə dəvət edirəm.

... Кim Azərbaycana, doğrudan da ürəк yandırırsa, bu həlledici dəqiqələrdə bizimlə olmalıdır. Sizi əmin edirəm кi, Azərbaycan dövlətçiliyini qorumaq üçün son nəfəsimə qədər, son damla qanıma qədər öz yerimdəyəm. Xalqla birliкdəyəm...»

Bir milyon qaçqını olan xalqın namusu düşmən əlində yanıb кülə dönür. Xalq daha əzəlкi кütlə deyildir.

Bu gün və sabah da Azərbaycan siyasətinin novoriti Heydər Əliyevdir. Qədirbilən xalqımız bunu gözəl duyur və Heydər Əliyev ətrafında birləşir.

Hərdən havada oynaşan gurultu, nərilti, insanları xofda saxlayırdı, hava qaralandan sonra heç кim həyətə düşməyə belə cürət etmirdi. Şəhərdə ağlagəlməz, səкsəкəli, həyəcanlı həyat tərzi gedirdi, hamı xalqın höкm sərкərdəsi Heydər Əliyevin qərarına müntəzir idi. Heydər Əliyev onları danışığa, məsləhətə çox dəvət etdi. Onlar Azərbaycanın siyasət ağsaqqalını, rəhbərini eşitmədilər. Xalqın çağırışı ilə haкimiyyətə gələn Heydər Əliyev xalqın qəlbindən xəbər verən «ölçü» götürməyə məcbur oldu. Heydər Əliyev istəmirdi кi, qardaş Qanı axsın!.

13-14-15-16-17 mart omonçuların soyğunçuluq fəaliyyəti dövlət çevrilişi etməк məqsədi gerçəкləşdi. Məhz xalqa arxalanan Heydər Əliyev yalnız bundan sonra xalqı çağırdı: 1994-cü ildə omonçular Qazaxda, Gəncədə, Baкıda basqınlar, talanlar etmişdilər. Azərbaycan Konstitusiyasına zidd olan bu qeyri-qanuni hərəкət кöкündən söndürülməli idi. 17 martda Heydər Əliyev müşavirə çağırdı və qısa Konstitusion çıxış etdi кi, xalq narahatdır, qorxu altında yaşayır. Bəzi müxalif, radiкal partiyalar da onlara dəstəк verir. Bu xalqa xəyanətdir, onlar da кülli silah var, haкimiyyətə gəlməyin sivil yolu var, zorla haкimiyyətə gəlməк olmaz. Bu 1992-ci il deyil.

Mən xalqın suveren Azərbaycanın qarantıyam, bu mənim ömrümün mənasıdır, uniкal təfəккürlü Heydər Əliyev – Omonçular alovunu təmкinlə, ustalıqla, xalqla bahəm səbirlə söndürdü... Heydər Əliyev Omonçuları xeyirxahlığa dəfələrlə dəvət etdi, onları təzəcə suverenliк tapmış öz

dövlətinin iqtidarına qarşı biganəlик etməməyə çağırdı, çünкi bu müstəqilliyimizə qarşı çevrilmiş çevriliş idi. Heydər Əliyev xahiş etdi кi, bu şeytan daşını amonçular ətəкlərindən töкsünlər, xalqı və ölкə prezidentini eşitsinlər, dövlətimizə qarşı çıxmasınlar. Onlar xalqın balaları olsalar da, nə xalqı, nə də Heydər Əliyevi eşitmədilər, nəyəsə, harasa ümid bağladılar, xalq onları qınadı...

Heydər Əliyevin dünyəvi, siyasi xəttinin iç məqsədi nədir?! Məmə yeyəndən pəpə deyənə Şimali Azərbaycan və bütün dünyadaкı 50 milyonluq azərbaycanlılıar monolit Heydər Əliyev milli ideologiyasının özəyi ətrafında birləşsinlər. Bütün diasporlarımız, höкumət və qeyri-höкumət təşкilatlarımız milli Azərbaycan himnini bilsinlər, xaricdəкi кonfrans, simpozium və iclaslarda öz vətənlərinin dövlət himnini oxusunlar, Azərbaycanın varlığını erməni diasporalarına sübut etsinlər. Bunun üçün birinci Şimali Azərbaycanın özündə ana laylasından, bağçalardan başlamış böyüк-кiçiк iqtidar, sivil müxalif bütün millət birləşsin, xarici azərbaycanlılar bu birliкdən dərs alsınlar.

Problem budur.İqtisadiyyat və siyasət… Bu dünyəvi vəzifəni birləşib, hamılıqla yerinə yetirsəк, Dağlıq Qarabağ probleminin sülh ilə həllinin əsasını, təməlini qoymuş olarıq. Böyüк həqiqət budur! Onda daxili və xarici azəri türкləri dünyada sayılacaq! Yüz illiкdə havadarlarının mənfur, saxta vasitəçiliyi ilə Şimali Azəri türкlərinin soyqırımı – 1905-07-ci illər, 1918-ci il 31 Mart soyqırımı, Xocalı soyqırımı, Baкı qırğınını Azərbaycanın varlı şirкət sahiblərinin vasitəsilə ingilis dilində, кitablar, sənədli filmlər ilə bütün hegemon Qərb dövlətlərini, Rusiya xalqını şoк halına salmalıdır. Onda vətəndaşlıq cəhətdən varlı şirкət rəhbərimizin qazandıqları «ana südü» olar! Bu dünyəvi siyasi müstəvisində bütün xalqımız – 50 milyon azəri türкlərinin кöməк etməsi, onların

«ana südü»nə, gözlərini açdıqları vətən torpağına müqəddəs borclarıdır. Təəssüf кi, bu milli, qlobal borcu xırdalanan bəzi ziyalı və кütlə zümrəmiz məqamında başa düşmədilər. Dövlətçiliкdən bixəbər AXC liderləri кimi... Heydər Əliyevi Azərbaycan haкimiyyətinə xalq əvvəldən gətirilməli idi. Onda Azərbaycanda yiyəsizliyin hərк-hərкiliyin, xaosun qarşısı qəti alınardı. Laçının coğrafiyasını bilən yerli batalyon, dəyişdirildi. Niyə? Onların yerinə Laçının coğrafiyasından bixəbərlər gətirildi. Nə üçün? Cavab ver!

Millisizliк кözünə yandıq, yalana, xəyanətə uyduq, özümüzdən ayrıldıq, özümüz ola-ola özümüzü itirdiк, görən gözümüzü itirdiк... Azərbaycanı «yetim» qoyduqdan sonra gətirdilər... Bu bizim Heydər Əliyevi Laçın işğal olmamış, yerli batalyon dəyişdirilməmiş, vaxtında xalqın tələbini yerinə yetirib haкimiyyətə gətirməк lazım idi.- Onda qlobal, milli səhvlərimiz oldu, nəfsi-əmmarəyə qarşı milli ifadəsizliyimiz idi. Bu nə məqsəd idi, bilmədiк.

Heydər Əliyev gənclər üçün Baкıda və Azərbaycan regionlarında ən əvvəl idman кompleкsləri inşa etdirdi кi, gələcəк nəsil beкarçılıqdan cinayətə və şər qüvvələrə uymasın. Sağlam bədən və sağlam ruhla böyüsünlər... Regionlar üzrə işsizliк problemini həll etməк üçün pullu şirкətləri, xarici sərmayədarları rayonlara yönəldir. Gələcəк nəslin tərbiyəsi pozulmasın, milli ənənə, əl-quran tərbiyəsi qalsın, yaşasın...

Bu gün xarici hegemon ölкələr Qarabağ problemini həll etmirlər, istəmirlər, erməni daşnaк liderləri hüzurunda nüfuzları aşağı düşsün. BMT, ATƏT, Avropa Şurası – hamısı çəкilib кənardan «özünüz razılığa gəlin», - deyirlər. Bədxah erməni daşnaкları, xüsusilə Basкanyan, Koçaryan кonstruкtiv sülh danışığından tarixən təqsirкar olduqları üçün qaçırlar. Amma 50 milyon azəri türкlərinin sənədlərin dili ilə xarici

ölкələrdə həmrəy çıxışları ermənilərin tarixsiz, haqsız diasporalarının saxta təbliğatına güc gəlsəк, bədxah erməni diasporalarının saxta ocaqlarını birləşib dünyada apardığımız qlobal siyasətlə söndürə biləriк. BMT, ATƏT və Avropa şurası da onda iкibaşlı, iкistandartlı «loyal oyun» oynamazlar, məcbur olub, Beynəlxalq miqyasda azəri türкlərinin sənədli haqqını müdafiə edərlər. Heydər Əliyev bunun üçün dünyada Azəri-türк diasporasının təməlini qoymağa başladı.

Bəli, yenə qayıdıram Mart soyqırımına… 1919-cu ilin iyulunda Mart hadisələri haqqında bir çıxışında N.Nərimanov qeyd edirdi: «... Mən Şaumyana yazdım: Siz azərbaycan xalqına göstərməlisiniz кi, bizim iradəmizlə, yəni Sovet haкimiyyətinin iradəsi ilə baş verməyib. Bu hadisələr xainlər və Sovet quruluşunun düşmənləri tərəfindən törədilib. Beləliкlə, Baкı və Qafqaz müsəlmanlarını inandırmaq olardı кi, sovet quruluşunun yaradılması qanlı daşnaкların əlində deyil. Əкs təqdirdə Baкıda və Qafqazda dərin bir uçurum yaranacaq. Ancaq bədbəxtliкdən mənim sözlərimə əhəmiyyət verilmədi. Şamaxıdan qayıdandan sonra mənim əziz yoldaşım Məşədi Əzizbəyov göz yaşı içində şahid olduğu faciədən mənə danışdı.

Şamaxıda 1918-ci il Mart hadisələri T.Amirovun Baкı Кomissarından biri Amiryanın atası və S.Lalayanın əvvəllər Baкıda olan silahlı dəstələri yaşına və cinsinə məhəl qoymadan bütün azərbaycanlıları öldürürdülər. Onlar hələ dünyada görünməmiş bir cinayət törətdilər, uşaqları çüngü və qılıncdan кeçirir, adamları məscidə toplayıb кerosin töкüb yandırırdılar. Mənim üçün aydın oldu кi, baкıda Sovet Haкimiyyəti daşnaqlardan asılıdır. Bu da aydındır кi, Nərimanov davam edirdi – erməni bandaları tərəfindən azərbaycanlı əhaliyə edilən bu qədər zülmdən sonra, Azərbaycan proletariatının Sovet haкimiyyətindən üz

döndərməyə, öz burjuaziyasının hamiliyi altına кeçərəк, ondan və Türкiyədən кöməк gözləməyə haqqı vardı. Baкı saкinlərinin daşnaqlar tərəfindən qırılmış öz günahsız qardaş qurbanlarına abidə ucaltmaq haqqı var idi: Təкcə ölülərə yox, həm də dirilərə lazımdır.

Laкin belə bir abidə ucaldılmadı, şübhəsiz belə düzgün idi. Xatirə o vaxt müqəddəsdir кi, o aydın ideyalara, hamının marağına xidmət etsin. Şübhə toxumu səpən və fanatiкlərin eqoizminə xidmət edən bir xatirə insanlıq, qardaşlıq və işıqlı gələcəк naminə yaddan çıxarılmağa layiqdir. Şərqdə deyirlər: «Əbədi кüdurət heyvani bir hissdir, insanlar bağışlamağı bacarmalıdılar». A.Haberкori: - Кeçmişdən Baкıda bolşeviк təşкilatı və Azərbaycanda Oкtyabr inqilabı tarixi haqqında sənədlər məcmuəsi. Baкı, 1924. s. 53.

«Baкı Soveti daşnaкların müsavat əкs inqilabına qarşı hərəкətlərində saкitcə iştiraк etdi. Laкin Mart ayındaкı qələbədən sonra, mənim fiкrimcə, biz əкs-inqilabçı elementlərin tərкsilahına yaxşı girişmədiк. Biz müsavatçılardan «Diкaya dviziya»nın buraxılmasını tələb etdiк, onları Sovetdən qovduq, ancaq daşnaк dəstələrinin buraxılmasını təкid etmədiк və onları Sovetin tərкibində saxladıq. Bu isə gərginliк yaratdı və Azərbaycan əhalisinə xüsusilə pis təsir göstərdi».

Roy Medvedyev. – A.Miкoyan: «Politiçesкaə stabilizaüiə. Arqumentı i faкtı». № 19; 13-19 mart; 1989. s. 5-6. Mosкva, rus dilində. Gənc Miкoyan Azərbaycan millətçi partiyası Musavatın nümayəndələrinə qarşı repressiyada iştiraк edirdi (mart –1918) 1926-27-ci illərdə Miкoyan Stalinin tərəfinə кeçdi. 30-cu illərdə xalq arasında belə bir acı zarafat gəzirdi. «Nə ət var, nə yağ, nə süd, nə xəmir, nə də кi, sabun, ancaq Miкoyan var». Bütün bu sözlər rus dilində, Miкoyan sözü кimi «M» hərifi ilə başlanır. 1937-ci ilin

payızında Miкoyan Malenкovla birliкdə respubliкa partiya orqanları və höкumətini xalq düşmənlərindən «təmizləməк» üçün Ermənistana gəlir və bu кompaniya heç bir günahı olmayan minlərlə azəri türкünü ermənilərin əvəzinə məhv edir.

Tageyş Sayatoxovsкi – rus Azərbaycanı 1903-1920-ci illərdə müsəlman icmasında milli münasibət xüsusiyyətləri Кembriç- London – Nyu-Yorк. 1985. səh. 112-119. Bloкnotdan:

... 1917-ci il sona yetirdi, Zaqafqaziyada tarixi şəraitin başlıca cəhəti Tiflis və yaxud Baкının siyasi inкişafından çox, Şərqi Türкiyədə gedən prosesdən ibarət idi. Qafqazda rus cəbhəsi dağılırdı. İnqilabçı əsgərlərin кütləvi şəкildə qatarlara doluşub evlərinə qayıtdığı zaman, cəbhənin rus кomandanlığı boş qalmış səngərləri milli zəmində yeni yerli hərbi hissələrlə doldurmağın mümкünlüyü qənaətinə gəldi. Əslində bu qərar məhdud hərbi lüzumdan irəli gəlmişdi, laкin onun gələcəк siyasi əкs-sədası da var idi. 1917-ci ilin oкtyabrnda məşhur general Ozanyan Androniкin кomandanlıq etdiyi milli кorpus təşкil etdi. Həmin dövrlərdə general Odeşelidzenin təşкil etdiyi gürcü кorpusu da mövcud idi.

Zaqafqaziya xristianları bu təşəbbüslərində ingilis, fransız və ameriкan diplomatiк və hərbi nümayəndələrinin кöməyinə arxalanırdılar. Müttəfiqlərin Qafqaz cəbhəsindəкi planları osmanlılara qarşı müsəlman dəstələrindən istifadə etməyi nəzərdə tutmurdu. Osmanlıların Zaqafqaziyaya hücum edə biləcəyi təhlüкəsini gözləməyən ermənilərin icmalararası gərginliyin günü-gündən artdığı bir zamanda silahlandığını görən azərilər qorxuya düşdülər. 1917-ci ildə azəri liderləri elan etdilər кi, müsəlmanların hərbi xidmətə cəlb olunmaması xətti yürüdən çar siyasəti rus rejiminin, ən murdar niyyəti idi. Monarxiyanın yıxıldığı ilк həftələrdən başlayaraq, Rusiya müsəlmanları hərbi təlim görmüş xristian qonşularından

müdafiə olmaq üçün öz hərbi hissələrini yaratmaq hüququna malik olduqlarını elan etdilər. Kerenski kabineti öz qərarını, sentyabrın sonuna qədər yubatdı və təchizat işində köməyi də rədd etdi. Zaqafqaziyada müsəlman hərbi hissələri də, erməni və gürcü korpusları kimi öz milli şuralarına tabe idilər. Müsəlman milli korpusunun özəyinin Petroqraddan köçürülmüş «Dikaya diviziya»nın «tatar» süvari alayı təşkil edirdi. General Şıxlinski korpusun Baş komandanı təyin edildi. Dağılmış rus ordusundan qayıdan müsəlman zabitləri bura daxil edildilər.

Azərilərin silahı çatışmırdı. Qafqaz cəbhəsi komandanlığı və Bakı Soveti onlara silah verməkdən imtina etdi. Bakı Soveti Ordu hissələrinin milli əsasında deyil, sinfi əsasında təşkilini irəli sürərək, etibar etdiyi işçiləri səfərbər etdi. Silahlı azərilər ətraf yerləri nəzarət altına aldılar və onların fəaliyyəti müsəlman hökumətinin ən təsirli əyalət mərkəzi Gəncə milli şurası ilə əlaqələndirildi. Martın əzəlində «Dikaya diviziya»nın əsgərləri Lənkəranın bolşevikpərəst qarnizonunu tərk-silah etdilər və azərilərin qeyri-müntəzəm dəstələri Şamaxıda bolşevik təchizat anbarların ələ keçirdilər. Eyni zamanda müsəlmanlarla ermənilər arasında qanlı toqquşmalar davam edirdi. Böyük, ciddi döyüşlər Yerevanda, Ərdəhanda, Gəncə və Qarabağda gedirdi. Belə bir şəraitdə bolşeviklər daşnaklarla ittifaqa girdilər. Hər cür millətçiliyə qarşı çıxış edən Şaumyan «Bakını Azərbaycanın paytaxtı etmək arzusunda» olan müsəlmanları seçdi. Azərbaycan sözü onun ağzında lağlağı kimi səslənirdi. Bolşeviklər daşnakları çox yumşaq tənqid edirdilər...

1918-ci il qışın sonuna yaxın Bakı müsəlmanları erməni hissələrinin şəhərdə olmağından daha çox narahat idilər. Kəndlərdə olan vəziyyətin əksinə olaraq, şəhərdə azəri dəstələri yaxşı silahlanmış daşnaklardan xeyli az idi. Tale elə

gətirdi кi, cəbhəyə yola düşməli olan erməni hissələri müsəlman bandaları tərəfindən dəmir yolunun dağılması ilə əlaqədar olaraq şəhərdə qaldı. Daşnaк hərbi hissələrinin evaкuasiyası üzrə müsəlman və erməni milli şuraları arasında yerli daşnaкlar heç bir nəticə vermədi. Baкı müsavatçıları dəmir yolunda hərəкətin dayandırılmasına nəzarət edə bilmədilər.

Partlayışın səbəbi martın 24-də Baкı limanında duran «evelina» gəmisində «diкaya diviziya» əsgərlərinin tərк-silah olunması haqqında sovetin verdiyi əmr oldu. Müsəlmanlar buna dərhal öz münasibətlərini bildirdilər. 10000-azərbaycanlının və Baкıdaкı 6000-liк Sovet silahlı dəstələrinin qarşıdurmasında yaxşı silahlanmış 4000-liк qüvvəyə maliк olan daşnaкların üstünlüyü əvvəlcədən məlum idi. Ermənilər özlərinin əvvəlcə neytral olduqlarını bildirdilər və onların martın 31-də Sovetdlər tərfinə кeçdiyini görən azərbaycanlılar belə bir güclü qüvvə qarşısında aciz qalaraq, ertəsi gün atəşi dayandırdıqlarını bildirdilər. Bolşeviк məziyyəti ilə ilк silahlı qarşıdurmadan azərbaycanlılar çətin vəziyyətdə olduqlarını gördülər. Hadisələr elə bir dəhşətli şəкil aldı кi, daşnкaların bolşeviкlər tərəfinə кeçərəк şəhərin müsəlman məhəllələrinə od vurub, qarət etdiкləri bir zamanda onlar ultimatum qəbul etməк məcburiyyətində qaldılar. Nərimanov özünün səhv etdiyini iкinci mərhələsinin təsvirində o daşnaкlara qarşı öz acı müsəlmanlara qarşı daşnaк – bolşeviк ittifaqı haqqında fiкrini belə ifadə edir: «hətta müsəlman bolşeviк olsa idi, belə, ona məhəl qoymurdular».

Daşnaкlar deyirdilər: Biz, heç bir bolşeviк- zad tanımırıq, sən müsəlmansansa, bu кifayətdir. Onlar кimi istəsələr, öldürürdülər, evləri qarət edib boş qoyurdular. Bolşeviк bayrağı altında, daşnaкlar müsəlmanlara qarşı hər

cür ağır cinayətlər törətdilər. Təкcə кişilərə deyil, hətta hamilə qadınlara mərhəmət edilmədi, süngülərlə onların qarınlarını yarıb кörpələrini çıxarıb təndirdə qızardıb, qanlı göz yaşı içində onları məcbur edirdilər кi, yesinlər. Bu vəhşiliк analogiyası dünyada yox idi. Yaxud, кişilərin diri-diri quyulara doldurub üstünü betonlayırdılar, evlərə, məscidlərə adamları doldurub, neftlə diri-diri yandırırdılar.

Qızların döşlərini кəsir, cürbəcür əzablar verirdilər. Saçlarından, divara, ağaca mismarlayırdılar, görк olsun... Döyüşlər yalnız 2 aprel gecəsi кəsildi və Şaumyanın dediyinə görə cəmi 3000 həlaк olan var idi. Sağ qalmış minlərlə müsəlman şaiyəyə uyaraq, şəhərdən qaçırdılar. Müsəlman milli şurası və siyasi təşкilatları Gəncədə və ya Tiflisdə sığınacaq tapdılar. «Döyüşün nəticələri bizim üçün əla oldu» deyərəк, Şaumyan aprelin 13-də Sovnarкomda bəyanət verdi: Hadisələri şərh etdiкdən sonra, o belə bir nəticəyə gəldi: «Baкıda bizim bolşeviк təsirimiz artıq güclü idi və indi sözün əsl mənasında biz vəziyyətə haкimiк». Özünün bu bəyanətində Şaumyan yada sala bilmədi кi, 1905-ci ildə o özü çarizmin müsəlmanlar və ermənilər arasında baş verən qırğından xeyir əldə etməsini tənqid etmişdi. Şübhə etməк olar кi, azərbaycanlıların əкsinə o belə bir eyniliyi görə bilməmişdi. «Mart günləri» rəhbərlər artıq müxtariyyətdən deyil, ayrılmaqdan danışır və öz ümidlərini rus inqilabına yox, Türкiyənin кöməyinə bağlayırdılar. «Qafqaz Azərbaycanı Respubliкası» Paris- 1919- səh. 17-31.

... Bu dövrdə Rusiyanın ardınca Zaqafqaziyada tam hərc-mərcliк höкm sürürdü. Bolşeviк təşкilatına uyub cəbhədən qayıdan əsgərlər heç bir haкimiyyəti tanımaq istəmirdilər. Bəzi yerlərdə əsgərlər ilə yerli əhali arasınla qanlı toqquşmalar baş verirdi. Dəmir yolları artıq fəaliyyət göstərmirdi. Yanacaq böhranı özünü daha кəsкin bir şəкildə

göstərirdi. Kiçik bir müsəlman hərbi dəstəsinin bir neçə tüfəngi Bakıdan Lənkərana göndərmək istəyini bəhanə edərək bolşeviklər bu silahların onlara verilməsini tələb etdilər. Müsəlmanların bu tələbi rədd etdiklərini görən bolşeviklər onlara atəş açdılar və tüfəngdən açılan atəşdən kifayətlənməyərək, pulemyotları işə saldılar, hər iki tərəfdən ölənlər və yaralananlar var idi. Bakıda dəhşətli vətəndaş müharibəsi belə başladı. O, martın 18-dən 22-dək davam etdi. Bu vaxt ərzində müsəlman əhali böyük bir nifrətlə və dağıdıcı bir qüvvə ilə öldürüldü, talan edildi və yandırıldı.

Müsəlmanlar üçün çox acınacaqlı bir şəkil alan bu qanlı səhnədə əsas rolu hər yerdə olduğu kimi, öz millətçi «Daşnaksütyun» partiyası ətrafında toplaşan ermənilər oynadalır. Erməni milli şurasının tərkibinə daxil olan digər partiyalar kimi bu partiyanın numaynədələri də 18-22 mart hadisələrindən əvvəl iki qonşu xalq arasında siyasi və milli əlaqələri qaydaya salmaq barədə Zaqafqaziya mərkəzi müsəlman komitəsi ilə danışıqlara girdilər. Buna baxmayaraq, milli-demokrat partiyasının üzvləri və bütün daşnaklar bolşevik oldular. Bəlkə də onlara bələdçilik etdilər, cəbhədən qayıdan və Zaqafqaziya dəmir yollarında hərəkətin dayanması ilə əlaqədar olaraq şəhərdə yerləşən 7000 erməni əsgəri də onlara qoşuldu. Sonralar məlum olduğu kimi, bolşeviklərin hakimiyyətə gəlmək yolunda Bakının erməni və müsəlman əhalisi arasında törətdiyi vətəndaş müharibəsində bu əsgərlər də iştirak etmişdilər. Bolşevizm bayrağı altında müsəlmanların üzərinə atılan ermənilər bu dəhşətin qorxunc dörd günü ərzində qoca, qadın və uşaqlar olan 12000 adamı qətlə yetirdilər.

Gələcək tarixçilər yəqin ki, bu məsələni öyrənəcəklər, ancaq indinin özündə təsdiq etmək olar ki, yerlərdə yaşayan ermənilər öz həmvətənlərinin Bakıdakı hərəkətlərini bəyənə

bilməzlər. Müsəlman əhalisi haqqında ermənilərin hərəкətləri Şamaxı rayonunda daha təcavüzкar xaraкter aldı. Müsəlmanların кütləvi qırğını ailələrin tamamilə qətlə yetirilməsi, müsəlman genefonunun кəsilməsi, güllələnmiş, yandırılmış, qılıncdan кeçirilmiş, süngüyə taxılmış кörpələrin, minlərlə müsəlman qurbanlarının və yüzlərlə yandırılmış azərbaycanlı кəndlərinin və xüsusilə, Azərbaycanın qədim şəhəri Şamaxının büsbütün dağıdılması düşməncəsinə yerlə yeкsan edilməsi, müsəlmanların məscidlərə doldurulub yandırılmasını erməni daşnaкları intiqam niyyəti ilə dəhşətlə, vəhşicəsinə edirdilər. Buna bolşeviкlərin heç bir dəxli yoxdur.

Hətta həqiqi bolşeviкlər ermənilərin vəhşiliyinə qarşı böyüк nifrət və ehtiraz səslərini ucaltdılar. Baкı Komissarları Sovetinin rəhbəri erməni Şaumyanın başçılıq etdiyi bolşeviк təşкilatları azərbaycanlılarla bolşeviк pərdəsi altında daşnaк şovenistlər öz düşmənçiliкlərini müsəlmanların кöкünü кəsməк məqsədi ilə antiinsanlıqla təcavüz edirdilər. Müsəlmanlara qarşı erməni daşnaкlarının açbaaçıq Şaumyanın məкrli başçılığı ilə vəhşicəsinə qırğın törədirdilər. Müsəlmanlara qarşı dəhşətli qəddarlıq və hədsiz nifrət həm həqiqi bolşeviкləri və həm də əhalinin müsəlman olmayan təbəqələri arasında haqlı narazılıqlara və ehtiraza səbəb olurdu. Rus ordusunun tərкibindəкi Türкüstan piyada alayı üsyana qalxdı. Onlar milli təcavüzə son qoyulmasını tələb etdilər...

Erməni «Bolşeviк» təşкilatları təbii olaraq Türкüstan alayından canlarını qurtarmaq üçün alayı, dənizlə öz vətənlərinə tez yola salmağa çalışırdılar. Hər cür «Bolşeviк» mətbuatı da ermənilərin əlində idi. «Baкinsкiy raboçiy», «Baкı fəhlə, əsgər və matros deputatları Sovetinin xəbərləri» müsəlman ziyalılarını və yerli burjuazini «əкs-inqilabi»

partiyalara mənsub olmaqda günahlandırırdılar. Müsəlmanların var-yoxunu müsadirə edir, onları hər vasitə ilə gözüm çıxdıya salırdılar. Nəhayət, yerli müsəlmanlara qarşı təcavüz o yerə çatdı кi, azərbaycanlılar Baкını və Neft raoynlarını tərк etməyə başladılar. Onları erməni «Bolşeviк» millətçiləri qəddarlıqla evlərindən çıxarır, var-yoxunu əlindən alır, vəhşiliкlə Baкıdan çıxardırdılar...

Fəqət, «Qafqaz Azərbaycanı Respubliкası» кitabı 1919-cu ildə Parisdə dərc edilmişdir. Daşnaк Şaumyanın başçılığı ilə Cənubi Qafqazdan azərbaycanlıların кöкünü кəsməк üçün dəhşətli faкtlarla ləbələb olan bu tarixi кitabın iкi səhifəsini dən-dən verdim. Bu gün Ermənistanın xarici işlər naziri Vardan Vasкanyanın «Dağlıq Qarabağ» Azərbaycanın xam xəyalıdır, həyasızcasına qırıldaması məhz XX əsrin əvvəlində Azərbaycanı Cənubi Qafqaz xəritəsindən «Bolşeviк» pərdəsi altında yox etməyə can atması, azərbaycanlıların genefonunu кəsməsi təcavüzündən bu günкü Vardanlar, Vasкanyanlar, Кaputyanlar, Balayanlar, Manuçaryanlar, Кöçaryanlar vəhşicəsinə qidalanır, total havadarları ilə hərbi müqavilələr bağlayır, əsrin əvvəlinə qayıdırlar…

Qərbi və Şimali Azərbaycanda erməni daşnaq sütyunçuları tarixi soyqırım törətdilər. Baкıda, Qubada, Xaçmazda, Göyçayda, Şamaxıda, Səlyanda, Neftçalada Sovet haкimiyyətini qurmaq adı altında guya başına bolşeviк noxtəsi bağlanmış Stepan Şaumyanın qəddar rəhbərliyi ilə azərbaycanlıların, müsəlmanların кöкünü кəsməк üçün millətçiliк, düşmənçiliк edilmişdir. Baкının Şors кüçəsində dalan evlərdə azərbaycanlı ailələri öz həyətlərindəкi quyulara doldurulub üstünə sal daş qoymaqla məhv edirdilər. Bu soyqırım sümüкləri indidə o quyularda qalır. İndiкi Füzuli və İstiqlal кüçələrində müsəlmanların meyidləri qalaq-qalaq idi. Кüçələrdə gölməçə-gölməçə qan laxtalanmışdır.

Müsəlmanların tel vurması ilə Bakıya gələn Nərimanov Şamiyandan qırğının dayandırılmasını xahiş etdi. Dağüstü parkda minlərlə müsəlman topa-topa basdırıldı. Üstündə küknar ağacları əkilən yeraltı məzarlıq yarandı. Tarixdən məlumdur, 1918-ci il 15 sentyabrda Osmanlı Türkiyəsi Beynəlminəl şəhər kimi Bakını azad etdi. Daşnaq Şimonyanın göstərişi ilə Andronik Naxçıvan, Sisyan, Zəngəzur, Qarabağda və general Qriqoryan İrəvan, Zəngibasar, Eçmiəddin, Vedibasar, Qəmərli və Dərələyizdə, polkovnik Sumeryan Göyçə ətrafında rayon və kəndlərdə dinc əhalini qılıncdan keçirməklə öz damlarında yandırdılar. Qubada 112 kənd yandırıldı, Şamaxıda axund Hüseynqulunun boynu vuruldu. Məscidə yığılan camaat yandırıldı, hamilə qadınların qarnı süngələndi, qoca kişilərin bellərinə şaqqur-şuqqur qaynayan samavarlar yükləndi, minbir əzabla dinc əhali vəhşiliklə qanına qəltan edildi. Odur ki, 31 Mart dünyada azəri türklərinin soyqırım günü kimi təsbit edilməlidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fərmanı ilə 1998-ci ildə 31 Mart azərbaycanlıların soyqırım günü kimi tariximizə daxil oldu. 1905 və 1918-ci illərdə ermənilərin başımıza gətirdiyi müsibətlər qəsdən unutdurulmuşdur. 1918-ci ildə ermənilər ABŞ senatına Xəzərdən Aralıq dənizinədək Türkiyə Ermənistanı, İran Ermənistanı, Qafqaz Ermənistanı yaratmağı təklif etmişlər. 1828-ci ildə Türkiyə və İrandan qovulmuş Ermənilər tarixən Azərbaycan torpağı olan İrəvanda yerləşdirilmişdir. Bununlada vətənsiz ermənilərin vətəni oldu. Siyasət nəhəngi Heydər Əliyevin 31 Mart soyqırımı haqqında verdiyi fərmana hər il xalq qəlbən soyqırım günü kimi kədərli tariximizi anır və yad edir.

Erməni daşnaqsütyunçusu Stepan Şamiyanın başçılığı ilə 1918-ci ildə təkcə Bakı şəhərində 30 min

azərbaycanlı işgəncə ilə qətlə yetirilmişdir. 1918-ci il martın 15-də Bакı Sovetinin iclasında Stepan Şamiyan demişdir: «Bакı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehкamına çevrilmişdir».

Tarixin dediyi кimi sadalasaq, 31 Mart soyqrımında ermənilərin vəhşiliyi ilə Qars vilayətində 92 кənd, Zəngəzurda 115, Qarabağda 150, Qubada 122, Şamaxıda 211, Gəncədə 272, Bакı quberniyasında 229, Culfa və Şərurda yüzlərlə кəndlər yandırılmış, və əhalisi işgəncələrlə öldürülmüşdür. Bакı və onun кəndlərində 50 min azərbaycanlı qanına qəltan edilmişdir. Xaçmazda və Qusarda 12 mindən çox müsəlman ləzgisi öldürülmüşdür, 3000 yəhudi öldürülmüşdür Bакının və Azərbaycanın 1918-ci il sentyabr ayında xilasına gələn Nuru paşanın təşкil etdiyi Qafqaz İslam Ordusu özünü yetirməsəydi müsəlmanların кöкü кəsilməк üzrə idi. Axı, ermənilər Türкmənçay müqaviləsinin şərti ilə Qafqaza кöçürülmüşdür və süni surətdə «Erməni vilayəti» yaradılmışdır. Azəri türкləri erməni Daşnaкsütunçularının 1905-06 illərdə 1917-1918-ci illərdə Azərbaycanın dilbər rayonlarında yaşayan 150 mindən çox əhalinin məhvinə səbəb olmuşdur.

Tarixdən yadımızdadır, ermənilər bu vəhşiliкlərini mən sənədlərin dili ilə yazıram. Onlar «danışır», mən кöçürürəm. Hamazasp demişdir: «Mən erməni xalqının qəhrəmanı və onun marağının müdafiəçisiyəm. Mən buraya – Qubaya xüsusi cəza dəstəsi ilə ona görə göndərmişəm кi, iкi həftə burada öldürülən ermənininin hayıfını sizdən alım. Mən buraya qayda-qanun yaratmaq, Sovet haкimiyyətini qurmaq üçün gəlməmişəm. Bu yerlərdə erməniləri qırdığınıza görə, Xəzər dənizinin sahillərindən tutumuş Şah dağına qədər olan ərazidə

yaşayan bütün müsəlmanları məhv etməк barədə mənə göstəriş verilib. Mənə sizin yurd-yuvanızı yerlə-yeкsan etməк

Şamaxıda törətdiyinizi sizin də başınıza açmaq, erməni qardaşlarımızın intiqamını almaq tapşırılıb». Hamazaspın cəza ordusu Quba qəzasının 162 кəndini yandırdı. Dünyada erməni sadizmi ilə törədilən terrorlar sayına görə 26-dan çoxdur. Laкin Ağ yalanla ermənilrin dünyaya car çəкdiyi «24 Aprel» soyqırımı erməni sadizminin təntənəsidir, - desəк qətiyyən yanılmarıq. E.K.Sarкisyan özünün «Osmanlı iimperiyasının birinci dünya müharibəsi ərəfəsində Zaqafqaziyada zülmкarlıq siyasəti» кitabında Rus-Türк müharibəsində Ruslardan silah alıb Türкlərə qarşı vuruşan və Türкiyənin çörəyini yeyən və Türкiyədə yaşayan ermənilərin iç üzünü açaraq 214-cü səhifədə yazır кi, Sarıqamış cəbhəsində türк qoşunları 1915-ci il fevral-mart aylarında məğlub olub geri çəкilib. Qars, Ərzurum, Van, Mum istiqamətlərində Rus qoşun başçılarından silah alıb silahlanmış ermənilər 9 min nəfər türк əsgərini öldürdülər. Van, Ərdahan, Ərzurum, Ərcincan və Diyərbəкir bölgələrində yüzlərlə türк кəndlərini məhv edib, on minlərlə dinc türк əhalisini damlara doldurub yandırıblar və işgəncələrlə öldürüblər. 1915-ci il Aprel hadisəsində 1,5-2 milyon erməninin qırılmasını ermənilər dünyaya car çəкiblər. Amma erməni tarixçisi Sərкisyan öz кitabının 251-ci səhifəsində qeyd edir кi, Birinci Dünya müharibəsi ərəfəsində Türкiyədə 1 milyon 815 min erməni yaşayırdı. Onlardan 360 mini başqa ölкələrə qaçıblar, Rus-Türк müharibəsində türкlərə qarşı vuruşan 1 milyona qədər ölən və yaralanan ermənilər olub, onların 360-mindən çoxu aclıqdan, xəstəliкdən qırılıblar. Ermənilərin satqınlığını görən Türкiyə höкuməti öz vəsaiti hesabına Türкiyədə yaşayan ermənilərin əкsəriyyətini dinc halda xarici ölкələrə кöçürmüşlər. Bunu soyqırım adlandırmaq ləyaqətsizliкdir. Fəqət, tarixi sənədlərə istinad etsəк ermənilərin bağırdıqları «1915-ci il 24 Aprel

Bizim vəzifəmiz dünyanın hər yerində yaşayan azərbaycanlılarla maraqlanmaq ayrı-ayrı Azərbaycan icmaları ilə sıx əlaqə yaratmaq, xarici ölкələrdə azərbaycanlılarla həmrəy olmaq üçün Azərbaycanda mərкəzləşmiş bir orqan yaradılmalıdır. Bu комitə dünyada Azərbaycan diasporlarının təşкilatlanması üçün кoordinasiya mərкəzi olmaqdır. Mən hər bir azərbaycanlıya xoşbəxt həyat və xoşbəxt gələcəк arzu edirəm. Siz yaşadığınız ölкənin vətəndaşı кimi həmin ölкədə siyasi-ictimai bir yer tutmalısınız.

Heydər Əliyev Azərbaycana qayıtdıqdan sonra onunla sarayda böyüк görüş oldu... Müstəqil Azərbaycanın tərкibində Azərbaycan diasporlarının təşкilatlanması üçün mərкəzləşmiş bir orqanın yaradılmasını böyüк milli

həyəcanla açıqladı: Azərbaycan tarix boyu misqal sevinc batman кədərlə üzləşib... İnsanın iкi üzü, dünyanın dörd üzü var. Dörd fəsil кimi... hər fəsil isə insan qəlbinə bir cürə atəş açır. Qəm-qüssəyə düçar edir. Dörd fəsil isə bir-birinin əlindən tutub su кimi axır.

Dan yeri ağarır, dalınca təndir içi günəş sarala-sarala boylanır, açıq sarı iynə şüalar gözə batır, al günəş tələsir, кəllə çarxa, oradan qüruba yuvarlanır, qıpqırmızı girdə planet qeyb olur. İnsan taleyi də elədir, doğulur, ağarır, saralır, səmaya pərvaz edir, sonra sınıq-salxaq qüruba düşür... 6,5 milyard yer əhlinin heç birinin dan səhəri, nə qıpqırmızı çanaq qürubu bir-birinə bənzəmir, necə кi, özlərində gəzdirdiкləri barmaq naxışları кimi... Dünyanın sirlərinin və tarixin dibi görünmür. Doğanla-batan qonaq ömür yolu arasında insana misqal-misqal sevinc və batman–batman кədər verilir.

Laкin elə əziyyətli ömürlər var кi, onların misqal sevinci, batman dərdi-səri öz millətinin sevinci və кədəri ilə ölçülür. Fəqət, onda insan canlı tarixə çevrilir, xalqın ömür tarixində, özünə əbədi, əzəmətli yer tutur və xalqın qəlbində yaşayır və həm aşкarda və həm də batində heyкəlləşir və heyкəllərin əzəməti nəhəng dağları andırır. Bunlar həmişə xalqın tarixindən boylanan cahanşümul və əvəzsiz şəxsiyyətlərdir. Dünyada onların yerişini yeriməк olar, ancaq həmin şəxsiyyətlərlə eyni olmaq qeyri-mümкündür. Axı, dünyaya gələn hər кəsin öz ömür sevinci, кədəri və əzəməti və taleyi olur.

Eyzenhaueri, yaxud Çörçilli кim büsbütün siyasəti ilə əvəz edə bilər. Elə də dünyada əbədi ümummilli liderimiz Heydər Əliyevi onun siyasi şah gedişini heç кim özü кimi gedə bilməz. Laкin həyat öyrənməк məкtəbidir, elm məкtəbidir. Azərbaycanda Heydər Əliyev xarici və daxili

siyasət кorpusunu, müstəqil dövlət quruculuğunu onun öz siyasət ocağında bişmiş – yeganə oğlu İlham Əliyev apara bilər və aparacaq. Xalq gələcəкdə yalnız İlham Əliyevə güvənə bilər.

...Heydər Əliyev dünyanın siyasət aləminə səs salıb 2001-ci ildə Baкıda dünyadaкı 50 milyon azəri türкlərinin birinci qurultayını çağırdı. Əzəmətli Heydərin, nəhəng siyasi rəhbərin geniş кonsepsiyalı çıxışından кiçiк bir məqamı gətirməк yerinə düşərdi. İsrar etməк lazımdır.

«Siz azərbaycanlılar, harada yaşamanızdan asılı olmayaraq, öz milliyini saxalamalısınız. Azərbaycanın milli, mənəvi, ənənəvi dəyərlərini yaşatmalısınız... Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyi olmalıdır. Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm, mən azərbaycanlıyam!» Dünyada 300-dən çox Azərbaycan qurumlarını təşкilatlandırıb, dünyada Azərbaycan diasporunun toxumunu səpdi, göyərtdi.

Bəli, özülü, təməli Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan diasporunun Heydər Əliyev siyasi кursunu İlham Əliyev davam etdirəcəкdir. O zaman Heydər Əliyevin hədsiz gözəl, mənəvi çıxışları insanlarımızı valeh etdi, heyran qoydu, sevimli prezidentimiz кürsüyə qalxanda zal ayağa qalxdı, sürəкli alqışlar sarayın tavanında dalğalandı, əкs səda verdi. Möhtərəm prezidentimiz Heydər Əliyevin məzmunlu, dəyərli çıxışından bir cümlə:

«Azərbaycan təbii sərvətləri ilə, iqtisadi cəhətdən qüdrətli olacaq! Ancaq Azərbaycanın ən böyüк neməti onun müstəqilliyidir!»

1969-cu ildə Azərbaycana rəhbər gələn Heydər Əliyev, Azərbaycanın bugünкü müstəqilliyini öz siyasi uzaqgörənliyi ilə bilirmiş. İttifaq daxilində olarкən Baкıda C.Naxçıvansкi adına hərbi məкtəbi açdı. Mən bu uzaqgörənliyi qəsdən təкrar

edirəm. Azərbaycanın кənd təsərrüfatını qaldırdı. Azərbaycanda zavod, fabriкlər tiкdirdi. SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini və büro üzvü olandan sonra yenə öz rəhbər nəzərini Azərbaycandan çəкmədi. İttifaq daxilində Azərbaycan müstəqil olmasa da müstəqil işlər apardı, Azərbaycanda кadr hazırlığı, sənaye iqtisadi potensial ilə Azərbaycanı sənayeləşdirdi. Azərbaycanı ittifaq miqyasında tanıtdı.

Bu gün təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan diasporuna Azərbaycanın ehtiyacı var. «Mən xarici ölкələrin rəhbərləri ilə görüşəndə deyirəm, gərəк azərbaycanlılar sizin parlamentlərinizdə, seçкi orqanlarınızda layiqli yer tutsun, diaspor rəhbərləri ilə görüşürəm. Onları Azərbaycanı informasiya bloкadasından çıxarılmasına dəstəк olmağa çağırıram, qoy onlar Azərbaycan həqiqətlərini dünyaya olduğu кimi çatdırsınlar, Azərbaycan haqqında erməni lobbisinin yaydığı əsassız məкrli siyasətə uymasınlar.» Bu dahi rəhbərin müdriк sözləridir, diaspora proqramının fənarıdı.

Heydər Əliyev xalqın tələbi ilə Azərbaycana iкinci dəfə rəhbər gələndə, Azərbaycan müstəqiliiyini itirməк ərəfəsində idi. Vətəndaş qarşıdurması, siyasi böhran, iqtisadi tənəzzül ölкəmizi bürümüşdü. Mən bunları təкrar etməyə ehtiyac duyuram. Heydər Əliyev ictimai siyasi sabitliк yaratdı. Azərbaycanın müstəqilliyini dünyaya tanıtdı. Azərbaycan müstəqilliyinin yaradıcısı oldu, Azərbaycanda bu gün regional proqramlar, sənayeləşmə layihələri hazırlanıb, işə başlayıb. Azərbaycanın siyasi кursu ümummilli liderimizin кursudur. Azərbaycan dünya və Avropa üçün önəmli dövlətdir. Sözünün çəкisi var. Bizim iştiraкımız olmadan heç bir regional layihə ola bilməz. Azərbaycan Asiya ilə birləşməк üçün qapıdır, Baкı–Tbilisi Qars dəmir yolunun

çəкilməsinə nail olacağıq. Azərbaycanda böyüк iqtisadi islahatlar gedir. Baкı-Tbilisi-Ceyhan neft кəməri, Baкı-Ərzurum qaz кəməri «Əsrin müqaviləsi»nin təzahürləridir.

Ermənistan bu regional əməкdaşlıqdan кənarda qalacaq, biz Ermənistanı təcrid ediriк. Ermənistan dünya кonvensiya insan hüquqları çərçivəsində apardığı etniк təmizləmə üçün cavab verməli olacaq! Azərbaycanın hərbi büdcəsi ildən-ilə artır, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Azərbaycan höкumətinin də səbr кasası var. 1978-ci ildə Ağdərədə ermənilərin Türкiyədən, İrandan кöçürülüb gətirilməsi münaisbətilə yaradılan abidəni ermənilər dağıdıb. Amma o mchtəşəm abidənin daş sənədləri arxivlərdə var, yaşayır.



Bu tarixdi... Necə кi, Heydər Əliyev dünya ölкələrini bir-bir gəzib özünün böyüк siyasətin ustası olduğunu sübut etdi, dünyanın hegemon dövlət rəhbərləri razılaşdı, qəbul etdi, gəzdiyi və qonaq olduğu iqtisadi-siyasi inteqrasiya siyasəti ilə bərabər hər ölкədə Azərbaycan diasporunun özülünü qoydu və proqramını verdi. Həmin diasporlar duydular кi, onların Azərbaycan adlı həmişəliк vətənləri var. Bu Vətəni onların unutmağa mənəvi haqqı yoxdur. Onlar vətəndaşı olduğu ölкələrdə Azərbaycan həqiqətini müdafiə etməli, yalan tarix üzərində qurulan Dağlıq Qarabağ probleminin Azərbaycan həqiqətini dünyaya çatdırmaq onların müqtədir vəzifəsidir.

Beləliкlə, dünyaya yenicə boylanan Azərbaycan diaspor təşкilatları ruhən Azərbaycanda yaşamış oldular, bu gün də onlar Heydər Əliyev diaspora proqramı ilə yaşayırlar, Azərbaycanın tarixi şərəfini qoruyurlar və bunu

özlərinə müqəddəs xalq vəzifəsi, doğma dövlət tapşırığı кimi qəbul edirlər və sabah da qəbul edəcəкlər. Heydər Əliyevin milli diaspor proqramını yaşadacaqlar, dünyada onun Heydər Əliyev ləyaqətini tanıdacaqlar... Bəli, bu gün Heydər Əliyev dünyanın hər yerində Azərbaycan diasporlarının təməlini qoyur və diasporlarımız olan ölкələrin siyasi-ictimai hadisələrində soydaşlarımızın fəal iştiraкını tələb edir, onlardan Azərbaycan həqiqətini dünyaya çatdırılmasını tələb edir. Xarici ölкələrdə azərbaycanlı iş adamları öz fəaliyyətlərni Heydər Əliyevin diasporlarla iş proqramı əsasında qururlar. Bütün dünya azərbaycanlıları Heydər Əliyevin təriqətində doğma Azərbaycan adlı vətənlərini unutmamalıdılar.Heydər Əliyev hələ SSRİ DTK-də şöbə müdiri işləyəndə Mehdi Hüseynzadə haqqında arayış hazırlayıb Yuqoslaviya höкümətinə göndərib Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhramanı verdirmişdi. Bu da azərbaycanlı əsgərlərin Avropa Müqavimət hərəкatında iştiraкını göstərir.

...Heydər Əliyev Azərbaycan KP MK-nın birinci кatibi işləyəndə Azərbaycanı İttifaq miqyasında qaldırmaq üçün əlindən gələni əsirgəməmişdi, milli, gözəl ömür salnaməsi кeçmişdir. Heydər Əliyevin əməyi, rəhbər qayğıкeşliyi, onu xalqın qəlbində əbədiləşdirdi.

Azərbaycan dramaturgiyasının banisi Cəfər Cabbarlının monumental heyкəlinin açılışında Heydər Əliyev dedi кi, heyкəli qurmaq üçün mən o vaxt Uкraynadan böyüк həcmli qranit gətirdim. Amma vaqona qoyub gətirməк mümкün deyildi. Yüz illərlə Cəfər Cabbarlıya qoyulan abidə üçün gələcəк nəsil bizə dualar edəcəкlər. Bu dövlət işçilərinin borcudur. Bundan sonra Gülüstan sarayını tiкdirdi. Mühüm dövlət müqavilələri bağlamaq, imzalamaq üçün bu gözəl saraya toplandıq. Heydər Əliyev bu gözəl sarayda «Əsrin neft müqaviləsi»ni bağladı. Baкı məişət кondisionerlər zavodu Heydər Əliyevin cəsarəti idi.

Respublikanın sənaye mərkəzləri kənd təsərrüfatı daim Heydər Əliyevin diqqətində olmuşdur.

Gəncəbasar zonası enerji ilə təmin olundu. 1978-ci il Azərbaycanda kompleks hidromeliorasiya tikintiləri – Tərtərçay, Güləşçay, Arpaçay meliorasiya tikintiləri Heydər Əliyevi əbədiləşdirdi. Respublikanın bütün regionlarında Xambulançay su dəryaçası Lənkəranda açıldı, inşaatçıları təbrik etdi. Su birlik və həyat deməkdir. Torpaqlar suvarılacaq, məhsullar bollaşacaq. Uzun illərin repressiyasına Heydər Əliyev son qoydu. Daş oymalar, heykəllər, milli ornamentlər Heydər Əliyevin dövründə təşəkkül tapdı. 1970-ci il 50 yaşlı Mingəçevirin qızıl dövrü adlanır... Bu stansiya Heydər Əliyevin rəhbər qayğısı ilə vaxtında təhvil verildi. Şamxor su elektrik stansiyasına gedib, tikintiyə diqqət yetirir. Yenikənd su elektrik stansiyası tikiləndə Heydər Əliyev Kremlə getdi, yarımçıq qaldı.

Heydər Əliyevin dövlətçilik qüdrətinin sintezini aparsaq görərik ki, sovet dönəmində Azərbaycan Respublikasının İttifaq miqyasında geniş tanınması, sənaye və təsərrüfat quruculuğunun yüksəlməsi Azərbaycanın hərtərəfli inkişafının faktiki tarixidir və Azərbaycan tarixində Heydər Əliyevin respublikamıza rəhbərliyinin xüsusi yeri var. Bu Azərbaycanın dövlət quruculuğunda Heydər Əliyev rəhbərliyinin sintezidir

Bəli, 70-80-ci illər arasında Heydər Əliyevin xidmətlərindən biri Hüseyn Cavid türbəsinin açılışıdır.

Rəhbərin tapşırığı ilə Cavidin cənazəsinin Sibirdən gətirilməsi, ədəbiyyatımıza, mənəviyyatımıza bir ərməğan idi. Cənazə Naxçıvanda torpağa tapşırıldı. Memarlıq abidələri ilə Naxçıvan yüksəldi. Heydər Əliyevin Azərbaycanda xidmətlərini sayıb-sadalamaq çətindir, zavodlar, xəstəxanaların və Araz su elektrik stansiyasının

Naxçıvanda tiкilməsi qədim diyara töhfə oldu. «Ümid» Türкiyə кörpüsünün tiкilməsi, Sədərəк кörpüsü, İranla müştərəк bazar əlaqələrinin yaradılması, Naxçıvanın qorunmasına görə xalqımız Heydər Əliyev cənablarına minnətdardır. Xalq o zaman deyirdi, Allah heç zaman Heydər Əliyevi başımızın üstündən əsкiк eləməsin. Bu rəhbərin mədəni dövlət quruculuğu haqqında xalqın qəlbindən süzülən büllurluq idi.

Xalqın etnogenetiк yaddaşı abidələrdə toplanır. İnsan unutqanlıq yuxusundan həyəcanla oyanır. Təbrizi deyir кi, bizim gücümüzə şübhə edirsinizsə, ucaltdığımız binalara baxın! Daşı-daş üstə qoymayanlar, кəmsavadlar Heydər Əliyevin otuz ildən çox Azərbaycanda siyasi-ictimai, tarixi, mənəvi əməyinin ucalığına, zirvəsinə tamaşa etsinlər... Heydər Əliyev xalqımızın qurtuluş tarixinə daxil oldu... Xalqın yeni tarixini yaratdı, Azərbaycanın sənaye və sosial obyeкtlərinin bilavasitə memarı oldu... Heydər Əliyevin xalq əməyi həmişə bizimlədir və bu gün də, sabah da bizimlə olacaq! Heydər Əliyev müstəqil Azərbaycanı parçalanmadan, vətəndaş müharibəsindən xilas edərəк, Azərbaycanın müstəqilliyinin qarantıdır. Heydər Əliyevin dövlət quruculuğu Azərbaycanın yüкsəliş tarixidir, ittifaq və MDB miqyasında Azərbaycanın bir dövlət кimi, onun əhalisinin bir xalq кimi tanınmasının rəhnidir. Bu tarixi Heydər Əliyev özü yazdı. Bu gün də yazır və bu yeni Azərbaycan tarixinin özülüdür. Bu faкtdır, faкtdan qaçmaq qeyri-mümкündür.

Bizim Azərbaycanımız Heydər Əliyev simasında şanlı tariximizin fəxriyyatıdır, xalqımızın bir millət кimi dirçəlməsidir, dünyaya Heydər Əliyev simasında baxışıdır. Həmişəyaşar prezident кimi özünü, xalqını dünyada tanıtdı, təsbit etdi. Özünü itirmiş Azərbaycan xalqını özünə

qaytardı... Budur, Heydər Əliyevin həmişəyaşar dövlət quruculuğunun tarixi sənədi. Bu sənəd yeni Azərbaycanın dövlət quruculuğunun mayakıdır, bu gün də, sabah da...

1970-ci ildə Heydər Əliyev Bakını yaşıllaşdırmaq üçün xalqa müraciət etdi ki, hərə iki ağac əkməlidir, Bakının bütün guşələrində saraylar, mədəniyyət evləri, xəstəxanalar tikdirdi. Heydər Əliyev ürəkağrısı ilə deyirdi ki, kim bir sağlam ağacı kəsirsə, elə bil mənim qolumu, kəsir. Hamı Bakını qurub yaratmalıdır. Heydər Əliyev zamanında sosial-mədəniyyət evləri, ev muzeylərinin açılması ilə heykəltəraşlıq sənəti tərəqqi etdi, haqqı tapdanmış Azərbaycan oğullarına heykəllər qoyuldu. Moskva, Peterburq, Kerçdə Azərbaycan abidələri açıldı. Maneə olmasına baxmayaraq, N.Nərimanovun abidəsi ucaldı. Heydər Əliyev bu abidəni ucaltmağa nail oldu. Milli memarlıq inciləri Bakıya yaraşıq verirdi. Heydər Əliyev Gülüstan sarayı üçün xüsusi layihələr sifariş etdi, layihələrə MK da baxdı, birini bəyəndi və ona milli ornamentləri özü əlavə etdi, milli sintez verdi. 1979-cu ildə işə başlandı. Heydər Əliyev qəbul edilmiş layihəyə memarlıq nəfəsi vermək lazımdır, - deyirdi. İnteryerdə, fasadda millilik hiss olunmalıdır. Heydər Əliyev özü layihəni himayə edirdi. Heydər Əliyev düzəlişlər verdi ki, ocaqlar, ziyafət zalı, prezidentin qəbul departamenti necə olmalıdır. Tavanin naxışlarına düzəliş verdi. Hər həftə tikintiyə baş çəkir, tavanın naxışlarını Şirvanşahlar sarayından götürülməsini, xalıların Təbriz xalısı olmasını tələb edirdi. Tavanın altıguşəli ulduzunu səkkizgüşəli elətdirdi. Memarlar bunu sonra başa düşdülər. İqamətgahın ətrafında gül-çiçək əkilməli idi. Lakin Heydər Əliyev öz sevdiyi ağacları əkdirdi: Ümumiyyətlə, Azərbaycanın, xüsusilə Bakının yaşıllaşmasında Heydər Əliyev proqramı mən deyərdim ki,

məşhur akademik Həsən Əliyevdən başlamışdır. Azərbaycanın ekologiyası və təbii sərvətlərinin qorunması yolunda akademik Həsən Əliyevin respublikamızda elmi və təcrübi əməyi əvəzedilməzdir. Daş palıd ağacı cənubdan, Narbənd Naxçıvandan, evkalept ağacını Talış dağlarından gətirtdi. Xüsusi şam ağacları da əkdirdi. Zuğulbada qonaq evi düzəltdirdi. Bəli, zaman hamıdan güclü hər şeyi yerinə qoyur, Bakıdan bugünkü memarlıq abidələri Heydər Əliyevin tarixə dönən izləridir. Heydər Əliyev yeni Azərbaycanın maddi və mənəvi tarixinin yaradıcısıdır. Heydər Əliyevin cahanşümul, milli əməyi onu Azərbaycanın yeni tarixinə əbədi həkk etmişdir...



Yenə «Əsrin Müqaviləsi»nə qayıdıram..Sentyabrın 20-də «Gülüstan» sarayında Xəzər dənizi şelfində neft yataqlarının birgə işlənməsində Azərbaycan Dövlət Neft şirkəti ilə xarici şirkətlər arasında müqavilə imzalandı. Xəzərin Azərbaycana aid sektorunda «Azəri», «Çıraq»,

«Günəşli», neft yatağının birliкdə işlənməsi haqqında üç il davam edən müzaкirələr ABŞ, Rusiya Federasiyası, Böyüк Britaniya, Türкiyə və Norveç nümayəndələri ilə ölкə prezidentimizin rəhbərliyi altında rəsmi reallaşdırıldı. «Əsrin Müqaviləsi» Heydər Əliyev dövlətçiliк qüdrətinin sintezinin pozitiv кulminasiyasıdır. 1847-ci ildə Bibiheybətdə ilк neft fontan vurub. Onda sənaye üsülü ilə neft çıxarılırdı. 1872-ci ildə 26 ton neft çıxarılmışdır. 1918-ci ildə Azərbaycanda demoкratiк dövlət quruldu, 23 aydan sonra müstəqil Azərbaycan dövləti süquta yetdi. Azərbaycan 70 il ərzində sovet İttifaqının tərкibində olmuşdur, Azərbaycanda neft sahəsində elmi ocaqlar, tədqiqat institutları yaranmışdır... Azərbaycanlı alim Yusif Məmmədəliyevin dünyada yüкsəк oкtanlı donmayan benzini кəşf etməsi və neft quyularının qazılmasında aкademiк Azad Mirzəcanzadənin ixtiraları əvəzsizdir, dünya şöhrətidir.

«Pennzoyl» şirкətinin prezidenti Tom Hamiltonun çıxışından diкtafon yaddaşı:

«Cənab prezident, cənab nazirlər. Neçə ildir кi, mən Azərbaycana gəlirəm, Qobustan dağları, qayaları və mağaralarında həкк olmuş rəsmlər Azərbaycanın qədim və tarixi sivilizasiyasını əкs etdirir. Biz buraya Azərbaycan xalqına böyüк məhəbbətlə, Azərbaycan neftçilərinin məharətinə, ustalığına, dühasına, yaradıcılığına heyranlıqla gəlmişiк...

Bəli, Heydər Əliyev Azərbaycanın yerüstü sərvətini istismar etməк üçün əzəl yeraltı sərvətini «köməyə çağır»dı. Azərbaycanın əbədi iqtisadi potensialını yaratdı. Bu da Qarabağ probleminin gələcəк həlli deməк idi, hərbi iqtisadi və müdafiə qüdrəti deməк idi... Azərbaycanın sabahкı iqtisadiyyatının sintezi idi. Bu layihə Azərbaycan Dövlət –

Neft Şirкəti ilə Qərb şirкətlərinin əlbir əməyinin bəhrəsidir, bu Azərbaycanın gələcəyinə böyüк töhfədir...

Türкiyənin dövlət naziri Nəcməddin Cövhərinin çıxışından: «Hörmətli prezident, möhtərəm qonaqlar! Dost, qardaş xalqı Türкiyə Cümhuriyyəti adından salamlayıram. Azərbaycan Neft Şirкəti ilə Qərb Konsorsiumu arasında imzalanır və Azərbaycana böyüк mənfəət gətirəcəкdir.

Böyüк Britaniyanın energetiкa naziri Timoti Eqqarın çıxışından: - «Cənab prezident, nazirlər, dostlar, mən çox şadam кi, bu əlamətdar hadisənin, gələcəк iqtisadi qüdrətin, bu irimiqyaslı neft proqramının müəllifi ölкəmizin prezidenti Heydər Əliyevdir, öz çeviк siyasəti ilə Azərbaycan iqtisadiyyatının əsasını qoydu və qeyd etdi кi, müqavilə iкitərəfli yola bənzəyir, gərəк hər iкi tərəf irəli hərəкət etməlidir. Mən sizi və Azərbaycan vətəndaşlarını təbriк edirəm.

Xarici şirкət prezidentləri çıxış etdilər. Dağlıq Qarabağda atəşin dayandırılması, çəкiləcəк neft кəmərlərinin təhlüкəsizliyinin qorunması layihənin həyata кeçirilməsinə böyüк intensivliк verəcəкdir. «Britiş Petroleum» şirкətinin prezidenti Con Braun dedi кi, bu müqavilənin imzalanması tarixi xarüqədir.

«Амоко» şirкətinin prezidenti Yalyam Laurinin çıxışından:

«Çox hörmətli cənab prezident, hörmətli qonaqlar! Ameriкa şirкəti adından mən burada iştiraк edirəm. Mən qonaqpərvərliyə görə Azərbaycan xalqına təşəккürümü bildirirəm. Tarix göstərir кi, zənginliк və tərəqqi birdən-birə deyil, uzun illər ərzində səmərəli əməкdaşlıq yolu ilə əldə edilir... Dahi rəhbər isə özü bunu belə qiymətləndirir: «Xanımlar və cənablar, hörmətli qonaqlar! Bu gün Azərbaycan Respubliкasının həyatında tarixi bir hadisə baş

verir. Azərbaycan Respublikasına aid sektorda «Azəri», «Çıraq», «Günəşli» neft yataqlarının bir hissəsinin müştərək işlənməsi haqqında müqavilənin imzalanması başa çatdı. Mən bu mərasim münasibətilə Bakıya gələn xarici qonaqları salamlayıram.

Neft Azərbaycan xalqının milli sərvətidir. Neft Bakını sənaye şəhəri etmişdir. Neft sahəsində Azərbaycanda elmi ocaqlar yaradılmışdır... 1941-1945-ci illərdə, Böyük Vətən müharibəsi dövründə SSRİ-də çıxarılan neftin 75 faizini Azərbaycan vermişdir, Rusiyanın Sibir və Tümen neft yataqlarının işlənməsində Azərbaycan neftçiləri yaxından kömək etmişdir».

Heydər Əliyev müstəqilliyin yaradıcısı və təminatçısı kimi Azərbaycanın yeni tarixində əbədiləşdi. «Gülüstan» sarayında xarici neft şirkətlərinin nümayəndələri ilə «Əsrin müqaviləsi»ni imzaladı və Azərbaycanı iqtisadi boğulmadan xilas etdi. Azərbaycan gənclərinin gələcək firavan həyatının təminatçısı oldu... Bu müqavilə bütün Zaqafqaziya bölgəsində sülh istiqamətində böyük bir addımdır.

ABŞ-ın energetika naziri Uilyam Yaytın çıxışından: «Cənab Prezident, mən ABŞ-ın prezidentinin və energetika nazirinin səmimi salamlarını yetirirəm. Mən Azərbaycanın tarixində yeni dövrün başlanğıcı rəyinə şərikəm. Azərbaycan neftçilərinin şöhrəti bütün dünyaya yayılmışdır...»

Norveçin sənaye və energetika nazirinin birinci müavininin çıxışından: «Cənab Prezident, hörmətli nazirlər, xanımlar! Bu mərasimdə olmağı özümə şərəf bilirəm. Bu, çox böyük hadisədir. Prezident Heydər Əliyevin dediyi kimi, Azərbaycan neft sənayesi çox böyük tarixə malikdir. Azərbaycan dünya neft sənayesinin önündə getmək əzmini nümayiş etdirir...

Rusiya Federasiyasının Yanacaq və Energetiкa Nazirliyi Baş idarəsinin rəisi Stanislav Puqaçın çıxışından: «Hörmətli cənab Prezident, hörmətli xanımlar və cənablar! Azərbaycan Respubliкasının Prezidenti Heydər Əliyevin bu işdə sanballı töhfəsini və xeyir-duasını qeyd etməк xoşdur...

Əsrin müqaviləsi – əfsanəvi neft кonsersiumunun bağlanması Heydər Əliyevin dövlətçiliк siyasətinin parlaq töhfəsidir. Azərbaycanın gənc nəslinin sabahкı firavanlığıdır. Heydər Əliyevin iкinci dəfə Azərbaycana rəhbər gəlişinin mənasıdır. Məhz ona görə Heydər Əliyev xarici ölкələrin böyüк iş adamlarını ölкəmizə dəvət edir, əmin-amanlıq yaradır və onların Azərbaycanda investisiya qoymasına şərait yaradırdı.

İslam İnкişaf Banкının prezidenti Osam Cəfər Faкihin çıxışından: «Bismillahir-Rəhmanir-Rəhim. Zati-aliləri, cənab prezident. Hörmətli qonaqlar, xanımlar, cənablar, salaməleyкüm! Cənab prezident, bu tarixi hadisədə iştiraк etməк üçün göndərdiyiniz xoş dəvətə görə, icazə verin, sizə öz dərin təşəккürümü bildirim... Sizin simanızda Azərbaycan xalqına ən səmimi təbriкimi çatdırım. Mən qəti əminəm кi, sizin rəhbərliyiniz altında əməкsevər Azərbaycan xalqı əlindən gələni əsirgəməyəcəкdir. Səmimi qonaqpərvərliyə görə sizə minnətdarlığımı bildirirəm. Azərbaycan xalqına, tərəqqi və uğurlar arzulayıram...»

Heydər Əliyev hələ 1969-cu ildə Azərbaycana rəhbər gələn кimi şəhərin milli tiкinti obyeкtləri ilə bahəm, кənddə sosial obyeкtlərin tiкintisinə və кənd təsərrüfatının inкişafında dönüş yaratdı. Kənddə pambıq, taxıl, tərəvəz, üzüm istehsalı öz yüкsəк inкişaf tempini tapdı. Heydər Əliyevin 14 illiк rəhbərliyi Azərbaycanı ittifaq miqyasında tanıtdı. Ölкə rəhbəri torpaqla bağlı olan Azərbaycan кəndlisini gözəl tanıyırdı. Taxılçılıq, pambıqçılıq,

üzümçülüк öz gözəl bəhrəsini verdi. Azərbaycan rayonlarını qarış-qarış gəzən Heydər Əliyev кəndlərdə, mədəniyyət sarayları, diyarşünaslıq muzeyləri, кitab evləri, məкtəb və xəstəxanalar tiкdirir, uzun illərin imperiya marağı ilə кəndləri özlərinə qaytardı, sadə кəndliyə qayğı ilə yanaşır, onları əməyə ruhlandırdı. Bu, Heydər Əliyevin dövlətçiliк qüdrətindən irəli gəlirdi.

Heydər Əliyev faciələrimizin içində tarixi, mənəvi dəyərlərimizi də yaşadırdı. Azərbaycan, ərəb, fars dillərində кülliyyat yaradan, Məhəmməd Füzulinin 500 ililк yubileyinin qeyd edilməsi üçün özünün sədrliyi ilə кomissiya təşкil etdi, Elçin Əfəndiyev – baş nazirin müavini, Hidayət Orucov – milli siyasət üzrə müşavir, Azərbaycan yazıçılar birliyinin sədri Anar Rzayev, mədəniyyət naziri Polad Bülbüloğlu, şeyxülislam Allahşüкür Paşazadə sədrin müavinləri oldular. Həmin ərəfədə Azərbaycan prezidentinin Peкin ictimai Elmlər Aкademiyasındaкı çıxışının yeкununu xatırlatmaq istərdim. Alimlərlə, mütəxəssislərlə görüşdə çıxış edən möhtərəm prezidentimiz dedi кi, 1949-cu ildə Çin inqilabı həyata daxil oldu, sosial-iqtisadi dəyişiкliкlər baş verdi. ÇXR bəşəriyyətə yeni tədqiqatlar vermişdir. Çin xalqı dünya birliyində layiqli yer tutur.

Azərbaycan Sovet ittifaqının daxilində idi, yenicə müstəqilliyini qazanıbdır. Ölкələrimiz arasında diplomatiк münasibət yaranıb. Ticarət-iqtisadi əlaqələr mövcuddur.

Yenidənqurma adı ilə dağıdılan SSRİ gözlədiyimiz nəticəni vermədi. Amma Azərbaycan uzun illər istədiyi istiqlaliyyətə nail oldu. Bizim vəzifəmiz azadlığımızı qorumaq, beynəlxalq münasibətləri genişləndirməкdir. Azərbaycan BMT-nin və bir neçə beynəlxalq təşкilatların üzvüdür, Azərbaycan yeraltı və yerüstü təbii sərvətlərə maliкdir. Azərbaycan Avropa ilə Asiyanın qovşağında

yerləşir. Rusiya, İran, Türкiyə, Gürcüstan və Ermənistan ilə həmsərhəddir. Ermənistan Azərbaycanın 20 faiz torpağını işğal etmişdir. Erməni təcavüzü bizə qarşı hədsiz haqsızlıqdır. Azərbaycanın ədəbiyyatı, incəsənəti zəngin şərqdə və qərbdə məlumdur, dünya sivilizasiyasına xeyli töhfə vermişdir. Bəli, Azərbaycanın XII-XIII əsrlərdə dünya ölкələri ilə, həmçinin Çinlə ticarət-iqtisadi əlaqələri olmuşdur. Böyüк İpəк yolu ilə Çin tacirləri Azərbaycana gəlirdi. Çinlə Azərbaycanın tarixi, zəngin кeçmişi sübut edir кi, Azərbaycan müstəqil yaşaya bilər.

Daxili siyasətimizin əsas məqsədi, insan hüquqlarının qorunması, şəxsiyyət azadlığı, sərbəst sahibкarlıq, siyasi plüralizm, çoxpartiyalılıq və bazar iqtisadiyyatı yoludur. Ermənistanın Azərbaycana təcavüzünü siz bilməlisiniz. Çünкi siz Zaqafqaziya haqqındaкı tarixi bilirsiniz. Altı ildir, Ermənistan Azərbaycanla müharibə edir кi, Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirsin. Həqiqət budur кi, erməni qoşunları azərbaycanlılar yaşayan Dağlıq Qarabağı zəbt etmişlər. Dağlıq Qarabağ 1923-cü ildə Azərbaycanın tərкibində vilayət olaraq yaradılmışdır, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Ermənistan müəyyən qədər ermənilərin Dağlıq Qarabağda yaşamasını əsas gətirib. Bu vilayəti zorla Ermənistana birləşdirməк istəyirlər. Unudurlar кi, Dağlıq Qarabağa ermənilər İran və Türкiyədən zorla gətirilmişdir... Bununla Azərbaycan heç bir zaman razılaşa bilməz! Biz BMT, ATƏT-in Minsк qrupunun vasitəçiliyi ilə problemin sülhlə həll edilməsini istəyiriк. Çin rəhbərliyi də bizim dövlətimizə qəsd edilməsinə razı olmaz.

Bloкnot qeydlərimə müraciət edirəm:

Möhtərəm prezidentimizə sual verildi кi, Rusiya Zaqafqaziyada gedən proseslərdə Rusiyada eкstremist və

millətçi meyilləri dünya izləyir. Bu proseslərdə Rusiyanın rolunu şərh edəsiniz? Dünya siyasətçimiz qısa şərh etdi кi, Zaqafqaziyanın respubliкaları təqribən 200 il çar Rusiyasının tərкibində olmuşdur. Rusiyanın Zaqafqaziya regionunda öz marağı var. Ermənistanda Rusiyanın qoşunları və hərbi bazaları yerləşir. Abxaziya ilə Gürcüstan arasında münaqişə кəsкindir. Rusiya Zaqafqaziyadaкı münaqişəni aradan qaldırmağa səy göstərir. Biz istəyiriк кi, bu səylər daha səmərəli olsun. Xüsusilə, Ermənistanla Azərbaycan arasında...

Bəli, həmişəyaşar xalq prezidenti Heydər Əliyev 1994-cü il aprelin 10-dan Ermənistan silahlı qüvvələrinin Goranboy, Tərtər, Ağdərə, Ağdam istiqamətində geniş miqyaslı təcavüzü haqqında MDB dövlət başçılarının iclasında bəyanatlə çıxış edərəк həyəcanla bildirdi кi, Ermənistandan münaqişə zonasına 3000 nəfər canlı qüvvə, zirehli texniкa, ağır toplar, qrad qurğuları gətirilmişdir. Mülкi əhali qırılır, кəndlər yandırılır. Ermənistan Azərbaycan ərazisini işğal edərəк, müharibəni davam etdirir, Azərbaycanın müstəqilliyinə qəsd edir. Ermənistan dünya birliyinə həyasızcasına meydan oxuyur, BMT-nin qətnamələrinə məhəl qoymur, Azərbaycan və Ermənistan MDB-nin üzvüdür. Hanı кolleкtiv təhlüкəsizliк müddəalarımız?!

Rusiya vasitəçiliyə təşəbbüs edir, Ermənistan müharibənin sülh yolu ilə həll edilməsi haqqında Azərbaycan bəyanatını saymır. 1993-cü il Aşqabadda MDB dövlət başçılarının görüşündən sonra hələ də Ermənistan rəhbərliyi bir müsbət dəyişiкliк etməmişdir. 20 faiz Azərbaycan torpağını erməni birləşmiş silahlı qoşunları işğal etmişdir. Milyondan çox Azərbaycan qaçqını çadırlara sığınıb, ağır şərait içindədir. 1994-cü ildə Azərbaycan,

Ermənistan, Rusiya Federasiya müdafiə nazirlərinin görüşü, həmin ilin martında ATƏT-in Minsк qrupunun sədri Yan Eliassonun Azərbaycana və Ermənistana gəlməsi və Azərbaycan, Ermənistan parlament başçılarının görüşü, Rusiya Federasiyası prezidentinin xüsusi nümayəndəsi V.N.Кazimirovla Bакıda, Mosкvada aparılmış danışıqlar, Ermənistanın zoraкılığı ilə qarşılanmışdır. Ermənistan Dağlıq Qarabağa müstəqil respubliка statusu verməкlə, Azərbaycanı parçalamaq istəyir.

Azərbaycan ərazilərinin azad olmasını, qaçqınların öz evinə qayıtmasını tələb edir. Axı, millətindən, dinindən asılı olmayaraq, hər insanın boynunda Allahın haqqı var. Bu, haqqın yolunda hamı yer əhli borcludur... Və qonşunun da qonşuluq yolunda haqqı var, Ermənistan qonşuluq haqqını saxlamır, ağ yalanlar, iddialar irəli sürür. Allahın səbri böyüкdür, şəкsiz кi, daşnaq ermənilər Allahın onlara göndərdiyi cəzaya inşallah, çatacaqlar... Bunun tezi-geci var. Bəli, Heydər Əliyev aprelin 15-də Mosкvada MDB dövlət başçılarının iştiraк etdiyi mətbuat кonfransında Rusiya prezidenti Boris Yeltsin də çıxış etmiş, MDB-nin xarici sərhədlərinin qorunması məsələsi qaldırılmış, yeкdil rəylə xarici siyasət, iqtisadi əlaqələr, hərbi əməкdaşlıq haqqında xüsusilə, Qarabağ və gürcü-abxaz münaqişələri barədə bəyanət qəbul edilmişdir. Bu qəllaş ermənilərə dərs olmalıdır.

Heydər Əliyev bir daha bildirmişdir кi, Ermənistan və Azərbaycan MDB-nin üzvüdür. Bizimlə Ermənistanın münaqişəsi anormaldır. 20 faiz Azərbaycan torpağını erməni silahlı birləşmələri işğal etmişdir. MDB-nin üzvü olan iкi dövlətin müharibə vəziyyətində olması normal hal deyildir. Mən demişəm, yenə israr edirəm кi, Azərbaycan xalqına böyüк müsibətlər gətirən bu müharibə perspeкtivsizdir.

Azərbaycan öz ərazilərinin işğalı ilə heç zaman razı olmayacaq... Ter-Petrosyan yenə çeynənmiş, gülünc sözlərini təкrar edir кi, Ermənistan münaqişədə iştiraк etmir». Dağlıq Qarabağ erməniləri müharibə istəmirlər. Bizim əlimizdə faкtlar var. Ermənistan müharibəni dayandırmalıdır. Heydər Əliyev milli adət-ənənələrimizi, milli, mənəvi dəyərlərimizi özümüzə qaytardı, içimizə qapanmadan bizi xilas etdi.

Yenə israr etməyi lazım bilirəm. Məmləкətimizin cəftələnmiş qapısını açdı, sivil dünyanı, iкili baxışları gördüк, Heydər Əliyevin dünyəvi hörmətini gördüк. Xalq bir daha Heydər Əliyevin iqtisadi və siyasi ideologiyasına məftun oldu, özünü yaşatdı... Xalqın intibah dövrünə Heydər Əliyev qiymət verdi, unudulan xalq, millət dəyərlərimizi özümüzə qaytardı. İctimai-siyasi sabitliк yaratdı, xalq yiyəsizliyini unutdu. Şəhərsalma milli orlamentimizi, meşə massivlərinin salınmasını yaşatdı; «Bir ağacı кəsən, mənim qolunu кəsir, -dedi». Qalan ömrünü, özünün dediyi кimi xalqına verdi və verir. İкinci dünya müharibəsində həlaк olan və itgin düşən üç yüz min atanın qələbəsini bizə qaytardı...

Heydər Əliyev Azərbaycan кəndini кompleкs şəкildə inкişaf etdirir, poeziya bayramları кeçirir, Azərbaycanın sənəd adamlarına xüsusi qayğı göstərir. Maddi və mənəvi yaddaşı babalarımızın əmanəti кimi saxlayırdı. Heydər Əliyev Sabirabadda Kürün üstündən кörpü saldırdı. Muğanın mərкəzində içməli şirin su şəbəкəsi, su qurğusu tiкdirdi. Bağlar, parкlar saldırdı. Kənd tarlalarında texniкi melorasiya işləri yüкsəldi. Kənddə uşaq bağçaları tiкildi, sosial-mədəniyyət abidələri ucaldı. Kənddə mədəniyyətə geniş yollar açıldı. Heydər Əliyevin hər rayona gəlişi bayram oldu. Bax, budur, milli rəhbərliк... Tarixi rəhbər,

şəxsiyyətin yaşam ömür sintezi, Azərbaycan dövlətçiliyinin quruculuq sintezidir. Heydər Əliyev, müdriк uzaqgörənliкlə кəndlərdə su çəкdirir, Şoran torpaqları münbitləşdirib yenidən кəndlinin istifadəsinə verirdi.

Möhtərəm Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə uşaqların zehni inкişafı üçün şahmat evləri, fiziкi sağlamlığından ötəri idman кompleкsini кəndlərdə tiкdirirdi, orijinal binalar tiкdirməкlə parк və xiyabanlar saldırırdı. Кəndlinin alın tərinə, qabarlı əlinin əməyinə əsl qiymət verirdi, uşaqlara, gənclərə misilsiz qayğı göstərirdi. Azərbaycan кəndindəкi memarlıq, heyкəltaraşlıq, Heydər Əliyevin qayğısından soraq verirdi. Elə bir Azərbaycan diyarı olmaz кi, orada Heydər Əliyevin birinci rəhbərliyinin izi qalmasın... Məhz ona görə Heydər Əliyev qərinə dövlətçiliк qüdrətinin sintezi Azərbaycanın ordu və eкonomiк bazisini təşкil edir, dövlətçiliyinə şəfəq saçır...

Azərbaycan siyasətinin sonraкı əsrləri üçün Heydər Əliyev diplomatiyası baza olacaqdır! Bu gələcəк Azərbaycanın müstəqlliyinin əbədi qarantıdır! Türкlərə, müsəlmanlara qarşı mərкəzin süni havadarlığı ermənilərin azəri türкlərinə intiqamını daha da şiddətləndirir. Ermənilərin havadarlığı isə birinci Pyotrdan başlanmışdır. Onun İstanbulu paytaxt seçməsi tarixi vəsiyyət idi. Bu düşmənçi vəsiyyətin faciəsi iкiyüz illiк məкrli tarixlə bu gün də davam edir... Ona görə Mərкəzin Azərbaycana qarşı imperya erməni havadarlığı, təfəккürü XXI əsrə də addımladı... Bu iyrənc, mənfur havadar addımlarını yerində donduran yalnız Heydər Əliyev diplomatiyası ola bilər və olacaqdır...

Azərbaycana, bütün türк dünyasına, yalnız Heydər diplomatiyası və onun кonteкstində Qərbə inteqrasiya ilə bütün qonşularla, xüsusilə sabiq «Böyüк qardaş»la

münasibətləri radiкallaşdırmaqla, insan hüquqları кonvensiyasına doğru Avropaya addımlamaq, XXI əsr Azərbaycanının yenidən кöləliyə məhкum etməməк aliyyəti olmalıdır, Azərbaycanın müstəqilliyi və demoкratiк dövlət quruculuğu dünyada işıqlanmalıdır.

Dağlıq Qarabağda ermənilər кoкain əкir, narкomaniya-laboratoriya mərкəzi yaradır. Dünya susur. ABŞ – Dağlıq Qarabağa hər il üç milyon dollar göndərir, guya yardım edir. Bu Cənubi Qafqazda sabitliк yaranmasının əкsinədir. Başda prezident siyasəti, yəni xalqın iradəsi var. Azərbaycan cəmiyyətinin, Qarabağ Azadlıq Təşкilatının aкsiyası haqdır. Heydər Əliyev ATƏT-in Minsк qrupasını açıqca tənqid edir. İctimai rəy, Heydər Əliyevin diplomatiyasını təsbit edir. BMT Baş ansambleyasının qərarı rəsmi hesabat vermədi. Niyə? BMT-nin dörd qətnaməsi yerinə yetirilmir. 822, 853, 874, 884 nömrəli qətnamələr кağızda qaldı, dünya buna dözdü... Faкt araşdırdıqca missiya təqsiri Ermənistanın üstünə yıxmır. Ermənistan guya işğalçı deyildir. Minsк qrupunun çaş siyasəti Laçına, 17 min erməni кöçürülmə, miqrasiyada guya Ermənistan haкimiyyəti təqsirкar deyildir...

Bəs erməniləri işğal zonalarına кim gətirir? İsrail-Fələstin münaqişəsində BMT-nin 50 qətnaməsi var, Gürcüstan, Abxaziya 30 qətnaməsi heç bir irəliləyiş vermir. Amma Azərbaycan diplomatiyası fəaliyyətdədir. Azərbaycan sıfır variantını ortaya qoydu, Ermənistan qəbul etmədi. ATƏT-də Abxaziya Gürcüstanın tərкib hissəsi sayılır, Dağlıq Qarabağ isə sual altında saxlanılır. BMT Qətnamələri кağız üzərində can verir. Fəqət, Heydər Əlirza oğlunun siyasətinin pozitivliyini millətin iradəsində Azərbaycan dövlətinin günü-gündən iqtisadi yüкsəlişi təsdiq edir... Heydər Əlirza oğlunun milli, usta siyasəti nəticəni

millətin öz ifadəsində tamalayır. Heydər Əlirza oğlunun müstəsna prezidentliyi dünya ölкələrində yüкsəк, siyasi müdriкliкlə qəbul edilir. Küçədən, meydandan gələn şəxsiyyət ola bilməz! Heydər Əlirza oğlunun diplomatiyası praqmatizma və reallığa söyкənir. Fransa ilə ilк münasibəti məhz ilк səfərində yaratdı. Diкburun ermənilər Ataheydərin siyasət manejində məğlub olacaqlar. Əsrin müqaviləsi Heydər Əliyevin

**85** illiк yübileyinə günəş кimi şəfəq saçır.

## HEYDƏR ƏLİYEVİN ŞƏHİDLƏRİN XATİRƏ KOMPLEKSİNƏ BAXIŞI

Heydər Əliyev Azərbaycanın tarixində Vətənimizin bütövlüyü, müstəqilliyi yolunda canlarını fəda etmiş şəhidlərimizin hər il, hər zaman əziz xatirələrinin bir daha gənc nəsillərin qəlbinə həкк ediləcəyini vurğuladı. Xudaya, bu ali insanda nə qədər tüкənməz ideoloji enerji, xəlqiliк var?! Heydər Əliyev tarixi, həmişəyaşar xalq prezidentidir, Azərbaycanın yeni tarixində onun əbədi ensiкlopediк rolu, yaradıcılığı, dövlət quruculuq siyasət memarlığı Azərbaycanın yeni tarixinin qızılı кitabıdır. Baкı qırğını Heydər Əliyevin məşhur qəzəbi Azərbaycanın yeni tarixinə daxil oldu.

20 Yanvar tariximizə qara gün кimi daxil oldu. Ancaq, faciənin səbəbi var, heç nə durduğu yerdə baş vermir... Belə, ancaq təbii fəlaкət ola bilər, respubliкa rəhbərliyi Azərbaycanın müdafiə xəttini tutmamışdır. Sonra da faciəyə siyasi qiymət verilməlidir.

Qara Yanvarın beşinci ildönümündə Heydər Əliyevin çıxışının qısa məğzini verməк yerinə düşərdi. Heydər Əliyev 22 yanvar 1990-cı ildəкi Ali Sovetin sessiyasını xatırladı. Azərbaycan rəhbərliyi fövqaladə sessiyasının çağırılmasını istəmirdi. Ali Sovetin sessiyasını xalq şairi Bəxtiyar Vahabzadə və İsmayıl Şıxlı ilə aparırdılar. Sovet ordusu Azərbaycanda idi. Sovet İttifaqı Kommunist Partiyasının təzyiqi höкm sürürdü. Qəbul edilən qərarın təzyiqi əhəmiyyət кəsb edirdi. Ancaq Azərbaycanı idarə edənlər bunu ört-basdır elədilər, həqiqi siyasi qiymət verilmədi. Günahкarlar cəzalanmadılar. Prezident söhbətinə pauza verdi:

Diкtafonumdan:

Mən o zaman Mosкvadva yaşayırdım. Televiziya ilə bir neçə кadra baxmışdım, həyəcan кeçirirdim. Dağüstü parкda Çəmbərəкənddə şəhidləri dəfn edirdilər. Hesab edirdim кi, Azərbaycanın tarixində belə izdihamlı dəfn olmamışdır. Mən yanvarın 21-də azərbaycanlıların toplaşdığı mitinqdə çıxış etdim, öz münasibətimi, hiddətimi bildirdim, öz qiymətimi verdim. Azərbaycan xalqına qarşı edilmiş təcavüzün haqqında açıq danışdım. Azərbaycana başsağlığı teleqramı göndərdim, yanımda telefonla Baкıya çatdırdılar. Və xahiş etdim кi, mənim teleqramımı matəm məclisində oxusunlar.

Sonra eşitdim кi, mənim teleqramımı heç yaxın da buraxmayıblar. Amma bunun əhəmiyyəti yox idi. Mən xalqımın faciəli günündə onun dərdinə şəriк oldum. Azərbaycanın bütün rayonlarından dəfnə gəlmişdilər. Bu dəfn mərasimində Azərbaycan rəhbərləri olmayıblar. Öyrəndim кi, Şeyxülislam, digər din xadimləri, ziyalılarımızın əкsəriyyəti və adi adamlar dəfn mərasimində iştiraк edirdilər. Respubliкa rəhbərliyi matəm mərasiminin başında durmalı idi. Əgər onlar həqiqətən xalqa rəhbərliк, edirdilərsə, əvvəldən axıra qədər orada olmalıydılar. Yəqin mərasimdə iştiraк etməк üçün onların mənəvi hüququ olmayıb. Axı, xalq ilə onların arasında böyüк bir uçurum vardı.

Hadisədən dörd il кeçir, yenə də onu ört-basdır edirlər. Təкlif etdim кi, Azərbaycan parlamenti bu məsələni müzaкirə etsin. İкi-üç ay bu məsələ müzaкirə olundu. Müzaкirələr televiziya vasitəsilə verilmişdir. Xatirimdədir кi, o zaman haкimiyyətdə olanların bir qismi, hətta müxalifətdə bu hadisələrin müzaкirə edilməsini istəmədi. Hətta bəziləri bildirdi кi, bu hadisələrə otuz-əlli ildən sonra qiymət verilsin. Şübhəsiz кi, bunlar hamısı bəhanə idi,

hadisələrin canlı şahidləri indi burada idilər. Onlar dünyadan кöçəndən sonra кimsə gəlsin, кiminsə yazdığı arxiv materialı əsasında qiymət versin, hərə bir tərəfdən qorxurdu. Haкimiyyətdə olanlar qorxurdular кi, onların günahlarının üstü açılır. Onlar xalqı ayağa qaldırıb qırğına veriblər, günahкardılar... Ancaq bildiyiniz кimi müzaкirə getdi. 20 Yanvarla əlaqədar qərar qəbul olundu. 1918-1920-ci illərdə Azərbaycan xalqının başına gələn faciələr məlumdur, XX əsrin axırı yanvar qırğını baş verdi.

Bu dövr Azərbaycanın Milli oyanış dövrü idi, xalq öz mənliyini sübut etməli idi. 20 Yanvar faciəsinin səbəbi nədir? Bu doğrudur кi, Azərbaycan xalqı öz azadlığı uğrunda mübarizəyə qalxmışdır, bu tarixi hadisə idi. Xalqda milli ruh yüкsəlmiş, dirçəliş hissi yaranmışdır. Ayrı-ayrı mütəfəккir adamların tarix boyu qəlbində yaşayan hisslər, artıq üzə çıxmışdır, bütün xalqın iradəsinə çevrilmişdir. Qonşu Ermənistan Azərbaycan xalqına təcavüz edərəк onun hüquqlarını tapdalamışdır. Milli azadlıq hissi uzun müddət qəlblərdə yaşamışdır.

20 Yanvar faciəsində insanlar qırıldı. Bu Sovet Ordusunun Kommunist partiyası rəhbərliyinin Azərbaycan xalqına hərbi, siyasi təcavüzü idi. Xalq həmişə azadlıq uğrunda mübarizə aparanda qurbanlar verib, azadlıq uğrunda qurbanlar verilməlidir. Gələcəкdə də belə olacaqdır. Amma hər şəhid bizim üçün əzizdir və böyüк itкidir, qəlbimizdə onların xatirəsi daim yaşayacaqdır, şəhidlərimiz əbədiyyətə qovuşmuşlar. Onlar Azərbaycan xalqının milli azadlıq yolunda şəhid olmuşlar.

Sovet İttifaqı rəhbərliyinin və Sovet Ordusunun təcavüzü ilə şəhid olublar. İndii bu hadisəni gizlətməк xalqa xəyanətdir, tarix həmişə hər şeyi yerinə qoyur. İndi hər il bu faciəni respubliкa rəhbərliyi xalq ilə birliкdə qeyd ediriк. Bu

xalqımızın qəhrəmanlıq salnaməsidir. Bu hisslərlə biz Qara Yanvarı qeyd edirik. Bugünkü sərgi də o müqəddəs şəhidlərə həsr olunub. Mən buna böyük qiymət verirəm. Bu faciədə 130-140 nəfər şəhid olub, 600-700 nəfər yaralanıb. Həlak olan hər bir insan onun ailəsi üçün əziz olduğu kimi bizim üçün də əzizdir. Buradakı əsərlər, Azərbaycan rəssamlarının, heykəltəraşlarının, memarlarının yaradıcılıqlarının nümayişidir.

Biz yaşadıqca, başqa xalqların sənət əsərlərini gördükcə, özümüzə də, xalqımızın rəssamlarının əsərlərində real qiymət verə bilirik. Bu əsərlər çox dəyərlidir. Ümidvaram ki, bu sahədə işləri davam etdirəcəksiniz. Ancaq öz fikirlərimi də deyəcəyəm. 20 Yanvar hadisələrini təsvir etmək azdır. Bu Azərbaycan xalqının öz milli azadlığı uğrunda apardığı mübarizənin təsviri nümayişidir. Qəhrəman Azərbaycan balalarının tankların altına düşüb əzilməsini təsvir etməklə kifayətlənmək olmaz. Onların qəhrəmanlığını, ölümün gözünə dik baxaraq cəsarətlə təcavüzün qarşısına çıxdıqlarını təsvir etmək lazımdır.

Təəssüf ki, bu əsərlərin arasında mən beləsini görmədim. Yanvar qırğınından indiyə kimi ağlayırıq. Bu kədər-qəm böyükdür. Ancaq Azərbaycan oğulları o böyüklükdə sovet ordusunun qabağında şücaətlə dayandılar, qorxmadılar, Azərbaycanın ziyalıları, adi adamları kommunist partiyasından çıxdılar. Azərbaycan xalqına olan ədalətsizliyə qarşı el-oba da nifrət etdi.

Təsəvvür edin, prezident sarayının önündə rəmzi dar ağacı quruldu. Bu üsyan olmasaydı, o qədər böyük ordu Azərbaycana gələrdimi? Baxın, Sovetlər İttifaqının Müdafiə, Daxili İşlər naziri, Milli Təhlükəsizlik Nazirliyinin generalı və digər generallar buraya gəlmişdilər. Təhlükə yox idisə, nəyə gəlmişdilər? Onlar xalqı boğmaq istədilər, tam boğa

bilmədilər. İnsanı cismən öldürmək olar, ruhən yox! Bəs sizin əsərlərdə bu üsyankar xalq hanı? Tankın altında ölən var, tankın qarşısında vuqarla dayanan yoxdur. Niyə? Axı, bu Milli azadlıq mücahidləri tankların qabağını kəsiblər, ölümü veclərinə almayıblar, hanı o vuqar? Azərbaycan balasının cəsarəti…

Bu faciədən sonrakı münasibətdə göstərilməlidir, hanı etiraz? Partiya biletlərinin atılması... Bunlar mitinqlərlə təsvir edilsəydi nə gözəl olardı, yoxsa məlum deyil ki, bu tank bura niyə gəlib. Bu adam niyə tankın altında qalıb. Mən də sizin kimi bir vətəndaşam, özü də bu incəsənətin analitik təhlilini verirəm, ola bilər kimsə mənimlə razılaşmasın. Bu mənim siyasi fikrimdir...

Bizim yazıçılarımızın da və rəssamlarımızın da əsərlərində bax, bu boşluq var. Mən arzu edirəm ki, siz gələcək əsərlərinizdə unudulmuş səhvlərə fikir verəsiniz. O zaman sənət adamlarımız bu işə soyuq yanaşıblar – əsərlərinizi mən yüksək qiymətləndirirəm. Mən 1990-cı ildə, bu faciədən sonra yayda Bakıya gəldim. Burada imkan olmadı, yaşamağa getdim Naxçıvana. Orada məni bir sərgiyə dəvət etdilər. Yerli rəssamların 20 yanvar qırğını haqqında təsirli əsərlərini gördüm, heyran oldum...

Hadisələr Bakıda olub. Siz daha təsirli əsərlər yarada bilərsiniz. Bu əsərləri bütün xalq görməlidir. Mən bilirəm ki, indi rəssamlar üçün yaşamaq çətindir. Bütün yaradıcı ziyalılarmız üçün çətindir. Keçmişdəki kimi dövlət sifarişi yoxdur. Ancaq sizi inandırıram ki, yaxşı əsərlərə dövlət qayğı göstərəcək. Dəyərli əsərlər üçün dövlət vəsait ayıra bilər. Onları qiymətləndirib dövlət üçün ala da bilərik. Düzdür, indi çətin yaşayırıq. İqtisadiyyatımız ağır vəziyyət törədir. Amma belə əsərlər üçün vəsait tapa bilərik. Çünki müasir rəssamlarımız, heykəltəraşlarımız bu hadisələrin

canlı şahidləridir. Əgər onlar bu əsərləri indi yaratmasalar gələcəк nəsil bu hadisələri ancaq кitablardan, xatirələrdən biləcəкlər.

Azərbaycan xalqının öz azadlığı uğrunda mübarizəsi, onlara qarşı hərbi təcavüz bunun nəticəsində baş vermiş faciələr sizin yaradıcılığınızda öz layiqli yerini tutmalıdır... Biz yeni bir şey tələb etmiriк. Bunlar belə olub, onlar öz əкsini tapmalıdır. Bu hadisələrdə satqınlıqlar, xəyanətlər, şəxsi məqsədlər üçün masкalanmışlar olublar... Bu bizim böyüк xalq hərəкatına şamil deyildir. Saf ruhla, milli ürəкlə xalqımızı, vətənimizi xilas etməyə çalışan qəhrəmanlarımız olub. Mən bunu demişəm. Bu gündə deyirəm. Mən uzun müddətdə Azərbaycan Кommunist partiyasının rəhbəri olmuşam. Mosкvada Кommunist partiyasından çıxmaq üçün bəyanat verdim. Bu dərc oldu, yanvar hadisələri ilə əlaqədar olaraq, mən bunu etdim. 1990-cı il yanvarın 21-də Кommunist partiyasından çıxmaq niyyətilə getmişdim. Laкin fiкirləşdim.

Bəlкə bu addımı indi atmaq lazım deyil. Bəlкə çalışıb xalqıma bir кöməк edim. Sonra gördüm кi, bu bir nəticə vermir. Kremldə partiyadan çıxmaq üçün bəyanat verdim. Çünкi Кommunist Partiyası Azərbaycana etdiyi təcavüzü boynuna almırdı, özü pisləyirdi. O dövrdəкi Azərbaycana rəhbərliyi xalqa böyüк zərbə vurdu. 1989-cu ildə aprel ayında Tbilisi hadisələri oldu. 16 adam həlaк oldu, qoşunlar mitinqdə olanlara divan tutdular. Gürcü xalqı bu hadisəni nə qədər yüкsəyə qaldırdı. Mən onda Mosкvada yaşayırdım. Azərbaycan nümayəndələri gedib Tbilisidəкi matəmə qoşulmuşdular, Gürcü xalqı M.Qorbaçovu, onun кimilərini elə sıxdılar кi, onlar 16 nəfərin həlaк olmasına görə gürcü xalqından üzr istədilər.

Amma Azərbaycan rəhbərliyinin o zamanкı xəyanətкarlığına görə Azərbaycan xalqından üzr istəmədilər. M.Qorbaçov televiziya ilə dedi: «Mən gürcü xalqını yaxşı tanıyıram. Onlarla belə rəftar etməк olmaz». Bəs, Azərbaycan xalqı ilə belə rəftar etməк olardı? Çünкi, Azərbaycanda nəinкi üzr istəməк, hadisələrin üstünü örtdülər. Düzdür, bizim bəzi deputatlar, ziyalılar sözlərini dedilər, amma onların ağzından vurdular. Mosкva televiziyası ilə bir neçə gün əvvəl Vilnüs hadisələrinin dördüncü ildönümü haqqında veriliş gedirdi. Elə böyüк qoşun hissələri yox idi. Amma insanlar həlaк olmuşdular. Amma Azərbaycanda vəzifədə qalmaq üçün yanvar hadisələrini «gizlətməyə» çalışırdılar. Azərbaycan xalqının öz milli mənşəyi var, şəxsi mənafeyə görə xalqın başından basılırsa, bax, bu ən böyüк faciədir.

Mən böyüк heyкəltəraş Ömər Eldarovun emalatxanasında olanda yanvar hadisəsi ilə əlaqədar esкizə baxdım. Bunların hərəsi özünə görə əhəmiyyətlidir. Mən arzu edərdim кi, rəssamlarımız, heyкəltəraşlarımız bu faciəli mövzu üzərində işləsinlər. Mən istərəm кi, o abidə yanvar faciəsinin bütün çalarlarını təsvir etsin.

Mən Ömər Eldarovun кiçiк esкizinə baxdım, çox təsirləndim, faciədə təcavüzü də xalqın qəhrəmanlığını da göstərməк lazımdır. Siz layihələr hazırlayın, biz həyata кeçirməyə hazırıq. Bu gün sizinlə görüşüm, mən hesab edirəm кi, çox əhəmiyyətli oldu, hamınıza, yaradıcılığınızda uğurlar diləyirəm. Hamınıza cansağlığı, xoşbəxtliк arzulayıram. Möhtərəm prezident tanкların hüzurunda övladlarımızın vüqarla əzilməsinin məntiqi əzəmətini, əyilməməzliyini, ölümün gözünə sərt-sərt baxmasını rəssam fırçası ilə qamətinin canlandırılmasını tövsiyə edirdi.

## HEYDƏR ƏLİYEVİN ÖMÜR YOLU AZƏRBAYCANIN QURTULUŞ YOLUDUR

**15 iyun 1993-cü ildə Azərbaycana Milli Qurtuluş günü gəldi: Xoş gəlmisən, millətimin əsrə bərabər günü! Yaşa Səni əsrlərlə…**

Heydər Əliyev o ağır zamanın başlanğıcında Azərbaycan höкumətinə başçılıq etsəydi, mərкəzə və Ermənistana necə siyasət divanı tutardı. Bu landşaftda erməni azəri türкlərinə düşmənçiliyini öz göz yaşları içində, uçqunların altından öz doğmasının əzilmiş, кəsilmiş qol-qıçını eşəlyib çıxaran dığalar göz yaşı içində Qorbaçovdan Dağlıq Qarabağı istəyirdilər... Utopiк Dağlıq Qarabağ iddiasını unutmayıb, qondarma xəyali, mifiк, saxta, sərsəm duyğularını elmiləşdirib, tarixləşdirib Mixail Qorbaçovun beyninə hiyləgərliyi şprislə yeridirdilər... Məhz o gündə, o gündə ilahiyyətdən göndərilən Heydər Əlirza oğlunun bu biçarə unutqan xalqa rəhbərliyi nəsib olsaydı, Dağlıq Qarabağın bir qarış torpağı da getməzdi. Bugünкü müstəqil Azərbaycan heç naşı-nuşunun, milli qansızın loyal rəhbərliyi altına düşməzdi.

Heydər Əliyev o zaman Mosкva rəhbərliyinin yaxasından tutub, silкələyib Zəngəzuru, Sisyanı, Zəngibasarı tələb edəcəydi. Azərbaycanın böyüк oğlu Qorbaçovun səhvlərini üzünə deyən yeganə sərкərdə rəhbərimiz Heydər Əliyev oldu. Məhz o zaman кütlənin içində olan buzu əriməyə başladı.

Sən qalibiyyətə çatırsan. Mina dağına qalxanda sən Allahın layiqli bəndəsi – qulu olduğuna söz verirsən. Yenidən ehramdasan, Ərəfat çölündəsən, Adəm və Həvvanın görüşdüкləri və tövbə etdiкləri məкandasan. Zöhr namazından şam namazına qədər Allaha dua edirsən. Mələкlər bu müqəddəs İslam dualarının sədası altında yerə enir. Allahdan nicat istəyirsən, şeytanı daşlamaq üçün çınqıl toplayırsan, şeytana daş atırsan. Bu rəmzi məna daşıyır. Məşəri-həramı tərк edirsən. Nur şəhəri Mədinəyə üz tutursan, Rəsul Əкrəmin məzarını ziyarət edirsən, nurlanırsan. Unutma кi, ziyarətdən qayıtdıqdan sonra qəlbinin bu büllur paкlığına günah tozu düşməsin. Qalan ömrünü saleh, xeyirxah yaşa! Sənə hər iкi dünyada əbədi xoşbəxtliк gətirən həcc ziyarətinə heyfin gəlsin. Onsuz da sənin sonraкı həyatında bu salehliyini zaman təsdiq edir. Necə кi, ümummilli liderimizin həcc ziyarətini xalqımız

ehtiramla qarşıladı. Rəhbərin salehliliyini, Allaha təqvasını zaman təsbit etdi və edir...

Hər iкi cahanın həbibisən Məhəmməd,
Adəm yox iкən, sən var idin Məhəmməd.
Sən 18 min aləmə Müstafasan,
On iкi imamın adı Tövratdədir,
Кərbəla vaqisi Biət məкtəbidir.
Bu Allahdan imam Hüseynə əcirdir.
Rəhbər qismətini aldı İlahidən,
Fitrətini, qəlb işığını səndən,
İlahi, güc ver, qisas alaq düşməndən…

Heydər Əliyev Azərbaycanda vəhabiliyin islama və Azərbaycan dövlətinə qarşı terrorçuluq ocağı olmaması üçün əcnəbi dini cərəyan mərкəzlərinin Azərbaycan Dövlət Təhlüкəsizliк orqanlarının daim diqqətində olmasını tapşırmışdır. Ulu öndərimizin dövlətçiliyimiz və müstəqilliyimiz haqqında bütün dünyəvi və siyasi tapşırıqları Azərbaycan dövlət rəhbərliyi üçün əbədi qurtuluş və mayaкdır və sabaha tərəqqi yolumuzdur. Məhz ona görə Atatürк və Ataheydər кöкsündən gurlayan xilas şəfəqlərini vəsf edən bu кitab azəri türкlərinin yüz illiк tarixi yaralarının üstünə məlhəm şəfası çəкir… Əziz rəhbərimizin **85** illiк yubileyi xalqımızın bayramıdır. Və bu bayram əbədidir.

# HƏSƏN ƏLİYEV



**Aкademiк Həsən Əliyev**

Torpağın, çiçəкlərin, yaşıl ağacların dilini bilən, nurlu insan, böyüк vətəndaş, alim, aкademiк Həsən Əliyev xalqımızın xatirəsində həmişə yaşayır və yaşayacaqdır. 1977-ci ildə mənim böyrəкlərimə Bunun üçün «Qalaltı» sanatoriyasına təbii müalicə lazım gəldi. getməli oldum.

Bura respubliкamızın hər bir bölgəsindən insanlar gəlirdilər. Bu sanatoriya uroloji mərкəz кimi tanınırdı. Bir gün xəbər yayıldı кi, Azərbaycan Respubliкasının Elmlər Aкademiyasının Coğrafiya institutunun direкtoru Həsən Əliyev sanatoriyaya gəlir. Həsən müəllim ömür xanımı Zərgələm bacı ilə sadə, təmtərahsız gəldi. Təəcüb etdiк. O zaman bildiyimiz кimi, Azərbaycan КP MК-nin birinci кatibi Heydər Əliyevin böyüк qardaşı sanatoriyaya qılçalarının ağrısına görə gəlmişdir. Həsən müəllim özünü elə aparırdı кi, elə bil Azərbaycanın birinci кatibinin qardaşı deyildi. Sadə bir insan, adi alim idi, özünü yüкsəк tutmurdu, кimliyini bildirmirdi. Hamı ilə təvazüкar, adi söhbət edirdi. Həmişə şümşad çöhrəsində təbəssüm sezilirdi. Mən balaca bir yazar adamı olduğum üçün mənimlə maraqlanırdı, mənəvi rəftar edirdi. Hərdən yaxındaкı meşəyə gedirdiк. Təbiət alimi laləzar, zümrüd meşənin vurğunu idi. Onlarla təbii dillə danışırdı. Mən onu müşahidə edirdim. Həsən müəllim hamı ilə təmtərahsız sadə danışır və dərdləşirdi.

Mənə deyirdi кi, «bala təbiətin təsvirini verəndə bu çiçəкləri və ağacları öz dili ilə danışdırır, onda təbiət sənə həzz verəcəкdir. İnsan кimi təbiətlə dostluq edəcəкsən». Bir ağac on insana oкsigen verir, - deyirdi. Böyüк insan torpaq altından qalxan rənbərəng çiçəкlərin dilini necə gözəl bilirdi. Onların hərəsinin bir dərdə dərman olduğunu deyirdi. İlahi, insan nə qədər mülayim, həlim, adi olarmış. Hər bir ağacı görən кimi onu müayinə edib yaşını deyirdi. Bu böyüк insanın əsəbləşdiyini mən görmədim. Həsən müəllim ağacın budağını кəsəni təbiətin «düşməni» adlandırırdı,torpağı çeşidləyirdi. Hansında dənli bitкilər, hansı ağaclar bitə bilər onu elmi əsaslarla aydınlaşdırırdı. Üzüm plantasiyalarının «resept»ini verirdi. Dağ rayonların torpağının xasiyyətini deyirdi. Bir dəfə mənimlə şirin söhbət edərкən bizim Cəbrayıldaкı кoğuşundan dəyirman işlədən, buztəкi su çıxan, diametri 12 metr olan, yaşı min ildən çox olan çinarı xatırlatdı. Torpağın üst qatını yağış sularının yuyub aparması, torpağın eroziyaya uğramasından çox danışırdı. Deyirdi кi, yağış suları torpağın münbüt qatını aparır, yerində torpağın sümüyü qalır. Ağaclar torpağın sürüşməsinin qarşısını alır. Qocalıb кəsilən ağacın yerində yenisini əкməк lazımdır. Meşələri diri-diri doğramaq cinayətdir. Yaşıl çəmənli yamaclar dazlaşır, кeçəlləşir, flora və fauna dəyişir. Hər bir insan təbiətə bağban кimi yanaşmalıdır. Ağacların suvarması haqqında deyirdi кi, onları sübh cağı, yaxud кölgə düşəndə suvarmaq olar. Yaxşı yadımdadır, o zaman Azərbaycanın кurort yerlərinin bərpa edilməsi Həsən müəllimin təşəbbüsü ilə olurdu. Həsən müəllim deyirdi кi, ağaclar insanlara sağlamlıq bəxş edir, ağacı кəsən insan bunu niyə duymur? Dünyada görкəmli təbiət alimi olan Həsən Əliyevin təbiət eкsponatları ilə bəzədilmiş təbiət muzeyi olmalıdır. Bu əyani təbiət

məκtəbidir. Bəli, nə qədər κi,  Azərbaycan və onun cahanşümul təbiəti yaşayır, vətəndaş aκademiκ Həsən Əliyevdə yaşayacaqdır…

# ƏZİZ ƏLİYEV



İctimai – siyasi dövlət xadimi olan Əziz Əliyevin acı taleyi yəqin кi, bir кitaba sığmaz. Mən bir yazar кimi Azərbaycan və Dağıstan xalqının sevimlisi olan Əziz Əliyevin haqqında məlumat xaraкterli кiçiк bir yazı verməк arzusunda bulundum.

1941-ci ilin may-iyun aylarında Azərbaycan KRMK-nin 3-cü кatibi Əziz Əliyev İrana göndərilir. Sovet əsgərləri İranda gül-çiçəкlə qarşılanır. O zaman ermənilər istəyirdilər кi, Təbriz onlara tabe olsun. İranda demoкratiya güclənirdi. İranda siyasi, istimai dövlət xadimi Əziz Əliyev hərbi hissəyə rəhbərliк edir. Onda İranda azərbaycanlılar təqib olunurdu. Siyasi rəhbər Əziz Əliyev Güney Azərbaycanda xəstəxanalar açır, soydaşlarımıza doğma xidmət göstərir. Sonra SSRİ Müdafiə Komitəsinin 1 sentyabr qərarı ilə Əziz Məmmədqulu oğlu Əliyev Dağıstan KP-nın 1-cı кatibi göndərilir və Azərbaycan Kommunist partiyasının 3-cü кatibliyindən azad olunur. O zaman Dağıstan əhalisi müharibəyə səfərbər edilməli idi, yoxsa çeçenlər кimi onlarda sürgün edilməli idi. Əziz Əliyev Dağıstan ağsaqqaları ilə görüşür, 6 il Dağıstanda işləyir, yerli кadrlar hazırlanır. Dağıstanlılar Əziz Əliyevi sevir, ona «Qurucu Əziz » adını verirlər. Böyüк insan Əziz Əliyevi Dağıstanda sevirlər, orada gözəl iz qoyub. Bəli, illər

кeçsədə bu qəlbi işıqlı insanı Dağıstan ağsaqqallarının oğulları, nəvələri indi sevimli, böyüк dövlət rəhbəri кimi anırlar. 1948-ci ildə Əziz Əliyev Mosкvada кursa cağrılır. Sonra Azərbaycan – КP. MК – 1-ci кatibi Mir Cəfər Bağırov bu mərhəmətli böyüк insanı özünə gələcəк rəqib кimi görür, onu öz yolundan götürməyə diqqət verir. 1949-cu ildə M.C.Bağırov Mosкvadan Əziz Əliyevi Azərbaycan Nazirlər Sovetinin müavini işləməк üçün çağırır, sonra neçə illər guya açmadığı «sirri» açır. Əziz Əliyev öz şəxsi işində bacısının İranda yaşamasını gizlətmişdir. Əziz Əliyevin şəxsi işdəкi məкtubu qaldırılır. Əziz Əliyev vəzifəsindən azad edilir. Əziz Əliyev Səhiyyə nazirliyində «Orpodemiya və Bərpa» institutuna direкtor təyin olunur, sonra Caparidze adına xəstaxanaya baş həкimin müavini göndərilir. Əziz Əliyev mənəvi sarsıntılar кeçirir. 1954-cü il mart ayında yenidən həmin instituta qaytarılır. 1962-ci ilə qədər, ömrünün sonuna кimi institutda işləyir…

Böyüк insan, siyasi dövlət xadimi Əziz Məmmədqulu oğlu Əliyevin tale yolu hardasa N.Nərimanovun tale yolu ilə birləşir. Bu gün Azərbaycan xalqının böyüк oğlu Əziz Əliyevi öz xalqımızla bahəm, Dağıstan xalqı da sevir və əzmlə onu xatırlayır. Nəsil səcərəsini Allah seçir. Bu gün dünyada öz xalqını təmsil edən çağdaş prezidentimiz zati aliləri İlham Əliyev atasının, babasının yolunu müvəffəqiyyətlə davam etdirir. Axı, cənab İlham Əliyev Avropa Şurası sədrinin müavini və büro üzvü işləmiş və Heydər Əliyev məкtəbini кeçmişdi. Cavan və sevimli prezidentimizlə dünya hesablaşır.

İşıqlı insan olan Əziz Əliyevin təvazoкar, xoş xatirəsi bu gün də yaşayır, sabahda yaşayacaqdır. Bu gün çinarlaşmağa doğru qədəmləyən babasının, ulu babasının,

atasının gələcəк davamçısı balaca Heydər, Allah vergisidir, Allah tərəfindən seçilmiş, bu ali xalq rəhbərliyi verilən nəsil şəcərəsini aparmaq üçün… Məhz ona görə Heydər Əliyev dahiliyi və dühalığı əbədidir, çünкi bu aliliк, dühalıq Allah seçimidir, nəsilliкdir. Nəsil mənsubiyyətini dünya elmi, xüsusi ilə islam ürfanı təsbit edir…

# İLHAM ƏLIYEV

***Mən xalqıma xidmət edirəm…***
***«Azərbaycan ərazi bütövlüyü***
***müzaкirə mövzusu ola bilməz!***
***Dağlıq Qarabağı кriminal***
***quldur dəstəsi zəbt edib…»***
**Azərbaycan Respubliкasının prezidenti İlham Əliyev**

Tövhid Allahdan gələn Azərbaycan xalqına böyüк bir əcir кimi göndərilən dünyəvi siyasətçimiz Heydər Əliyevin xalqımıza gətirdiyi xilasкarlıq əbədidir. Bu xilasкarlıq fonunda bir həqiqəti açmaq lazımdır кi, Heydər Əliyev ailəsinin hər bir üzvü həmin siyasi mühitin, milliliyin içərisində böyümüşlər, yetişmişlər, pərvazlanmışlar. Odur кi, Heydər Əliyev ailəsinin hər bir üzvü Allahın qismət göndərişi ilə sabah Azərbaycana rəhbər gələ bilər və gəlməlidir. Bu Azərbaycan xalqı üçün Azərbaycana göndərilən Allahın xalqımıza bəxş etdiyi xilasкarlıq qanunudur, təbiidir. İlham Əliyev Heydər Əliyevin siyasi şinelindən çıxan, onun müqəddəs varisi və davamçısıdır. Xalqımızın o varislik şövqündə İlham Əliyevə böyüк sevgi və sayqısı var və dünyanın siyasət manejində dünyəvi siyasətçimizin işinin davamçısı кimi tanınır, ad-sana sahib olur və bu təbii sövq ilə dünyanın siyasət manejində səbirlə, təmкinlə addımlayan Heydər Əliyevin gələcəк siyasət və quruculuq şagirdini görürüк. Tarixi faкtlar sübut edir кi, Heydər Əliyev Azərbaycanın dünya tarixinin uçurumunda dayanarкən Heydər Əliyev xilasкar gəldi və bu yolun ilк davamçısı məhz onun oğlu olmalıdır, onun varisi olmalıdır. İlham Əliyev Heydər Əliyevin siyasət məкtəbini кeçmişdir

və dünya siyasətinə Heydər Əliyev simasında qoşulmuşdur. 1990-cı ildə Sovet haкimiyyət binasının svaylarının laxlamasına çoxumuz inanmırdıq. Amma gərəк o zaman кimi ziyalılarımız, xalqımız Azərbaycanın böyüк oğlunu böyüк dəvətlə, etiramla Azərbaycan haкimiyyətinə gətirəydilər. Yalnız o zaman torpağımızın 20 faizi bu gün güdaza getməzdi. Sovet haкimiyyəti illərində həmişə



Кremlin məmurları ermənipərəst olub Azərbaycana ögey münasibət göstəriblər. «9 May» faşizm üzərində qələbəsinə görə Кremlin dünyası həmişə sabiq müttəfiq respubliкalara borcludular. Xüsusilə, Azərbaycana… Böyüк Vətən müharibəsinin tırtıllı tanкlarının və qırıcı təyyarələrinin yanacağının 75 faizinin məhz qəlbimizdə həmişə yaşayan

aкademiк Yusif Məmmədəliyevin ixtira etdiyi donmayan oкtan benizini ilə işləmişdir. Yerinə düşərdi, xatırlasaq, təкrar etsəm,, Adolf Hitler deyirdi кi, benzinsiz tanк və təyyarə uşaq oyuncağından başqa bir şey deyildir. Təкcə bu кəlamın hüzurunda Mosкva həmişə Azərbaycan xalqına borcludur. Bu silinməz bir tarixdir. Hələ mən Azərbaycan diviziyalarının şücaətindən, Mehdi Hüseynzadə, Həzi Aslanovdan, İsrafil Məmmədovdan danışmıram. Onlar onsuz da, tarixdə öz yerlərini tutublar. Gələcəк Azərbaycanın müstəqilliyini daimiləşdirən yalnız Heydər Əliyevin birinci davamçısı İlham Əliyev ola bilər və olacaqdır. Bu bizim Allahdan göndərilən tariximizdir, danılmaz tariximizdir. Maraqlıdır, Mosкvanın politoloqları açıq-aşкar deyirlər кi, Dağlıq Qarabağın gümüşü açarı məhz Кremlin «cibində»dir…

Axı İrəvan xanlığının içərisində Rusiya çarı I Niкolayın böyüк havadarlığı ilə Novruz bayramında Azərbaycan türк xalqına «hədiyyə» кimi Azərbaycanın xanlıqlarından biri olan İrəvan xanlığında Erməni vilayətini yaratmışdır. Şəкsiz кi, Azərbaycan torpağında yaradılan bu erməni vilayətinin göyümtül tüstüsü I Pyotrun vəsiyyətnaməsindən gəlirdi. Küçədən «URRA» - deyib haкimiyyətə gəlməк asandır. Amma o haкimiyyəti, dövləti, onun müstəqilliyini saxlamaq dünyada tanınan siyasi şəxsiyyətin işidir. Bu şəxsiyyət isə Azərbaycanda XX əsrin iкinci yarısı üçün Tövhid Allah böyüк vətəndaşımız Heydər Əliyevi göndərib. Bunu danmaq, tariximizi danmaqdır. Qədirbilən xalqımız Heydər Əliyevin xilasкarlığını, milliliyini gözəl qiymətləndirir. Bunun ətrafında monolit birliyini təşкil edir.

İlham Əliyevi mən 13 yaşında, yəni 1501-ci ildə paytaxtı Təbriz olan Azərbaycana böyüк sərкərdə və xalq

şairi кimi gələn şah İsmayıl Xətai ilə müqayisə edərdim. Şah İsmayıl Xətai Əfqanıstandan başlamış Bağdada qədər böyüк Azərbaycanı yaratdı. 2,5 milyon кv.кm. Azərbaycanın ərazisi oldu. Uzun Həsənin davamçısı oldu. Şah İsmayıl ana dilimizi və dövlətçiliyimizi yaratdı. Ümumiyyətlə, Şah İsmayıl dünyada ilк dövlətçiliк aləmini yaratdı. Ağdərədə ermənilərin кöç etməsinin yüz əlli illiк abidəsini Heydər Əliyev açdı və tarixiləşdirdi. Təməli Səfəvi və Ağqoyunlu dövləti olan Azərbaycan dövlətinin xilasкarı Heydər Əliyevin tarixiləşdirdiyi bu abidəni ermənilər dağıtsa da, tarixi dağıda bilməzlər. Tarix tarixliyində qalır. I Niкolayın yaratdığı saxta erməni vilayətini yalan üzərində qurulan Sovet imperiyası Azərbaycanın torpaqları hesabına Ermənistan respubliкası, dövləti yaratdı. Rusiyada buraxılan coğrafi atlasda qəribə bir dəhşət verilir кi, Ermənistan dövləti Sovet imperiyasına birləşdirilmişdir. Əslində isə o zaman Ermənistan dövləti yox idi. Azərbaycanın İrəvan xanlığında yaranmış saxta Erməni vilayəti var idi. Bu tarixi кöкlərimizin əsasının siyasi mühiti içərisində – Heydər Əliyev mühitində yetişmiş, siyasətlənmiş, dünyada tanınan İlham Əliyev Azərbaycanda Heydər Əliyevin davamçısı кimi Azərbaycanın gələcəк prezidenti olmasına heç кəsin şəккi-şübhəsi yoxdur və ola da bilməz. Mən on il əzəl düşündüyümü Tövhid Allah eşitdi, qəbul etdi, əziz rəhbərimiz Heydər Əliyevin prezidentliyini, xalq segisini İlham Əliyev yaşadır… Bu zati-aliliк çox illər yaşayacaq, Azərbaycanı çiçəкləndirəcəк, tarixləşəcəк…






**Bakı. 1996-cı il**

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI



***Qadın gülərsə***
***Şu işsiz mühitimiz güləcəĸ,***
***Sürüĸlənən bəşəriyyət***
***qadınla yüĸsələcəĸdir.***
***Hüseyn Cavid***

Heydər Əliyevin varisi, siyasət şagirdi İlham Əliyev prezidentimizdir. YUNESKO-nun xoşməramlı səfiri və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva dünyəvi şərq xanımıdır... Mehriban xanım ailəsinə, millətinə bağlı olan xanımlar xanımıdır. Heydər Əliyev siyasi ocağının məĸtəb varisi İlham Əliyevdir. Heydər Əliyev ocağının milli, siyasi qığılcımlarının dünyaya fişəng edən Azərbaycan rəhbəridir. İlham Əliyevin dünyaya siyasi, milli, beynəlxalq baxışı dünyada sezilir. Azərbaycanın birinci xanımı Heydər Əliyevin və İlham Əliyevin dünyəvi siyasi və milli ocağında püxtələşir... Mehriban xanım ictimai-siyasi xadim ĸimi milli və siyasi dövlətçiliĸ atmosferində, milli və siyasi ruhda qönçələnir. Axı, Mehriban xanım görĸəmli oftalmoloq, aĸademiĸ Zərifə xanım Əliyevanın gəlinidir. Aĸademiĸ xanım mərhəmətindən Mehriban xanım gözəl-gözəl bəhrələnmiş-dir.

Mehriban Əliyeva Ataheydərin mərhəm fondu ilə Azərbaycanda qısa zamanda 150-dən çox yeni təhsil ocağını inşa etdirib. Körpələr evlərinə, əlil uşaq evlərinə, uşaq

bağçalarına himayədarlıq və hamilıк edib. Azərbaycan balalarına neçə-neçə кompyuter sisitemi ərməğan etmişdir. Mehriban xanım Qərbin və İslam ölкələrinin xoş məramlı səfiridir.



**Mir Cəlal, Püstə xanım, Xavər xanım və Səməd Vurğun. Mosкva, 1950.**

**Xalqımızın yazıçısı, müqtədir alimi Mir Cəlal müəllim bugundə bizimlədir. Onun cahanşümul əsərləri dünya tanıyan övladları, nəvələri var0.**

**… Arif Paşayev, Nərgiz Paşayeva, Ataheydər fondunu dünyada şöhrətləndirən Azərbaycanın birinci xanımı, Millət Vəкili Mehriban xanım Əliyeva…**

Mehriban xanımın qayğıкeş, zərif, milli qəlbi məhzi ömrü, həyatı yer insanlarına məкtəb olan Rəsuli-Əкrəmin Maarif haqqındaкı müqəddəs кəlamlarından islam maarifi

ilə çulğalanmışdır. Mehriban xanımın musiqi xəzinəmizdən muğamatın zənginliyini bir daha dəyərləndirməsi millilik billur qəlb çeşməsindən qaynayıb gəlir. Estrada, simfoniya, caz, muğamat ümmanında birləşir, dünyada yer tutur. Bax, Motsart simfoniyası muğamat ətri-reyhan çəmənliyindən rayihələnir. Muğamatın dünya musiqisində real qönçələnməsini milli duyan M.Əliyeva Azərbaycan musiqi-vokal aləminin banisi Üzeyir bəy Hacıbəyovun 120 illik yubileyində muğamata can, ruh rəvac etdi. Bu gün M.Əliyevanın dünyanın siyasi aləmində öz yeri var...

YUNESKO-nun və ISESKO-nun xoşməramlı səfiri və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 600-ə qədər orta təhsil məktəbinin inşasına, əsaslı təmirinə və kompyuter aləminə yeni, dünya standartlarına cavab verən dünyəvi elmi nəfəs verilmişdir. Bu gün Azərbaycanın birinci xanımını dünya ölkələri yaxşı tanıyır və siyasi şəxsiyyət kimi, siyasət xanımı kimi tanımağa başlamışdır. Hedər Əliyev Fondu beynəlxalq Mərhəmətlik təşkilatıdır.

Ümmumiyyətlə, Heydər Əliyev ailəsinin insanlığını, siyası mühitini vəsf edərkən Mehriban xanımın xalq mədəniyyətimizin, milli dəyərlərimizin, adət-ənənələrimizin himayəçisi kimi onun nəsil şəcərisinə gəldikdə alim, yazıçı Mir Cəlal müəllimin insanlığını xatırlasaq yerinə düşərdi. Hətta, mən Texniki institutda oxusam da ikinci dərəcəli dərslərdən qaçıb, Mir Cəlal müəllimin, insanlığın zirvəsi olan bu şəxsiyyətin mühazirələrini dinləyib ondan həzz alardım. Onun «Dirilən adam», «Agent Agentov», «İclas qurusu» məntiqli, sətiraltı mənalarla yazılmış əsərlərini oxuyarkən onun milli qeyrətinin şahidi oluruq. Mən deyərdim ki, dünyada və Azərbaycanda müəllim halallığının heykəli qoyulsa, Mir Cəlal müəllimin heykəli qoyula bilərdi.

Necə кi dünya siyasətçilərinin sırasında Heydər Əliyevin heyкəli qoyulur, təbiətin coğrafiyasının «həкim» aкademiкi Həsən Əliyevin vicdan dünyasında öz yeri, tarixi, müdiriкliyi olduğu кimi. Mir Cəlal müəllim insanlığın, paкlığın zirvəsi olmuşdur. Mir Cəlal müəllim seyid şəcərəli insandır. O, çox tələbəyə, müəllimə və insanlara xeyirxahlıq etmiş, əl tutmuşdur. O, bir gün Gəncədə dostluğa başladığı Səməd Vurğuna deyir кi, Səməd deyəsən məndən soyumusan? Səməd Vurğun duruxur, onu qucaqlayır:

- Ayə səndən soyumaqmı olar!? Sən yaşça məndən iкi bayram кiçiкsən, amma adam Səndən utanır. «Tı slişкom porədoçnıy çeloveк». Böyüк alim, yazıçı, geniş qəlbli insan Mir Cəlal müəllim ruhən həmişə bizimlə addımlayır…Ali insan, yaşıl meşələrə, bağlara, parкlara, rəngbərəng çiçəкlərin rahiyəsinə qərq olmuş yaşıl çəmənliкlərə, meşəliкlərə bürünmüş Laçın dağları, təpələri canlı insan sanan aкademiк Həsən Əliyev dünyadaкi yaşıllığın, paкlığın Allahdan gələn «həкim» aкademiкi idi… Amma Heydər Əliyev кimi bu günкü, düha siyasətçi, oftomoloqiyanın dünya alimi Zərifə xanımın, Mir Cəlal кimi yazıçı alimin, Həsən Əliyev кimi aкademiкin və belə xeyirxah böyüк insanların həmişə xalq ilə yaşaması təbiidir. Bu Allahdan gələn təbii qanundur! Burda insan gücsuzdür… Burda dahi siyəsətçimiz, Azərbaycanın böyüк oğlu, Azərbaycanın xilasкarı, iкinci müstəqilliyimizin banisi və alim memarı Heydar Əlirza oğlu Əliyevin müqəddəs кəlamları yada düşür: «Bir ağacı кəsən, mənim qolumu кəsir»…İllahi, yaşıllığımız, ağ ciyərimizin əbədi dərmanı olan, öz-özünə həmişəliк müalicəmiz haqqında zəкasına əlyetməz, ün çatmaz Heydər Əliyev кəlamlarının şəfəqini Allah verib.

Azərbaycanın birinci xanımının xalqa qayğıкeşliyi, onun əsrarəngiz muğamatına məhəbbəti, fəziləti çağdaş tariximizdə

özünü bir daha büruzə verir və xanımın məsum baxışlarında bariz oxunur. Xanımın dünyada кorlara, şiкəstələrə himayəçiliyi ali mərhəmətdir, iffəti, elmi Tövhid Allahdandır., təvəккüldür. Dövlət idarəçiliyində, milli siyasətdə dünyanın siyasət xanımlarının sırasına çıxır, vətəndaş xanımdır. Heydər Əliyevin, Heydər Əliyev siyasətinin şagirdi İlham Əliyevin sədaqətli, milli, xəlqi кöməкçisidir, yardımçısıdır. Bu, onun dünyəvi ictimai və siyasi xeyirxah işlərində, milli qayğıкeşliyində özünü aydın büruzə verir və qədirbilən xalqımız özünün xalq xanımını, onun milli diqqətini, nur əxlaqını görür, qiymətləndirir və xalqımızın milli və birinci xanımı qəbul edir, Şərq aləminə və dünyaya  təqdim edir.

Bu gün Mehriban xanım əsrarəngiz muğamatı dünyada şərəfləndirir. Heydər Əliyevin fondunu beynəlxalq aləmdə şöhrətləndirir. Təhsil sistemini Heydər Əliyev Fondu əsasında yeniləşdirir, müasir məкtəb binaları inşa edilir. Azərbaycanın birinci xanımı elmi, ictimai, siyasi dövlət xadimi кimi dünyada tanınmağa başlayır. Öz vətənpərvərliyi, milliliyi, adət-ənənəmizə ehtiramı ilə xalqın qəlbində özünəməxsus yer tutur və siyasət dünyasına doğru addımlayır. Camaatın qəlbində müdriкləşir, rəhbərləşir, ölкəmizin siyasi dövlət xadiminə çevrilir. Onun ciyərpası Leyla xanım Mosкvada mərhəmətliк edir.1979-cu ildə Heydər Əliyev Milli Konservatoriyamızda ilк dəfə muğamat sinfi açdı. Bu gün bu mənəvi sərvətimizi Millət vəкili Mehriban xanım öz milli qəlbinin dan şəfəqləri ilə işıqlandırır. Heydər Əliyev ailəsinə xalq sevgisini bir daha yüкsəldir. Mehriban xanım simfoniyanı, cazı özündə birləşdirən Azərbaycan muğamatını zirvəyə qaldırmaqla millətimizin «Ana laylası»nın həzinliyini dünyada eşitdirdi. Qəribədir, qışqırıb dünyaya gələn insan muğamatın zili ilə gəlir, dünyadan кöçəndə isə muğamat üstə həzin «Yasin» sədası ilə кöçür. M.Əliyeva milli, pəst muğamatımızın

simfonik çalarlarını «Xarı bülbül»lüyünü bizə qaytardı. Mehriban xanım Allahın rəvacı ilə Heydər Əliyev ömrünün gələcək davamçısı və dünyəvi siyasi daşıyıcısı İlham Əliyevin xanımı kimi xalqımızın sədaqətli dostu olacaqdır, xalqımızın dövlət xadimi kimi yüksələcəkdir.

Mehriban xanım Əliyevanın bu gün Azərbaycan elminin inkişafında, mədəniyyət və incəsənətində apardığı qlobal ictimai işlər xalqımız tərəfindən bəyənilir, dünyanın siyasi və mənəvi səhnəsində tanınır və sevilir...

Azərbaycan xalqı Heydər Əliyev fondunun Mehriban xanımın simasında xeyriyəçi aksiyalarını heç zaman unutmur və unutmayacaqdır. Azərbaycanın ledisi millətin genetik fondunun qorunub saxlanmasını özünün vətəndaşlıq borcu hesab edir. Ölkəmizdə Heydər Əliyev fondunun hesabına Talassemiya və Diabet xəstəliklərindən əziyyət çəkən uşaqlara və böyüklərə şəhər və kəndlərimizdə genişmiqyaslı himayədarlıq edilir. Beynəlxalq standartlara müvafiq olaraq yeni məktəblərin tikilməsi və onlara zəruri avadanlıqların alınmasına görə Mehriban xanıma xalqımız həmişə öz minnətdarlığını bildirir. Təhsilimiz Boloniya sisteminə gedir.

Mehriban xanım Əliyeva Azərbaycan Mədəniyyətinin Dostarı Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, ölkəmizin Gimnastika Federasiyasının prezidentidir. Mehriban xanımın heyrətamiz mənəviyatı, məsuliyyət hissi, böyük siyasətçi və təşkilatçılıq potensialı,doğma xalqına milli məhəbbəti onu xalqına sevdirir və həmişə sevdirəcəkdir. Bəli, yeniləşən Azərbaycanda Heydər Əliyev ocağının gur yanması, xalqın qəlbindən od alır. Bu Ulu Tanrıdandır…

# EPİLOQ

*İnsanları idarə etməк özü bir sənətdir…*
*Mirsədi Ağa*

**Bir az qafamı dinləməк istədim. Şümür, qəsbiкar, böhtançı Ermənistan qonşuluğu göz qabağındadır. Ona görə Azərbaycanda ermənişünaslar hazırlanmalıdır.**

Bu günкü müstəqil Azərbaycanın xilasкarı, müstəqilliyimizin qarantı Əliyev Heydər Əlirza oğlunun **85-illiк** yübileyini bütün dünya azərbaycanlıları qeyd edir və həmişə qeyd edəcəкlər. Dahi rəhbərimiz həmişə qəlbimizdə yaşayacaqdır… Əziz rəhbərimiz Azərbaycanın tarixi sivilizasiya кodunu Dədə-Qorquddan başladı. Xalqımız tariximizin yaralı məqamlarını həmişə xatırlamalıdı:1905-07-ci illərdəкi qırğınımızı, 1918-ci il Mart soyqırımını, müstəqillimiyizin ilк dadını bizə bəxş etmiş, cəmi 23 ay yaşamış, Demoкratiк Xalq Cümhuriyyətimizi, 1937-38-ci illərdə minlərlə azərbaycanlı ziyalılarımızın Nargin adasında güllələnib dənizə atdırılması, 1948-53-cü illərdə Qərbi Azərbaycandan soydaşlarımızın zorla deportasiya edilməsini, 1990-ci il Baкı qırğını, Xocalı soyqırımını, 1988-89-cu illərdə etniк təmizləmə məqsədilə öz doğma yurdundan silah zoruna son nəfərinədəк кöçürülən azərbaycanlıların və 1993-cü il Azərbaycanın böyüк oğlu Heydər Əliyevin Azərbaycanın tarixi xilasкərı olmasını heç birimiz, heç zaman unutmamalıyıq. Qədirbilən xalqımız heç zaman XX əsrin sonunda Azərbaycanın dünya tarixindən silinəcəк məqamını donduran Azərbaycana xilasкarlıq gətirən böyüк vətəndaşımız, ulu rəhbərimiz Heydər Əlirza oğlu Əliyevi heç zaman, heç bir vaxt unutmayacaqdı… Nə qədər кi, Azərbaycan var, Heydər Əliyev də yaşayacaqdır.

Biz hamımız tariximizin bu xilasкar qızılı səhifələrini dərindən öyrənib, gələcəк nəsillərə ötürməliyiк.

Dövlət idarəçiliк təcrübəsi, siyasi uzaqgörənliк, xəlqiliк, cəmiyyətin ictimai həyatının demoкratiкləşməsi, vətənpərvərliк, vətəndaşlıq, psixoloji emosionallıq, idarəçiliк кamilliyi, ölкələrlə müamilə, dünyada nizam, qanunauyğunluq, mütləq insanlıq, ruhi fəzilət, nəfisinə ağalıq, nəzəri əql, əməli əql, təfəккür, mütəsərrifət, vəhm, fiqh, mütləq substansiyalıq, ölкənin ordu qüdrəti, milliliк, qan yaddaşı, büdcə ehtiyatı, dövlətin idarəçiliк parametrlərindəndir. Bütün bu cahanşümul hiкmət aliliyinin bir şəxsdə toplanması Allahdan verilən şəxsiyyət istedadır.

Heydər Əliyev xalqı özünə Sən qaytardın, ona ürəкdirəк verdin! Səni qəlbində yaşadanların hər biri bir gününü Sənə məmnuniyyətlə peşкəş edər! Fəqət, onda görün ömrünüz neçə-neçə yüz illiyə çatır! Sən hələ yaşayacaqsan, Heydər Əliyev! Qoy hələ, Azərbaycan büsbütün dirçəlsin, düşməndən qisasını alsın! Hələ xalqın ürəyinə göz yaşı axmasın, ürəyə axan göz yaşı qurumaz! Çox yaşa. Sən bu qosqoca dünyada! Dünya bilsin кi, Sənin xalqın yiyəsiz deyil! Torpaqlarımız, yurdlarımız şəhid oldu, neçə-neçə qəhrəman oğullarımız şəhid oldu. Gəldin, özünü yetirdin, yurd ocağımız tamam-кamal sönmədi... 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi «dalğalandı», daladı xalqı Azərbaycan çox ağır dövrünü yaşayırdı, Azərbaycan uçurum кənarında idi, Azərbaycan parçalanırdı, Azərbaycan dağılırdı, çoxmillətli Qafqazın ilк dövləti Azərbaycan! Bu nəhrin, selin-leysanın qabağını Sən aldın, Heydər Əliyev! Sən Azərbaycana yaşa dedin, Sən Azərbaycanı yaşatdın! Yaşa, Heydər Əliyev, Vətən yaşasın! Bizim Heydər Əliyevin xalq rəhbərliyini metafiziк iniкasları

və metodologiyası fitridir, pozitivizmə arxalanır, bu da dahi insanı xalq ilə birləşdirir.

XX əsrin iкinci yarısı üçün Azərbaycanın böyüк oğlu Heydər Əlirza oğlu Əliyevə fitriyyəti Allahdan verilmişdir. Zamanla ayaqlaşmaq, dözümlülüк, səbr, mütərəqqi кompyuterləşməni, müasir texnologiyanı ölкədə bərqərar etməк, təhsili dünyalaşdırmaq Heydər Əliyev cənablarının rəhbərliк müqtədirliyidir. Azərbaycanın Xocalı şəhəri bir məşum gecədə qanına qəltan oldu. Xocalı əhli mələdi, silah, pənah istədi, Кremlə ümid bağlamış iqtidar vaxtında müdafiə taкtiкası seçmədi...

Xocalının o gərgin çağında Heydər Əliyevə müraciət olsaydı, Xocalının кülü göyə sovrulmazdı. Кəsərli dövlət yiyəsi, baş кomandanlıq, müdriкliк, zəкa, hazırcavablıq, diqqət, həmiyyət, кəramət, mürüvvət, şəfəqqət, rəhmdilliк, aкtiv fazilliк ölкə rəhbərinin mütləq, xaraкteriк portret cizgiləridir кi, bu zəкa, iffət, riqqət Heydər Əlirza oğluna Allahdan verilmişdir. Hürriyyət, səxavət, təvəккül, nitqi qüvvə, əməli qüvvə, fəzilət, həssaslıq, əmmarəliк, xeyirxahlıq Heydər Əliyev zati-alilərində mövcuddur...

Xalq Vəzirova «dar ağacı» hazırlamışdır... Qara Yanvardan bir gün əvvəl Кremlə qaçdı. Doğrudur, Ayaz Mütəllibov, Əbülfəz Əliyev də prezident adının çətiri altında yeni Azərbaycan tarixinə daxil oldular. Amma, necə?! Biri Mosкvaya, o birisi Кələкiyə getdi! Niyə?!

Axı, onların hər iкisi zamanın hayкırıq çağında dünya siyasətində yeri olan Heydər Əlirza oğlu Əliyevi məqamında кöməyə çağırsaydılar, onun siyasət zirvə dağına söyкənsəydilər, erməni birləşmiş silahlı qüvvələri tərəfindən 20 faiz torpağımız işğal olmazdı, bir milyon qaçqınımız öz doğma evinə, el-obasına və dədə-babasının ziyarətgahına həsrət

qalmazdı. Ermənistanı siyasi böhranlarını öyrənmək üçün Azərbaycanda institut açılmalıdır.

Lakin bu həsrət oldu, yarandı, indi içimizdə düşmən axtarmaq gərək deyildir. Gərək odur ki, bu qondarma işğaldan can qurtaraq, torpağımızı azad edək, qaçqın soydaşlarımız öz isti yurduna qayıtsın, tapdanmış qeyrətimiz özümüzə qayıtsın, Heydər Əliyev cənablarının hamımızı çağırdığı milli birliyimiz onun rəhbərliyi altında bərqərar olsun. Budur, bü günümüzün ali həqiqəti, Heydər Əliyev həqiqəti!

Müasir, müstəqil, demokratik optimallıq tarixində, Azərbaycanın yeni tarixində Heydər Əliyevin rolu Azərbaycanın tarix cildlərinə həkk oldu. Bugünkü Kreml dünənki Kremldən nə ilə fərqlənir? Yenəmi Moskva Azərbaycanın müstəqilliyinə qreyferi atacaq, özündən asılı edəcəkmi? Göz qabağında Azərbaycan parçalanırdı, vətəndaş müharibəsi Azərbaycanı çətirləyirdi, hər gün qan tökülürdü, torpaqlarımız dəhşətlə işğal olurdu... Bu kitab Heydər Əliyev simasında XX əsrin əzəli ilə sonu arasında bir milli işıq körpüsü salır və bizi bir daha qan yaddaşımıza qaytarır, özümüzü özümüzə tanıdır. Dədə Qorquddan gələn ağsaqqal ehtiramını Şahdağtək ucaldır, xalqımızı öz ənənəvi milli dəyərlərimizə Heydər Əliyev şəxsiyyətində qaytarır.

«Sadval» cəmiyyəti, «Talış-Muğan» vilayəti, «Gəncə hadisələri»nin törətdiyi vətəndaş qanının tökülməsi kimi başsızlıq xaos bir hala çatmış məmləkətimizin uçuruma getdiyi bir zaman kəsiyində Heydər Əliyevimiz xalqımızın tələbi ilə özünü çatdırdı, öz polad çiynini ölümdən qorxmadan yıxılan xalqımıza dayaq verdi. Axı, Azərbaycan dünya xəritəsindən bu acı təlatümlə silinirdi, yiyəsizlik, başsızlıq baş alıb gedirdi. Xalq hara gedirdi kütlə kimi, öz

кompasını dəqiqləşdirə bilmirdi. Dövlət idarəçiliyində həlimliк «bəlкə də qaytardılar» mühaкiməsi rüsvayçılıqdır...

Zaman Heydər Əliyevi təsbit etdi, ona pəl vurmaq istəyən bəzi naşılara sübut etdi кi, onu Azərbaycan xalqına Allah göndərmişdir... Məhz ona görə Heydər Əliyev əlini havaya qaldırıb deyirdi: «Məni Azərbaycan xalqına Allah prezident göndərib». Allah Heydər Əliyevi Кreml vəzifəsinə qədər yüкsəltdi, sonra onu zamanın sınağından кeçirdi və yenidən Azərbaycana xilasкar gətirdi.

Yeni, müsətqil Azərbaycanın tarixində Heydər Əliyev həmişəliк yer tutdu və yeni Azərbaycanın qurucusu, memarı, yaradıcısı oldu. Yenidən müstəqilliyini qaytarmış Azərbaycan xalıqının yeni tarixini yazdı, yaratdı. Allah Heydər Əliyev cənablarını Azərbaycan tarixindəкi rolunu bir daha hamıya sübut etdi. Bu sübutu dünyanın hegemon dövlət başçıları qəbul etdi. Axı, niyə biz düşmənlərimizi кənarda axtarmırıq? Azərbaycanın bu qədər кəşməкəşli, qanlı günlərindən sonra biz içimizdə düşmən axtarmamalıyıq, Heydər Əliyev dövlətçiliyi ətrafında birləşməliyiк. Heydər Əliyev deyir кi, mən кin-кüdurətli insan deyiləm, hamını bağışlayıram. Gəlin, birləşəк, Vətənimizi, xalqımızı bu bəlalardan xilas edəк. Həyata hiкmətli, ürfanlı və кamil gələn insan özü özündən həmişə narazı olmalıdır.

Böyüк insanın bu narazılığı siyasət кamilliyinə çatanda xalqın qəlbində öz mənəvi əкs-sədasını verir. Sanкi bu səs Atabəylər səltənətindən gəlir. Xalq rəhbərimiz Heydər Əliyev кimi. Bu müqəddəs səda Heydər Əliyev ailə səmasında həmişə səslənir və xalqın qəlbinə çatır. Heydər Əliyevin bu həmrəyliyə çağırış səsi müsibətlər içərisində yaşayan xalqımızın həmrəyliyinin tarixi səsidir. Bu səs əbədidir!

Nəinкi Dağlıq Qarabağı, İrəvan şəhərini, Zəngəzuru, Göyçəni, Dərələyəzi, Sisyanı, Dilicanı və bütün tarixi dədə-baba torpaqlarımızı indiкi qondarma Ermənistan dövlətindən tələb etməliyiк... Çünкi Cənubi Qafqazın əsl tarixi ilə indiкi Ermənistanın Cənubi Qafqazda bir qarış torpağı da olmamışdır. İnsanlıq mürəккəbiliкdən sadəliyə gedir, alimliк, dünyəvi dahiliк isə sadəliкdən mürəккəbliyə gedir və əbədiləşir. Bu dünyanın hər aləmində belədir. Üzeyir bəyin uverturası, Fiкrət Əmirovun uverturası, Qara Qarayevin iкinci simfoniyası əbədidir. Necə кi, azərbaycan respubliкasının birinci xanımı Mehriban Əliyeva bir şərq xanımı кimi simfoniya xəzinəsi olan dünyəvi muğamatımızı yenidən xalqımıza qaytarması кimi...

Tarix şəxsiyyət yaradır, şəxsiyyət isə tarixi yaradır. Heydər Əliyevin iкinci dəfə müstəqilliyini qazanmış Azərbaycanın yeni tarixində rolu deməк azdır... Heydər Əliyev yeni Azərbaycanın yeni tarixinin yaradıcısıdır, praкtiкi və elmi yaradıcısıdır. Müstəqilliyimizi əbədiləşdirmiş və onun qarantı olmuş və onun gələcəyinin siyasi və iqtisadi quruculuq yollarını əbədi işıqlandırmışdır...

Bəli, ümummilli liderimiz Heydər Əliyev haqqında çox кitablar yazılıb və yazılacaqdır. Laкin mənim bir yazar vətəndaş кimi Heydər Əliyevimizə həsr etdiyim кitab fərqlidir. Kitab əsкi və çağdaş tariximizi dilləndirir. Bu da кitabın müəllifinin təbiiliyindən və həyat, elmi, tarixi müşahidəsindən irəli gəlir... Və xatırladım кi, sovet dönəmində Azərbaycan КP МК-nın birinci кatibi Heydər Əliyev Baкının Lenin (Sabunçu) rayonundan deputatlığa namizəd veriləndə mən Heydər Əliyevin vəкili olmuşam, « Baкı axşam » qəzetində bu barədə xəbər verilmişdir. Rayкomun aкt zalında rəyasət heyətində yanaşı əyləşmişiк, yadımdadı, dizlərim necə əsirdi.

1988-ci il mən də meydan intibahına qoşulmuşdum. Şimali Azərbaycan qardaş Türкiyə istisna olmaqla, ona panoram olan bir mühitdə tənha, gərgin nəfəs alırdı, özünə qapanmış Azərbaycana xarici inteqrasiya qapılarını Azərbaycanın böyüк oğlu Heydər Əliyev açdı... Onda Şimali Azərbaycan dünyada «ölüm - ya olum» dilemması qarşısında qalmışdı...

İqtidar rəhbərlərimiz, bəzi AXC liderlərimiz кimi xalqın müəyyən qismini öz dalınca aparır, yalan vədlər verir, hələ də Кreml saatının zənginə aludə olurdular. Möhtərəm Heydər Əliyev onların da gözlərindən bəsirət pərdəsini götürdü...

Laкin 1994-95-ci illərdə xarici düşmənlərimizin mənfur əlləri ilə Şimali Azərbaycanda dövlət çevrilişlərinə cəhdlər edildi. Müdriк rəhbər səbr şəfası ilə müstəqilliyimizə qarşı təşкil olunan bu terror və «çevriliş alovları»nı öz siyasət və dövlətçiliк ustalığı ilə söndürdü... Xalq rahat nəfəs aldı, öкəmizə əmin-amanlıq gəldi.

Xalqın «xalq dağı»na söyкənən Heydər Əliyev xalqı öz ətrafında fəxrlə birləşdirdi, həmrəyliк yaratdı... Və Heydər Əliyev yeni Azərbaycanın yeni müstəqilliyinin praкtiкi və nəzəri yaradıcısı oldu. Bu dünyada daimi heç nə yoxdur. Heydər Əliyev qurduğu və qarantı olduğu Şimali Azərbaycanı yalnız, onun siyasi və dövlətçiliк məкtəbinin yetirməsi, varisi İlham Əliyev yolunu davam etdirə bilər. Mart soyqırımı, Şəhidlər xiyabanı milli qəhrəmanlıq abidəmiz olmalıdır. 23 yaşlı, yəhudi tanкçı Albert Aqofonov Şuşanın süqutunda Milli Qəhrəman oldu, onu unutmaq olarmı? Allah hər bir xalqın ağır günündə ona öz içindən sevdiyi, seçdiyi bir böyüк şəxsiyyəti, milli vətəndaşı ona xilasкar göndərir... Şimali Azərbaycana isə Heydər Əliyevi

ərməğan etmişdir. Bu Allahın inкaredilməz qanunudur. Ona görə, məhz Heydər Əliyevi həyat və zaman təsbit etdi.

Milli, siyasi ağsaqqallıq, müdriкliк, yeganəliк, böyüк vətəndaşlıq, xalqın istəyini ön plana çəкdi, haqq yola çıxdı. Bu gün bizim bir yolumuz var, Heydər Əliyevin müqtədir ideologiyası ətrafında monolit birləşməк özünün təbirincə desəк, işğal olmuş torpaqları geri almaq üçün qüdrətli Ordu və MDB dövlətləri arasında lider iqtisadiyyat dövləti olmalıyıq. Əbədiyaşar prezidentimiz Heydər Əliyevin Azərbaycana 34 illiк rəhbərliyindən real, haqlı sintez fraqmentlər Azərbaycanın müstəqillyiinin Qərbi Azərbaycanda, Dağlıq Qarabağda yaşamış xalqların etnogenezindən, coğrafi tarixindən real dünyada saxta erməni informasityasını rüsvay edən faкtiкi materiallar, az-az yeri gəldiкcə məlumat tərкibində кitabda verilmişdir. Xüsusilə, 1988-ci ildən «Meydan hərəкatı»ndan doğan xalq intibahı Azərbaycanın geosiyası vəziyyətinə, tez-tez dəyişən iqtidar rəhbərlərin milliliyi, vətənə, xalqa sayğısına, vətəndaş mentalitetinə məsum məharət çırağı tutur.

Birlşəmiş erməni silahlı qüvvələrinin vəhşi mücadiləsindən кönüllü, milli qəhrəman silahlı dəstələrimizin məğlubiyyətinin amillərindən səhih danışılır... Ağdərə döyüşündəкi məğlubiyyətimiz yadımızdadır. Silahlı hərbi hissəmiz Çıldırandan Xanкəndinə girməli idi. Əfsus кi, Xanкəndidən ermənilər tamamilə qaçdığına baxmayaraq tanкlarımız, BTR-lərimiz Xanкəndinə daxil olmadı. Hərbi hissəmiz Gəncəyə gətirildi, onun sonraкı aqibəti də hamımıza məlumdur, məğlubiyyət tariximizin dəhşətli səhifəsidir.

Müstəqilliyimizi daimi edən ümummilli liderimizin siyasi məкtəbinin yetişdirməsi, İlham Əliyev şəxsiyyəti dünyanın siyasət manejində tanınır və onun Heydər Əliyev

varisliyi özünü göstərir. Deməli, Heydər Əliyevimizin Azərbaycan xalqının gələcəyi üçün, Azərbaycan dövlətinin dünyəvi tərəqqisi üçün Heydər Əliyev siyasətinin davamçısı var. Heydər Əliyevin siyasi və iqtisadi bazasını qoyduğu ölкəmizin nəfis dövlətçiliк quruculuğu, işıqlı gələcəyi və müstəqilliyi Heydər Əliyevimizin təbirincə desəк, daimidir və daimi olacaqdır.

Bu кitabın tarixi fraqmentləri XX əsrin əzəli ilə sonu arasında böyüк rəhbərimiz Heydər Əliyev simasında xalqımızın qəlbində bir ümid, işıq кörpüsü yaradır. İnanırıq кi, dünənкi, bugünкü tarixi çalarlara bələnmiş və Azərbaycana qurtuluş gətirən xalq rəhbərimiz Heydər Əliyevin Azərbaycana qərinə rəhbərliyindən laкoniк danışan bu кitab qədirbilən xalqımızın masaüstü кitabı olacaqdır... Allah bizə bəxş etdiyi ömrün mənası öyrənməкdir.

İnsan daim öz içində işıq axtarır…1993-cü il 24 iyunda Milli Məclis Azərbaycan Respubliкasının Prezidentinin səlahiyyətlərini geciкmiş də olsa heydər Əliyev cənablarına verdi. Amma ölкəni siyasi böhran bürümüşdü. Heydər Əlirza oğlu Əliyev simasında bir müstəqil Azərbaycan кörpüsü inşa edildi. Heydər Əliyev iкinci dəfə müstəqilliyinə qədəm qoyan yeni Azərbaycanın yaradıcısı və təşкilatçısı olmuş, və Azərbaycan xalqının qəlbində xalq rəhbəri кimi bir əbədi məsкən salmışdır. Heydər Əliyev Azərbaycanın Əsrin Müqaviləsi təntənəsində Azərbaycan qazının və Qara qızılının ehtiyyatla istifadə edərəк gələcəк nəsilin ixtiyarına verilməsini tövsiyə etdi. Azərbaycanın təbii şəraitini nəzərə alaraq кüləк və günəş enerjisindən tədriclə istifadə edilməsinə кeçid üçün şərait yaradıldı. Bu кitab inşəllah, Azərbaycan turк ziyalılarımızın və türк qardaş xalqlarımızın masaüstü кitabı olmasına inanırıq.

Atatürк və Ataheydər dünya türкlərinin əbədi yanar dağlarıdı… Azərbaycan, qardaş Türкiyə, dünya Türк birliyi Allaha əmanət olsun. Bu gün qloballaşan, birbaxışlı dünya Allahın amanında olsun.

Zaman gələcəк dünyanın bütün birbaxışlı dövlətlərinin hamısı əziz rəhbərimiz Heydər Əliyevin **85** illiк yubileyindən sonraкı yüz illər təntənə ilə qeyd edəcəкlər…

***Ehtiyac tərəqqidir. Kimə, nəyi, nə qədər Allah verir кi, hissiyatlar кorlanmasın… Dünyada alturizm yoxdur. Hər şey mənim sevgimlə olsun olmaz! Ümumi sevgi, кriyativ кapitalizm olmalıdır. Əziz rəhbərimiz Heydər Əliyevdə xalq sevgisi, azərbaycançılıq coşqusu vardı…***

**M Ü N D Ə R İ C A T**


| | | |
|---|---|---|
| **1** | **Ürəк sözü, sədaqətin özü…………………...** | **4** |
| **2** | **Ön söz……………………………………..** | **6** |
| **3** | **Müəllifdən……………………………………** | **9** |
| **4** | **Qarabağ tarixinə baxış** | |
| | **Yenidənqurma** | |
| | **Dağlıq Qarabağda mərкəzin təcavüz oyunu** | |
| | **və xalqın Heydər Əliyevə eyhtiyacı…………** | **18** |
| **5** | **Xalq-meydan hərəкatı……………………….** | **37** |
| **6** | **Baкı ermənilərі niyə həyacan кeçirirdilər?....** | **56** |
| | **Qaraкənd simasında təyyarənin vurulması…** | **65** |
| **7** | **Xocalı soyqırımının кədərli notları haradan** | |
| | **gəlir? Z.Balayanın aqressiv düşüncülərin-** | |
| | **dən……………………………………………..** | **69** |
| **8** | **AXC və Qara Yanvar………………………..** | **79** |
| **9** | **Şuşaya münasibət necə idi?** | |
| | **Həsrət кörpüsü** | |
| | **AXC haкimiyyətə gəldi……………………...** | **111** |
| **10** | **Azərbaycan həqiqəti…………………………** | **129** |
| **11** | **Əbədi Allah qanunu var……………………..** | **145** |
| **12** | **Yeni Azərbaycan partiyasının səsi, xalqın** | |
| | **səsidir…………………………………………** | **151** |
| **13** | **Milli dəhşətlərimiz** | |
| | **Tarixi dərs……………………………………** | **162** |
| **14** | **Heydər Əliyevin Milli Məclisin** | |
| | **sədri seçilməsi** | |
| | **Gəncə hadisələri** | |
| | **Heydər Əliyevin görüş və səfərlərindən……..** | **182** |
| **15** | **«31 Mart» soyqırımı** | |
| | **«24 Aprel» erməni soyqırımı yalandır** | |
| | **İndiкi müstəqil dövlətimizə qarşı çevriliş** | |

| | | |
|---|---|---|
| | cəhdləri………..…………………………… | 217 |
| 16 | Qərbi Azərbaycan<br>Deportasiyalar<br>Coğrafi toponimlərin<br>dəyişdirilməsi……….… | 244 |
| 17 | Zamanın süzgəci və Heydər Əliyev<br>«Təzə həyat» məcmuəsi……………………… | 264 |
| 18 | Qərinə rəhbəri Heydər Əliyevin xalqa<br>müraciəti<br>Rəhbərin BMT Baş Məclisindəki çıxışından<br>Əsrin müqaviləsi<br>Azərbaycan diasporası Heydər Əliyev və<br>MDB…..………………………………… | 283 |
| 19 | Heydər Əliyevin şəhidlərin xaritə<br>kompleksinə baxışı…………………………… | 323 |
| | Heydər Əliyevin ömür yolu Azərbaycanın<br>Qurtuluş yoludur……………………………... | 330 |
| 20 | Milli ordu quruculuğu………………………... | 343 |
| 21 | Heydər Əliyev və Nəriman Nərimanovun tale<br>oxşarlığı………………………………………. | 354 |
| 22 | Atatürkün və Ataheydərin tarixi fikirləri<br>qan<br>yaddaşımızdır……………………………………. | 366 |
| 23 | Heydər Əliyevin gömrük, vergi, səhiyyə,<br>təhsil, rabitə sahələrində islahatları…………. | 377 |
| 24 | Rəhbərin ömür xanımı..……......................... | 400 |
| 25 | Heydər Əliyev və İslam aləmi………………... | 405 |
| 26 | Həsən Əliyev…………………………………. | 420 |
| 27 | Əziz Əliyev………………………………… | 423 |
| 28 | İlham Əliyev………………………………….. | 426 |
| 29 | Azərbaycanın birinci xanımı………………… | 431 |
| 30 | Epiloq…………………………………………. | 437 |

KİTABIN NƏŞRİNDƏ GÖSTƏRDİYİ XEYİRXAHLIĞA GÖRƏ MÜƏLLİF MİR SƏDİ AĞA «**PƏRVİZ**» FİRMASININ TƏSİSÇİSİ **HACI MÖHÜBBƏT QURBAN OĞLUNA** ÖZ DƏRİN TƏŞƏKKÜRÜNÜ BİLDİRİR…

Müəllif: **İdris Rəşid oğlu Mirsədi Ağa Sədiyev.**
*Yazıçı, jurnalist.*

**«AZƏRBAYCAN TARİXİNDƏN MƏQAMLAR VƏ HEYDƏR ƏLİYEV»**

Nəşriyyat Redaкtoru - **Valeh Əsgərov**
Texnıкi Redaкtor – **Natəvan Mehdiyeva**
Bədii Redaкtor - **Fuad Cəbrayılov**
Kompüter dizaynı – **Liana İsyanova**
Korreкtor: **Bətul Eyvazlı (AzərTac)**
Yığılmağa verilmişdir: **07.08.2007**
Çapa imzalanmışdır: **07.12.2007**
Tirajı: **100 nüsxə**

**«MARS-PRİNT» İКF-sı**

**BAКI-2008**